


# HEYDƏR ƏLİYEV

## MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

**KİTAB
ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN
ANADAN OLMASININ
92-ci İLDÖNÜMÜNƏ
HƏSR OLUNUR.**

BAKI – 2015



*Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı yüksəkliklərə qaldıracaqdır.*

HEYDƏR ƏLİYEV

Ar 2015/471

# HEYDƏR ƏLİYEV

## MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

IX KİTAB

101804

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

ARXİV

104005

«TƏHSİL»
BAKI–2015

Ч421.43(2А)+Ч3(2А)7-8+Ф3(2А)8

Tərtibçilər: **Faiq Şahbazlı**
**Aydın Əhmədov**
**Əsgər Quliyev**
**Şahbaz Balakişiyev**

**H39 Heydər Əliyev məktəblilərin gözü ilə.** Bakı, «Təhsil», 2015, 304 səh.

Kitaba ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş inşa müsabiqəsində yer tutmuş 92 yazı daxil edilmişdir.

**H $\frac{4702060201}{053}$ 2015**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2015**
**© «Təhsil», 2015**

## HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL QURUCULUĞU SİYASƏTİ UĞURLA DAVAM EDİR

*«Azərbaycanda bütün işlərin təməlində Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, öz milli liderimizin vəsiyyətinə sadiqik...»*

**İLHAM ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

Müstəqil Azərbaycan dövləti və qədirbilən xalqımız mühüm tarixi hadisə – müasir dövlətçiliyimizin böyük qurucusu, Vətənə və millətə təmənnasız və sədaqətlə xidmətin parlaq örnəyi, ölkəmizin gələcəyi olan uşaq və gənclərin sevimlisi, milli təhsil quruculuğu strategiyasının ideya müəllifi Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ərəfəsindədir.

Ulu öndər Heydər Əliyevin milli təhsilin inkişafı sahəsində misilsiz xidmətləri nəzərə alınaraq ölkənin təhsil müəssisələrində bu tarixi ildönümü yüksək səviyyədə qeyd etmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20 yanvar 2015-ci il tarixli 203 nömrəli əmri ilə Fəaliyyət Planı təsdiq olunmuş, onun icrasına başlanılmışdır.

Təhsil Nazirliyi tərəfindən bu istiqamətdə həyata keçirilən kompleks tədbirlərdən biri də ölkənin ümumtəhsil məktəblərinin VIII–XI sinif, eləcə də ilk-peşə və orta ixtisas təhsili müəssisələri şagird və tələbələri arasında Ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolu və zəngin dövlətçilik fəaliyyətinə həsr olunmuş ənənəvi inşa müsabiqəsinin keçirilməsidir. Üç mərhələdə (məktəb, rayon (şəhər), respublika) təşkil olunmuş bu möhtəşəm bilik yarışının ikinci mərhələsində iştirak etmiş 15 min nəfər şagird və tələbə içərisindən sonuncu mərhələyə vəsiqə almış 103 məktəblinin «Ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolu Azərbaycan gəncləri üçün parlaq həyat nümunəsidir» nominasiyası üzrə yekun müsabiqəsi bu il aprelin 11-də Bakıda akademik Zərifə Əliyeva adına liseyin binasında keçirilmişdir. İnşa yazıları qiymətləndirilmiş, müsabiqənin ruhuna uyğun olaraq, 92 qalib elan edilmiş, onlardan 16 nəfəri I, 19 nəfəri II, 22 nəfəri III, 35-i isə həvəsləndirici yerə layiq görülmüşdür. Müsabiqənin yekun mərhələsində müxtəlif yerlərə layiq görülən və mükafatlandırılan şagird və tələbələrin inşa yazılarının artıq ənənəyə çevrilmiş **«Heydər Əliyev məktəblilərin gözü ilə»** (9-cu kitab) adı altında ayrıca kitab şəklində çap etdirilib qaliblərə və oxuduqları təhsil müəssisələrinə hədiyyə edilməsi qərara alınmışdır.

Bu gün müstəqil Azərbaycanın təhsil ictimaiyyətinə təqdim olunan nəfis dizayn və yüksək poliqrafik keyfiyyətdə çap olunmuş bu dəyərli kitabda toplanan materiallarla ilkin tanışlıq göstərir ki, məktəbli gənclərimiz öz yazılarında bütün nəsillərə örnək olan böyük tarixi şəxsiyyət, müasir milli dövlətçilik tarixinin zəfər salnaməsini yaratmış Ulu öndər Heydər Əliyev haqqında fikir və düşüncələrini həm yeniyetmə təbiətinə uyğun çılğın və səmimi hislərlə, həm də bu dahi İNSANA dərin hörmət və sonsuz ehtiram duyğuları ilə ifadə etmişlər. Kitabda toplanan inşa yazılarının hamısında Heydər Əliyev fenomeninə və uca şəxsiyyətinə sonsuz sevgi və sayqı qəlbimi fərəh və iftixar hisləri ilə doldurdu...

Bu mənada kitabda toplanan yazılardan aldığım xoş təəssürat altında mən də əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən milli təhsil quruculuğu sahəsində qazanılan uğurlar, mövcud problemlər və onların gələcək həlli yolları barədə öz fikir və düşüncələrimi təhsil ictimaiyyəti ilə bölüşmək, XXI əsr Azərbaycan təhsilinin yol xəritəsi hesab edilən təhsil sahəsində Dövlət Strategiyasının gerçəkləşdirilməsi sahəsində qarşıda duran vəzifələrə diqqəti yönəltmək istərdim.

Bu bir həqiqətdir ki, müstəqil Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsil sferasında da ölkədə aparılan davamlı inkişaf strategiyasına uyğun olaraq, islahatlar prosesi dönməz xarakter almış, böyük Öndərin müəyyənləşdirdiyi və hazırki dövlət başçısının uğurla gerçəkləşdirdiyi strateji yolla təhsil sisteminin infrastrukturu və idarə olunması, təhsil müəssisələrinin informasiyalaşdırılması, təhsilin məzmunca yeniləşdirilməsi, bütövlükdə Azərbaycan təhsilinin dünya təhsil məkanına inteqrasiyası istiqamətində müəyyən addımlar atılmışdır. Azərbaycan təhsilində son illərdə əldə olunan uğurlar dövlət başçısı, cənab İlham Əliyev tərəfindən ölkəmizin müasirləşdirilməsinə yönəlmiş sosial-iqtisadi və mədəni siyasətlə bağlı olmuşdur. Təhsil sisteminə ayrılan büdcə vəsaitlərinin ümumi həcminin ilbəil əhəmiyyətli dərəcədə artması nəticəsində son on bir ildə ölkənin təhsil infrastrukturunun modernləşdirilməsi istiqamətində önəmli işlər görülmüş, 1 milyondan artıq şagirdin təlim şəraitinin yaxşılaşdırılmasına imkan verən 3000-ə yaxın yeni məktəb binası tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir. Şagird kompüter nisbəti (1:18) və təhsil müəssisələrinin internet bağlantısı üzrə göstəricilər xeyli yüksəlmişdir.

Müstəqil Azərbaycanın insan kapitalının inkişafı üçün müstəsna əhəmiyyəti olan «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsilinə dair Dövlət Proqramı» çərçivəsində indiyədək 3184 nəfər azərbaycanlı gənc xaricdə təhsil almaq üçün dünyanın aparıcı ali təhsil müəssisələrinə göndərilmişdir. Nəzərə alınmalıdır ki, dövlət vəsaiti hesabına xaricdə təhsil məsələsi dünyanın, hətta ən zəngin dövlətləri üçün nadir hadisə sayılır. Ötən il oktyabr ayının 29-da Bakıda keçirilən gənclər siyasəti üzrə I Qlobal Forumda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclərimizin xaricdə təhsilinə dövlətimizin böyük önəm verdiyini xüsusi vurğulayaraq demişdir: «... uzun illər ərzində hökumətimiz gənc nəsillərimiz üçün dünyanın aparıcı universitetlərində təhsil proqramlarını maliyyələşdirir. Bu il təqribən 40 milyon avroya yaxın vəsait gənclərimizin xaricdə təhsili üçün sərf edilib...»



Yeri gəlmişkən, deməliyəm ki, Təhsil Nazirliyi tərəfindən bu il başa çatan həmin Proqram üzrə 2015/16-cı tədris ilinə tələbələrin prioritet ixtisaslar üzrə seçiminə dair müsabiqə elan edilmiş, sənədlərin qəbuluna başlanılmışdır.

Hesab edirəm ki, Azərbaycan gəncliyi üçün təkcə bu faktın özü əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamı kimi Prezident İlham Əliyevin ölkəmizin gələcəyinə yönələn tarixi addımı kimi yüksək dəyərləndirilməlidir. Hazırda Təhsil Nazirliyində xaricdə təhsil üzrə yeni Dövlət Proqramı hazırlanmaqdadır ki, növbəti beşillik dövrü əhatə edəcək həmin proqramda üstünlüyün ali təhsilin bakalavriatdan sonrakı səviyyələrinə verilməsi nəzərdə tutulur. Böyük minnətdarlıqla onu da deməliyəm ki, ötən dövrdə ölkəmizdə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Fondun maliyyə dəstəyi ilə gerçəkləşdirilən «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində 2005-ci ildən indiyədək 400-dən artıq məktəb binası inşa olunmuş, «Uşaq evləri və internat məktəblərinin inkişafı» layihəsi üzrə isə 30-dan artıq uşaq müəssisəsi əsaslı şəkildə yenidən qurulmuş, həmin təhsil müəssisələri ən müasir avadanlıqlarla təchiz edilmiş, maddi texniki bazası möhkəmləndirilmişdir. Sevindirici haldır ki, ötən ilin fevralında Heydər Əliyev Fondu tərəfindən yeni təhsil layihəsinin – «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı Proqramı»nın icrasına start verilmişdir. Proqram ölkəmizin bütün bölgələrində uşaq bağçalarının genişmiqyaslı tikintisi, yenidənqurulması və əsaslı təmirinin dəstəklənməsini nəzərdə tutur. İnanıram ki, Fond digər təhsil layihələrində olduğu kimi, bu layihənin köməyi ilə Dövlət Strategiyasında məktəbəqədər təhsil üzrə nəzərdə tutulan hədəflərə çatmağa yardımçı olacaq, məktəbəqədər təhsil infrastrukturunun müasirləşdirilməsinə və məktəbəqədər yaşlı uşaqların bu təhsil müəssisələrinə cəlb olunma səviyyəsinin yüksəlməsinə öz böyük töhfələrini verəcəkdir.

Düşünürəm ki, aparılan məqsədyönlü islahatlar ölkəmizi müasir inkişaf səviyyəsinə çatdırmaqla yanaşı, həm də gələcək inkişaf üçün etibarlı zəmin yaratmışdır.

Azərbaycan artıq yeni dövrə – modernləşmə, müasirləşmə dövrünə qədəm qoymuşdur. Bu dövrün hədəfləri sosial-iqtisadi və mədəni həyatın qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılmasından, bu yolla davamlı inkişafın təmin olunmasından ibarətdir.

Azərbaycanın qarşıdakı illərdə sosial-iqtisadi və mədəni inkişaf yollarını müəyyənləşdirən «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasında ənənəvi iqtisadiyyatdan «bilik iqtisadiyyatı»na keçidin əsasının qoyulması, bunun üçün həlledici amil olan insan kapitalının adekvat inkişafının ön plana çəkilməsi nəzərdə tutulmuşdur. Bu, təhsil sisteminin də kökündən dəyişdirilməsini, əlavə təhsil, ömürboyu təhsil kimi komponentlərin önəminin artırılmasını həyati zərurətə çevirmişdir. Başlıca strateji məqsədi davamlı iqtisadi artım və sosial rifah olan Konsepsiyada təhsilin keyfiyyətinin yüksəldilməsi və müasir təhsil sisteminin qurulması da əsas strateji istiqamətlərdən biri kimi ön plana çəkilmişdir. Çünki bu gün təhsil fenomeni dünyanın yeni inkişaf trendlərini müəyyən edir.

Təhsil sistemi müstəqil Azərbaycanın milli-mənəvi dəyərlərini mənimsəmiş vətəndaş formalaşdırmalı, qloballaşan müasir dünyada rəqabətədavamlı, peşəkar kompetensiyalara və biliklərə malik insan yetişdirməlidir.

Bu baxımdan, «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın əsas missiyası da ölkəmizin müasirləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirməkdən və rəqabət qabiliyyətinin yüksəldilməsinə nail olmaqdan ibarətdir. Strategiya təhsil sahəsində qarşıdakı illərdə aparılacaq islahatların əsas strateji istiqamətlərini və hədəflərini müəyyənləşdirir, Azərbaycan təhsilinin XXI əsrin çağırışlarına uyğun olaraq inkişaf yollarını göstərir. Bu sənəd cəmiyyətin bütün spektrini və fəaliyyət sahəsini – təhsilverəndən təhsilalanadək, valideyndən təhsili idarəedənədək, infrastrukturdan maliyyə mexanizminədək aspektləri əhatə edir və genişmiqyaslı islahatların gerçəkləşdirilməsini nəzərdə tutur.

Düşünürəm ki, strategiyada əks olunan 5 istiqamətin: səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, səriştəli və nüfuzlu təhsilverənlərin formalaşdırılması, təhsildə yeni idarəetmə sisteminin qurulması, müasir tələblərə cavab verən və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun formalaşdırılması, nəhayət, təhsildə yeni maliyyələşmə mexanizminin təsis edilməsi – müstəqil Azərbaycanda təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına, İnkişaf Konsepsiyasında müəyyən edilən hədəflərə çatdırılmasına imkan verəcəkdir. Azərbaycanın təhsil sahəsində strateji platforması sayılan Dövlət Strategiyasının əsas məqsədi ölkəmizdə səriştəli



təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyə görə dünya ölkələri arasında qabaqcıl mövqe tutan müasir təhsil sistemini yaratmaqdan ibarətdir...

Onu da deməliyəm ki, «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planına uyğun olaraq, Strategiyada nəzərdə tutulan strateji istiqamət və hədəflərin sistemli və ardıcıl surətdə icrasına start verilmiş, bir sıra uğurlu addımlar atılmışdır.

Burada inşa müsabiqəsində iştirak edən şagird və tələbələrin təmsil olunduqları ümumi təhsil, ilk-peşə və orta ixtisas təhsil pillələrində aparılan islahatlarla bağlı bəzi məqamlara toxunmaq istərdim.

Dövlət Strategiyasında ümumi təhsilin məzmunu sahəsində islahatların aparılması, mövcud kurikulumların 12 illik ümumi təhsil modelinə uyğun yeniləşdirilməsi, təhsilin məzmununda tərbiyə məsələlərinə – milli-mənəvi və bəşəri dəyərlərə üstünlük verilməsi nəzərdə tutulur. Çünki təhsilşünasların yekdil fikrinə görə, təhsilin məzmununu düzgün müəyyənləşdirmədən təhsildə uğurlu nəticədən, keyfiyyətdən, eləcə də təhsilalanların layiqli vətəndaş kimi yetişdirilməsindən söhbət gedə bilməz. Bu baxımdan ümumi təhsilin məzmununun müəyyənləşdirilməsində Ümummilli lider Heydər Əliyevin belə bir konseptual fikri əsas tutulmalıdır ki, «Cəmiyyətin gələcək tərəqqisi indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır...»

Təhsilin məzmununda tərbiyə məsələlərinə, milli-mənəvi dəyərlərə, Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə böyük önəm verməsi də Strategiyanın əsas hədəflərindən biridir. Strategiyada deyildiyi kimi, təhsil prosesində qazanılan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir...

Düşünürəm ki, Təhsil Nazirliyinin təşəbbüsü ilə 2013/14-cü tədris ilindən ümumtəhsil məktəblərində ilk dərs saatının vətənpərvərlik mövzusuna həsr olunması, VIII siniflərdə «Qarabağın tarixi» fakültativ kursunun tədrisinə başlanılması, Təhsil Nazirliyi və Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin birgə layihəsi olan «Təhsil müəssisələrində uşaq və gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında 2015-ci il üçün Fəaliyyət Planı»nın həyata keçirilməsi, «Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı Fəaliyyət Planı»nın gerçəkləşdirilməsi və digər tədbirlər məhz məktəbli uşaq və gənclərin milli-mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə olunması kimi ali məqsədə xidmət edir.

Ulu öndər Heydər Əliyev öyrədirdi ki, gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Onlar tariximizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc Azərbaycanın gələcəyini təmin etmək üçün Vətənimizi, milli ənənələrimizi sevməlidir...

Ümummilli liderin uşaq və gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlərə sədaqət ruhunda tərbiyə olunmasına dair əbədiyaşar ideyaları bundan sonra da təhsilin məzmununda aparıcı komponent, prioritet istiqamət olacaqdır.

Düşünürəm ki, dövlət başçısının tapşırığı əsasında ölkənin ümumtəhsil müəssisələri arasında həyata keçirilən və bölgələr üzrə məktəblilərin qarşılıqlı ekskursiyalarının keçirilməsini nəzərdə tutan «Vətənimizi tanıyaq» layihəsi də birbaşa şagirdlərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi kimi müqəddəs amala xidmət edir.

Ümumi təhsilin məzmununun yeniləşdirilməsindən danışarkən dərsliklərdən söz açmamaq mümkün deyil. Təhsil sistemi üçün strateji amil olan dərslik siyasəti sahəsində son iki ildə müəyyən irəliləyişə nail olunmuşdur. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində dərslik yazan müəlliflərin və tenderə təqdim olunan əlyazmaların sayı xeyli artmışdır.

Hazırda dərslik hazırlığı sahəsində beynəlxalq təcrübə əsasında yeni mexanizmlərin işlənilməsi istiqamətində işlər görülür. Hesab edirəm ki, Dövlət Strategiyasında nəzərdə tutulan müxtəlif stimullaşdırıcı tədbirlər ölkənin elmi-pedaqoji kadr potensialının ümumtəhsil məktəbləri üçün dərslik yaradıcılığına aktiv cəlb olunmasına, müsabiqə zamanı yarana biləcək fors-major vəziyyətini qabaqlamaq üçün sifarişlə «ehtiyat dərslik»lərin hazırlanmasına kömək edəcək, nəticədə dərsliklərin keyfiyyətinin yüksəldilməsi təmin olunacaqdır. Bu prosesə ali məktəblərin aparıcı kafedralarının fəal şəkildə qoşulması üçün hazırda müvafiq işlər aparılır.

Ötən tədris ilindən yeni kurikulum əsasında hər il iki sinfin dərsliyinin hazırlanmasına başlanılmışdır. 2015/16-cı tədris ilindən tətbiq ediləcək VIII sinif dərslikləri artıq çapa hazırlanmaqdadır. Həmin dərsliklər dərs ilinin başlanmasına 2 ay qalmış məktəblərə çatdırılacaqdır. Bu, müəllimlərə yeni dərsliklərlə vaxtında tanış olmaq imkanı verəcəkdir. 2016/17-ci tədris ili üçün IX sinif dərslikləri üzrə tender elan edilmiş, həmin dərsliklərin hazırlanmasına başlanılmışdır.

Ötən tədris ilində Azərbaycanda maksimum adda və sayda – 271 adda 7,8 milyon nüsxə dərslik və müəllim üçün metodik vəsait çap edilmiş və vaxtında təhsil müəssisələrinə çatdırılmışdır. Təhsil Nazirliyi tərəfindən təhsilalanları təhsil prosesində fəallaşdırmaq, onların İKT-dən səmərəli istifadə etməsinə, dərslikləri elektron formatda oxumasına imkan yaratmaq məqsədilə elektron dərslik portalı (www.e-derslik.edu.az) istifadəyə verilmişdir. Artıq II (7 adda), III (6 adda), VI (11 adda) və VII (12 adda) sinif dərslikləri həmin portalda yerləşdirilmişdir.



İnanıram ki, bu sistem şagirdlərin dərsliklərdən istifadəsində mobilliyi artıracaq, məktəblilərə istənilən vaxt və məkanda dərsliklərə müraciət etməyə imkan yaradacaqdır. İstifadəçilər onlayn formatda və ya planşetlərə yükləməklə dərslikləri elektron versiyada oxumaq, istənilən səhifədə müvafiq qeydlər aparmaq imkanı qazanacaqlar. Elektron dərsliklər əyani vəsaitlərin – qrafika, animasiya, interaktiv fəaliyyət və multimedia xüsusiyyətlərindən rahat istifadə, axtarış sisteminin mövcudluğu və digər üstünlüklər ilə ənənəvi dərsliklərdən fərqlənir.

Ümumi təhsilin inkişafına yardım edəcək əsas hədəflərdən biri ölkəmizdə məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən yaradıcılıq qabiliyyətini üzə çıxaran, onlarda həyati bilik və bacarıqları, davranış qaydalarını, ünsiyyət mədəniyyətini aşılayan müasir təhsil standartlarının və yeni kurikulumların hazırlanmasıdır. Strategiyada məktəbəqədər təhsillə əhatə dairəsinin inkişaf etmiş ölkələrdəki səviyyəyə (90%) yüksəldilməsi, məktəbəqədər təhsil şəbəkəsinin genişləndirilməsi, onun əhalinin bütün təbəqələri üçün əlçatan olması, məktəbə hazırlıq təhsilinin (1 il) icbariliyinin təmin edilməsi ilə bağlı hədəflər təhsilin bu pilləsinin aydın sabahından və nəticə etibarı ilə ümumi təhsilin uğurlu gələcəyindən xəbər verir. Aydındır ki, ibtidai təhsildə keyfiyyət, ilk növbədə, məktəbəqədər təhsilin normal təşkilindən, bu pillədə məzmunun düzgün müəyyənləşdirilməsindən asılıdır.

Düşünürəm ki, 1 illik məktəbə hazırlığın icbariliyinin təmin olunması və ümumi orta təhsil səviyyəsinin bir il artırılması ümumi təhsildə «məzmun ağırlığı» sindromunun aradan qaldırılmasına yardım edəcək, icbari ümumi orta təhsildə məzmunun təhsilalanlar tərəfindən mükəmməl şəkildə mənimsənilməsinə imkan verəcəkdir.

İstedadlı gənclərin müəllim peşəsinə yönləndirilməsi məqsədilə keçən il Təhsil Nazirliyi tərəfindən «Gələcəyin müəllimi təqaüdü» layihəsinə start verilmişdir. Bu təqaüd pedaqoji kadr hazırlığı aparılan ali təhsil müəssisələrinə qəbul imtahanlarında 500 və daha yüksək bal toplayan, ixtisas seçimində birinci və ikinci yerdə müəllimlik ixtisasını qeyd edən 300 tələbəyə şamil edilib. Təqaüdün təsis edilməsi peşəkar bilik və kompetensiyalara malik pedaqoji kadrların hazırlanmasına, müəllim peşəsinin nüfuzunun yüksəldilməsinə xidmət edir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə keçiri-

lən birgə layihə kimi Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunan bu bilik yarışının qaliblərinin inşa yazıları toplanan «Heydər Əliyev məktəblilərin gözü ilə» kitabının uşaq və gənclərimizin dövlətçilik və Vətənə sədaqət ruhunda tərbiyə olunmasında önəmli rol oynayacağına qəlbən inanıram.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, «Heydər Əliyevin qoyub getdiyi siyasət yaşayır. Heydər Əliyev bizim ürəyimizdə, qəlbimizdə, işlərimizdə yaşayır. Onun başladığı və bizim tərəfimizdən davam etdirilən işlərdə, layihələrdə yaşayır...»

Azərbaycan məktəblilərinin yaradıcılıq məhsulu olan bu dəyərli kitabı Ümummilli liderin əziz xatirəsinə və müqəddəs ruhuna ithaf edirik!!!

**MİKAYIL CABBAROV,**
**Azərbaycan Respublikasının**
**Təhsil naziri**

**Bakı şəhəri, 25 aprel 2015-ci il**





## *Abazərli Aysun Nihal qızı*

***Naxçıvan şəhəri, Heydər Əliyev adına tam orta məktəbin VIII sinif şagirdi***

Məktəbimizdə diqqəti cəlb edən bir guşənin önündəyəm. Bu elə bir guşədir ki, hər bir şagirdin həyat dərsi ola bilər. Mən də hərdən ümummilli lider, ulu öndər, el atası Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən bu guşədən öyrənir və düşünürəm: «Tarix həyatı örnək olan, səcdəgaha, qibləgaha çevrilən, xalqını arxasınca aparan öndəri bir də yetirəcəkmi?»

Doğma vətənini, elini, obasını qəlbən sevən, cəmiyyəti öz zəka nuru ilə işıqlandıran əbədigünəş Heydər Əlirza oğlu Əliyev kimi lider tarixə çox nadir hallarda bəxş olunur.

Ömrünü şam kimi millətinin yolunda əridib damla-damla yanaraq şöləsi ilə xalqın qaranlıq yollarını işıqlandıran şəxsiyyətin adı qızıl hərflərlə tarixin daş səhifəsinə yazılır.

Heydər Əliyev Azərbaycanı ümidli sabahlara apardı. Günəş şəfəqlərini aləmə necə saçırsa, Heydər Əliyev də günəştək öz ağlını, öz zəkasını, bütün güc və bacarığını Azərbaycan xalqından və Azərbaycan dövlətindən əsirgəməmişdir.

Rus imperiyasının tərkibində olduğumuz o çətin, məşəqqətli illərdə Heydər Əliyev Azərbaycanı sovet respublikaları içərisində ən qabaqcıl respublikaya çevirdi. Siyasəti isə dünyanın zirvəsini fəth etdi. Azərbaycan bayrağını özü ilə bu zirvəyə qaldırdı. Heydər Əliyev xalqımızı azadlığa çıxartdı və bu azadlığın təminatçısı oldu.

Xalqı üçün yaşayan elini qəflət yuxusundan oyadan Heydər Əliyev danışıqlar apardı, bütün dünyaya səs saldı.

Ümummilli liderin hakimiyyətdə olduğu dövr də Azərbaycanda elm, mədəniyyət, təhsil və səhiyyə sahələrində böyük nailiyyətlər qazanıldı. Ulu öndərimiz Azərbaycanın – doğma diyarımızın hər bir guşəsində yeni məktəblər və ali təhsil ocaqlarının tikilməsinə nail olmuşdur.

Həyatı hamımız üçün örnək olan ulu öndər çıxışlarında dönə-dönə qeyd etmişdir ki, «Məktəbdə təhsil alan hər bir şagird və gənc öz xalqının və millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək bilsin. Əgər bunu bilməsə, o, vətənpərvər ola bilməz».

Mən də çalışıram ki, öz xalqımın tarixini, dilini dərindən öyrənim.

Ziyasından milyonlar bəhrələnən dahi öndərimizin adı dünya siyasəti tarixinə hələ sağlığında ikən qızıl hərflərlə yazılmışdır. Cəmiyyətimizin dahisindən bizə zəngin bir irs qalmışdır. Bunun üçün də el atasının tarixdə əsl qiymətini gələcək nəsillər daha yaxşı dərk edəcəkdir.

Heydər Əliyevdə heç kəsdə olmayan ilahi, fitri istedad var idi. O elə bir şəxsiyyət idi ki, rəssamla rəssam, memarla memar kimi, alimlə alim kimi danışırdı. Torpağını sevən, xalqının yolunda şam kimi yanan Heydər Əliyev deyirdi: «Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm».

*Böyük müqavilələr imzaladı,*
*Neft stategiyası da yaratdı.*
*Amalı firəvan Azərbaycandı,*
*Başladı vətənin dirçəliş yolu,*
*Heydərin inamlı yüksəliş yolu!*

Milli ordu qurdu, xalqını sevindirdi. Atəşkəsə nail oldu, hər yerdə qayda-qanun yaratdı. Bir milyon qaçqının dərdini çəkdi və dünyanın diqqətini qaçqınlarımızın necə didərgin düşmələrinə yönəltdi.

Bu gün Azərbaycanımızın hər bir bölgəsində ulu öndərimizin izi vardır. Özünün deyil, izinin qalması üçün çalışmaq Heydər Əliyev dühasının böyüklüyü, gözəlliyi, saflığıdır. Bu nadir dühanı bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar.

Bu gün Azərbaycanın müstəqil bir dövlət kimi inkişafı, dünya birliyində öz mövqeyini qoruyub saxlaya bilməsi Heydər Əliyev siyasətinin uğuru kimi səciyyələndirilir.

Heydər Əliyevi düşünərkən dahi, öndər, əvəzolunmaz tarixi şəxsiyyət gəlir gözlərimin önünə. Bu xalqa, vətənə sonsuz xidməti olan, əməyi, işiylə canlı tarix yaradn bir rəhbər gəlir gözlərim önünə.



Dahi rəhbərin xatirəsi hər bir azərbaycanlı kimi mənim də xatirimdə əbədi yaşayacaqdır. Mən də yoluma işıq saçan bu ömürdən ibrət dərsi alaraq onun kimi yaşamağa, onun kimi işləməyə, onun kimi öyrənməyə və öyrətməyə çalışacağam.

Heydər baba xalqım üçün vüqarlı dağ, səfa bəxş edən bulaq, xilaskar idi. Onun adı xalqım var olduqca yaşayacaqdır. Axı ulu öndər qəlbimizin əbədi sakinidir.

*Gördüyü işlər necə sığdı zamana?!*
*Belə nadir istedad gəlməyibdir zamana.*
*Ürəyinin arzusu qurmaq, tikmək, yaratmaq,*
*Doğma Azərbaycanı yüksəklərə ucaltmaq.*

Azərbaycanın qurucusu və memarı, ulu öndərimiz Heydər Əliyev haqqında cild-cild kitablar yazılsa da, şeirlər qoşulsa da yenə də azdır.



## *Allahyarlı Xanım Yaqub qızı*

*5 nömrəli Bakı Peşə*
*Liseyinin II kurs şagirdi*

*«Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır».*

**Heydər Əliyev**

Böyük demokrat – yazıçı Cəlil Məmmədquluzadə özünün dahi sələfi, Şərqin təkrarolunmaz dramaturqu və filosofu Mirzə Fətəli Axundov barədə yazdığı esseni belə başlayırdı: «Mirzə Fətəli Axundov haqqında ya gərək çox yazasan, ya da heç yazmayasan. Mirzə Fətəli Axundov haqqında ya gərək yaxşı yazasan, ya da heç yazmayasan». Bu sözləri xal-qımızın dahi ictimai və siyasi dövlət xadimi Heydər Əliyev haqqında da demək olar. Böyük azərbaycanlı Heydər Əliyev haqqında bu ana kimi çox deyilib, çox yazılıb, bundan sonra da yazılacaq. Heydər Əliyev şəxsiyyəti haqqında daha yaxşı, daha dəyərli deyiləcək sözlər, söylənəcək fikirlər hələ qabaqdadır. Ona görə ki, zamanın təkəri bizdən uzaqlaşdıqca Heydər Əliyev ucalığı, Heydər Əliyev böyüklüyü bizə daha aydın görünəcəkdir. Belə insanlar üçün xalq şairi Səməd Vurğun yaxşı demişdir:

*Böyük təbiətlər yaranır az-az,*
*Hər yerdə, hər zaman inci tapılmaz.*

Vətənimiz, xalqımız, millətimiz üçün Heydər Əliyev, sözün həqiqi mənasında, böyük təbiət, qiymətli inci idi... Öz zamanında belə ad-san qazanmaq hər kəsə nəsib olmur. Həyatını xalq, Vətən yolunda son damlasınadək şam kimi əridənlər heç vaxt unudulmur, xatirələrdən silinmir, həmişəyaşar olurlar.



Tariximizə bir nəzər yetirək. Azərbaycan xalqı, Azərbaycan torpağı bəşəriyyətə çox dahilər, elm, poeziya, sənət korifeyləri bəxş etmişdir. Bu torpaq həm də yenilməz, istedadlı, şücaətli sərkərdələr, dövlət xadimləri də yetirmişdir. Fəxrlə deyə bilərik ki, bizim dövlətçilik tariximizin dörd min ildən artıq yaşı vardır. Bu dövrdə minlərlə xanlar, şahlar,padşahlar, xaqan və sultanlar... kimlər, kimlər, dövlət başçıları gəlib-gediblər. Minlərlə gəlib-gedən bu hökmdarlardan tarix yalnız barmaqla sayıla bilən insanları qoruyub saxlamış, nəsildən-nəslə, əsrdən-əsrə keçirmiş, onlara əbədi heykəl ucaltmışdır. Onlardan bəzilərini xatırlayaq. Albaniya hökmdarı Cavanşir, Azərbaycan Atabəylər dövlətini yaratmış Şəmsəddin Eldəgiz, ilk milli Azərbaycan Səfəvilər dövlətinin banisi I Şah İsmayıl Xətai, Azərbaycan milli məfkurəsinin banisi, Şərqdə ilk demokratiya dövləti qurmuş Məhəmməd Əmin Rəsulzadə, dövlətçilik tariximizə parlaq səhifələr yazmışlar. Bu şəxslər xalqımız, Vətənimiz üçün elə nəhəng, elə müqəddəs işlər görmüşlər ki, bu işləri, bu əməlləri unutmaq mümkün deyildir.

10/1804

Mübaliğəsiz deyə bilərik ki, vətənimizin bu ulu, dahi övladları içərisində öz möhtəşəmliyi ilə daha ucada duran dövlət, siyasət və parlaq zəka nəhəngləri içərisində daha nəhəng sayılan Heydər Əliyevdir.

Heydər Əliyev 35 il Azərbaycan dövlətinin sükanı arxasında dayanaraq Azərbaycan dövləti adlı gəmini çox təlatümlərdən, şahə qalxan dalğalardan məharətlə keçirmiş və gələcəyə apara bilmişdir. 35 il bir məmləkətə rəhbərlik etmək hər siyasi xadimin işi deyildir.

Ötən əsrin 70–80-ci illərində Azərbaycan Respublikası inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinə çevrildi.

Mədəniyyət, elm, incəsənət və idman sahəsində böyük nailiyyətlər qazanıldı. Hələ o dövrdə xalq anlamışdı ki, Azərbaycan və azərbaycanlıları tanımaq üçün Heydər Əliyevi tanımaq bəs edərdi. Ona görə ki, Heydər Əliyev bütün çalarları ilə böyük Azərbaycan idi. Özü də bunu həmişə deyərdi:

– «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi gündən o, Azərbaycan mədəniyyətində də xeyli işlər gördü. Nəriman Nərimanova, Hüseyn Cavidə, Şah İsmayıl Xətaiyə, Cəfər Cabbarlıya, İmadəddin Nəsimiyə və başqalarına ucaldılmış möhtəşəm heykəl və abidələr Heydər Əliyev yadigarlarıdır.

O dövrdə yaşayan insanlar bilirlər ki, 70–80-ci illərdə Azərbaycanda nə qədər şair və yazıçılarımızın yubileyləri keçirilmişdir. Heydər Əliyevin

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

keçirdiyi hər bir yubiley əsl mədəniyyət hadisəsinə çevrilirdi. Belə mərasimlər xalqı sadəcə tanıtmır, həm də ucaldır.

Heydər Əliyevin böyük vətənpərvər, xalqsevər olduğu hələ ötən əsrin 90-cı illərində özünü daha bariz şəkildə göstərdi.

Məkrli, naqis ermənilərin Vətənimzə təcavüzü zamanı Moskvanın dəstəyinə ilk kəskin etiraz səsini ucaldan da, on illərlə xidmət etdiyi komminist partiyasının biletini tullayan da, sovet hakimiyyətinə qarşı kəskin tənqidlərlə çıxış edən də Heydər Əliyev idi.

1993-cü ildə Heydər Əliyev Azərbaycan xalqının tələbi ilə yenidən hakimiyyətə gətirildi. Keçən on il müddətində Heydər Əliyev Vətənimiz, xalqımız üçün çox işlər gördü. Azərbaycanda sabitlik yarandı, demokratiya yolu əsas yolumuz oldu. Azərbaycançılıq ideologiyası Heydər Əliyevin ən böyük əsəridir desək, heç də yanılmarıq. Həmin bu dövrlərdə Heydər Əliyev dövlətçilik siyasətində tarixi işlər gördü. Onun bir ömürdə görə biləcəklərini qeyrisi görə bilməz.

Böyük rəhbər bu illər ərzində ana dili məsələsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin bütün dövrlərdə yeritdiyi dil siyasəti bir məqsədə xidmət etmişdir: ana dilini inkişaf etdirmək, onun dövlət statusunu reallaşdırmaq, dövlət dilləri içərisində nüfuzunu artırmaq.

Heydər Əliyev Azərbaycan dilinin yalnız ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada ictimai mövqeyi, yalnız bir xalqın milli sərvəti olduğunu təbliğ etməyə çalışmışdır.

Heydər Əliyev Azərbaycan üçün edə biləcəklərini artıqlaması ilə etmişdi. İndi biz onun ölməz ruhu qarşısında borcumuzu yerinə yetirməliyik. Bundan sonra Heydər Əliyevin müqəddəs ruhu qarşısında bizim ən böyük borcumuz onun ideyalarını, amallarını yaşatmaq və onun canından çox sevdiyi Azərbaycanın xoşbəxt gələcəyi üçün çalışmaqdır.

Yolumuz Heydər Əliyev yoludur. Bu yolda dildə, fikirdə, işdə birlik şüarımız yeganə şüarımız olaraq qalacaq. Heydər Əliyev bizim and yerimizdir və and yerimiz olaraq qalacaqdır.

Bu gün Heydər Əliyevin heykəli Azərbaycan xalqının qəlbindədir. İnanıram ki, bir gün o heykəl gözəl Qarabağın mərkəzi Şuşada, əsir Güneyin mərkəzi Təbrizdə ucalacaq.

O heykəl bir mayak kimi yolumuza işıq saçıb bizi qələbədən-qələbəyə aparır.






## *Cəbrayılova Leyla Eynulla qızı*

***Kürdəmir şəhəri, T.İsmayılov adına***
***1 nömrəli tam orta məktəbin***
***XI sinif şagirdi***


Yer üzünün əşrəfi insan üçün bundan daha dəyərli bir ifadə düşünə bilmirəm. Bizi var edən, bəzən sonsuz ümmanlara aparan, bəzən isə bir heçmiş kimi məhv edən əməllərimiz, gördüyümüz işlərdir. Elə insanlar olur ki, onların əməlləri dünya durduqca, əsrlər bir-birini əvəz etdikcə yaşayır. Məni düşündürən bir sualı sizinlə bölüşmək istərdim. Tarix dahi insanların varlığınımı əbədiləşdirir, yoxsa onların əməllərinimi? Bunu öyrənmək üçün bir dahinin həyat və fəaliyyətinə nəzər salmaqdan daha yaxşı bir mənbə ola bilməz. Mən o dahinin varlığından danışmaq istəyirəm ki, onun fəaliyyəti, əqli və dühası özündən sonrakı nəsillərin gələcəyinə çıraq olmuş, qeyri-mümkün məfhumunu cılızlaşdırmış, əbədilik zirvəsinə ucalmışdır. Bu dahini tanımaq istəyirsinizsə, Azərbaycanın yaxın keçmişi ilə uzaq keçmişi arasındakı fərqə nəzər yetirin. Azərbaycan adlı ölkənin düşünən beyni, döyünən ürəyi, əbədi lider Heydər Əliyevin fəaliyyətinə baxın. Onu tanıyana qədər möcüzələrin yalnız nağıllarda olduğunu düşünərdim. Lakin Heydər Əliyevin həyata keçirdiyi möcüzələrin şahidi olduqca, insan əqlinin, qabiliyyətinin möhtəşəmliyini gördükcə bu fikridən daşındım. Doğrudur, dünyada silinməz izlər qoymuş çox insanlar olmuşdur. Yaşadığı dövrün çox-çox önündə gedən dahilər – Aristotel, Sokrat, Otto Bismark, Nizami Gəncəvi, Məhəmməd Füzuli bəşəri ideyalar yaratmış, dahilik zirvəsinə ucalmışlar. Necə də xoşbəxt və bəxtəvər bir xalqdır Azərbaycan xalqı!.. Dahilik zirvəsinin fatehləri arasında əzəmətli Azərbaycan oğullarını görmək məni hədsiz dərəcədə sevindirir.

XX əsrdə Azərbaycan məmləkəti şanlı tarixinin, milli varlığının qoruyucusu olan bir qəhrəmanı yaratdı. Elə bir qəhrəman düşünün ki, çöhrəsindəki nuru bir millətin varlığını qorumaq, xoşbəxtliyini təmin etmək

uğrunda mübarizədə heç vaxt itirməmiş, əksinə xalqın mənafeyini öz mənafeyinə çevirmişdir. Elə bir memar düşünün ki, şah əsəri Azərbaycan məmləkəti olmuşdur. Bu, əsl qəhrəman işidir. Qəhrəmanların keçdiyi həyat yolu adi insanların yoluna bənzəmir. Qəhrəmanlar yaşamaq üçün yaratmır, yaratmaq üçün yaşayırlar. Qəhrəman Heydər babamız bugünkü Müstəqil Azərbaycan Respublikasının yaradıcısıdır. Onun fəaliyyəti, yorulmaq bilmədən bu xalqın, bu dövlətin naminə çalışması Azərbaycanı xilas etdi. Hər qəhrəman kimi Heydər Əliyev də çətinliklərlə üzləşmişdir. 1969-cu ildə birinci dəfə hakimiyyətə gəldikdə onun üçün bir missiya var idi: Azərbaycanı yenidən dirçəltmək...

Dilə gətirmək belə bu dərəcədə çətinkən, o bu missiyanı həyata keçirməyi bacardı. 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəldikdə ölkədə get-gedə tüğyan edən xaosun qarşısını almalı olduğunu çox yaxşı başa düşürdü. Əvvəlcə, Azərbaycan xalqını məhv olmaq fikrindən uzaqlaşdırdı. Onlara məskəni əbədiyyət olan ümid verdi. Xalqın ona olan inamını, məhəbbətini ona qarşı çıxan qüvvələrə qarşı qalxan etdi. Azərbaycan xalqı müdrik, əyilməz bir xalqdır. Bunu xalqımıza xatırladan da Heydər Əliyev oldu. Azadlığın, müstəqilliyin çox uzaqlarda və əlçatmaz olduğuna inanan xalqımız Heydər babamızın səyi nəticəsində bu ideyaların uzaq olmadığını anladı. Bizim üçün utanc mənbəyi olan vətəndaş qırğınına son qoymaqla xalqı bir ideya ətrafında birləşdirdi. Xalqımızda milli şüur, mübarizə əzmi yenidən dirçəldi. Azərbaycan xalqının mayasında Koroğlu mərdliyinin olduğunu bilən Liderimiz xalqa arxalanaraq, şanlı tariximizi yenidən yazmağa başladı. Azərbaycan torpağı zaman-zaman Babək, Koroğlu kimi mərd oğullar yetirmişdir. Bununla bərabər, «Keçəl Həmzə»lər də az olmamışdır. Heydər Əliyevin şərəfli amalına mane olmağa çalışan xainlər, «sapı özümüzdən olan balta»lar da kifayət qədər olmuşdur. Lakin o separatçılar bilməmişlər ki, dayağı xalq olanın kürəyi yerə dəyməz!

*Qorquda bənzətdi «Dədə» – deyənlər,*
*Kimi «ata», – dedi, kimi «ər», – dedi.*
*Ata-bala kimi qucaqlaşdılar,*
*Heydər «Xalq!» – deyəndə,*
*Xalq «Heydər!» – dedi.*

Xalqımızın inamını, sevgisini qazanmaqla, əslində müstəqilliyimizi, qazanmağın təməlini qoydu. Xarici aləmdə ölkəmizin varlığını tanıdan Liderimiz möhtəşəm bir siyasətçi olduğunu bir daha sübut etdi. Dünyanın



15 ölkəsinin 33 şirkəti ilə 21 neft sazişi imzalanmaqla, dövlətimizin iqtisadi və siyasi özüllərini möhkəmləndirirdi. Qara qızılımız neftin səmərəsini almaq üçün daha qabaqcıl səy göstərdi və 1994-cü il 20 sentyabrda «Əsrin müqaviləsi»ni imzaladı. Get-gedə ölkəmizin başının üstündə dolanan qara buludlar dağılmağa başlamış, günəş sanki Heydər Əliyevin simasında vətənimizə doğmuşdu.

Ah, Heydər babam! Siz necə də kamil şəxsiyyət idiniz!.. Varlığınız gülən üzlərimizin sevinci, azad, firavan ölkəmizin gələcəyi oldu. Heydər Əliyev dühası açarı qeyb olmuş xəzinədir... Bu xəzinədən bəhrələnmək istəyənlər, 70 illik bir ömrün möhtəşəmliyini anlamaq istəyənlər bu xəzinənin təməlində dayanan ən böyük qüvvəni, sevgini anlamalıdırlar. Heydər Əliyev baba-nənələrimiz üçün qardaş, ata-analarımız üçün ata, biz gənclər üçün baba olmağı bacardısa, bunun ardında qüvvətli bir varlıq – sevgi dayanır. O əzəmətli fatehin qəlbində daşıdığı sevgisi o qədər güclü idi ki, qarşısına çıxan bütün maneələri dəf etməyi bacardı. Millətini sevən oğul dövlətini də sevir. Qüdrətli ailə başçısı olan şəxs Heydər Əliyev kimi qüdrətli bir dövlət başçısı olur.

Dahi öndərimiz Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun əbədiyyət taxtında əyləşib memarı olduğu azad, boyunəyməz Azərbaycan torpağına, xoşbəxtliyini öz xoşbəxtliyi qədər arzuladığı Azərbaycan gəncliyinə tamaşa etdiyindən əminəm.

*Vətənçün yaşayan, vətənçün ölən,*
*Səmimi bir insan nə bəxtiyardır.*

Ümummilli Liderimizin əmanət qoyduğu bu əyilməz Azərbaycan torpağını bu gün layiqincə mühafizə edən bir liderimiz, cənab Prezidentimiz İlham Əliyev var. Gözünüz arxada qalmasın, Heydər babam! Cənab Prezidentimiz İlham Əliyev Sizin əmanətinizə layiqincə sahib çıxır, atdığı hər addımda sizdən aldığı, sevgini, tərbiyəni, zəkanı göstərməkdən heç vaxt çəkinmir. Əminəm ki, ömür vəfa etsə idi, əzəli Azərbaycan torpaqları sizin səyiniz nəticəsində yenə bizim olacaqdı. Lakin buna heç də təəssüflənmirik. Çünki Ali baş komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə əzəli Azərbaycan torpağının düşmən tapdağından xilas olacağı günlər çox yaxındır. Tanrım, bu şərəfli torpağı, xalqımızı və onun ləyaqətli liderini qoru!



## *Əhmədova Aişə Məmmədalı qızı*

***Zərdab rayonu, Şıxbağı kənd tam orta məktəbinin X sinif şagirdi***

Odlar yurdu Azərbaycanımın dövlətçilik ənənələri eramızdan əvvələ gedib çıxır. Bu torpağın başını hər dəfə qara buludlar aldıqda neçə-neçə igidlər, sərkərdələr meydana çıxıb Azərbaycan səmasında günəşi işıqlandırıblar. Cavanşiri, Babəki, Eldənizi, Uzun Həsəni, Şah İsmayılı var bu Vətənin. Onlar səmamızda günəşin üstünü örtmüş qara buludları məhv ediblər.

Müasir Azərbaycanın qurucusu, yaradıcısı, banisi isə Heydər Əliyevdir. Heydər Əliyev özü bir günəşdir. Elə bir günəşdir ki, həm öz fəaliyyəti dövründə, həm də dünyasını dəyişdikdən sonra qoyub getdiyi irslə Azərbaycanı işıqlandırır, Respublikamızın gələcəkdə gedəcəyi bütün yolları nurlandıracaqdır da. Çünki Azərbaycan Respublikası o dahi Liderin irsini davam etdirir, yolunu gedir.

1923-cü il may ayının 10-da Əliyevlər ailəsində bir oğlan dünyaya göz açdı. Naxçıvanda yaşayan bu adi fəhlə ailəsi, ailənin başçısı Əlirza kişi hələ bilmirdi ki, adını Heydər qoyduqları bu uşaq vaxt gələcək Heydər adlı günəş olub bütün Azərbaycana nur yayacaq.

Hələ məktəb vaxtlarında öz zəkası, iti ağlı, fərqli düşüncə və ideyaları, güclü məntiqi və xüsusi istedadı ilə məktəb yoldaşlarından fərqlənən Heydər müəllimlərinin diqqətini cəlb edir.

Gənc yaşlarında xalqın problemləri ilə yaxından maraqlanan, insanların dərdinə şərik olan Heydər Əliyev yaxşı görürdü ki, SSRİ Azərbaycanın sərvətlərini talasa da, ölkəmizin inkişafı üçün heç nə etmir. SSRİ rəhbərliyinin vəzifələri isə ya ermənipərəst ruslar, ya da onların əli ilə irəli çəkilmiş erməni daşnakları tərəfindən tutulub. Lakin belə bir çətin şəraitdə öz biliyi, istedadı və bacarığı sayəsində 1969-cu ilin 14 iyulunda Azərbaycan SSR



Kommunist Partiyasının katibi vəzifəsinə təyin olunur və bununla da illərdir çapıb talanan, digər ölkələrdən geridə qalan Azərbaycanın böyük və sürətli inkişaf dövrü və işıqlı günləri başlanır. Heydər Əliyev Azərbaycan üçün əlindən gələni edir. Yeni fabrik və zavodlar tikdirir, məktəblər, mədəniyyət evləri, kitabxanalar açdırır. Bakı metropoliteninin stansiyalarını 5-dən 19-a çatdırır. Azərbaycanlı şagirdləri təhsillərini davam etdirmək üçün SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərir. Su elektrik stansiyaları tikdirir, elektrik xətlərinin uzunluğunu artırır. Şollar kəmərinin Bakının su tələbatını təmin etmədiyini görən dahi Lider Kürdən Bakıya su kəməri çəkdirir. Həm Bakı və Sumqayıtda, həm Naxçıvanda, həm də digər bölgələrdə orta ixtisas və ali təhsil məktəbləri açdırır. Yevlaxdan Ağdama dəmiryolu çəkdirir, habelə digər bölgələrin Bakı ilə əlaqəsini təmin etmək üçün lazımi tədbirlər görür. 1983-cü ilin dekabrında Heydər Əliyev yeni vəzifəyə təyin olunur və Moskvaya gedir. Ancaq 14 il ərzində Heydər ƏliyevAzərbaycan üçün saysız-hesabsız işlər görür. Ölkəni inkişaf etdirir, əhalinin rifah halını yaxşılaşdırır. Lakin SSRİ rəhbərliyi Heydər Əliyevin bacarığından, biliyindən, istedadından istifadə etmək niyyətində idi. Buna görə də Heydər Əliyev Moskvaya çağırılır. Ancaq o yenə də Vətəninin düşünür, qəlbi Azərbaycanla döyünür. 14 ildir sürətli ikişaf yolu keçən Azərbaycanda bu sürətin tempi aşağı düşür. Heydər Əliyevin Azərbaycan rəhbərliyindən uzaqlaşdığını görən ermənilər ərazi iddialarına başlamaq qərarına gəldilər. Heydər Əliyevin Azərbaycanda olmaması ermənilər üçün çox səmərəli vaxt oldu. Əvvəlcə, Ermənistan SSR-də yaşayan azərbaycanlılar sıxışdırılır, qovulur. Daha sonra isə Dağlıq Qarabağ Muxtar Respublikasına olan əsassız ərazi iddiaları başlanır. Heydər Əliyevin güclü siyasət, diplomatiya qabiliyyətini, ağlını, güclü yaddaşını, möhkəm iradəsini, iti məntiqini görən Qorboçov dərk edir ki, Heydər Əliyev nəinki SSRİ-də, hətta bütün dünyada ona böyük rəqibdir. Onun inkişafını görən Qorbaçov Heydər Əliyevi iftira və yalanlarla Moskvadan uzaqlaşdırır.

Heydər Əliyev əvvəl Azərbaycana gəlir. Sonra Naxçıvana üz tutur. Azərbaycanın qara günləri isə qabaqdadır...

... 1990-cı ilin yanvarı... 19-dan 20-nə keçən gecə. O dəhşətli anlar. Rəhbər sandıqlarımız əzrayıl olub üstümüzə qan tökməyə gəlirlər. Uşaq, qadın, qoca demədən 100-dən artıq azərbaycanlını qırdı «Qızıl ordumuz». Bir nəfər də Azərbaycan rəhbərliyindən ayağa qalxmadı. Amma cəsarət nümunəsi olan o igid insan rəşadət və dəyanət göstərərək Moskvada açıq danışdı. Bu işi, bu qırğını, bu amansız cinayəti törədənlərin ədalət məhkəməsinə çəkilməli olduğunu söylədi. O vaxt bunu Heydər Əliyevdən

başqa heç kim etmədi. Edə bilməzdilər də! Çünki onlara Heydər Əliyevdən fərqli olaraq vəzifə vacib idi.

Bu hadisələrdən sonra Heydər Əliyev yenidən Naxçıvana gəlir. Azərbaycan isə viran qalırdı. Kəndlərimiz, şəhərlərimiz xəritədən silinir, torpaqlar ermənilərin əlinə keçir, Azərbaycan isə bölünürdü. Azərbaycanın başında duran bacarıqsızlar isə rüşvət, vəzifə davası edirdilər.

Xalq ayağa qalxdı, gözlərini açdı və bu ölkənin başında durmağa kimin layiq olduğunu gördü. Xalq liderini səslədi. Azərbaycanın 70-dən artıq ziyalısı «Səs» qəzetində Heydər Əliyevə rəsmi çağırış etdi. O Düha xalqın çağırışını cavabsız qoymadı, milləti yalnız buraxmadı. Bakıya gəldi və Azərbaycanın işıqlı günləri başladı.

Hakimiyyət başına gələr-gəlməz Heydər Əliyev Azərbaycan-Ermənistan müharibəsində atəşkəs razılığı əldə etdi. Bu, Azərbaycanın siyasi həyatında vacib hadisə idi. 1994-cü ilin sentyabrında Heydər Əliyev dünyanın böyük şirkətləri ilə «Əsrin müqaviləsi»ni imzaladı. Bu, Azərbaycan Respublikasının iqtisadiyyatı üçün atılmış uğurlu, vacib addım idi. Bu gün o müqavilənin sayəsində Azərbaycan iqtisadiyyatı inkişaf edir. Heydər Əliyev maliyyə, siyasi tənəzzül edən bir dövlətin intibahının təməlini qoydu. Belə bir çətin dönəmdə yeni yaranmış dövlətin dünyanın aparıcı, güclü dövlətlərinin böyük şirkətləri ilə razılığa gəlməsi müşkül məsələ idi. Lakin Heydər Əliyevin diplomatik qabiliyyəti bu məsələyə həll tapdı.

Müstəqil Azərbaycan Respublikasının hüquqi konstitusiyasının referendumunu 1995-ci ildə Heydər Əliyev keçirdi. Dövlət rəmzləri müəyyənləşdi və suveren Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi oldu.

Heydər Əliyev bu Vətən yolunda canını qoydu. Prezident seçildikdən sonra andiçmə mərasimində Heydər Əliyev dedi: «Bu gün müstəqil Azərbaycan Respublikasının torpaqları işğal altındadır. Biz bu torpaqları qaytarmalıyıq. Yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız öz dədə-baba torpaqlarına geri qayıtmalıdırlar. Mən əlimdən gələni edəcəm!»

Bəli, O, sözünün üstündə durdu Əlindən gələni etdi. Azərbaycan BMT, ATƏT və digər böyük təşkilatlara üzv oldu. Bu təşkilatlar və onlara daxil olan dövlətlər Azərbaycanın ərazi bütövlüyünü tanıdı və Azərbaycan – Ermənistan münaqişəsində Azərbaycana hüquqi dəstək verdilər. Bütün bunlar Heydər Əliyev diplomatiyasının bəhrəsidir.

Bu gün Heydər Əliyev Azərbaycan ərazisində ayrıca bir zaman qurşağıdır. Azərbaycan və Heydər Əliyev sinonim, vahid məfhum kimi qəbul edilir.



*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən*
*Ayrılarmı könül candan?*
*Azərbaycan! Azərbaycan!*

Bu şeiri söyləyəndə Heydər Əliyev vətəninə sevgisindən irəli gələrək göz yaşlarını saxlaya bilməmişdir. İnsan bu qədərmi vətənə məhəbbət bəsləyər, bu qədərmi xalqını, millətini, torpağını sevər? Bu, dahilikdir! Bu əbədiyaşarlıqdır! Bu, uca zirvədir!

Heydər Əliyevdən sonra Respublikanın başına keçməyə layiq bir nəfər var idi. Xalq onu seçdi: İlham Heydər oğlu Əliyev.

İlham Əliyev prezident olduqda bəyan etdi: «Biz Heydər Əliyev yolunu gedəcəyik, bu irsi davam etdirəcəyik».

Bu,haqlı fikirlər idi. Azərbaycanın işıqlı gələcəyi bu yolda idi. Möhtərəm Prezidentimiz öz siyasi, iqtisadi, diplomatik bacarıqlarını atasından almışdı: «Ot kökü üstə bitər!»

Bu gün də, Əliyevlər ailəsi Heydər Əliyev irsini davam etdirir. Azərbaycan Heydər Əliyev yolu ilə getdikcə işıqlı günlərə çıxır,inkişaf edir, tanınır. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun Prezidenti olaraq xeyriyyə tədbirləri həyata keçirir, məktəblər açır. Leyla Əliyeva Xocalı faciəsinin dünyaya çatdırılmasında önəmli işlər görür. Bu, Heydər Əliyev yoludur. Bu, Heydər Əliyev irsidir.

Məndən balaca olanda soruşmuşdular ki, ən ağıllı insan kimdir? Mən: «Heydər baba» – demişdim. Fikirləşirdim ki, dövlət qurmağı bacaran adam ən ağıllıdır. Çoxları dövlət qurub. Deməli, harda isə səhv edirdim. Amma indi səhvimi düzəldirəm: Tək başına min illərlə tarixi olan bir ölkəni əbədiyyətə qədər yaşatmaq üçün əlindən gələni edən və bunu bacaran ölkəsinə, xalqına sonsuz məhəbbəti olan insandır, ən ağıllı adamdır. Mən o suala düzgün cavab vermişdim. Amma səbəbim düz deyildi.

*Nə qədər Azərbaycan*
*Nə qədər bu millət var,*
*Heydər: «Xalqım!» – deyəcək,*
*Xalq: «Heydər!» – söyləyəcək.*

Şəxsiyyətlər adını tarixə yazdırır. Dahilər isə tarixi özləri yazırlar. Heydər Əliyev elə bir dahidir ki, əsrlərin, minilliklərin qovuşduğu tarixi özü öz zəhməti, bacarığı, istedadı ilə yazıb.

Kaş keçən əsrin elə bir dövründə yaşayaydım ki, o Dühanı görə biləydim...Bir dəfə də olsun – «Heydər baba» deyə biləydim. Amma yox! Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Heydər Əliyevin mənsub olduğu millətin nümayəndəsiyəm.

Nə qədər ki Azərbaycan var, Azərbaycan gəncləri var, o dahi insan, dahi Lider, Ulu Öndər bu torpaqda həmişə anılacaq. Biz fəxr edirik ki, Heydər Əliyev yolu gedirik!





***Hacıyeva Aytəkin Qurban qızı***
***Ağcabədi rayonu, Köyük kənd***
***tam orta məktəbinin***
***IX sinif şagirdi***

Azərbaycan! Ana yurdum! El müdriki Dədəmiz Qorqudun, qırx il kölə kimi sürünməkdənsə, bir gün azad yaşamağı üstün tutan Babəkin, dünya mədəniyyətinin zirvəsini fəth edən dahi Nizaminin, ana dilimizdə dünya poeziyasının şah əsərlərini yaratmış Füzulinin, qılınc və qələm ustadı Xətainin, əsərləri dünya musiqi inciləri arasında almas kimi parlayan dahi Üzeyirin yurdu Azərbaycan!

Bəli, yaşı ən qədim insanın – Azıx adamının yaşı ilə ölçülən vətənim ən zəngin mədəniyyətə, ən möhtəşəm tarixə malikdir. Mənim vətənim ən qədim mədəniyyət ocaqlarından biridir. Qobustan qayalarında təsvir edilən rəsmlər buna sübutdur. Əgər ulu əcdadlarımız Qobustan qayalıqlarında yallı təsvir edirsə, qəbilələr arasında döyüş təsvirini yarada bilirsə, mənim xalqım ölkələr içərisində ən mədəni xalqdır.

Mənim vətənimin qəhrəman oğulları sadə xalq içərisindən çıxıb həyatları ilə məmləkətimizə işıq salmışdır.

Bir vaxtlar qırx qulun üstündə «Pay» kimi tacirə verilən Eldəniz Azərbaycanda Atabəylər, Eldənizlər dövlətinin əsasını qoydu. Adi bir qulun hökmdar səviyyəsinə yüksəlməsi qəhrəman oğullarımızın nə qədər şanlı olduğunu göstərir.

Bəli, hər əsrdən bir dünyada adı fəxrlə çəkilən möhtəşəm oğullar yetişdirir mənim xalqım! Elə oğullar ki dəniz kimi, okean kimi olurlar! Zərrə-zərrə, damla-damla öyrənəsən gərək onları. Çünki onların hər addımları, hər kəlmələri həyat yolumuza nur səpən bir işıq kimidir. Elə XX əsrdə də Azərbaycan torpağı xalqıma elə bir oğul bəxş etdi ki, zəkası, istedadı, yurdumun üzərinə həmişə əbədi bir işıq salacaq!

*Sən qoşa bir zirvəsən Heydərbaba dağıyla,*
*Sən dünyada məşhursan Atatürk qaynağıyla,*
*Gəlmisən Yer üzünə ancaq sülh sorağıyla.*
*Səpdiyin hər bir toxum cücərər, bitər, baba.*
*Bütün türk dünyasının babası, Heydər baba!*

Tariximizə «Dirçəliş günü» kimi daxil olmuş 17 Noyabr xalqımızın təqviminə qızıl hərflərlə daxil olan günlərdən biridir. Həmin gün olmasaydı, yəqin ki, ən qədim mədəniyyət beşiyi olan Odlar yurdum, ulu diyarım xəritədən silinəcəkdi. Bir tərəfdən neftli, pambıqlı tikəsinin əlindən çıxmasına dözə bilməyən ruslar, bir tərəfdən də çörəyimizi yedirdib dağ başına çıxardığımız ermənilər xalqımıza məşəqqətli günlər yaşatdılar.

20 Yanvar faciəsi, bir-birinin ardınca düşmən əlinə keçən, şəhid qanı ilə suvarılan torpaqlarımız xalqı müstəqilliyimizin uzun sürməyəcəyinə inandırmışdı. Lakin xalq çıxış yolunu, müstəqilliyinin xilası yolunu tez tapdı. Azərbaycan xalqı düşünən beynini, layiqli övladını hakimiyyətə gətirdi. Eşq olsun sənə, Azərbaycan! Dar gündə, dar məqamda mübarizə yolunu tapdın və qüdrətli oğlunu hakimiyyətə gətirdin.

Parlaq simaları, əsrlər, qərinələr, illər bəxş edir. Dühaları isə minilliklər yetişdirir. Heydər Əliyev dühası tanrının Azərbaycana bəxş etdiyi böyük töhfə, Azərbaycan üfüqlərinə doğan Günəş, sönməz işıqdır! Elə bir gunəş ki sönmək bilmir, zəkasından bəşəriyyət güc alır.

Heydər Əliyev alovlu siyasətçi, bütün varlığı ilə böyük vətənpərvər idi. Onun həyatında, xəyalında, arzularında nə vardısa, hamısı vətəni üçün onun tərəqqisi, inkişafı, müstəqilliyi naminə idi.

Heydər Əliyev xalqımızın ən çətin anında, ən lazımi anında hakimiyyətə qayıtdı. Bu qayıdış zülmətə, qaranlığa bürünmüş bir məmləkətə Günəşin doğması, itirilmiş ümidin, sınmış inamın qələbəsi idi! Bu qayıdış xalqın öz müdrik oğluna etimadı idi! Kədər, ümidsizlik çökmüş gözlərə işıq, bükülən dizlərə taqət gətirdi. Heydər Əliyev xalqımızı işıqlı sabaha qovuşdurmaq naminə bir ömür çərçivəsində gecəsini gündüzünə qatdı. Vətən yolunda, xalq yolunda daim düşmənlə çarpışdı. Düşmənlə mübarizədə gözləri nə qədər zəhmli olsa da, vətən övladları ilə görüşəndə gözlərindən yağan mehribanlıq insanın ürəyini isidirdi. Heydər Əliyev xalqımızın sabahı naminə böyük işlər gördü.

Həyatımızda, iqtisadiyyatımızda qlobal əhəmiyyətə malik olan «Əsrin müqaviləsi»ni imzaladı. Dünya azərbaycanlılarını bir araya gətirmək



üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi. Bütün dünyada yaşayan azərbaycanlıları ayıltdı. Vətənin dar gününü onlara xatırlatdı.

Ulu Öndərimiz xalqımızın xoşbəxt yaşaması üçün nə lazımdırsa etdi. Ən böyük nailiyyəti isə İlham kimi oğul böyüdüb xalqa bağışlaması oldu. Qüdrətli insan bilirdi ki, həyat əbədi deyildir. Düşmənlər onun memarı, qurucusu olduğu işıqlı ölkəsini dağıda bilərdilər.

Bugünkü müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir. Ulu Öndərimizin xilaskar ruhu bu gün azərbaycanlıları və qurduğu Azərbaycan dövlətini qoruyur. Onun davamçısı, ideyalarının reallaşması uğrunda ardıcıl siyasət yürüdən, bu şah əsəri Ulu Öndərin arzuladığı zirvəyə ucaltmaq üçün çalışan prezident İlham Əliyev bu salnamənin – yeni tariximizin ən parlaq səhifələrini xalqımıza güvənərək, xalqdan güc alaraq yaşadacaqdır. Ümummilli Lider, dünyaşöhrətli siyasətçi beş minillik dövlətçilik tariximizin ən şərəfli səhifəsini yaradan Ulu Öndərimiz həyatdan ürəklərə köçsə də, xalqımıza bəxş etdiyi müasir Azərbaycan dövləti yaşayır, möhkəmlənir və sürətlə inkişaf edir.

Bu gün müasir məktəblər, xəstəxanalar tikilir. Parklar, xiyabanlar salınır, paytaxt Bakımız həm müasir gözəlliyi, həm də qədim uslubu ilə ürəkləri oxşayır. Biz bilirik ki, bu gözəlliyi seyr edib insanlar rahat nəfəs aldıqca Ulu Öndərimizin xilaskar ruhu vətən göylərindən boylanır və deyir: «Eşq olsun sənə İlham! Xalqımı daha böyük gələcəyə apar! Elə bir gələcəyə ki işığı, hərarəti, nuru paxıl qonşularını məhv etsin!»

Heydər Əliyevin uğurlu siyasəti nəticəsində indi yurdumuzda əbədi azadlıq məşəli şölələnir! İndi ulu keçmişim – beş minillik dövlətçilik tarixim 25 ildir ki, yenidən dirçəlir! Bu şanlı tarixin qanuni varisi olan Azərbaycan Respublikası adlanan müstəqil dövlətim var! Üçrəngli bayrağım var! Himnim var! Müstəqilliyimin təminatçısı, xilaskar prezidentim var! Azərbaycan Respublikasının Konstitusiyası adlanan təməl qanunu, dünyanın ən demokratik, ən qabaqcıl ölkələrinin qanunları ilə səsləşən ədalətli qanunlarım var! Siyasət dünyasının zirvəsini fəth edən və müstəqil dövlətimin ay-ulduzlu bayrağını, ulu xalqımın azadlıq məşəlini özü ilə bu zirvəyə qaldıran dahi siyasətçi Heydər Əliyevin yolu ilə gedir Azərbaycan!

Bəli, Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi ən nadir və dünyaşöhrətli siyasət qrosmeysteri Heydər Əliyev öz siyasət qılıncını şimşək kimi elə çaxdırdı ki, bütün dünya liderləri mat qaldı.

Bu gün üçrəngli bayrağımız dünyanın ən möhtəşəm saraylarında dalğalanır və tezliklə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Şuşada, Xankəndində dalğalanacaqdır! Bax o gün Ulu Öndərimizin xilaskar ruhu dinclik tapacaq!

*Sən biçimdə dünyaya özgəsi gələ bilməz,*
*Şərik çıxıb dərdimə tən yarı bölə bilməz.*
*Sənə qarşı millətin istəyi ölə bilməz,*
*Zaman bir də yetirməz sənin kimi ər, baba,*
*Bütün türk dünyasının babası Heydər baba!*





## Hüseynov Hüseyn Bəxtiyar oğlu

**Culfa rayonu, Saltaq kənd tam orta məktəbinin XI sinif şagirdi**

*Belə məğrur dayanmağa haqlıyam,*
*Öz kökümlə bu torpağa bağlıyam.*

**Rəsul Rza**

Heydər Əlirza oğlu Əliyev! Azərbaycan xalqının Ümummilli lideri! Əlli ildən artıq böyük bir xalqa misilsiz xidmət etmiş dünya şöhrətli dahi bir şəxsiyyət! Azərbaycanın ayrılmaz tərkib hissəsi, Ulu Nuh yurdu, Oğuz torpağı Naxçıvandan başlayan ömür yolu çox çətin sınaqlardan, mübarizələr dolu günlərdən, aylardan, illərdən keçərək bütün dünyada məşhur olan dahi bir insan! Hər bir xalq öz milli lideri ilə tanınır və onunla öyünür, fəxr edir. Hər hansı bir xalqın adı çəkiləndə, ilk növbədə, onun lideri yada düşür. Biz də fəxr edirik ki, xalqımızın Heydər Əliyev kimi dahi oğlu, şəriksiz lideri olmuş və bu gün də onun əməlləri və arzuları bizimlə yaşayır.

Bu dahi şəxsiyyət elə bir parlaq ömür yaşamışdır ki, bu ömrü Günəşə bənzətmək olar, Günəşdən də hamıya pay düşür. Biz bu gün hara baxırıqsa, Heydər Əliyevin qurub yaratdıqlarını görürük. Heydər Əliyev Azərbaycan üçün çox işlər görüb desək, azdır, o başdan – başa bir Müstəqil Azərbaycan Respublikası qurub-yaradıb, bir ömrə sığmayacaq nəhəng işlər görüb. Yarım əsrə qədər öz xalqının xoşbəxtliyi, səadəti, onun dövlətçiliyi, Vətənin müstəqilliyi üçün çalışmış dahi bir siyasətçinin yeri və adı bu gün əlli milyonluq Azərbaycan xalqının qəlbindədir. Bu böyük xalq haqlı olaraq öz dahi oğlu ilə fəxr edir, öyünür, qürur duyur. Bəli, öyünməyə haqlıyıq, çünki Heydər Əliyev bugünkü müstəqilliyimizi odun-alovun içindən öz həyatı bahasına çıxarıb, qoruyub xalqımıza bəxş etmişdir.

Bu gün taleyin hökmü ilə dünyaya səpələnmiş əlli milyonluq azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı Heydər Əliyevi bir xilaskar, milli lider

kimi xatırlayır, onun haqqında böyük məhəbbətlə danışır. Biz Heydər Əliyevi düşünərkən, ilk növbədə, onun qədd-qaməti, nurlu çöhrəsi, dərin mənalı gözləri, gözəl danışığı, insanlarla ünsiyyəti, məğrur yerişi, qalib görkəmi gözlərimiz önündə canlanır. O, hər bir adamla onun öz dilində danışmağı bacarırdı. Biz onu rəsmi görüşlərdə nə qədər ciddi, qayğılı görürdüksə, xalq arasında vətəndaşlarla, sadə adamlarla, məktəblilərlə görüşlərində bir o qədər sadə, səmimi, doğma, yaxın adam kimi münasibətdə görürdük. Bayram şənliklərində xalqla birgə olmağı, onlarla birgə deyib-gülməyi sevərdi. Bütün bunlar bu böyük şəxsiyyətin sadəliyindən, insanlara məhəbbətindən irəli gəlirdi.

Ulu Tanrı Heydər Əliyevi Azərbaycan xalqına bir xilaskar, bir lider kimi göndərmişdi. Ötən əsrin sonlarında Vətənimizin ən ağır günlərində Heydər Əliyev xalqın azadlıq mübarizəsi yollarında bir mayak olaraq, onu zamanın ən çətin sınaqlarından üzüağ çıxardı və bizi azadlıq və müstəqilliyimizə qovuşdurdu.

Bu gün Azərbaycanın azadlıq və müstəqilliyi milli lider Heydər Əliyevin şah əsəridir. Özünün də dediyi kimi, azadlıq və müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq da bir o qədər çətindir. Milli Lider azadlıq və müstəqilliyimizin qorunub saxlanılması, möhkəmləndirilməsi və əbədi olması üçün ana öz balası üstündə əsdiyi kimi əsir, Vətənin hər bir uğuru onu hədsiz dərəcədə sevindirir, qurub-yaratmağa həvəsləndirirdi. Milli Lider Heydər Əliyevin böyüklüyü bir də orasında idi ki, o, insanlara böyük məhəbbət və qayğı ilə yanaşır, onların səadəti üçün çalışır, vətəndaşların sevincini sevinci, kədərini kədəri bilirdi. Bu da onun yüksək humanizmindən xəbər verirdi. Məhz buna görə də bu dahi insan xalqımızın ürəyində özünə məhəbbətdən taxt qurubdur. O, bu gün də bizimlə birgə yaşayır. Biz onun zəngin irsindən bu gün də öyrənir, faydalanırıq.

Heydər Əliyevi düşünərkən hamımıza örnək olan mənalı, şərəfli bir ömür yolunu hər zaman xatırlayırıq. O ömrü ki bir xalqın səadəti və xoşbəxtliyi üçün qurban verilib, şam kimi əridilib, bu ömür xalqa əsl sədaqət və xidmət nümunəsi idi.

O, uşaqları, gəncləri çox sevirdi. Tez-tez məktəblərdə olur, məktəblilərlə, tələbələrlə görüşürdü. Deyirdi ki, siz gənclər müstəqil Azərbaycanın gələcəyisiniz. Dilimizi, ədəbiyyatımızı, tariximizi sevin! Çünki bunları sevmədən əsl vətənpərvər kimi yetişmək olmaz. Hər bir məktəbliyə ilk sualı bu olurdu: «Azərbaycan dilini bilirsənmi?» Dilimizi sevin, onu dərindən öyrənməyə çalışın. Nə qədər xarici dil öyrənirsinizsə, öyrənin. Bu da yaxşıdır. Amma bu, Ana dilimizi sıxışdırmaq hesabına olmamalıdır». Televiziyada



belə görüşlərin birində mən çox təsirli bir mənzərənin şahidi oldum. Milli Lider Səməd Vurğunun «Azərbaycan» şeirindən birinci bəndi söylədi:

*El bilir ki, sən mənimsən*
*Yurdum, yuvam, məskənimsən*
*Anam, doğma Vətənimsən*
*Ayrılarmı könül candan?*
*Azərbaycan! Azərbaycan!*

Bu misraları necə vurğunluqla, həyəcanla, yanğıyla söylədisə, gözləri yaşardı. Bununla Heydər Əliyev bizlərə çox şey anlatdı. Vətənə aid şeir söyləyərkən soyuq ürəklə yox, məhz bu cür-sevgi, məhəbbətlə söyləmək lazımdır. Biz Heydər Əliyevi düşünərkən fateh bir xalqın fateh oğlunu xatırlayırıq. Heydər Əliyev siyasət fatehi idi. O, dünyada böyük siyasətçilər içərisində böyük siyasətçi, türk dünyasının fəxri idi. Heydər Əliyev elə bir zirvə idi ki, dünyanın hər yerindən görünürdü. Elə onun bizə əmanət etdiyi müstəqil Azərbaycan Respublikası da bu gün dünyaya Heydər Əliyev zirvəsindən baxır.

Biz Azərbaycan gəncliyi xoşbəxtik ki, Heydər Əliyev məktəbindən öyrənir, zəngin irsindən bəhrələnirik. Dünyada ilk dəfə olaraq Milli Liderimiz gənclərin qolundan tutub dövlətçiliyimizin idarəsinə cəlb etmiş, bu məsul işdə onların iştirakına şərait yaratmışdır.

Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da kiçikdən böyüyə hər bir vətəndaş xalqımızın milli lideri Heydər Əliyevin ideyalarını, arzu və əməllərini sonsuz məhəbbət və sevgi ilə yaşadır, Milli Liderdən bizə əmanət olan müstəqil Azərbaycanımızın çiçəklənməsi üçün biz məktəblilər də öz töhfəmizi verməyə çalışırıq.

Qarşıdan Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü gəlir. Ad günün mübarək, əziz babamız! Azərbaycanın çiçəklənməsi sənin ad gününə ən gözəl töhfədir.



## İsayeva Zeynəb Şirzad qızı

*İsmayıllı şəhəri, N.Behdiyev adına*
*6 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*

Bu mövzunu qələmə almamışdan əvvəl çox düşünüb-daşındım. Bu ağır yükün altına girməyə cəsarət lazımdır. Ümummilli lider Heydər Əliyev haqqında inşa yazmaq üçün dərin siyasi və elmi biliyə malik olmaqla yanaşı, onun həyat və fəaliyyətinə, yaradıcı irsinə yaxından bələd olmalısan.

Mən özümü bu gün xoşbəxt sanıram. Xoşbəxt sanıram ona görə ki, bu dahi Ümummilli Lider Heydər Əliyev haqqında inşa yazmaq, söz demək mənə də nəsib olub. Bilmirəm, adı artıq dünyanı dolaşan Heydər Əliyevin böyüklüyü, gördüyü işləri, ən önəmlisi isə şəxsi nümunəsini bir məktəbli düşüncəsi ilə vəsf edə biləcəyəmmi? Axı onun həyatı şair R.Rza demiş cild-cild kitaba sığmaz.

Ümmandan damla götürmək hər adama nəsib olmur. Mən də bu ümandan damla götürə bilsəm, özümü bir daha xoşbəxt hiss edə bilərəm.

*Arzusu Günəşdən, qəlbi atəşdən,*
*Onun Promotey qüdrəti vardır.*
*Bir qəlpə qopara bilsəm Günəşdən,*
*Əridib, bir kəlmə «Heydər» yazardım.*

Heydər Əliyev 10 may 1923-cü ildə qədim Naxçıvan torpağında dünyaya göz açıb. Onun doğulduğu ailə sadəliyi və zəhmətkeşliyi ilə seçilirdi. Bəlkə də, elə buna görə idi ki, o zaman heç kəsin ağlına gəlməzdi ki, belə sadə insan nə vaxtsa müstəqil Azərbaycan Respublikasının qurucusu olacaq. Kimsə ağlına belə gətirməzdi ki, belə adi bir gənc nə vaxtsa öz doğma Vətənini dünyaya tanıdacaq, ona parlaq şöhrət gətirəcək.



Lakin illər keçdi, balaca Heydər böyüdükcə onun elmi, parlaq zəkası, xalqına olan sevgisi və ən əsası müstəqil Azərbaycan yaratmaq haqqında ideyaları da böyüyür, inkişaf edir, məcrasına sığmayab çay kimi coşub-daşırdı. Çox gənc yaşlarından xalqının güzəranına yaxşı bələd olan, ermənilərin min bir hiyləsini öz gözləri ilə görən Heydər Əliyev müstəqil, firavan Azərbaycan dövləti yaratmaq üçün daim gərgin çalışırdı.

*Əhsən kamalına, ağlına əhsən!*
*Adi xidmət deyil, xidmətin sənin,*
*Var olsun daima şəhrətin sənin,*
*Xalqına şöhrətdir xidmətin sənin.*

Tariximizə Heydər Əliyev dəsti-xətti ilə yazılmış bəxtəvərlik səhifələri hələ, 1969-cu ildə bu dahi insanın Azərbaycana rəhbər təyin olunması ilə başlayır. Məhz həmin tarixdən etibarən Azərbaycan sürətlə inkişaf etməyə başladı və dünya dövlətləri cərgəsində özünü təsdiq etdi. Çox qısa bir zaman ərzində görkəmli rəhbərin qayğısı və təşəbbüsü ilə Azərbaycan keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrildi və beləcə, Azərbaycan tarixinin XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərinə aid bütün şərəfverici səhifələri Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndər rəhbərlik etdiyi dövrdə həmişə həqiqətə əsaslanmış, xalqla daim sıx əlaqədə olmuş, onun səsini və fikirlərini dinləmişdir. Heydər Əliyev ömrünü vətən naminə qurban verməyə hazır olan əsl vətənpərvər ömrü yaşamışdır. Məhz elə buna görə «onun həyat və fəaliyyətinin bütün dövrlərini» siyasətdə müdriklik məktəbi adlandırsaq, yanılmarıq.

Lakin, çox təəssüflər olsun ki, Heydər Əliyev günəşi Azərbaycan səmalarında əbədi parlamadı. Gözəl bir yaz günü Ulu Yaradanın Azərbaycan xalqına bəxş etdiyi töhfə, qiymətli xəzinə – Heydər Əliyev (yenə də) soyuq qış günündə yenə də Ulu yaradanın hökmü və hikməti ilə əbədiyyətə qovuşdu. Əslində, bu Günəş hələ sönməmişdir. Onun şəfəqləri bu gün də doğma Azərbaycanını isidir, himayə edir. Xalqımıza əsl bədbəxtlik o zaman üz verər ki, bu Günəşin şəfəqləri Yurdumuzu qızdırmasın.

Çox şükür ki, bu gün böyük məmnunluq hissi ilə qeyd edə bilirəm ki, əsasını Heydər Əliyevin qoyduğu, siyasi konsepsiyanın uğurlu davamçısı İlham Əliyev bizim prezidentimizdir. Ümumilikdə bu siyasət yolu xalqın maddi rifah halının yaxşılaşmasına, ölkəmizin günü-gündən inkişaf etməsinə əsaslanır.

*Çox şükür ki, Ulu Tanrı*
*Xalqımıza İlham verib.*
*Həm qurucu, həm rəhbər,*
*Həm də gözəl insan verib.*

*Kəndlər dönüb şəhər olur,*
*Qaranlıqlar səhər olur.*
*Səhralarda açır çiçək,*
*Uğurludur xoş gələcək.*

Heydər Əliyevin Azərbaycan tarixində rolu və yeri əvəzsizdir. Onun itkisi ilə barışmaq xalqımız üçün çox çətindir. Hətta itki sözünün özü belə bu çatışmazlığı hərtərəfli əhatə etmir. Amma hər halda, təsəlli də bir o qədər böyükdür. Heydər Əliyev yaratdığı Azərbaycan Respublikası qədər əbədidir. Bu təkcə mənim fikrim deyil, zamanın qənaətidir!





**Məmmədova Aydan Azər qızı**
**Bakı şəhəri, T.İsmayılov adına**
**6 nömrəli məktəb-liseyin**
**XI sinif şagirdi**

*Ömür borc verilir qırx il, əlli il,*
*Xoşbəxtdir həyatda ad qazananlar.*
*İnsanın ömrünü yaşında deyil,*
*Gördüyü işlərin özündə axtar.*

Deyirlər ki, zaman hakim, tarix isə yaddaşdır. Mən də, dünya azərbaycanlılarının qürur mənbəyi olan ümummilli lider Heydər Əliyev haqqında inşa yazarkən zamanın hakimliyi fonunda yaddaşlarda qalan, əbədiyaşarlığın sirrini araşdırmaq istədim.

Azərbaycan tarixində yaddaşlara həkk olunan, dünya siyasətində dəstxətti ilə seçilən, dövlət başçıları arasında fenomen istedadı və bacarığı ilə fərqlənən ulu öndər Heydər Əliyev ölkəmizin dünya birliyinə açılan yoluna işıq saldı. Bu işığın nuru Azərbaycanın dünyada imicinin, nüfuzunun artmasına səbəb oldu.

Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti, yüksək idarəçilik qabiliyyəti və bacarığı sayəsində, ölkəmiz sovetlər birliyi dövründə qabaqcıl respublikalar sırasında idi. Onun 1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdışı dövlətin siyasətində yeni mərhələnin, müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcı oldu. Daim dövləti, xalqı üçün yaşayan, ömrünü vətəninin, xalqının gələcəyinə həsr edən ümummilli lider Heydər Əliyev həyata keçirdiyi islahatlarla böhran içərisində qalan Azərbaycanın iqtisadiyyatının gücləndirilməsinə xidmət edən genişmiqyaslı quruculuq işləri idi. Hər zaman ölkənin iqtisadi inkişafı naminə səmərəli yollar axtaran ulu öndər Heydər Əliyev neft strategiyasını müəyyənləşdirdi.

1994-cü ildən Azərbaycan yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas prinsipləri Azərbaycan xalqının rifahı naminə bu

layihədən daha səmərəli istifadə etməkdən asılıdır. Bu sözləri söyləyən Ulu Öndərin proqram xarakterli sözləri təkcə neft sənayesinin deyil, iqtisadiyyatın bütün inkişaf sahələrinin yollarını aydın göstərdi. O deyirdi ki, «Təbii ehtiyatlardan düzgün istifadə etdikdə o, zəngin sərvətə çevrilir».

Təbii ehtiyatların sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Heydər Əliyev Dövlət Neft Fondunun yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi.

Hər bir dövlət onda güclü olur ki, onun möhkəm iqtisadiyyatı və güclü ordusu var.

«Bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, inkişafı, möhkəmlənməsi yalnız və yalnız Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır. Biz düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik». Bu sözləri söyləyən Ulu öndər Heydər Əliyev 1994-cü il mayın 12-də atəşkəsin əldə edilməsi ilə ölkənin bütün sahələrdə inkişafının təmin olunmasında əhəmiyyətli rol oynadı.

1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan milli Konstitusiyamızın ümumxalq səsverməsi yolu ilə qəbulu insan hüquq və azadlıqlarının qorunmasında mühüm addımlardan biri oldu.

1998-ci ildə Şərqdə ilk dəfə ölüm hökmü ölkəmizdə ləğv olundu. Dəfələrlə humanistlik göstərərək əfv və amnistiya qərarları qəbul edən Ulu öndər dövlətin siyasətində insan amilinə nə qədər yüksək dəyər verildiyini bir daha nümayiş etdirdi.Ümumilli liderimizin ölkəmizə rəhbərlik etdiyi otuz beş il ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən normal təfəkkürün əhatə dairəsinə sığışdırmaq mümkün olmur.

Ulu öndər tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövr ərzində bu missiyanı böyük uğurla yerinə yetirib.

Bu gün ölkəmizdə Ümumilli Liderimiz tərəfindən əsası qoyulmuş hüquqi, dünyəvi, demokratik dövlətin və vətəndaş cəmiyyətinin quruculuğu prosesi, ölkə prezidenti Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu Öndərin uğurlu həyat yolu, idarəçilik qabiliyyəti, vətən sevgisi və bir sıra başqa xüsusiyyətləri hər bir azərbaycanlı gəncə nümunə olmalıdır.

Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir. Hər bir azərbaycanlı kimi mən də inanıram ki, Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin yüksək idarəçilik qabiliyyəti və rəhbərlik bacarığı sayəsində ölkəmiz daha da inkişaf edəcək, müstəqilliyini və suverenliyini qiruyub saxlayacaqdır. Ulu Öndərimizin də ruhu şad olacaqdır.





## *Nəzirli Məlahət Gündüz qızı*

***Qəbələ şəhəri, 3 nömrəli tam orta məktəbin X sinif şagirdi***

*«...Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır».*

**Heydər Əliyev**

Evdən çıxanda balaca qardaşım məndən soruşdu: – «Bacı, mənə de görüm, fenomen şəxsiyyət dedikdə nə başa düşürsən? Kimlər fenomen hesab olunur?»

Mən bir az düşündükdən sonra dedim:

– Əziz qardaşım, fenomen o şəxslərdir ki, tariximizdə özlərindən sonra misilsiz iz buraxırlar. Məsələn, ərəblərlə IX əsrdə mübarizə aparan Babək belə şəxslərdəndir, Səfəvilər adlı dövləti quran Şah İsmayıl Xətai belə şəxslərdəndir. Bax, qardaşım, bu gün mən haqqında inşa yazmağa gedəcəyim şəxs – Ümummilli Lider, Azərbaycan xalqının sönməz günəşi, əsl vətənpərvər, əsl insan Heydər Əliyev belələrindəndir, fenomendir.

Ədəbiyyat müəllimim deyir ki, hər 50 ildən, 100 ildən bir millətlərə, xalqlara Tanrı böyük şəxsiyyət göndərir. O şəxslər tarix yazır, o şəxslər özlərindən sonra böyük bir iz qoyur. Deməli, biz millətlərin – xalqların ən xoşbəxtlərindən biriyik desək, yanılmarıq.

Hərdən internetdən dahilər, böyük şəxslər haqqında oxumağı xoşlayıram. Ulu Öndərin həyat salnaməsini vərəqlədikdə qarşıma bu böyük şəxsin necə bir siyasətçi olduğu çıxır. Təsəvvürümdə canlandırıram ki, hələ onlarla siyasətçimizi, ədəbiyyatçılarımızı, alimlərimizi bir kəlmə sözə görə, bir bənd şeirə görə həbs edən sovetlər birliyinə qarşı 20 Yanvar 1990-cı ildə çıxan insanlar necə cəsarətlidirlər!

*Hər bir xalqın taleyi tək*
*Hər xalqın da taleyi var.*
*Öz xalqının taleyini*
*Əlləriylə yazanlar var.*

*Bir günəş tək bu millətin*
*Taleyinə doğan insan.*
*Əməyiylə, zəhmətilə*
*Azərbaycan quran insan.*

Heydər Əliyevin bu böyük şəxsiyyətin həyatımız, vətənimiz, keçmişimiz, gələcəyimizlə bağlı toxunmadığı, müraciət etmədiyi, inkişafa doğru istiqamətləndirmədiyi bir sahə, bir tendensiya yoxdur. O xalqının oğludur, o millətin and yeridir, o, bu millətin gələcəyini qızıl hətflərlə yazanbir yazardır.

Mən onun həyat yolunu səhifələdikdən sonra belə qərara gəldim ki, vətənimi Ulu Öndərsiz təsəvvür etmək olmaz. Onun xalq üçün etdikləri hər gün yaşayır, inkişaf edir, gələcəyə doğru aparır.

Ümummilli Liderin «Mən həmişə fəxr edirəm ki, azərbaycanlıyam», – sözləri milli vətənpərvərlik ideyalarının, milli düşüncələrimizin əsas pik nöqtəsidir.

Heydər Əliyev qeyri-adi yaddaşa malik fundomental bir insandır. O məğrurdur, o qorxmazdır, o, uzaqgörəndir, eyni zamanda, bu böyük şəxsiyyət həm də kövrəkdir. Xatırlayaq ki, onun Səməd Vurğunun «Azərbaycan» şeirini göz yaşlarıyla deməsi bunun bariz nümunəsidir. Dahi rəhbər hakimiyyətə gəldikdən sonra vətənimizdə – Azərbaycanımızda bütün sahələrdə inkişaf başlandı.

Vətənimizin ən böyük problemi olan insan hüquqları qorundu. Geniş tədbirlər həyata keçirildi. Azərbaycan bütün dünyada tanınmağa başladı.

Atam deyir ki, Heydər Əliyevin – Ümummilli liderimizin irsi çox zəngindir, onu öyrənmək üçün günlər, illər, əsrlər kifayət etməz. Aylar, illər ötəcək, nəsillər bir-birini əvəz edəcək, onun adı ilə bağlı şanlı əsərlər yazılacaq, dildən-dilə keçən bu canlı abidəmiz gənclərin, gələcək nəsillərin xatirələrində yaşayacaq. Necə ki indi də yaşamaqdadır.

Bu gün Azərbaycanda onun şərəfli yolunu davam etdirən onun müqəddəs missiyasını inkişaf etdirən, zənginləşdirən bir şəxs də var ki, bu layiqli davamçı hazırki prezidentimiz İlham Heydər oğlu Əliyevdir.

Bu gün biz şərəflə deyə bilərik ki, Ümummilli Liderin davamçısı çox hörmətli prezidentimiz İlham Əliyev bu strategiyanı layiqincə davam etdirir.



Təsadüfi deyil ki, bu gün Azərbaycan dünyada iqtisadi inkişafına görə birinciliyi əlində saxlamağı bacaran lider dövlətlərdəndir. Bunu son illərdə Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə hiss etmək mümkündür. Bir qədər əvvəl dünya əhəmiyyətli «Avrovizya» musiqi yarışması keçirildi. Daha sonra «NABUKO» neft kəməri vasitəsilə Avropaya açılan qapı. Ən əsası isə bu gün vətənimiz böyük bir yarışmaya hazırlaşır: I Avropa İdman Oyunlarına.

Bu yarışmanın xeyirli, sülh şəraitində keçməsini Allahdan arzulayırıq. Bu yarışmada vətənimiz necə bir gücə, necə bir inkişafa malik olduğunu dünyaya nümayiş etdirəcək. Bizlər Göytürklərin, Səfəvilərin, Heydər Əliyevlərin övladıyıq.

Düşünürəm ki, biz Ümummilli Liderin davamçısının ətrafında sıx birləşməliyik. Ona görə ki, düzgün yoldayıq, düzgün istiqamətdəyik.

Yaşasın Azərbaycan! Yaşasın Heydər Əliyevin – Ümummilli Liderin sabaha doğru, xoş gələcəyə aparan böyük siyasəti!

Yaşasın Heydər Əliyev ideyalarının layiqli davamçısı İlham Əliyev!

*Sən sevginlə bu millətin*
*Ürəyinə sevgi qatdın.*
*Sən Azərbaycan adlanan*
*Yeni bir dünya yaratdın.*

*Uşağından böyüyünə*
*Bu millətin oğlu, qızı.*
*Fəxarətlə yaşadacaq,*
*Ürəyində adınızı.*

*Sən bu xalqın övladıydın,*
*Bu millətə «Ata» oldun.*
*Heydər adlı nura dönüb*
*Üfüqlərə işıq saldın.*



## *Seydiyeva Turanə Ağa qızı*

***Şuşa Humanitar Kollecinin***
***I kurs tələbəsi***

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərinin həllində müstəsna rolu olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları çox olmuşdur. Bunlar zaman-zaman gördükləri böyük işləri və əməlləri ilə yadda qalmış və unudulmamışlar. Belə tarixi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi, dünyamiqyaslı siyasətçi Heydər Əliyevdir. Dövlət xadimlərindən yalnız bu dahi şəxsiyyət milli lider səviyəsinə yüksəlmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi digər bütün sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir. Xalqımızın yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider, xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, milli iftixarımız, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlı idi. Digər vacib məqam səlahiyyət məsələsidir. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, tutarı olan bir lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O, analitik düşüncə tərzi ilə çətin məqamlarda soyuqqanlılığını saxlamaq məharəti, yüksək intellekti ilə, dünya mədəniyyətinə bələd olmağı ilə ətrafdakıları heyrətləndirirdi. Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Onun gələcəyi görmək məharəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi. Tarixi, bəşəriyyəti, irəlini görmək nadir hisdir. Siyasətçilərin heç də hamısında bu hiss olmur. Təbiət bu hissi yalnız seçilmiş insanlara, zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. Onun ən böyük gücü dərin və universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. İnam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və başqa digər cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi. Heydər Əliyev böyük siyasət üçün yaranan, tək bir ölkə daxilində deyil, dünya əhəmiyətli məsələlərin həllində qətiyyətli, sözünü deyə bilən nadir siyasətçilərdən biri idi. O, fitri istedadı, fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncədən görmək məharəti ilə siyasət aləminə qədəm qoyduğu ilk gündən özünü göstərmişdir. Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi ilə hərtərəfli ölçülüb-biçildiyindən hamını heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır. Hətta dünyanın siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı «liderlərin lideri» adlandırırdılar.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illər ərzində uzaqgörən, daxili və xarici siyasəti nəticəsində ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdir. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev siyasi iradə nümayiş etdirdi, antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin çəkilişi də məhz bu dahi insanın qətiyyətli addımlarının, uzaqgörən siyasətinin nümunəsi idi. Heydər Əliyevin Beynəlxalq Atatürk Sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinə verilən qiymət idi. O, dünyanın bütün ölkələri və rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də sülh dilində nəinki danışmağı bacarırdı, bunu onlara aşılaya da bilirdi.

Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişib. Ölkəmizin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır. Xalqımızın Ümummilli liderinin: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam», – sözləri həmvətənlərimizin şüarı olmaqla yanaşı, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilib. Biz qürur duyuruq ki, dünyada bu səviyyədə sevilib, hörmət bəslənilən liderimiz olmuşdur.

Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində aparılan bütün sahələrdəki uğurlar və onun nəticələri xalqımızın gələcəyə olan inamını qat-qat artırmışdır və Heydər Əliyev siyasətinin uğurla inkişafını görən xalqımız bu siyasət ətrafında sıx birləşmişdir. Heydər Əliyev siyasəti ölkəmizin müstəqilliyini möhkəmləndirmiş, dövlətçiliyini qüdrətləndirmiş və ölkəmizin nüfuzunu beynəlxalq səviyyədə artırmışdır.





## *Səfərova Xəyalə Paşa qızı*

***Biləsuvar şəhəri, N.Nərimanov adına 6 nömrəli tam orta məktəbin VIII sinif şagirdi***

Böyük bir ömrün dastanından mən də yazmaq istəyirəm. Əlbəttə, bir yazıçı, bir filosof, bir siyasətçi kimi yox, VIII sinifdə oxuyan bir şagird kimi.

Aşağı siniflərdən ən böyük arzularımdan biri də tez böyümək idi. Tez böyüyüb «Heydər Əliyev məktəblilərin gözü ilə» inşa müsabiqəsində iştirak etmək istəyirdim. Artıq xəyallarım gerçək oldu.

Oxuduğumuz kitablardan, eşitdiyimiz hadisələrdən bizə belə məlumdur ki, dünyada elə insanlar var ki, yaşadığı torpaq üçün ağır yükdür, el-obasının göz dağıdır. Amma elə insanlar da var ki, yaşadığı torpağın, el-obasının ağır yüklərini öz çiyinlərində daşıyır. Həmin insan vətən «daş»ına çevrilərək, hər kəsin güvənc yeri olur.

Belə insanlardan biri də Allahın öz nurundan pay verdiyi nurlu şəxsiyyət Heydər Əliyevdir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda sadə azərbaycanlı ailəsində anadan olmuşdur. 16 yaşında Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra, Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almışdır. Ali təhsilini isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində almışdır. 1967-ci ildən Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində işləmişdir.

1969-cu ildən Azərbaycan KP MK-nın I katibi vəzifəsində çalışmışdır. Bu andan da Azərbaycan xalqının tarixində yeni bir dövr başlamışdır.

Həmin ildən Azərbaycanın taleyüklü məsələlərinin həllinə Heydər Əliyev yol tapmağa başladı. O, ən çətin məsələlərin həllində xalqına arxalandı, onun böyük məsləhətinə ehtiyac duydu. «Xalqa söykənən, dağa söykənər», «Elə arxalananın başı göylərdə gərək», – deyib babalarımız.

*Qorquda bənzətdi dədə deyənlər,*
*Kimi ata dedi, kimi ər dedi.*
*Ana-bala kimi qucaqlaşdılar,*
*Xalq «Heydər!» – deyəndə,*
*Heydər «Xalq!» – dedi.*

Hər bir insan dünyaya gələndə öz ömrünü yaşayır. Amma əziz babam xalqın ömrünü yaşadı. Dahilər deyirlər ki, o insan xoşbəxt sayılar ki, qarşısına böyük məqsədlər qoysun və bu məqsədlər uğrunda var qüvvəsi ilə mübarizə aparsın.

*İnsanın zinəti, hünərdir, hünər,*
*Onsuz insan oğlu miskin görünər.*

Biliyinə və müdrikliyinə görə Heydər Əliyevi SSRİ Nazirlər Sovetinin sədrinin müavini vəzifəsinə layiq gördülər. Heydər Əliyev Vətənindən uzaq olduğu illərdə belə, ziyası Azərbaycanın üstündən əskik olmadı.

Azərbaycanın üstünü yağı düşmənlər aldıqda, xalq bir xilaskar kimi Heydər Əliyevi köməyə çağırdı. Ölkədə qarşıdurma baş verdiyindən Heydər Əliyev öz atalıq vəzifəsini yerinə yetirdi.

1993-cü il 15 iyunda Heydər Əliyev Ali Sovetin sədri seçildi. Bu gün Azərbaycan tarixinə «Milli Qurtuluş Günü» kimi yazıldı. 1993-cü il 15 oktyabrda isə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

Bu zaman kəsiyində nələr baş vermədi!? 20% torpaqlarımızın ermənі təcavüzkarlarının əlinə keçməsi, Xocalı faciəsi, 20 Yanvar faciəsi...

Heydər Əliyev prezident seçildikdən sonra 1918-ci ildə yaranmış müstəqilliyi yenidən bərpa etdi və xalqı bu müstəqilliyin sahibi etdi. Şah babamız Xətai deyirdi: «Siz ata-baba torpaqlarınıza o vaxt vətən deyə bilərsiniz ki, onun sahibi olasınız».

Xalqımızın belə bir deyimi var: «Nabələd adam kor kimidir. Həyatı, dünyanı dərk etmək üçün təhsil vacibdir. Təhsil millətin gələcəyidir», – deyən Heydər Əliyev, ilk növbədə, üzünü gənclərə tutdu. Yüksək tribunalardan xalqa səslənərək, dilimizi, dinimizi, adət-ənənələrimizi qorumağa çağırdı. O, 50 milyonluq azərbaycanlını bir araya gətirdi. Azərbaycanlı harada yaşayırsa yaşasın, fərqi yoxdur. Onun damarlarında türk qanı axır və onun bir bölünməz vətəni var: Azərbaycan. Onun qurucusu isə Heydər Əliyevdir.

*Sağlam toxum olub becərək oğul,*
*Qeyrət bağçasını becərək oğul,*



*Yurda can verməyi bacaran oğul,*
*Qalar ürəklərdə can bahasına.*

Günəş hər gün səhər doğduğu kimi, axşama yaxın da qürub edir. Qürub edir ki, səhər bir də doğub, aləmi nura boyasın.

2003-cü il 12 dekabr... Xalq öz böyük oğlunu, mənəvi atasını cismən itirdi. Xalq insan dənizinə dönərək, mənəvi atasını son mənzilə yola salırdı. Heydər Əliyev Fəxri Xiyabanda dəfn edildi. Əbədi məskəni isə Azərbaycan xalqının ürəyi oldu.

*Ölüm var ki, adı yalnız ölümdür,*
*Ölüm var ki, zirvələrə dönümdür.*
*Ölüm var ki, əlli olar, yüz olar,*
*Ölüm var ki, ucalığa yozular.*

Əbədiliyə qovuşub, əbədilik qazanan ölümsüzüm mənim. Öz uzaqgörənliyinlə bir məktəb yaratdın – xeyirxahlıq məktəbi, qurub-yaratmaq məktəbi, insanlıq məktəbi. Bu məktəbin ilk davamçısı da İlham Əliyev oldu. Haazırda sən həyatda olmasan da, sənin xeyirli əməllərini İlham Əliyev davam etdirir. Bu müqəddəs və şərəfli yolda ona həyat və məslək yoldaşı, UNESCO-nun xoşməramlı elçisi, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva dəstəkdir.

*Sən tarix oğlusan, canlı tarixi,*
*Özündə yaşadan Öndər oğlusan.*
*Heydər dühasından qalxıb, ucalan,*
*Qoca çinarımın şah budağısan.*

Mənsub olduğu xalqa güllü, çiçəkli bir həyat bəxş etmək istəyən Öndərimizin doğum gününü – 10 mayı xalqımız «Gül bayramı» kimi qeyd edir. Ona görə də xalqımız bu bayramı səbirsizliklə gözləyir, bu bayramı əsl toy-düyünə çevirir.



## Süleymanova Məsumə Elxan qızı

*Bakı şəhəri, akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi*

*Если бы звезды ступеньками стали,*
*И луна осветила мой взгляд*
*Поднялась я по ним бы на небо*
*И вернула тебя назад.*

Эти строчки посвятила своему дедушке Лейла Алиева. Меня они очень тронули. Может быть, потому, что в моей жизни не было дедушек. Оба они умерли задолго до моего рождения. Я много представляла себе, какими бы они были, если бы были живы. В такие моменты передо мной вставал образ Гейдара Алиева. Я представляла его своим дедушкой: добрым, любящим, отдающим мне свое тепло и заботу. Дедушка, отец, брат, друг своего народа. Не случайно каждый человек находит в нем что-то свое, родное. Ведь Гейдар Алиев – уникальная личность, причем уникальная во всем.

Вообще, писать о Гейдаре Алиеве – это, в первую очередь, ответственность. Для меня сочинение о нем не хвалебная приторно-сладкая речь, а скорее, констатация факта: искреннее понимание его личности.

Прочитав множество его речей, я поражалась тому, как при всей своей занятости, этот человек, возглавлявший нашу страну в советский период и уже будучи Президентом независимого Азербайджана, профессионально разбирался в кино, музыке, литературе, изобразительном искусстве! Только такой человек был способен создать Азербайджан, удивляющий сегодня своими культурными достижениями.

Но не всегда Азербайджан был таким, каким его знает мир.

Во все времена находились страны, готовые перегрызть друг другу глотки за клочок земли. И вот одна из таких пираний добралась до



Азербайджана. Начался широко и печально известный Карабахский конфликт. Война превратила в беженцев сотни, тысячи людей, лишила не одну семью отца, мужа, сына. Слезы на лицах этих семей не высохли до сих пор. Власти не могли ничего предпринять для сохранения целостности страны, которая вот-вот должна была пасть в руинах.

Я не знаю, удача или закон Вселенной, но такие люди, как Гейдар Алиев, появляются крайне редко, и в это время великие «приходят» как раз вовремя.

Гейдар Алиев приостановил войну, сумев удержать страну от падения в пропасть, Благодаря его усилиям был подписан пакт о ненападении. Это дало возможность республике собраться с силами и вступить в новую борьбу, которая идет по сей день. Но я яро верю в то, что мы обязательно победим!

Также в 1994 г. был подписан столетний «Контракт века» между 13-ю компаниями восьми стран. Азербайджан заявил о себе на мировой арене, и для небольшого государства на побережье могучего Каспия начался экономический подъем.

Гейдар Алиев принес в страну спокойствие, в котором она так нуждалась. Своими деяниями он показал, на что способны воля, целенаправленность и упорство, но в первую очередь любовь. Любовь к каждому из нас. Любовь в любых своих проявлениях правит миром. Любовь к стране вызволит ее из любого коллапса, из любых войн. И даже в самые суровые времена он сохранял душевные чувства, доброту и благородство.

Его же самого подпитывали Любовь и Доверие его народа. Ведь очевидно, что любому человеку нужен наставник. Тот, за кем он будет следовать, ни на минуту не сомневаясь в его правоте. Нужен отец. Чем Гейдар Алиев не отец Азербайджану? Отец дает своему чаду лучшее, что в нем есть, защищает и оберегает его. Примером может служить непоколебимость Алиева на различных саммитах, где он, сопротивляясь лидерам многочисленных стран, отстаивал права Азербайджана.

Истинное же величие Гейдара Алиева проявилось в его отношении к родному языку. Даже в советский период, несмотря на сопротивление тогдашних руководителей, он настоял на том, чтобы государственным языком был азербайджанский, что нашло отражение к Конституции АР в 1978 году.

Сегодня он мог бы гордиться тем, как стремительно развивается его страна. Он, к сожалению, не видит различные мероприятия, про-

водимые в республике, но я везде чувствую его теплый взгляд, вижу его немного по-детски восторженную улыбку.

«Я горжусь тем, что я азербайджанец!» – сказал как-то Гейдар Алиевич. Я же горжусь тем, что живу в стране, построенной таким воистину великим человеком. Все глубокое почтение к Гейдару Алиеву не выразить словами, ведь его образ навсегда впечатлен в нашей памяти на поколения вперед. Всемогущая память. И пока она жива , будет жить и дух нашего народа.

В его городе ветров у побережья пахнет нефтью вперемешку с морской солью. Здесь ветер свищет и шепчет в ухо историю своей Родины. Вслушайтесь….









## *Şahbazova Aygül Asif qızı*

***Cəlilabad şəhəri, M.Nuriyev adına 8 nömrəli məktəb-liseyin IX sinif şagirdi***

Hər bir azərbaycanlı kimi mənim də qəlbimdə uca və əlçatmaz bir məhəbbət yaşayır: Heydər Əliyev məhəbbəti. Qadir Allahdan bir diləyim var. Mənə elə bir qüdrət və qüvvət versin ki, bənzərsiz həyat yaşamış, xalqının tarix kitabının qızıl səhifələrini yazmış, ulu öndər Heydər Əliyevə ülvi, saf məhəbbətimi ifadə edə bilim. Axı adi ibr məktəbli üçün ürəyinin dərinliklərində coşub-cağlayan duyğulardan söz açmaq elə də asan deyil. Heydər Əliyevin mənalı ömür yolu, yaşadığı sadə həyat hər bir şagird üçün örnək ola biləcək bir məktəbdir. Bu ömür kitabını vərəqləyəndə birinci səhifədə sadə bir kəndli balasının əvvəlcə ailəsinin, sonra sinfinin, məktəbinin, rayonunun, diyarının və nəhayət, böyük bir ölkənin sevimlisinə çevrilməsinin şahidi oluruq. Doğrudan da, hamımızın mənəvi babası sayılan Heydər Əliyev şöhrətin zirvəsinə pillə-pillə, addım-addım qalxıb. Ən yüksək vəzifələrdə çalışanda belə, bu xüsusiyyətlər ona başucalığı gətirmişdi. Heydər Əliyevin yüksək vəzifələrdə çalışmasından asılı olmayaraq, o, milli ləyaqətini, azərbaycançılıq qürurunu pozmadı, namuslu, ailəsinə sadiq bir ata kimi yaşadı. Bu ailə sevgisindən İlham Əliyev dünyaya gəldi. İndi o, nəinki Azərbaycanın, hətta aparıcı dünya dövlətlərinin hesablaşdığı bir insandır.

Heydər Əliyev çox ədalətli bir insan olub. Azərbaycana rəhbərlik etmiş başçılardan fərqli olaraq Heydər Əliyev həmişə xalqla olub, arxasında xalqın nəfəsini duyub və onun əli ilə ölkəmiz gülüstana çevrilib. Heydər Əliyevin vətən, millət sevgisindən Müstəqil Azərbaycan yarandı. Sovet imperiyası parçalananda dünyanın xəritəsində 15 yeni dövlət yarandı. İndi həmin o dövlətlərdən 14-ü sığınmaq, daldalanmaq üçün yer axtarır. Ancaq Azər baycan Heydər Əliyevin təyin etdiyi yolda inamla addımlayır və

onun dediyi kimi: «Bizim müstəqilliyimiz əbədi, daimi və sarsılmaz olacaqdır».

Heydər Əliyev çox cəsur, qorxmaz bir insan olub. İstər Azərbaycana rəhbərlik etdiyi illərdə, istərsə də Sovetlər birliyində Nazirlər Sovetinin birinci müavini olanda da bu xüsusiyyətlər ona başucalığı gətirmişdi. Ömrü fırtınalar içərisində keçən bu insan qətiyyətinə, məğrurluğuna görə təklənsə də, məğlub duruma düşmədi, sonda qalib bir sərkərdə kimi səhnəni tərk etdi. Ancaq təəssüflər olsun ki, biz onu 80-ci illərin erməni repressiyasından qoruya bilmədik. Ermənilər xalqın xeyir-duasını alıb üzərimizə Səlib yürüşünə keçəndə Heydər Əliyevin sərt mövqeyi, iti Domokl qılıncı ilə qarşılaşdılar. Heydər Əliyevlə mübarizəni böyük bir ordu ilə mübarizəyə bərabər tutur, ağlagələn və gəlməyən üsullarla onu susdurmağa çalışırdılar. Onun simasında özlərinə ciddi rəqib görən SSRİ-nin o zamankı başçıları Ermənistanda və Azərbaycanda azərbaycanlıların imzaları ilə göndərilən donos xarakterli məktublarla onu vəzifədən getməyə məcbur etdilər. Bu «qələbəni» qaradonlu kafirlər «20 Yanvar» faciəsi ilə bayram etdilər. Heydər Əliyevin sərt mövqeyi, göy gurultusuna bənzər nərəsi, xalqla həmrəyliyi yenidən düşüncələri çaşbaş saldı, vahimə yaratdı və onun əli ilə ölkəmiz alınmaz qalaya çevrildi. «Dədə Qorqud», «Koroğlu» dastanlarında olduğu kimi, elin-obanın ən qüdrətli oğulları bir yumruq kimi onun ətrafında birləşdilər. Bu qeyrətdən Mübariz İbrahimov, Ramil Səfərov və mənim oxuduğum məktəbin məzunları olmuş Fərid Əhmədov, Əhməd Abdullayev və digər qəhrəmanlar doğuldu. Türk həmişə var-dövlətlə deyil, qəhrəmanlıqla, şöhrətlə yaşamağı üstün tutub. Heydər Əliyev bu qəhrəmanlığı xalqa yenidən qaytardı.

90-cı illərdə Qarabağda gedən savaş, indi Ukraynada, İraqda, Suriyada gedən savaşın baş məşqi idi. Məzlum, ac, dilənçi ermənilərin əli ilə Azərbaycanı məhv etmək, sərvətlərini talamaq, vəssal vəziyyətinə salmaq arzusunu da Heydər Əliyev düşmənələrmizin gözündə qoydu. Xəzər neftinin dünyaya ixracı üçün «Əsrin müqaviləsi» kontraktı imzalandı. Azərbaycan neftinin dünyaya uzanan qolları dünyanın güclü dövlətlərinin marağını Azərbaycana yönəltdi. Düşmənlərimizə «dur» komanadsı verildi. Heydər Əliyevin uzaqgörən siyasəti Sovet imperiyasının caynağından qurtulan 14 respublikanın taleyində həlledici rol oynadı. Böyük rus qoşununun qarşısı alındı.

Aqillərdən biri belə demişdir: «Elə yaşa ki, öləndən sonra da ölməyəsən», «Ölməzlik, həmişəyaşarlıq» ancaq dahilərə, böyük şəxsiyyətlərə nəsib olan xoşbəxtlikdir. Xalqın böyük oğlu ümummilli liderimiz Heydər Əliyev də məhz belə xoşbəxtlərdəndir.



Bənövşə ətirli bir bahar günündə dünyaya göz açan bu bahar oğlu xalqına, əbədibahar gətirmiş, xalqın tarixini şərəfləndirən uğurlara imza atmışdır. Əynində gəzdirdiyi Sovet dövlətinin general mundiri belə qəlbində daşıdığı vətən, millət sevgisinə kölgə sala bilməmiş, adi rəhbərlikdən Azərbaycan Respublikasının qəh rəmanına çevrilməsinə mane ola bilməmişdir. Bəli, bu gün də fəxrlə deyə bilərik ki, o, bizim birinci Milli Qəhrəmanımız, Millət Qəhrəmanımızdır.

Bakıya – ulu öndər Heydər Əliyev haqqında inşa müsabiqəsinə gələndə Fəxri xiyabanda Onun – o böyük insanın abidəsini ziyarət etdim. Onun – O böyük insanın məğrur, uzaqlara baxışında bir təbəssüm var idi. Mənə belə gəldi ki, bu təbəssüm ölkəmizdə gedən abadlıq, quruculuq işlərindən, xalqın get-gedə yaxşılaşan güzəranından doğan məmnunluq gülüşü idi. Mən bu hislərin təsiri altında idim, elə bu an sakit, məlahətli bir səs eşitdim: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam».

Qeyri-ixtiyari öz-özümə pıçıldadım: «Əziz baba, sən həmişə azərbaycanlı olmağınla fəxr etmisən. Kəndli ilə görüşəndə, fəhlənin qabarlı əlini sıxanda, balaca məktəbli qızın başına sığal çəkəndə, müəllimlə, həkimlə söhbət edəndə, əsgərin kürəyinə əl qoyanda da sənin sevgini, böyüklüyünü hiss etmişik. Sənə söz verirəm ki, sənin adına layiq məktəbli olacağam. Rəssam olsam, ilk dəfə sənin şəklini çəkəcəyəm. Şair olsam ilk seirimi sənə həsr edəcəyəm».



## Şükürlü Ləman Hidayət qızı

*Bakı şəhəri, E.Şəmiyev adına*
*149 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*

Bu gün mən bir Azərbaycan övladı olaraq Heydər Əliyev şəxsiyyətindən, Heydər Əliyev dühasından söz açmağa cürət edirəm. Onun haqqında deyilən sözlər, fikirlər nə qədər möhtəşəm olursa olsun, bu dahi şəxsiyyətin fonunda dəryada bir damlaya bərabər olacaqdır. Başı bəlalar görmüş Azərbaycanın kiçik bir vətəndaşı kimi «Odlar yurdu» olan bir məmləkətin doğma bir övladı kimi ulu öndərin, dünya əhəmiyyətli siyasətçinin, bütün məzmunlu ömrünü Azərbaycanın müstəqilliyinə qurban vermiş Heydər Əlirza oğlu Əliyevin şanlı həyat yolunu, heç də asan olmayan mübarizəsini əsl qəlb yanğısı ilə qəlbimin odunu və sönməz bir arzusunu aşağıdakı misallarda ifadə etmək istəyirəm.

Gəlin, tariximizə, yaxın keçmişimizə nəzər salaq və bəzi suallarımıza cavab tapmağa çalışaq. Kim idi Heydər Əliyev? Zaman-zaman Azərbaycanı bölüşdürmək istəyənlərdən, onu parçalayıb qul, kölə etmək istəyənlərdən, bu başıbəlalı yurdumu qatı zülmətlərə qərq etmək istəyənlərdən necə qurtardı Heydər Əliyev?

Zamanla yadellilər, amansız qəsbkarlar doğma Azərbaycanımızı ata malı kimi böldülər, tikanlı məftillərlə sədlər çəkdilər, «Böyük Ermənistan» xülyası ilə yaşayan bədnam qonşularımız ulu Tanrımızın qüdrətini əsirgəmədiyi gözəl Qarabağımızın füsunkar təbiətinə, dumduru bulaqlarına, Azərbaycanımızın yeraltı və yerüstü sərvətlərinə göz dikdilər.

Tarix daim Azərbaycan xalqını sınağa çəkmişdir.

1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı rus hərbi birləşmələrinin erməni daşnakları ilə birgə doğma Bakımızda törətdikləri vəhşiliklərin qurbanı oldu, yüzlərlə günahsız tökülən şəhid qanının şahidi oldu. O zaman Azərbaycanda yüksək kürsülərdə oturan bacarıqsız və qabiliyyətsiz rəhbər işçilərin isə nə qədər yarıtmaz olduqları bir daha sübuta yetirildi.



... Və o günlərdə xalq ümidini itirmədi. Azərbaycan xalqı öz xilaskarını, diplomat sərkərdəsini səbirsizliklə gözləyirdi. O xilaskar kim idi? O, Heydər Əliyev idi...

*Amalını heç kimsə yora bilmədi,*
*Əqidəni heç kimsə qıra bilmədi.*
*Vətən adlı bir ilhamdan güc aldı,*
*Öz xalqına baş əydikcə ucaldı.*

Bu dahi şəxsiyyət əvvəlcə Moskvada – Kreml meydanında sovet ordusunun doğma Bakımızda törətdiyi vəhşilikləri qəzəblə, nifrətlə qamçıladı və M.S.Qorbaçovu ədalət məhkəməsinə verməyi tələb etdi. Cəsarətli çıxışından sonra o fədakar dühа hiyləgər düşmənin fəndlərini boşa çıxarmaq və xalqına nicat vermək üçün öz vətəninə, – Naxçıvana qayıtdı.

Bəli, mənim babam, əziz Heydər babam dözmədi. Öz canını vətəninə sipər etdi, o, öz canını namusuna, qeyrətinə çəpər etdi. Beləcə vətəninə döndü o.

Sovet ordusu öz «cürətini» göstərərək qadını da, qocanı da, uşağı da gülllədən keçirdi. Yüzlərlə günahsız insan məhv edilsə də, yüzlərlə günahsız şəhid qanı tökülsə də, o qanlı 20 Yanvar gecəsi hüznlü gün kimi qeyd olunsa da, eyni zamanda həmin gün tariximizə fədakarlıq və qəhrəmanlıq zirvəsi kimi daxil oldu. Xalqımız mənən ucaldı və bütün dünyaya sübut etdi ki, öz ləyaqəti uğrunda qurbanlar verməyə və tarixə şanlı səhifələr yazmağa qadirdir.

O zaman xalq hərəkatına rəhbərlik edən, çağlayıb daşan mübarizə meydanında təşkilatca və ideyaca sıx birləşmiş bir qüvvə yox idi ki, kükrəyib daşan bu selin gücünü lazımi məcraya yönəltsin və nahaq qanlar tökülmədən, qurbanlar verilmədən qarşıya qoyulmuş məqsədə çatmağa imkan yaratsın. Bəs ümid dayağı, təsəlli mənbəyi kim idi? O yalnız Heydər Əliyev idi. O idi ümid yeri, pənah yeri, güman yeri... Yalnız o idi.

Əziz babam, qeyrətinə baş əyirəm, məramına, niyyətinə baş əyirəm!

*O, bütün ömrü boyu xalqı üçün çalışdı.*
*Gecə nədir bilmədi, gündüz nədir bilmədi.*

Şirin yuxu nədir bilmədi... və nəhayət, daxili və xarici düşmən öz qarşısında separatçı qüvvələrə qarşı dayana biləcək yenilməz bir şəxsiyyət gördü. Lakin xarici müdaxilə öz axarı ilə davam edirdi. 1994-cü ildə Heydər Əliyev həlli vacib olan mühüm bir addım atdı: atəşkəsə nail oldu. Bu, onun ilk ən böyük qələbəsi idi.

H.Əliyevin Türkiyə, İngiltərə görüşləri, Nyu-Yorkdakı BMT-nin, Budapeştdəki ATƏT-in xitabət kürsülərindən etdiyi dəyərli çıxışları və nəhayət, əsrin müqaviləsi olan neft müqaviləsi Azərbaycanın haqq səsini bütün dünyaya bəyan etdi.

Bir gün qədim türk xaqanlarından olan Metedən atını, sonra kənizini istəyirlər, verir. Bundan ürəklənən qonşu hökmdar ondan sərhəddəki qumsal torpağı istəyir. Mete xaqan deyir «sən məndən mənə məxsus olanları istədin, verdim. Torpaq isə mənim deyil. Orada əcdadlarımızın ruhu uyuyur. O, xalqındır.»

Necə də böyük əqidə oxşarlığı var. Sən də əqidənə sadiq qalaraq son damla qanına qədər torpaqlarımızın qorunması və geri qaytarılması uğrunda canını fəda etdin, əziz babam!

Deyirlər min qəddi əyən mənəvi yük bir çiyinə düşdükdə dahilik yaranır. O dahi sənsən, əziz babam!

Bu gün təhsil aldığım doğma məktəbimin də devizi belədir: «Dahilərdən həyat dərsi alaq, adilərdən yox». Hər gün doğma məktəbimin – bilik məbədinin qapısından içəri girdikdə və bu devizi gördükdə gözlərim önündə sənin portretin canlanır. Həyat dərsi almalı olduğumuz o dahi sənsən, Heydər babam!

Bir dahi demişdir ki, ölməz o insandır ki, özündən sonra vətəninə faydalı yadigarları qalır. Sən də bilirdin ki, sənin məsləkinə, amalına dayaq yalnız İlhamdır...

İnsanlığın meyarı var bu dünyada: o da ləyaqətdir. Sən də ləyaqətlə yaşadın bu ömrü. Ömür sürdün əsl insan kimi. Tanrı bunun əvəzində sənə bir oğul övladı verdi. Adını özün qoydun İlham. Sanki əvvəlcədən bilirdin xalqımız ondan alacaqdır İlhamını. Sonra öyrətdin ki, düşmənini, yaxınım tanısın. Başa saldın dünyaya niyə gəlib. Öyrətdin ki, o, vətəninə yiyə gəlib. O da bu ata nəsihətini varlığına qalxan etdi. Bu öyüdün ovsununda ürəkləndi. Xalqımız yadlara qırmanc bildi onu... Ulu Tanrımız yad düşmənə dilmanc bildi onu...Vətən övladları güvənc bildi onu... Arxasızlar, köməksizlər taleyində qazanc bildi onu, inanc bildi onu...

Bu gün sevimli prezidentimiz Azərbaycanın qapılarını dünyaya, dünyanın da qapılarını Azərbaycana açmaq yolunda inamlı addımlar atır. Azərbaycanımız elə bir iti görən gözə çevrilib ki, indi çoxları mədəniyyətə onunla baxır. Ölkəmiz ilk Avropa oyunlarını öz isti qucağında keçirməyə, öz qollarını gələnlərə acmağa hazırlaşır.



Əziz babam, sən öz gəlişinlə tənəzzülə sürüklənən dövlətimizi boranlı, çovğunlu qışdan, fırtınaların qoynundan çəkib çıxardın. Sənin gəlişinlə ölkəmizə bahar gəldi. Yurdumuz yaz fəslində açan al-əlvan qönçələrə çevrildi. Səninlə başlayan, adınla bağlı olan bu inkişafımız bizə qoyub getdiyin dəyərli yadigarın, möhtərəm prezidentimiz İlham Əliyevlə davam edir.

Heydər babam, arzusuz yaşamaq olmur. Bir arzum da var. Fəxri Xiyabandakı o məğrur abidəniz azad olunacaq rayonlarımızın ən görkəmli yerində ucalsın! İnanıram. İnanıram ki, o gün gələcək. İnanıram ki, biz o qüdrətli gələcəyimizin yaradıcılarıyıq!

Böyük türk şairi Nazim Hikmətin təbirincə desək:

*Biz unutduq ağlamağı.*
*Bizi bir az qəmsiz və məğrur qoyub getdi göz yaşlarımız...*
*Bundan dolayı biz unutduq bağışlamağı...*
*Gediləcək yerə qan içində gediləcəkdir.*
*Və zəfər heç bir şeyi əfv etməyəcək*
*Qədər dırnaqla sökülüb aldə ediləcəkdir...*



## Vəliyeva Xumar Əlövsət qızı

**Bakı şəhəri, «Ankara məktəbi» məktəb-liseyin XI sinif şagirdi**

*Ömür borc verilir qırx il, əlli il,*
*Xoşbəxtdir həyatda ad qazananlar.*
*İnsanın ömrünü yaşında deyil,*
*Gördüyü işlərin özündə axtar.*

Deyirlər ki, zaman hakim, tarix isə yaddaşdır. Mən də dünya azərbaycanlılarının qürur mənbəyi olan ümummilli lider Heydər Əliyev haqqında inşa yazarkən zamanın hakimliyi fonunda yaddaşlarda qalan, əbədiyaşarlığın sirrini araşdırmaq istədim.

Azərbaycan tarixində yaddaşlara həkk olunan, dünya siyasətində dəstxətti ilə seçilən dövlət başçıları arasında fenomen istedadı və bacarığı ilə fərqlənən ulu öndər Heydər Əliyev ölkəmizin dünya birliyinə açılan yoluna işıq saldı. Bu işığın nuru Azərbaycanın dünyada imicinin nüfuzunun artmasına səbəb oldu.

Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti, yüksək idarəçilik qabiliyyəti və bacarığı sayəsində, ölkəmiz sovetlər birliyi dövründə qabaqcıl respublikalar sırasında idi. Onun 1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdışı dövlətin siyasətində yeni mərhələnin, müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcı oldu. Daim dövləti, xalqı üçün yaşayan, ömrünü vətəninin, xalqının gələcəyinə həsr edən ümummilli lider Heydər Əliyev həyata keçirdiyi islahatlarla böhran içərisində qalan Azərbaycanın iqtisadiyyatının gücləndirilməsinə xidmət edən genişmiqyaslı quruculuq işləri idi. Hər zaman ölkənin iqtisadi inkişafı naminə səmərəli yollar axtaran ulu öndər Heydər Əliyev neft strategiyasını müəyyənləşdirdi.

1994-cü ildən Azərbaycan yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas prinsipləri Azərbaycan xalqının rifahı naminə bu



layihədən daha səmərəli istifadə etməkdən asılıdır. Bu sözləri söyləyən Ulu öndərin proqram xarakterli sözləri təkcə neft sənayesinin deyil, iqtisadiyyatın bütün inkişaf sahələrinin yollarını aydın göstərdi. O deyirdi ki, «Təbii ehtiyatlardan düzgün istifadə etdikdə o, zəngin sərvətə çevrilir».

Təbii ehtiyatların sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Heydər Əliyev Dövlət Neft Fondunun yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi.

Hər bir dövlət onda güclü olur ki, onun möhkəm iqtisadiyyatı və güclü ordusu var.

«Bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, inkişafı, möhkəmlənməsi yalnız və yalnız Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır. Biz düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik». Bu sözləri söyləyən Ulu öndər Heydər Əliyev 1994-cü il mayın 12-də atəşkəsin əldə edilməsi ilə ölkənin bütün sahələrdə inkişafının təmin olunmasında əhəmiyyətli rol oynadı.

1995-ci ildə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan milli Konstitusiyamızın ümumxalq səsverməsi yolu ilə qəbulu insan hüquq və azadlıqlarının qorunmasında mühüm addımlardan biri oldu.

1998-ci ildə Şərqdə ilk dəfə ölüm hökmü ölkəmizdə ləğv olundu. Dəfələrlə humanistlik göstərərək əfv və amnistiya qərarları qəbul edən Ulu öndər dövlətin siyasətində insan amilinə nə qədər yüksək dəyər verildiyini bir daha nümayiş etdirdi.Ümumilli liderimizin ölkəmizə rəhbərlik etdiyi otuz beş il ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən normal təfəkkürün əhatə dairəsinə sığışdırmaq mümkün olmur.

Ulu öndər tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövr ərzində bu missiyanı böyük uğurla yerinə yetirib.

Bu gün ölkəmizdə Ümumilli liderimiz tərəfindən əsası qoyulmuş hüquqi, dünyəvi, demokratik dövlətin və vətəndaş cəmiyyətinin quruculuğu prosesi, ölkə prezidenti Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu Öndərin uğurlu həyat yolu, idarəçilik qabiliyyəti, vətən sevgisi və bir sıra başqa xüsusiyyətləri hər bir azərbaycanlı gəncə nümunə olmalıdır.

Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir. Hər bir azərbaycanlı kimi mən də inanıram ki, Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin yüksək idarəçilik qabiliyyəti və rəhbərlik bacarığı sayəsində ölkəmiz daha da inkişaf edəcək, müstəqilliyini və suverenliyini qoruyub saxlayacaqdır. Ulu Öndərimizin də ruhu şad olacaqdır.



***Vəliyeva Nərgiz Azad qızı***

***İmişli şəhəri, N.Nərimanov adına 1 nömrəli Humanitar fənlər təmayüllü liseyin XI sinif şagirdi***

Bəzən elə olur ki, düşündüklərimi ifadə etmək üçün fikrimi qarşısındakı insana tam olaraq çatdırmaq üçün günlərimi, həftələrimi sərf etməli oluram. Düşünürəm ki, hansı sözlərdən və ya cümlələrdən istifadə etsəm, həm yazının qəhrəmanını oxucuya tam çatdıra, həm də ki təkrarçılığa yol verməyərək insanların sevə-sevə oxuyacağı bir inşa yaza bilərmi?

Əslində, bu gün haqqında danışacağım qəhrəmanımın həyatı ilə insanlar müəyyən mənada məlumatlıdırlar. Məsuliyyətimin fərqindəyəm. Bəli, mən bu gün Heydər Əliyevdən söhbət açacağam.

Bir məktəblinin gözündə Heydər Əliyev kimdir? Bu suala cavab verməzdən öncə kiçik bir xatirəmi sizinlə bölüşmək istəyirəm.

Hələ kiçik yaşlarımdan kitabları çox sevdiyim üçün babamın kitabları diqqətimi çox cəlb edirdi. Yazılarını tam olaraq oxuya bilməsəm də, şəkillərinə baxaraq nələri isə anlamağa cəhd göstərirdim. bir gün yenə bu kitablarla məşğul ikən rəfdəki bir kitab diqqətimi özünə çox çəkdi. Kitabın rəngini, böyüklüyünü deyə bilmərəm, məndə onu oxumağa qarşı şiddətli bir hiss oyatdı. Əlimə götürüb adını oxumağa çalışdım. Hələ məktəbə təzə getməyimə baxmayaraq, adını hecalara bölərək oxudum «Qayıdış».

Açdığım hər səhifəsində yalnız bir insanın rəsmini görürdüm. Mən bu insanın şəklini başqa bir yerdə də görmüşdüm. Amma harada? Bəli, «Əlifba» kitabının ilk səhifəsində görmüşdüm.

Daha sonralar televiziya verilişlərindən, müəllimlərimdən adını öyrəndiyim bu insanın həyatı ilə gələcəkdə maraqlanacağım heç ağlıma belə gəlməzdi. Adı Heydər Əliyev idi. Düzünü desəm heç kimdən cəsarət edib soruşa bilmirdim ki, Heydər Əliyev kimdir? İnsanlar onu niyə bu qədər sevir? Niyə o, insanlar arasına çıxanda hər kəs onu əhatəsinə alaraq əziz bir adamları imiş kimi onunla görüşüb, söhbət edirlər? Ən önəmlisi isə onun rəsmi olan kitab babamın kitabları arasındadırsa, deməli, bizim üçün də çox önəmli insandır. Kimsəyə vermədiyim suallarla birlikdə mən də böyüdüm. Artıq hər şeyi dərk edəcək yaşdayam. Bir zamanlar kimsəyə vermədiyim suallarıma artıq cavab tapmışam. Bildiklərimdən bir hekayə düzəltməyi qərara aldım. Hekayəmi sizinlə də bölüşmək istəyirəm. 1923-cü ildə Naxçıvan şəhərində Əliyevlər ailəsində dünyaya göz açan bu balaca Heydərin gələcəkdə bir xalqın, bir millətin xilaskarı olacağı heç kimin ağlına belə gəlməzdi. İllər bir-birini qovur, Heydər böyüyürdü. Orta məktəbdə müəllimlərinin ən sevimlisi olan Heydər Əliyev təhsilini «əla» qiymətlərlə başa vurduqdan sonra Bakı Dövlət Universitetinə qəbul olub, ali təhsilini davam etdirdi. Təhsilə çox önəm verən Heydər Əliyev gələcəkdə öz millətinin savadlı uşaqlarını xarici ölkələrdə oxutdurmaqdan ötrü əlindən gələni əsirgəməmişdir. Belə ki, bir faktı diqqətinizə çatdırım. 1963-cü ildə Rusiyada təhsil almaq üçün yerlərin sayı 345 idisə, Heydər Əliyev hakimiyyətə gələndən sonra bu rəqəm 1000-ə qədər yüksəlmişdir.



Yazımı oxuyarkən düşünə bilərsiniz ki, nəyə görə ilk öncə hekayəni təhsil ilə bağladım? Bu suala belə cavab vermək istəyərdim. Bir ölkənin, bir xalqın dirçəlməsini istyirlərsə düşünürəm ki, ilk öncə o ölkənin insanlarını maarifləndirmək lazımdır. Ondan sonra savadlı insanların sayının artması ilə ölkə gündən-günə irəli gedəcək. Heydər Əliyev siyasətinin ilk parlaq nümunəsini diqqətinizə çatdırdım.

Dahi şəxsiyyət olan Heydər Əliyevin dilimizə töhfələrin sayı-hesabı bitib, tükənməzdir. Baxın, hal-hazırda mənim yazımı oxuyursunuz. Oxuyarkən kimsə eşidər deyə, heç səsinizi qısırsınızmı? Şübhəsiz ki, yox. kimsədən qorxmadan, çəkinmədən öz ana dilimizdə danışırsınız. Qorxub çəkinib mübarizə aparmaya da bilərdi. Lakin etmədi. SSRİ-də konstitusiya qəbul olunarkən azərbaycanlıların öz dilində danışması üçün mübarizə apardı. Nəticəsi göz qabağındadır. Yeni Azərbaycan Partiyasının II Qurultayında Heydər Əliyev bu məsələyə toxunaraq demişdir: «Moskva buna qəti etirazını bildirdi. Bunun mümkün olmayacağını, dövlət dili kimi rus dilində danışacağını tələb edirdi. Lakin biz buna razı ola bilməzdik. Müqavimətlərin qarşısını alaraq istəyimizə çatdıq. Azərbaycan dilini dövlət dili kimi konstitusiyaya həkk etdirməyi bacardıq».

Bu sözləri yazarkən düşünürəm ki, mən bu qədər cəsarətli bir addım ata bilərdimmi? Düşünürəm ki, yox. Bəs siz necə? Dünyanın hegemon dövlətinə qarşı təkbaşınıza, hər şeyi təhlükə altına ataraq mübarizə apara bilərdinizmi?

Məsələnin ciddiyyətinin fərqinə varmadığınız üçün belə bir müqayisə edək. Hansı SSRİ dövlət rəhbərlərindən biri Kremldən belə mühüm bir məsələnin həllinə dair şikayətini bildirə bilərdi? Şübhəsiz ki, heç biri. Heç olmadı da.

Bundan sonra Azərbaycanın başı üzərindən qara buludlar əksik olmadı. Vətənimizin dilbər guşələrindən biri olan Qarabağ yağı düşmənin hücumuna məruz qaldı. Torpaqlarımız bir-birinin ardınca düşmən tapdağı altında qaldı. Bu ərəfələrdə özünə rahatlıq tapa bilməyən Heydər Əliyevin haqq səsini boğmağa çalışırdılar. Bütün bu təqiblərə baxmayaraq tribunalarda Heydər Əliyev öz məğrur duruşuyla durur, insanlara dəstək olmaqdan yorulmurdu. Hər zaman bu sözləri ilə öz xalqına dəstək olduğunu göstərirdi.

«Mən bu çətin günlərdə öz mənafeyimi düşünə bilmərəm. Vətəninin qəlbinə dəyən daş mənim ürəyimi parçalayır».

Bilirsinizmi, insanın çətin günündə yanında olan, ona ürək-dirək verən insana çox ehtiyac duyar. Çətin günlərdə, dar günlərdə əlindən tutub qaranlıqdan çıxara biləcək birinə etimad göstərər. Heydər Əliyev bu vəziyyətdə olan tək bir insanın köməyi olmadı, o, bir millətin xilaskarı oldu. Xalq Heydər Əliyevi hakimiyyətə gətirməklə düşünürəm ki, ən gözəl və düzgün seçimini etmişdir. Heydər Əliyevin hakimiyyətdən öncə və sonrakı işləri haqqında məlumat verməyə nə kağızın, nə də qələmin gücü çatar. Hakimiyyətə gəldikdən sonra Azərbaycan xalqının bir dövlət kimi özünü hiss etməsi üçün düşünürəm ki, verdiyi qərarlardan ən böyüyü olan konstitusiyanı yaratmaq olmuşdur. Sonra xalqını dərindən sarsan böhrandan qurtarmaq üçün «Əsrin müqaviləsini» imzaladı. «Bakı–Tbilisi–Ceyhan», «Bakı–Tbilisi–Ərzurum» neft-qaz boru kəmərləri dünyanın böyük ölkələri ilə Azərbaycan arasında bir körpü saldı. Ümummilli Liderimizin saldığı bu körpünü uzadıb başqa ölkələrin sahilləri ilə birləşdirən isə İlham Əliyev olacaqdır. Bir Heydər Əliyevin qoyub getdiyi qayda-qanunlarla yaşayıb ümid edirik ki, onun ruhunu şad etməyi bacarırıq.

Mən sonda Heydər Əliyevin vəfatı haqqında heç bir məlumat vermək fikrində deyiləm. Oxuduğum bütün hekayələrin sonu gözəl sonluqla bitir. Mən də bu yazımda bir igidin ömrünü canlandırmağa çalışdım. Ölümün bu gözəl xatirələri pozmağa düşünürəm ki, heç bir haqqı yoxdur.

Sonda inşanı necə bitirəcəyimi düşünərkən bir məşhur filosofun sözlərini xatırladım: «Xalqı təşkil edən insanlardan yalnız biri dahi doğulur, milyonlarla saatdan yalnız biri həqiqi xoşbəxt saat olur».

Necə ki, mənim bu sətirləri yazarkən keçirdiyim xoşbəxt hislər kimi.






## *Abdullayeva Aytac Mehman qızı*

***Neftçala rayonu, Z.Əsgərov adına Aşağı Surra kənd tam orta məktəbinin XI sinif şagirdi***


Bu gün mənim üzərimə böyük və məsuliyyətli iş düşüb. Bu işi yerinə yetirməkdən ötrü mən dəftərimdə bütün ürək sözlərimi ağ vərəqlərə köçürməliyəm, amma düşüncələrimi necə mükəmməl ifadə edəcəyimə hələ də qərar verə bilməmişəm. Çünki bu fikirlər adi bir insana ünvanlanmayacaq.

İnsanlar var ki, bir müddət ağızlarda dolaşan nəğmələrə bənzəyirlər, az sonra bu nəğmə unudulur. Dahilərin adı isə hər zaman dillərdə olur.

Heydər Əliyev müdrikliyi, uzaqgörənliyi, titanik fəaliyyəti ilə özünə əbədi yer alan böyük azərbaycanlı. Adı Azərbaycanın, bütövlükdə türk dünyasının tarixinə qızıl hərflərlə yazılmış dahi. Belə dahilər hər əsrin, hər xalqın bəxtinə düşmür.

1923-cü ilin gözəl bir may günü.Qədim Oğuz diyarı Naxçıvan. Bu gün tamam fərqli bir gündür. Dünyaya göz açdıqda atası Əlirza kişini sevindirən bu körpə gələcəkdə bütün türk dünyasının sevgisinə çevriləcəyindən əlbəttə, xəbərsiz idi. O, hamıdan fərqlənirdi. Uşaqlıq arzuları belə onu hamıdan fərqləndirir, onun gələcəyindən xəbər verirdi. Onun orta məktəb yoldaşlarının birinin xatirəsində deyilir: «Ondan soruşanda ki, böyüyəndə kim olacaqsan? O, dərhal «general olacağam», – söyləyirdi. Ona sinifdə zarafatla «general» deyərdik.

Hələ uşaqlıqdan general olmaq istəyi ilə böyüyən, adını xalqının qəlbinə qızıl hərflərlə yazan Ümummilli Liderin həyat və fəaliyyətini vərəqlədikdə hər səhifədə şərəf lövhəsi əks olunur. Orta məktəbi dahilər məskəni olan Naxçıvanda bitirdikdən sonra 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirmişdir. Daha sonra Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsində təhsil almış, lakin bu təhsil parlaq zəka sahibini qane

etməmişdir. Mükəmməl biliyə, sarsılmaz inama sahib olan Heydər Əliyev 1957-ci ildə tarix fakültəsini bitirmişdir. Təhsil aldığı illərdə onu yoldaşlarından bir xüsusiyyət fərqləndirir: daim irəli getmək amalı. Bu amalla yaşayan Ümummilli Lider müxtəlif vaxtlarda rəhbər vəzifələrdə çalışan zaman daim xalqının öndə olması istiqamətində işlər görmüşdür.

1969-cu il iyul plenumunda Azərbaycan Respublikasının idarəçiliyi Heydər Əliyevə həvalə olunmuşdur. Heydər Əliyevin uzaqgörənliyi ölkəmizi o vaxtkı sovet məkanına daxil olan dövlətlər içərisində ən yüksək səviyyəyə qaldırmışdı. Onun bacarığı, iti siyasəti SSRİ rəhbərliyinin diqqətindən yayınmırdı. Elə bunun nəticəsi idi ki, Heydər Əliyev 1982-ci ildə SSRİ rəhbərliyinə rəhbər vəzifələrdən birinə təyin olundu. O vaxt sovet məkanında Nazirlər Soveti sədrinin birinci müavini olmaq hər bir azərbaycanlı üçün yuxu ola bilərdi ki, bu yuxunu Heydər Əliyev dühası çin etdi.

Qorbaçovun antiazərbaycan siyasəti Heydər Əliyevin vəzifədən kənarlaşdırılması ilə nəticələndi, tutduğu vəzifələrdən istefa verdi. Bu, elə bir dövr idi ki, SSRİ özü daxildən parçalanır, süqut dövrünü yaşayırdı. Belə bir dövrdə Azərbaycan xalqı da müstəqillik naminə ayağa qalxdı. Xalqın bu istəyini öz qınında boğmağa çalışan imperiya rejimi Qorbaçov hakimiyyəti Azərbaycana ordu yeridərək Bakını qan gölünə döndərdi. Dinc əhalinin qətlə yetirilməsini xalqı üçün ən ağır faciə hesab edən qeyrətli vətən oğlu Heydər Əliyev Qorbaçovun bu iyrənc siyasətini çəkinmədən onun üzünə söylədi.

Bəli, azadlığımızı qanda boğmağa çalışdılar, lakin buna nail ola bilmədilər. Azərbaycan azad oldu, müstəqillik əldə etdi. Qeyd edək ki, müstəqilliyimizin ilk illərini Azərbaycan ağır şəraitdə yaşayırdı. Bir tərəfdən Dağlıq Qarabağa göz dikən mənfur ermənilərin «ərazi iddiası» adı altında etdiyi müharibə, digər tərəfdən ölkənin daxilindəki böhran Azərbaycanı parçalanmaq təhlükəsi ilə üzbəüz qoydu. Xalq öz ağır günündə ümid dolu gözlərini xilaskarının gələcəyi yollara dikdi. Bəla burulğanında boğulan Azərbaycanı son nəfəsdə məhv olmaq təhlükəsindən, məhz, Heydər Əliyev xilas etdi. Xalqın çoxsaylı çağırışına səs verərək paytaxta – Bakıya gəldi. On beş iyun təqvimə «Milli Qurtuluş Günü» kimi düşdü. Xalqın çoxsaylı çağırışını qəbul edib Milli Məclisə rəhbərlik etdiyi gündən ölkənin dayaqları möhkəmləndirildi. Xalq öz qədirbilən oğlunu dövlət başçısı kimi görmək istəyirdi. Bu istək, nəhayət, 1993-cü il 3 oktyabrda reallaşdı. Ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin sosial-iqtisadi, ictimai-siyasi, elmi-mədəni həyatında, beynəlxalq



əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Onun Azərbaycana rəhbərliyi ilə Azərbaycan çiçəkləndi, ən uğurlu addımlarla irəlilədi. Heydər Əliyevin apardığı siyasət nəticəsində dünyanın aparıcı ölkələri və şirkətləri ilə əlaqələr tənzimləndi. 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunması neftin pay şəklində bölüşdürülməsi haqqında» dünyanın on bir ən iri şirkəti ilə «Əsrin müqaviləsi» imzalandı. Heydər Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan QDƏT, İƏT, MDB, BMT, ATƏT-ə üzv qəbul olundu. Xarici əlaqələri möhkəmləndirən uzaqgörən siyasətçi beynəlxalq aləmin təsiri ilə Ermənistanı sülh danışıqları aparmaq üçün danışıq masasına oturtdu. Xarici və daxili əlaqələri normal hala gətirən dahi öndər ölkədə neft sektorunun inkişafını görür və qeyri-neft sektorunun inkişaını da mühüm sayırdı. Onun bu istiqamətdə gördüyü işlər hər bir azərbaycanlının qürurla oxuduğu sətirlərdir. Öz milli mənsubiyyətini hər şeydən üstün tutan Ümummilli Lider xalqını sağlam görmək istəyirdi. «Sağlam bədəndə sağlam ruh olar», fikrini həyatının mənası hesab edən Heydər Əliyev müxtəlif olimpiya mərkəzlərinin inşa edilməsi üçün göstərişlər verir və idmana xüsusi qayğı ilə yanaşırdı. Bunun nəticəsidir ki, dəfələrlə Sidney, Atlanta və başqa şəhərlərdə medalla təltif olunan zəfər çalmış idmançılarımız ölkə bayrağını başları üzərində dalğalandırmışdır. Avropa qitəsində, dünyada bəşəriyyətin sevə-sevə dinlədiyi Himnimiz səsləndirilmişdir.

Heydər Əliyev Azərbaycan təhsilinə də həssas münasibət bəsləmişdir. «Mən müəllim adından şərəfli ad görmürəm», – deyən Ümummilli Liderimiz təhsilin inkişafı istiqamətində bir sıra işlər görmüşdür. Hazırda təhsilimizin bu səviyyəyə yüksəlməsi bir zamanlar dövlət başçısının ölkə təhsilinə göstərdiyi diqqətin nəticəsidir. Bu gün Azərbaycan təhsili yüzlərlə tələbənin və elm xadiminin simasında beynəlxalq arenada layiqincə təmsil olunur.

O çoxşaxəli fəaliyyət neçə-neçə kitabın mövzusudur. Ömrü neçə-neçə kitaba sığmayan, həyat yolu xalqının qürur mənbəyi olan Ümummilli lider xalq tərəfindən daim sevilirdi. Bir sözlə, Azərbaycan xalqı öz nicat yolunu bu dahi öndərin əməli fəaliyyətində tapmışdı.

Qurtuluş yolunu bu dahi insanın əməlində tapan Azərbaycan xalqı öz xilaskarını sevirdi. Bu sevginin nəticəsi idi ki, 1998-ci ildə Prezident seçkilərində xalq səs çoxluğu ilə təkrar Heydər Əliyevi dövlət başçısı seçdi. Heydər baba təkrar hakimiyyət başına keçəndə də öz xalqına verdiyi sözə

sadiq qaldı. Hər bir azərbaycanlının prezidenti olan bu ali insanın qəlbi son nəfəsinə qədər xalq ilə döyündü.

2003-cü il ... O ağrılı-acılı, millətin taleyinə qəmlə yazılan, hər bir azərbaycanlının beyninə, qəlbinə böyük boşluq açılan gün... On beş dekabr matəm seli Prezident sarayının yanından axırdı. Heydər Əliyevin tabutu Respublika sarayında idi. Azərbaycanın dahi memarı, yaradıcısı, parlaq zəka sahibinin cismi bir tabutda onun məsləhəti ilə tikilmiş binalara, qurduğu, yaratdığı Azərbaycana vida edirdi. Ayrılıq nəğməsini çalan həsrət öz rübabında qəmə köklənmişdi o gün. Azərbaycanın hər bir güşəsi öz qurucusuna yas saxlayırdı.

Hər kəsin qəlbində bir sevgi var: o sevginin adı, ünvanı Heydər Əliyev sevgisidir.

Bu ali şəxsiyyətə o qədər sevgi var ki, bəzən onun ölümü ilə razılaşa bilmirəm. Suallar içində çaşan ağlımdan Ümumilli liderimizin nəvəsinin – Leyla Əliyevanın dediyi bu sözlər keçir:

*Dağ idin, çiynimi dağlara verdim.*
*Dağların dərdini çəksə, dağ çəkər.*
*Sənə məhəbbətim dağlar qədərdir,*
*Yerini dağlardan soruşum, bəlkə.*

Azərbaycanın dağ cüssəli övladı, vətən keşikçisi, el atası Ümummilli Liderin ölümündən 12 il ötür. Bü gün Heydər Əliyev ruhu şaddır, ona görə ki, qurduğu, yaratdığı Azərbaycan anbaan inkişaf edir. Heydər Əliyev siyasi kursu layiqli davamçısı tərəfindən davam etdirilir. Bu il dünya idman tarixində ilk dəfə olaraq, Avropa Olimpiya oyunları keçiriləcək. Bu oyunlara ev sahibliyi edən Azərbaycan yenidən bir «ilkə» imza ataraq Avropanın diqqət mərkəzində olacaq. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə nə dərəcədə nüfuz sahibi olduğunu göstərir. İndi Azərbaycan sənin təməlini qoyduğun daşın üzərində ucalır, Heydər baba!

Bəli, böyük dühalar heç vaxt ölmədiyi kimi, bir zamanlar qoruduğu vətən torpağını öz üstünə əbədi olaraq yorğan kimi örtən Heydər Əliyev də ölməyib. Bu gün Heydər baba yaşayır. Onun yaşadığı ünvan gələcəyin qurucuları – bizlərin sevgi ilə döyünən ürəkləridir. Hər kəsin qəlbində bir zirvə var: Heydər Əliyev zirvəsi... Bu zirvə hər zaman hər bir alpinistin fəth etmək iştədiyi, ancaq çıxdıqca sonuna qədər uzandığı bəlli olan zirvədir.





## Əliyeva Sitarə Əbdüləli qızı

**Bakı şəhəri, Ə.Əliyev adına**
**125 nömrəli tam orta məktəbin**
**IX sinif şagirdi**

Doxsan iki il bundan qabaq Azərbaycan adlı məkanın göylərində bir günəş doğdu. Doxsan iki ildir ki, bu günəş yanır, sönmək bilmir, ürəkləri, şüurları işıqlandırır. İnsanları sevindirir, ümidsizə ümid verir, zülmətdə yaşayanların yolunu işıqlandırır, dünyanı boş, əyləncə sayanlara müdriklik öyrədir, əsl ibrət dərsi öyrənmək istəyənlərə ruhi-mənəvi qida verir.

Bu günəş Heydərdir! Siyasət dünyasının «fatehi» Heydər! Millətin xilaskarı Heydər! Ulduz kimi sönməz nurunu bütün cahana paylayan Heydər!

*Nurunu gözümdə saxlayım necə?*
*Mücüzə yaratmaq gəlmir əlimdən.*
*Parçalan, ey zülmət, çəkil, ey gecə,*
*Günəşə qovuşmaq istəyirəm mən!*

Heydər Əliyev... İlk baxışda sadə bir Azərbaycan vətəndaşına məxsus olan ad! Lakin bu adı daşıyan şəxsin canı qədər sevdiyi doğma Azərbaycanın inkişafı üçün etdiklərini düşündükcə fikirlər tamam dəyişir və hər bir insanın gözləri önündə tarixi missiya şərəfinə layiq olan Heydər Əlirza oğlu Əliyev canlanır.

Ədəbiyyat dərsində müəllimim mənə deyəndə ki, «Ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolu Azərbaycan gəncləri üçün parlaq həyat nümunəsidir» başlığı altında inşa yaz, özüm də bilmədən üzümdə bir təbəssüm yarandı. Əllərim titrədi, ürəyim çırpındı. Sanki qanadısz bir quş idim. Daha sonra anladım ki, bütün bunlar dahi rəhbərimizə qarşı olan sevgimdən irəli gəlir. Bütün gücümü topladım və Heydər Əliyev kimi dahi şəxsiyyəti layiqincə təmsil edəcəyimi qarşıma məqsəd qoydum. Çünki bilirdim ki, kim öz uğuruna inanırsa, gec-tez onu əldə edəcək Heydər baba! Sizin xal-

qınıza bəxş etdiyiniz xoşbəxtliyi sözlə ifadə etməkdə acizəm. Görünən günəşi təsvir etmək o qədər də asan deyil. Ancaq bu acizliyim belə mənə qüvvət verir, o qüvvətin qarşısında böyük cəsarət hiss edirəm.

Xalqımıza getdikcə daha çox aydın olur ki, azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq da bir o qədər mürəkkəb və ağır işdir. Xalqımızın müstəqil bir dövlət kimi yaşaması ilə düşmənlərimiz heç cür barışmaq istəmirlər.

1990-cı il qanlı yanvar gecəsi. Sovet ordusu Azərbaycana hücum edərək Bakı şəhərini qana qərq etdi. Belə bir zamanda Heydər Əliyev böyük mərdlik və vətənpərvərlik nümunəsi göstərdi. O, Sovet ordusunun qanlı terrorundan qorxmayaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi və Sovet ordusunun törətdiyi qanlı cinayət barədə hamıya məlumat verdi, bu qəddarlığın əsl mahiyyətini açdı. «Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» deyən böyük vətənpərvər xalqı azadlıq mübarizəsinə səslədi, Azərbaycanı bütün azərbaycanlılar üçün qoruyub saxladı. Dünya azərbaycanlılarını bir araya gətirərək dedi: «Azərbaycan dünyada yaşayan bütün azərbaycanlıların Vətənidir». Hər bir azərbaycanlı bu doğma diyara öz ata evi kimi baxmalıdır».

1993-cü il 15 iyun tarixində Heydər Əliyev bir daha sübut etdi ki, doğrudan da, xalqının, dövlətinin yanındadır və xalqın rəhbəridir. Ulu öndər özünəməxsus siyasətini tətbiq edərək sakitliyi tətbiq etməyə çalışırdı. Azərbaycana göz dikən nadanlar isə sakitliyi pozurdu. Xalq bilirdi ki, bu sakitliyi yalnız Heydər Əliyev bərpa edə bilər. Buna görə də dahi şəxsiyyətin yenidən hakimiyyətə gəlməsi tariximizdə əsaslı bir dönüş yaratdı və həmin gün tariximizə «Qurtuluş günü» kimi daxil oldu.

Dünyada azadlıq qədər ikinci şirin bir nemət yoxdur. Bu azadlığı isə bizə Heydər Əliyev bəxş etdi. Mən bu gün sizin bizim üçün miras qoyub getdiyiniz doğma və azad Azərbaycanımızın keçmişinə baxanda sanki yeni bir dünya kəşf edirəm, Heydər baba! Bu, danılmaz bir həqiqətdir. Tarixi vərəqlədikcə görürəm ki, yaşanan günlərimizin daha gözəl, mənalı, dəyərli və əvəzolunmaz keçməsi üçün nə qədər əmək sərf etmisiniz. Deyirlər ki, dahi şəxsiyyət uca bir dağa bənzəyir. Yaxınlaşdıqca əzəməti və qüdrəti daha aydın görünür. Mənə elə bir qüvvə göstərin ki, o, Heydər Əliyevdən də uca bir zirvəyə malik olsun. Məncə, elə bir qüvvə yoxdur.

Bədii əsərdə ədəbi qəhrəman böyük arzuları və idealları təmsil edir. O, xalq, vətən taleyi ilə bağlı amallar uğrunda mübarizə aparır. Bu əsərdə insanlığa, xeyirxahlığa qarşı olan qüvvələr nəticədə yox olub aradan çıxır. Haqq-nahaqa, xeyir-şərə qalib gəlir. Mənim əsərimin də əbədi qəhrəmanı



Heydər Əliyevdir. Çünki həyatda mübariz olmağı dahi rəhbərdən öyrənmişəm.

Dünyada yeddi möcüzə vardır. Bu möcüzələri insanlar yaradırlar. Heydər Əliyev də Tanrının yaratdığı möcüzədir. Elə insanlar var ki, həyatları boyu arzu və xəyallarla yaşayırlar. Məncə, bu düzgün deyil. İnsan cüzi də olsa, öz arzularını reallığa çevriməyi bacarmalıdır. Heydər Əliyevin də bir arzusu var idi: memar olmaq. Ancaq o, peşəkar memar yox, siyasi memar oldu. Yəni o, yeni Azərbaycan qurucusu, müasir və müstəqil Azərbaycanın memarıdır.

Bəzən fikirləşirəm. Fikirləşirəm ki, sizi kimə bənzədim?! Əməllərinizi nə ilə müqayisə edim. Bəlkə də, başqaları belə bir varlıq tanıyır. Lakin mən tanımıram. Sizi yalnız səhər sübhün açılması ilə doğan günəşə bənzədirəm. Çünki siz sönməyən ulduzsunuz. Şəfəqlərini hər yerə paylayan günəş şüasısınız.

*Səni şəfəq bildim bu cahanda mən,*
*Bəzən şimşək olub qəzəblə çaxdın.*
*İlk dəfə dünyaya göz açanda mən,*
*Qəlbimə günəşin özüylə axdın.*

Cəmiyyəti yaşadan, möhkəmlədən, irəlilədən əməkdir, yaradıcı əmək! Heydər baba bu zirvəyə yüksəlmək üçün, dorğudan da, çox əmək sərf etdi. Bu zəhmət isə əvvəl-axır öz bəhrəsini verdi. Heydər zirvəsinin fikri istiqamətini düzgün müəyyənləşdirmək üçün onun siyasət dünyasının «qızıl açarı»nı ələ keçirmək lazımdır. «Qızıl açar»ı ələ keçirən şəxs isə onun mənəviyyat dünyasına daxil olur. Heydər sənəti xalqın dilindən və zəkasından od alıb şölə saçan, insan qəlbində min illər boy atan ali və müqəddəs duyğuların hərarəti ilə zaman-zaman daha gur yanan ocaqdır. Bu ocağın odunda yanmaq isə səadətdir.

Heydər baba! Müəllim olmaq istərdim... Gələcək nəsli sizin kimi vətənpərvərlik ruhunda tərbiyə etmək üçün. Cərrah olmaq istərdim... Sizin üzünüzdəki nurlu çöhrəni başqalarında da formalaşdırmaq üçün. Alim olmaq istərdim... Sizin haqda heç kəsin tapa bilmədiyi şeyləri kəşf etmək üçün. Hüquqşünas olmaq istərdim... Sizin kimi vətənimi və millətimi layiqincə müdafiə etmək üçün. Şair olmaq istərdim... Hüsnünüzdən ilhamlanıb yeni əsərlər yaratmaq üçün. Ən əsası günəş olmaq istərdim... Oğlunuz İlhamla birlikdə gələcəyimizi nurlu sabahlara açmaq üçün.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var.*
*Heydər: «Xalqım!» – deyəcək,*
*Xalq: «Heydər!» – söyləyəcək.*

Biz fəxr edirik ki, azərbaycanlıyıq. Bu gün sizin memarı olduğunuz dövlətçilik irsimizi şərəflə davam etdirən İlham Əliyev kimi Prezidentimiz var və inanırıq ki, xilaskar prezidentimiz torpaqlarımızı mənfur erməni tapdağı altından azad edəcəkdir. Gün gələcək, bayrağımız Şuşada, Xocalıda, Ağdamda dalğalanacaq və həmin gün tariximizə qızıl hərflərlə yazılacaqdır.

Məzarında rahat yat, Heydər baba! Biz bir Azərbaycan gəncləri olaraq bu şərəfli vəzifəni layiqincə yerinə yetirəcəyimizə söz veririk. «Azərbaycan» adlı əmanətin üzərindən kiçik yel əsməsinə belə yol verməyəcəyik. Ulu Öndərin nəsihətini yerinə yetirərək şərəflə, qürurla deyəcəyik: «Azərbaycan dünyaya günəş kimi doğacaq».





**Ələkbərli Lalə Məhərrəm qızı**

**Bakı Humanitar Kollecinin**
**II kurs tələbəsi**

Doğma Azərbaycanımızın hər binasında əlinin hərarəti, hər ağacının böyüməsində əməyi olan, hər mütəxəssisinin ərsəyə çatmasında böyük zəhmət çəkən, millətin gələcəyini öncədən düşünən ürəklərdə və tarixin yaddaşında əbədi yaşayacaq dahi şəxsiyyət ulu öndər Heydər Əlirza oğlu Əliyev müasir Azərbaycanın qurucusudur. O, 1923-cü il mayın 10-da Naxçıvan şəhərində anadan olmuşdur.Naxçıvan Pedoqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyasının) memarlıq fakültəsində təhsil almışdır.Lakin başlanan müharibə ona təhsilini davam etdirməyə imkan verməmişdir.

Heydər Əliyev Azərbaycanın fəxridir. Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, onun Heydər Əliyev kimi dahi şəxsiyyəti, Ümummilli Lideri olmuşdur.

Heydər Əliyev hələ SSRİ dövründə Azərbaycanı nəinki ittifaq miqyasında, hətta bütün dünyaya tanıtmış, onun zəngin mədəniyyətini, adət-ənənələrini, milli-mənəvi dəyərlərini başqa millətlərə çatdırmışdır.

Yüzlərlə məhvə məhkum edilən bir millət, bir vətən ömrü yaşamışıq. Keçmişimiz nə qədər əzəmətli, nə qədər qüdrətli olsa da, bir o qədər də məşəqqətli olub. Tarixin bu çətin sınaqlarından ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində uğurla keçmişik.

Tarixi torpaqlarımızda bu gün bizə tarixi düşmən olan bic, məkrli, qəddar erməni dövləti yaradılıb.

Dilimiz, dinimiz, adət-ənənələrimiz, musiqimiz, mənəvi dəyərlərimiz oğurlanmış, tarixi adlarımız, ünvanlarımız dəyişdirilmiş, tarixi abidələrimiz, müqəddəs ziyarətgahlarımız unutdurulmuş, özgələşdirilmişdir. İçərimizdə olan digər millətlərdən, xüsusən də ermənilərdən ibarət olan daxili

düşmənlər xarici düşmənlərlə birləşərək məhvimizi son həddə çatdırıb yer üzərindən silinməyimizi istəmişlər. Belə bir halda böyük bir dövlətin kiçik bir parçası kimi qalan Azərbaycanın saysız bəlalardan salamat qurtulub bu günə gəlib çatması böyük bir möcüzədir. Bu möcüzənin yaradıcısı öz şərəfli həyat və fəaliyyəti ilə tarixi min illərlə hesablanan dünyanın zəfər salnaməsinə qızıl səhifələr yazmış dahi, müdrik siyasətçi, ümummilli lider Heydər Əliyevdir. Heydər Əliyev bütün şüurlu həyatını millətinin xoşbəxtliyinə həsr etmiş, öz taleyini heç vaxt xalqın taleyindən kənarda düşünməmişdir. Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə ölkədə fəaliyyət göstərən sənət adamları ilə yanaşı, müəllimlərin, bəstəkar və musiqişünasların, şair və yazıçıların uğurlu fəaliyyəti üçün bir sıra tədbirlər həyata keçirilmiş, onların sənətlərinə qayğı ilə yanaşılmışdır. Azərbaycan bir çox beynəlxalq təşkilatlara üzv olmuş, dünyada böyük bir mövqe tutmağa başlamışdır. Buna əsl sübut kimi 1994-cü ilin 20 sentyabrında Azərbaycan və dünyanın ən böyük dövlətlərinin neft şirkətləri ilə bağlanan «Əsrin müqaviləsi» göstərilə bilər.

1996-cı ilin dekabrında ATƏT-in Lissabon Sammitində Heydər Əliyevin uğurlu siyasəti nəticəsində 54 ölkədən 53-ü Dağlıq Qarabağ problemi ilə əlaqədar hazırlanmış mövzuda Azərbaycanın ərazi bütövlüyü prinsipini təsdiqləmişdir.

Bütün bu uğurlarımızın yaradıcısı Heydər Əliyevdir. Heydər Əliyev möhkəm intizamı sevirdi, atdığı hər addım təcrübə və məntiqə əsaslanırdı. Hansı mühitə düşürdüsə, ətrafdakılarla xoş münasibət qurmağı bacarır və ən çətin anlarında özünü itirmirdi. Xalqın, millətin xoşbəxtliyi, vətənin taleyi onun üçün hər şeydən uca, hər şeydən önəmli idi. «Ölsəm xalqımla birlikdə öləcəyəm, yaşasam xalqımla birlikdə yaşayacağam», – deyə ifadə edirdi xalqına olan məhəbbətini.

O qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir, gənclərə veriləcəkdir. Ona görə də bu gün orta məktəblərdə gəncləri hərtərəfli, yaxşı hazırlamalı, gələcəyə, vətənə layiqli övladlar tərbiyə etməliyik. Bu şərəfli vəzifə məhz məktəblərdə gələcəyin gənclərini tərbiyə edən müəllimlərin öhdəsinə düşür.

Mən də bu gün bir Azərbaycan gənci və gələcəyin müəllimi olaraq qeyd etmək istəyirəm ki, bu gün biz gənclər öz fikirlərimizi müstəqil olaraq ifadə edə bilir, öz düşüncəmiz, iradəmiz, məntiqimiz, dünyagörüşümüz, biliyimizlə irəli getməyi bacarır, cəmiyyətdə müəyyən bir mövqe tuturuq. Bütün bunlar müstəqil Azərbaycan Respublikasının azad, müstəqil vətəndaşları olduğumuz üçündür. Bütün bunları: müstəqilliyimizi, azadlığımızı, xalqımızın bugünkü firavanlığını məhz ulu öndərimiz Heydər Əliyevə və onun



davamçısı, Prezidentimiz İlham Əliyevə borcluyuq. Heydər Əliyev qeyd edirdi: «Mən fəxr edirəm ki, Azərbaycanlıyam».

Bu gün mən də fəxr edirəm ki, fəxrlə müstəqil Azərbaycanın müstəqil vətəndaşıyam və fəxr edirəm ki, Heydər Əliyev kimi Ulu Öndərimizin davamçısı Cənab İlham Əliyev dövlət başçımızdır. Baxmayaraq ki, Azərbaycan dünyanın bir sıra nəhəng dövlətləri ilə müqayisədə kiçik bir dövlətdir. Amma önəmli olan dövlətin nəhəngliyi deyil, xalqın mənəvi birliyi, əzmkarlığı, mənəvi gücü, qüdrəti, vahid qüvvəti ətrafında birləşməsidir. Heydər Əliyevin qeyd etdiyi kimi, «Əgər dövlətlərin xalqları öz hüquqlarını tanıyır və qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar».

Bu gün biz gənclər çalışmalıyıq ki, birinci növbədə, Heydər Əliyev irsini dərindən öyrənək, onun yolunu davam etdirək, öz biliyimiz, gücümüz, iradəmiz, təhsilimiz, məntiqimiz, dünyagörüşümüz və mədəniyyətimizlə ölkəmizi bütün dünyaya tanıtdıraq, inkişaf etdirək, irəli getməyi bacaraq. Bizim əsas vəzifəmiz, əsas məqsədimiz budur.

*Ömrün şirin bir nəğmə,*
*Həyatın tarix dərsi.*
*Belə ömür yaşamaq,*
*Arzusudur hər kəsin.*
*Qoy bu tarix dərsini*
*Bütün cahan oxusun.*
*Azərbaycan dinləsin,*
*Azərbaycan oxusun.*

Heydər Əliyev irsi çox böyük bir məktəbdir. Biz bu irsi dərindən öyrənməyə çalışmalıyıq. Heydər Əliyev haqqında nə qədər fikirlər söylənsə, nə qədər kitablar yazılsa, yenə də azdır. Onun bütün şərəfli həyat yolu böyük bir məşəldir və bu məşəl biz gənclərin həyat yolunu işıqlandırır.

Heydər Əliyev qədirbilən Azərbaycan vətəndaşının qəlbində və tarixin yaddaşında əbədi yaşayacaqdır!




## *Caniyeva Ayşə Zakir qızı*

***Balakən şəhəri, N.Gəncəvi adına***
***1 nömrəli tam orta məktəbin***
***XI sinif şagirdi***


*Для клятву я: жизнь посвятить*
*народу,*
*Стране своей – отчизне всех*
*отчизнь.*

**Муса Джалиль**

История любого государства уникальна. Уникальность азербайджанской государственности связана с именем общенационального лидера Гейдара Алиева. Великий сын своей страны, он жил и творил ради своей Отчизны. Человека делают великим его дела, но чтобы совершать великие дела, нужно быть не выше людей, нужно быть вместе с ними. Плечом к плечу со своим народом Гейдар Алиев прошел тяжелый путь независимости и становления Азербайджана. Выдающийся политический деятель, он дважды приходил во власть, воспитал поколения, поднял Республику в советские десятилетия и спас израненное государство, почти утратившее только что добытую независимость. Народный писатель и общественно-политический деятель Казахстана, современный поэт Олжас Сулейменов считает, что «не всем выдающимся в двадцатом веке людям было дано стать великими и в двадцать первом. Но только тем, кто в «переходный период», когда рвались связи между народами… сохранили высоту ума, характер и пытались соединить «половины» трагически рвущихся в клочья пространств и времен. Таких личностей в Евразии оказалось совсем немного. И в числе первых мы вправе назвать Гейдара Алиева – Героя Нашего (разорванного) Времени».



Как известно, после развала СССР в республиках произошли революционные перемены, у руля правления вместо опытных капитанов оказались политические юнги. Полная независимость угрожала междоусобицами и полным распадом. Страшно подумать, что стало бы с нашей страной, если бы в 1993 году народ не призвал опытного политика Гейдара Алиева. Сегодняшние события на Украине заставили нас, современных граждан независимого Азербайджана, ещё раз осознать и оценит Гейдара Алиева как отца-основателя азербайджанской государственности. За десять лет его президентства Азербайджан встал на ноги, окреп экономически. Государство – это, прежде всего, государь. Сильные государи создают и защищают государства, а слабые, некомпетентные – разрушают.

Гейдар Алиев – сын своего народа, сын Азербайджана. Кем он был? Чем жил?

Гейдар Алиев не возник сам по себе. Он был рожден всем лучшим, что оставила нам азербайджанская интеллигенция. По признанию самого Гейдара Алиева, литературу, книги он полюбил с того самого момента, как научился читать: «Могу сказать, что в моем формировании как человека, в моем образовании, нравственном воспитании велика роль литературы. Еще учась в среднем школе, с я любовью прочитал все произведения азербайджанских поэтов, писателей. Я их и сегодня помню. Многие книги после этого не приходилось перечитывать, но в те годы они произвели на меня такое впечатление, что я помню их до сих пор». Одним из самых любимых его поэтов являлся Самед Вургун, патриотическую лирику которого Гейдар Алиев любил цитировать. И не было ли патриотизмом с его стороны уничтожение папки с доносами на народного поэта Самеда Вургуна, его кумира. Рискуя своей карьерой, Гейдар Алиев, председатель КГБ, выносит постановление о прекращении дела поэта, которого обвиняли в национализме. Он был смелый и деятельный человек, «рыцарь без страха и упрека». Сын Страны Огней – родины мудреца-сказителя Деде Горгуда и бесстрашного Кероглу.

Самая лучшая родословная – это услуги, оказанные родине и человечеству. А таких услуг немало у Гейдара Алиева. Гейдар Алиев, благодаря своему бесстрашию, твердой и решительной воле, создал в Азербайджане такую обстановку, которая предоставляла творческими лицам свободно мыслить, полностью реализовать задуманное. Гейдар Алиев всегда был уверен в том, что «народ, обладающий высокой куль-

турой, всегда будет идти вперед, будет жить и развиваться». В те годы в Баку были построены архитектурные комплексы, институты, издательства, созданы дома-музеи выдающихся людей, возведены памятники великим историческим личностям. Проявляя заботу о будущем Азербайджана, Гейдар Алиев направлял азербайджанских молодых людей на учебу в высшие учебные заведения бывшего Советского Союза.

В центре особого внимания общенационального лидера находился азербайджанский язык. Твердо убежденный в том, что только «родным языком создается каждый народ», Гейдар Алиев добился представления азербайджанскому языку статуса государственного языка, что было законодательно закреплено в Конституции 198 года. В то время такой шаг равнялся героизму.

У.Черчилль, подводя итоги прожитого пути, заметил: «Важно, чтобы ты был готов умереть за свою страну; но еще важнее, чтобы ты был готов прожить жизнь ради нее».

Гейдар Алиев жил и творил ради своей страны. Азербайджан на протяжении многих веков играл важную роль в торговых и культурных отношениях между Западом и Востоком. Имел прекрасную и богатую природу, выгодные морские и сухопутные дороги, он приманивал соседние государства, которые соперничали между собой в захватнических стремлениях.

*За войском шло войско и снова*
*войну начинало,*
*Отчизна моя, мужайся и*
*чистоту храни…*

Кто только не пытался захватить в древности азербайджанскую землю! Кто не испил воды из ее рек и родников! Это и византийские императоры и ахеменидские и Сасанидские цари, и арабские халифы, и сельджукские султаны, и монгольские ханы, а затем иранские и турецкие феодалы.

Разрушались и лежали в развалинах города, крепости, мосты, дороги и оросительные системы. Страна была залита кровью.

И все же мощь этой страны не смогли платить никакие завоеватели. В беспощадной борьбе против иноземных захватчиков азербайджанский народ отстоял свое право на существование. Мужество, стремлении к свободе, любовь к Родине были характерными для азербайджанского народа во все времена. Об этом мы читали в эпосе «Китаби-Деде Горгуд».



А в конце 20 столетия Азербайджан стал жертвой агрессии со стороны соседа, решившего, что настал удобный момент, когда можно округлить свою территорию за счет исконно азербайджанских земель Нагорного Карабаха. Беспрецедентная шумиха, поднятая вокруг так называемого «карабахского вопроса», насильственное изгнание свыше двухсот тысяч мирных азербайджанских людей из Армении, наконец полномасштабная война, развязанная армянскими националистами в Карабахе и на границах Азербайджана с Арменией.

Кровавый кошмар Ходжалы, разрушенные дома Шуши, сожженные дотла азербайджанские селения. Неизбывная боль и печаль. Неизмеримые муки и страдания.

История еще не знала такой войны, когда после завоевания территории уничтожается все живое, истребляются старики, женщины, насилуются дети, оскверняются трупы. В мертвую зону превратилась одна пятая часть цветущих азербайджанских земель под сапогом армянского агрессора.

В это время нас никто не хотел слышать. Республика находилась в « информационной блокаде». Было обидно и горько до слез, когда с голубых экранов мы слышали только ложь и клевету.

… У ослабевшего и уставшего Азербайджана, кроме внешних врагов появились еще и внутренние. Черные силы с дурными намерениями окружили его со всех сторон с хитростью и коварством, создавали беспорядки и не давали ему покоя.

Азербайджан находился у края пропасти, начинал уже сползать в нее, и все мы прекрасно это поминали.

От дальнейших трагедий уберегли нас сила и мудрость одного человека. Его имя – Гейдар Алиев.

*… Весь – я твой,*
*Навсегда в сыновья тебе дан*
*Азербайджан, Азербайджан!*

Вступая в должность Президента, Гейдар Алиев давал клятву всему народу Азербайджана, он клялся достойно служить Родине, чтобы наше независимое государство заняло достойное место среди цивилизованных государств мира, в мировой сообществе.

И он сдержал данное слово. Гейдар Алиев открыл Азербайджан всему миру. Бороться за мир оружием слова, предпочтя протянутую руки спине, – вот принцип от которого не отступает Гейдар Алиев. Слово намного сильнее грозной пушки. Слово – это «самое мощное Алиевское оружие». Он пользуется им как оратор, и как дипломат, и как тонкий психолог.

Опытный политик, Гейдар Алиев строил внешнюю политику, исходя как из национальных и государственных интересов, так и из создания стабильного мира в регионе.

Нефть – это сила, через которую налаживается связь со всем миром.

По его инициативе 20 сентября 1994 года был подписан «Контракт века» – это была интеграция в мировую экономику, что повлекло за собой привлечение в экономику страны иностранной инвестиции «Контракт века» заложил основу нефтяной стратегии страны, что обеспечивало материальную базу для укрепления независимости страны, экономического развития Азербайджана. Азербайджан занял свое достойное место в энергетической и политической карте мира.

Выступление президента на Лиссабонском саммите а декабре 1996 года, создание ГУАМ в 1997 году, участие на Стамбульском саммите ОБСЕ в декабре 1999 года и подписания в ней контракт а Баку–Тбилиси–Джейхан и в 2001 году принятие Азербайджана в члены Совета Европы были основными достижениями во внешней политике Гейдара Алиева.

Гейдар Алиев стал символом национальной солидарности и единения. 9–10 ноября 2001 года в Баку был проведен Ы съезд азербайджанцев всего мира, в котором участвовало 1105 представителей из 36 стран, были приняты решения, в соответствии с которыми был принят указ о «Государственной политике по отношению к азербайджанцами, проживающими за рубежом, а в июле 2005 года был создан Государственный комитет по работе с азербайджанцами проживающими за рубежом.

12 декабря 2003 года кончина общенационального лидера стала утратой не только для азербайджанского народа, но и для всего тюркского мира. Он был великим человеком, великим патриотом. Он является идеалом каждого истинного азербайджанца.

После смерти Гейдара Алиева политический курс Гейдара Алиева продолжает его преемник – нынешний Президент Ильхам Алиев. Собирателем, хранителем и пропагандистом богатейшего идейного и творческого наследия Лидера нации является Президент Фонда Гейдара Алиева посол доброй волы ЮНЕСКО, депутат Милли Меджлиса Мехрибан ханум Алиева. Ведь уникальный опыт Гейдара Алиева помогает воспитанию новых поколений руководителей.



Заканчивая свое сочинение, я понимаю, что выше сказанного слишком мало, для того чтобы перечислить заслуги Гейдара Алиева перед Родиной. Но каждый из нас в сердце и памяти несет имя Гейдара Алиева. А ведь именно мы представляем наш суверенный и независимый Азербайджан.



## Əliyeva Arzu Çinar qızı

*Masallı rayonu, C.Cabbarlı adına*
*Ərkivan qəsəbə 1 nömrəli*
*tam orta məktəbin VIII sinif şagirdi*

Hər bir xalq görkəmli şəxsiyyətləri, tarixi simaları ilə tanınır. Onlar xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir. Vətənimiz həmişə bəşəriyyətə nümayiş etdirdiyi tarixi simaları, görkəmli dövlət adamları ilə öyünüb, fəxr temişdir. Azərbaycan Cavanşirlər, Koroğlular, Babəklər, Nəbilər, Mehdilər, Həzilər, kişi qeyrətli Tomrislər, Sara Xatunlar, Nigarlar Həcərlər yurdudur. Vətənimin görkəmli dövlət xadimi, ümummilli lider adını qazanmış «ulu öndər Heydər Əliyev hər birimizin qəlbində yaşayır, unudulmamışdır.

«Azərbaycan xalqı xoşbəxtdir ki, ona Heydər Əliyev kimi uzaqgörən, görkəmli lider başçılıq etmişdir» – bu sözlər dünyanın bir çox dövlət xadimlərindən eşidilmişdir. Bəli, müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyev hələ sağlığında ikən öz adını tarixi simaların, tanınmış adamların siyahısına yazdırmışdır.

Heydər Əliyev bütün həyat və fəaliyyəti boyu xalqını özünə arxa bilib, özü də həmişə xalqa arxa, dayaq olmuşdur. «Heydər – Xalq, Xalq – Heydər» deyimi də bu qırılmaz bağlılığın ifadəsidir.

Heydər Əliyev hər zaman öz xalqını sevmiş, vətənini azad görmək istəmişdir. Heydər Əliyev Azərbaycan Respublikasını əbədiyaşar zirvəyə qaldırmışdır. O, həmişə vətəninin, xalqının, yurdunun məğlubolunmaz, xoşbəxt olmasını arzulayırdı. Heydər Əliyev bütün istədiklərinə və arzularına nail olmuşdur.

1969-cu ilin 14 iyulu əbədi olaraq Azərbaycan Respublikasının, Azərbaycan xalqının tarixinə həkk olunub. Məhz həmin gün Heydər Əliyev ilk dəfə olaraq Azərbaycana, siyasətə gəldi. Azərbaycan Respublikasının həqiqi inkişafı həmin gündən başlayır.



1993-cü illərdə isə Azərbaycan xalqı öz tarixinin ən çətin anlarını yaşayırdı. Ermənistan bir-birinin ardınca torpaqlarınızı ələ keçirirdi. Vətənimizin bir çox rayon və şəhərləri işğal olunmuşdur. Ermənilər «Dənizdən dənizə böyük Ermənistan» yaratmaq arzusunda idilər. Xalqımızın vətənsiz qalmaq ehtimalı artmışdı. Həmin vaxt bütün dünyanın diqqəti Azərbaycana yönəlmişdi. Əgər Heydər Əliyev xalqın təkidi ilə Naxçıvandan Bakıya gəlməsəydi, bu gün dünya xəritəsində Azərbaycan Respublikası adlı dövlət mövcud olmayacaqdı.

Həmin zaman Azərbaycanın daxilində də çoxlu çəkişmələr, xalq separatçılığı, baş alıb gedirdi. Vətən xainlərinin sayı artmışdı. Onlar böyük vəzifələrə keçmək üçün, varlanmaq üçün torpaqlarımızı düşmənlərə təslim edirdilər. Çirkli yollarla pul qazananların sayı armışdı. Uşaqları, böyükləri girov götürür çoxlu pul alandan sonra azad edirdilər. Rayonlarda, eləcə də paytaxtın bir sıra rayonlarında silahlı dəstələr hökmranlıq edirdi. Gecələr güllə səsindən camaat evlərində yata bilmirdi. Xalq qorxu və vahimə içərisində yaşayırdı.

Bu dövrdə xalqın mübarizə əzmi qırılmış, ümidi azalmışdı. Artıq sabaha inam qalmamışdı. Ölkə fırtınalı dənizdə sükançısı olmyan gəmiyə bənzəyirdi. Azərbaycan xalqını qorxu bürümüşdü. Siyasətdən başı çıxmayan, savadsız «rəhbərlər» Azərbaycanın müstəqilliyini istəməyən böyük ölkələrlə açıq düşmənçiliyə, açıq müharibəyə başlamışdı. Xalq güclü, böyük dövlətlərlə üz-üzə qalmışdı. Türk qardaşları olan Türkmənistanla, Özbəkistanla, Qırğızıstanla əlaqəmiz çox zəif idi.

Heydər Əliyev 1993-cü ilin 15 iyununda Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan dövlətinin prezidenti seçildi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın idarəçiliyi müdrik, uzaqgörən, savadlı bir şəxsin əlinə keçdi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın müstəqilliyini istəməyən ölkələrin oxu daşa dəydi, arzuları gözlərində qaldı.

Heydər Əliyevin hakimiyyətə gəlməsi nəticəsində Azərbaycanımız yenidən öz zirvəsinə qalxdı. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra o günləri belə xatırlayırdı: «Eşidəndə ki, mənim doğma vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin bərpa edilməsində xidmət etmiş bir adam kimi mən bilirəm ki, biz burada nələr etmişik və bu dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm».

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən bilirdi ki, neftin Azərbaycan üçün misilsiz rolu vardır. O bilirdi ki, neftin köməyi ilə açılma-

yan qapıları açmaq mümkündür. Ətrafımıza çoxlu dost yığmaq, düşməni belə dosta çevirmək olar. Amma neft sənayesi o qədər də ürək açan deyildi. Bunun üçün Heydər Əliyev dünyanın 8 böyük dövlətinin, 11 iri neft firmaları ilə saziş imzaladı. Bu saziş 1994-cü il sentyabrın 20-də imzalanan «Əsrin müqaviləsi» idi. Bununla da Heydər Əliyev Azərbaycan neftini göylərə ucaltdı. Bütün dünya Azərbaycanı tanıdı. Azərbaycan neftinə göz dikənlərə Heydər Əliyev sadəcə bir cavab verirdi: «Neft Azərbaycanın milli sərvətidir».

Dövləti qanunlar əsasında idarə etmək üçün Heydər Əliyev Azərbaycanda ilk Konstitusiyasının yaradılmasına nail oldu.

Bu konstitusiya 1995-ci ilin 12 noyabrında xalq səsverməsi yolu ilə təsdiq edildi. Hal-hazırda Konstitusiyamız dünyanın ən ədalətli qanunlarından biridir. Konstitusiyamızda dilindən, dinindən, əqidəsindən, irqindən asılı olmayaraq bütün insanlara eyni hüquqlar verilir. Konstitusiyamızda dilimiz doğma Azərbaycan dilidir.

Savadlı, hərtərəfli biliyə malik olan Heydər Əliyevi təhsilimiz də qane etmirdi. O, təhsilə böyük əhəmiyyt verirdi. Ona görə də Heydər Əliyev öz həmvətənlərini ağıllı, savadlı görmək istəyirdi. Heydər Əliyevin fərmanı ilə Azərbaycanda yeni təhsil proqramı hazırlandı. 1999-cı ildən etibarən bu yeni proqram bütün məktəblərdə geniş yayıldı.

Heydər Əliyevin həyatsevərliyinin, bitib-tükənməyən həvəsinin təməlində doğma Vətən, əziz Azərbaycan dururdu. Heydər Əliyev həmişə qürur və fərəh hissi ilə «azərbaycanlı» adını daşıyırdı. O, «Mən azərbaycanlı olduğuma görə həmişə fəxr etmişəm, bundan sonra da fəxr edəcəyəm» deyib milyonların məhəbbətini qazanmışdır. Heydər Əliyev ən başlıca ulu öndər, el ağsaqqalı, böyük azərbaycanlı idi. Heydər Əliyev xalqın yaddaşında xilaskar, qurucu kimi yadda qalmışdır. Vətənini uca edən, əbədiyaşarlıq zirvəsinə qaldıran bu gözəl insan unudulmayacaqdır!

Heydər Əliyev Azərbaycanda doğulduğundan, Azərbaycanda yaşadığından, Azərbaycan dilində danışmağından həmişə qürur duymuşdur. Heydər Əliyev hər birimizə örnəkdir. Onun kimi görkəmli sima tapmaq çox çətindir. Əbədiyaşar Heydər Əliyev bizim üçün müasir Azərbaycanı, ucalan Azərbaycanı, gündən-günə inkişaf edən Azərbaycanı əmanət etmişdir. Heydər Əliyev gənc nəslə nümunədir.





**_Hüseynli Nərgiz Mövsüm qızı_**

**_Bərdə rayonu, H.Zeynalov adına_**
**_Gərənə kənd tam orta məktəbinin_**
**_XI sinif şagirdi_**

*Mən istərdim ki, söhbət açam bir*
*Bizim qədirbilən eldən, obadan*
*Bir də dağ vüqarlı, dağ əzəmətli*
*Ulu öndərdən – Heydər babadan.*

Mən bu gün böyük bir fəxrlə, qürur hissi ilə Heydər Əliyev haqqında inşa yazacağam.

Heydər Əliyev adı ilə tanışlığım hələ kiçik yaşlarımdan başlayıb. Lap kiçik olanda bizim evdə gedən söhbətlərdən eşidərdim: «Heydər Əliyev böyük siyasətçi olub. Onun qarşısında dünyanın ən böyük siyasətçiləri, belə bir söz deyə bilməyib. «Siyasətçi sözünün mənasını başa düşməsəm də, haqqında danışılan şəxs mənə çox maraqlı və qeyri-adi gəlmişdi. İndi on birinci sinifdə oxuyuram və uşaqlıqdan tanıdığım şəxs haqqında daha dolğun məlumatım var. Heydər Əliyev, həqiqətən, çox böyük siyasətçi olub. Bir baxışı ilə, yerləri, göyləri titrədən o möhtəşəm insan, mənim uşaqlıqdan gör-mədən sevdiyim, pərəstiş etdiyim insan olub. Türk dünyasının ana kitabı adlandırılan «Kitabi-Dədə Qorqud» eposunda belə bir deyim var:

*Gəlimli-gedimli dünya,*
*Son ucu ölümlü dünya.*

«Bu gəlimli-gedimli dünya»da Tanrı hər kəsə bir ömür payı vermişdir. Elə insanlar var ki, ölümündən sonra bir nöqtə kimi kiçilir, yaddaşlardan silinir, yox olur. Elə insanlar da var ki, ölümündən sonra yaddaşlarda əbədi məskən qurur. İllər keçsə də, unudulmur, yoxluğu hər zaman hiss olunur, xatirələrdə yaşayır, ürəklərdə özlərinə əbədi məskən qururlar. Ulu Öndərimiz kimi.

Heydər Əliyev Azərbaycan xalqının Ümummilli lideridir. Ondan öncəki sərkərdələrin, qəhrəmanların heç biri bu titulu daşımamışdır. Çoxmillətli ölkəmizdə bu titul ilk dəfə məhz xalq tərəfindən Heydər Əliyevə verilmişdir. O, lider olduğunu işi, əməli, zəkası ilə, canı bahasına sübut etmişdir. O, Azərbaycan adlı bir gəminin mahir kapitanı kimi, onu sərt qayalara çırpılıb məhv olmağa qoymadı. Onu işıqlı, təmiz gələcəyə apardı.

*Tanıtdın elini bütün dünyaya,*
*Ucaltdın göylərdə ulduza, aya.*
*Gördüyün əməllər heç gəlməz saya,*
*Ay mənim ölkəmin xilaskar oğlu!*

Müstəqillik yollarında sürətlə addımlayan, iqtisadi yüksəlişi siyasi sabitliyi, elm, təhsil sahəsində nailiyyətləri ilə Azərbaycan dünyanın tanınmış dövlətlə-rinin diqqət mərkəzindədir. Mən Heydər Əliyev kimi bir şəxslə eyni bir xalqın, eyni bir Vətənin övladı olmağımla qürur duyuram, onun azərbaycanlı olmasıyla qürur duyduğu kimi.

Heydər Əliyev sayəsində bayrağımız tanınmış dövlətlərin bayraqları sırasında dalğalandı, imzamız imzalar içərisində oldu. Himnimiz, bayrağımız və gerbimiz dövlət rəmzləri kimi qəbul olundu. Dilimiz dövlət dili səviyyəsinə yüksəldi.

Heydər Əliyev vaxtı ilə: «Yox xalqımın imzası imzalar içində», – deyən M.Hadinin ruhunu şad etdi.

Əslində ona olan məhəbbətimi hayqırmaq hər kəsə elan etmək istəyirəm, lakin bunu möhtəşəm dilimin sözləri ilə ifadə etməkdə acizlik çəkirəm.

Heydər Əliyev 1923-cü il 10 may tarixində Naxçıvanda dünyaya göz açıb. Tanrı sanki onu bizə xoşbəxtliyin açarı olaraq göndərdi.

Hakimiyyətdə olduğu müddətdə istər 1969–1982, istərsə də 1993–2003-cü illərdə xalqımızın yaxşı yaşamağı üçün əlindən gələni etdi.

Bu illəri ətraflı şərh etmək üçün tarixin nə az nə də çox, düz otuz dörd ilini bilməliyəm. Yaxın bir keçmişə – 1993-cü ilə nəzər salsaq, səmadan odlu güllələrin yağdığı bir vaxtda Azərbaycan adlı bir dövlətin nə qədər mövcud olacağı sual altında idi. O, öz zəkası, bacarığı ilə xalqı bu bəladan çıxarmaq üçün gecə-gündüz işləyir, hətta canını qurban verməyə belə hazır idi.

Dünyanın bir çox siyasi xadimləri Heydər Əliyev haqqında fikirlər söyləmiş, heyrətləndiklərini gizlədə bilməmişlər. Hamı onun dərin biliyə, ağır zəkaya yüksək bacarığa malik olduğunu etiraf etmişdir. Bu mənada ABŞ-ın sabiq prezidenti Bill Klintonun dediyi sözlər bunun bariz nümunəsidir:



«Heydər Əliyev nəinki Azərbaycan və ABŞ-ı, hətta bütün dünyanı idarə edə biləcək siyasi liderdir».

1993-cü ildı ikinci dəfə hakimiyyətə gələndən sonra xalqı hərəkətə gətirdi. Xalqda özünə inam yaratdı. Xalq köləlikdən xilas oldu. Heydər Əliyev azərbaycanlıları bir araya toplayıb, onların qurultayını seçirdi. Bununla sübut etdi ki, Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətənidir.

Heydər Əliyev minlərlə kimsəsiz uşaqlara himayədarlıq etdi, onların xaricdə təhsil almalarına şərait yaratdı.

Heydər Əliyev gənclərin ali yığıncağını keçirib onlara öz ürək sözlərini yüksək tribunalarda demək şansı yaratdı.

2003-cü il 12 dekabr tarixində xalqımız ən ağrılı günlərindən birini yaşadı. Türk dövlətlərinin siyasi lideri, bizimsə Heydər babamız gözlərini əbədi yumdu.

*Ölüm var, ölməzlik gətirir ada,*
*Ölüm var, bir xalqın şöhrəti, şanı.*
*İlahi, ölümdə qüdrətə bir bax,*
*Göylərə qaldırdı Azərbaycanı!*

Prezidentimiz İlham Əliyev vətənimizin günü-gündən gözəlləşməsi üçün əlindən gələni edir. O, Heydər Əliyev siyasətinin layiqli davamçısıdır. Heydər Əliyev ocağının daha bir qığılcımı, babasını çox sevən, ona şeirlər həsr edən, babasının adını daşıyan fondun vitse-prezidenti Leyla Əliyevanın sayəsində «Xocalı faciəsi» bütün dünyada tanındı.

Rahat uyu, Ulu Öndərimiz! Sizin yolunuzu davam etdirən hər bir gənc günü-gündən gözəlləşən Vətənimizin rifahı naminə birləşərək müstəqilliyimi daha da möhkəm və qırılmaz edəcəkdir.

*Qəbrin nurla dolsun, ey dahi insan!*
*Şairsən, alimsən, gözəl memarsan,*
*Səni unudarmı can Azərbaycan?*
*Biz harda varıqsa, sən orda varsan!*



## Həsənov Anar Fazil oğlu

**_Sədərək rayonu, 1 nömrəli tam orta məktəbin X sinif şagirdi_**

İnsanı yazmağa başlayanda düşünürdüm ki, kaş mən şair olaydım. O, zaman ulu Tanrının bizə ərməğan etdiyi nadir şəxsiyyət, Ulu öndərim haqqında gözəl bir şeir yazardım. Şeirimi daha ahəngdar etmək üçün ulu diyarım gur cağlayan çaylarını, uca-uca zirvələrini köməyə çağırardım. Əgər bəstəkar olsaydım, dahi liderimə nəğmə bəstələyərdim. Nəğməm daha gur səslənsin deyə qızıl saçlı Günəşin Sədərəyimə səpdiyi al şəfəqlərini nəğməmə düzərdim. Mənim nəğməm, mənim şeirim qanadlanardı, elləri, obaları gəzərdi; qəlbimin dərinliklərindən gələn ən ülvi hisslərimi, Ulu öndərimə olan nəhayətsiz sevgimi Vətənimin hər qarışına çatdırardı.

Mən şair və bəstəkar deyiləm, adi bir məktəbliyəm. Və ulu öndər, ümummilli liderimiz Heydər Əliyev haqqında qəlbimdən keçənləri bütün səmimiyyətimlə bu ağ kağıza köçürmək istəyirəm.

*Heydər dedim coşdu qələm,*
*cənnət məkan oldu sinəm.*
*Heydər dedim susdu sinəm,*
*güldü günəş, doldu sinəm.*
*Heydər adlı zirvələrə-haqqa,*
*gedən yoldu sinəm.*
*Allah səni öz nurundan*
*yaratmışdır Heydər baba!*

Mənim vətənim Azərbaycan dünyanın cənnət misalıdır, Heydər Əliyev bu cənnət diyarın rəşadət, fədakarlıq, mərdlik, məğrurluq timsalı.

«Əgər kimsə Azərbaycan dövətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycan dövlətçiliyinin,



müstəqiliyyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram» Bu sətirlər hər zaman dünyanın kədərini, ümidini, sevincini öz qəlbində daşımış, həyatın adi, zahirən cüzi görünən məqamlarının şeiriyyətini duymuş Ulu Öndərimizin kəlamıdır.

Ümummilli lider Heydər Əliyev xalqı, milləti və Vətəni qarşısında o qədər böyük işlər görmüşdür ki, Azərbaycanın hansı tərəfinə baxsan, orada bu müdrik və qurucu insanın imzasını nəhəng tikililəri, yaratdığı möhtəşəm abidələri görürsən. Ona görə də Heydər Əliyev deyəndə, ilk öncə, müstəqil dövlətçiliyimiz, yaradılmış möhkəm sabitlik, əmin-amanlıq, inkişaf və tərəqqi yada düşür.

Gəncliyində Heydər Əliyev memar olmaq arzusu ilə yaşayırdı. İlk baxışda belə görünə bilər ki, o, bu arzusuna çatmadı. Həqiqətən də, əgər Heydər Əliyev memar olsaydı, şübhəsiz ki, Azərbaycanda möhtəşəm memarlıq abidələri yaradardı. Lakin tale onun qarşısında ayrı-ayrı fərdlərin və ya şəxsiyyətlərin, yaxud bina və komplekslərin deyil, bütövlükdə müstəqil Azərbaycanımızın abidəsini ucaltmaq missiyasını və məsuliyyətini qoydu. O, bu məsul vəzifənin öhdəsindən ləyaqətlə gəldi və özünün ən böyük şah əsəri olan müstəqil Azərbaycanı yaratdı.

*Adın-sanın yenilməz bir ordudu,*
*İndi Odlar diyarının özüsən...*
*Azərbaycan Heydərlərin yurdudu,*
*Gələcəyə baxanların gözüsən.*

Böyük öndərin yeganə amalı, yaşamaq devizi belə idi: Taleyin ona bəxş etdiyi fitri qabiliyyətini, bütün qüvvə və bacarığını, əqli və fiziki potensialını ana yurdu Azərbaycana həsr etmək! O, varlığı, duyğuları və yanğıları ilə əsl azərbaycanlı idi. Heydər Əliyevin həyatsevərliyinin, bitib-tükənməyən həvəsinin təməlində ana Vətən, doğma Azərbaycan dayanırdı. Bu böyük insan köklərə bağlı olduğuna görə güclü, qüdrətli idi. Xalqımızın ümummilli lideri Heydər Əliyev, sözün əsl mənasında böyük ömür yaşadı. Lakin onun ideyalarının ömrü daha böyükdür. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan hər bir azərbaycanlı böyük iftixar hissi və vüqarla: «Mən müstəqil Azərbaycan Respublikasının vətəndaşıyam», – deyə bilir, bununla fəxr edirsə, Ulu Öndərin Vətəni və Azərbaycan xalqı yolunda şərəfli mücadiləsini, ömrünü şam kimi əritməsini unuda bilməz.

Mən bu yazımda Ulu Öndərimizin fədakar həyat salnaməsinə qısaca bir nəzər saldım. Ona həyatda bu günün məktəblisi, sabahın əsgəri, gələcəyin qurucusu kimi baxdım və gördüm ki, Heydər Əliyev olmasaydı, mən bu gün Azərbaycan adlı bir diyarın gözəlliklərindən zövq alan, xoşbəxt gələcəyə doğru inamla addımlayan bir gənc deyil, dağılmış, viranəyə dönmüş, parampaça olmuş bir vətənin, gözləri yaşlı, sinəsi dağlı bir ananın istiqbalsız övladı idim.

Və gördüm ki, Heydər Əliyev olmasaydı bu günün gənc anaları öz övladlarını şirin laylalarla deyil, silah səsləri ilə böyüdəcəkdilər.

Və gördüm ki, Heydər Əliyev olmasaydı, mən bu zaman ola biləcəkləri heç düşünmək belə istəmirəm.

Mən, sadəcə, onu demək istiyirəm ki, Azərbaycan buludlara söykənən uca bir dağdır və bu dağın fəth olunmaz zirvəsidir Heydər Əliyev.

*Xalqı zirvələrə qaldırmaq üçün,*
*Sevgi şahlığının taxtına çıxdın.*
*Oğul xalq üçündür, zirvə dağ üçün.*
*Nə yaxşı bu xalqın baxtına çıxdın.*





## *İbişova Şəbnəm Ceyhun qızı*

***Xocalı şəhəri, 4 nömrəli***
***tam orta məktəbin VIII sinif şagirdi***

Hər xalqın öz həyat yolu var. O, zamanla formalaşır. Elə insanlar var ki, mənsub olduqları xalqın tarixi təkamülünə məzmun verir, fəaliyyətləri ilə həyat yolunun qaranlıqlarına işıq saçır, milyonlarla öndərlik edirlər. Həmin insanlar tarixi şəxsiyyətlərdir. Onlar yalnız bir xalqa deyil, bütövlükdə bəşər tarixinə mənsubdurlar. Azərbaycanın böyük oğlu, ulu öndər Heydər Əliyev məhz belə şəxsiyyətlərdən idi. Bütün həyatı qətrə-qətrə əriyib Azərbaycanda. 34 ildə Heydər Əliyev şərəfli bir ömür yaşadı. O, sözün əsl mənasında, Vətəni üçün yaşadı, Vətəni üçün çalışdı, Vətəni üçün yandı.

Ümummilli Liderin uğur və nailiyyətlərini, keçdiyi mənalı və şərəfli həyat yolunu sözlə ifadə etməkdə şagird qələmi acizdir. Heydər Əliyev haqqında yazmaq çox məsuliyyətli və şərəflidir. O, dövrünün yenilməz dövlət xadimi, görkəmli diplomatı, ən əsası, Azərbaycanın adını dünyanın qüdrətli dövlətləri siyahısına yazdıran Prezidenti olmuşdur.

Müəllimlərimiz bizə həmişə ümummilli lider Heydər Əliyev haqqında danışır, onun xalqımız üçün gördüyü işlərdən söhbət açırlar. Mən belə fikirləşirəm ki, bu işləri ancaq öz Vətənini, millətini sevən bir insan görə bilər. Heydər baba məhz belə bir şəxsiyyət idi.

Müdriklərdən birinin belə bir ifadəsi var: «Yüz dəfə zirvəyə baxmaqdansa, bir dəfə zirvədən bax». Babamız dünyanı daim zirvələrdən seyr edib.

Tarix səhifələrində adi dövlətçiliyin simvoluna çevrilən və onunla qoşa çəkilən çox az siyasi liderə rast gəlmək olar. Tanrının və taleyin hökmü ilə müstəqil dövlətimizin ən müasir tarixi də məhz belə liderin adı ilə bağlıdır.

Bəlkə də, tale qismətidir ki, həyata göz açıb ağlım kəsən dövrdən Ulu Öndərin xalqa məhəbbəti, sevgisi ilə əhatə olunmuşam. Minlərlə Azər-

baycan uşaqları kimi «baba» demişəm. Sevmişəm. Həmişə də uşaq qəlbimə bir fikir hakim kəsilib: «Onu bizlərə, xalqa sevdirən nədir?» Cavabını da tapmışam: – Xalq məhəbbəti, Vətən sevgisi!

İstər Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin banisi, xarizmatik siyasət dahisi, cəsur və ən böyük vətəndaş kimi qalmışdır. Bu gün biz azərbaycanlıların ölkəmiz haqqında danışanda fəxr edə biləcəyi, qürurla öyünə biləcəyi çox uğurları var. Onların, istisna olmadan, hamısı Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanda elə bir sahə yoxdur ki, onun inkişafında Heydər Əliyevin zəhməti olmasın.

1969-cu ilin iyulu əbədi olaraq Azərbaycan xalqının, Azərbaycan Respublikasının tarixinə qızıl hərflərlə həkk olunub. Həmin tarix möhtərəm Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi vaxtdır. Azərbaycan dövlətinin həqiqi inkişafı həmin vaxtdan başlayır.

Heydər Əliyev 1969–1982-ci illərdə ölkəyə rəhbərlik edərkən Azərbaycanda yeni fabrik və zavodlar tikdirdi, iqtisadiyyatı dirçəltdi, sürətlə yeni yaşayış sahələri saldırdı. Tikilən göydələnlər xalqın evsizlik problemini qismən həll etdi.

1993-cü il. Bir yandan ruslarla əlbir olub üstümüzə qalxan xain qonşularımızın hücumları, torpaq uğrunda Qarabağ müharibəsi, bir yandan da müxtəlif partiyaların çəkişmələri.

Vəzifə hərisliyi ucbatından ölkə çətin günlər yaşayır, dağılmaq təhlükəsi ilə üz-üzə qalır. Bu zaman müdrik xalq nicatı özü tapır: xalqı yalnız dahi şəxsiyyət xilas edə bilər. Xalqımızın tələbi və istəyi ilə Heydər Əliyev 1993-cü il iyunun 15-də ikinci dəfə hakimiyyətə gəldi. Həmin gün tarixə «Qurtuluş Günü» kimi daxil oldu.

Uca, əlçatmaz zirvə Heydər Əliyev oldu. Öz Vətənini canından çox sevən bir övlad kimi deyirəm ki, əgər xalqın təkidi ilə Heydər Əliyev Naxçıvandan Bakıya gəlməsəydi və ikinci dəfə Azərbaycana rəhbərlik etməyi, öz üzərinə götürməsəydi, bu gün dünyanın siyasi xəritəsində Azərbaycan Respublikası adlı dövlətin mövcudluğu mümkün olmayacaqdı. Azərbaycanın xalq şairi Mirvarid Dilbazinin misralarında deyildiyi kimi:

*Bir xalqın başında aqil, mötəbər,*
*Tədbirli bir başçı olmasa əgər,*
*O xalqı qurd nədir, canavar yeyər.*

Heydər Əliyevin xalq üçün gördüyü işləri sadalanmaqla bitməyən, neçə-neçə tarixi xidmətləri, fədakarlıqları var.



1994-cü il sentyabrın 24-də Bakıda «Gülüstan» sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Sonradan haqlı olaraq «Əsrin müqaviləsi» adlandırılan bu saziş Müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu.

Heydər Əliyev Azərbaycanın «Əsrin müqaviləsi»ndən başlanan yolu haqqında demişdir: «1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, həmçinin neft və qaz sərvətlərindən, Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir».

Heydər Əliyevin iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları – Vaşinqton, London, Moskva və Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 21 neft sazişi imzalandı. Bu gün həmin sazişlərin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir.

Ümumxalq səsverməsi yolu ilə 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul olundu. Dövlət rəhbərinin xarici ölkələrə etdiyi səfərlər və əlaqələr nəticəsində dünyanın bir çox dövlətləri Azərbaycanı tanıdı. İndi həmin ölkələrdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır.

Bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də Heydər Əliyevin uğurları əvəzolunmazdır.

Heydər Əliyev təhsili yüksək qiymətləndirir və bütün uğurlarının mərkəzində təhsilin durduğunu söyləyirdi. «Yalnız elmlə müvəffəqiyyət əldə etmək və qələbə qazanmaq olar», – deyirdi.

Yeni-yeni məktəblər, liseylər – təhsil ocaqları və müəssisələri tikdirməklə, gənclərimiz, uşaqlarımız üçün hər cür şərait yaradırdı. Heydər Əliyev təhsildə islahatlar keçirdi və həmin islahatlar nəticəsində azərbaycanlı tələbə və gənclərin dünyanın nüfuzlu universitetlərində, ali məktəblərində təhsil almaları üçün bir sıra dövlət proqramları təsdiq olundu.

Heydər Əliyevin təhsilimizə qayğısı və diqqəti biz şagirdlərdə nikbinlik hissi oyadır. Təhsilimizi daha da yüksəklərə qaldırmaq üçün fədakar əməyə həvəsləndirir.

Dahi rəhbər bilirdi ki, artıq dünya güc, qüvvə tətbiq etməklə deyil, ağıl və intellektlə idarə olunacaq. Ümummilli lider xalqının savad sahibi olmasına xüsusi diqqət yetirirdi. Çünki elmli, savadlı bir xalq işıqlı gələcəyə

doğru addımlaya bilərdi. Artıq top-tüfəng deyil, elm, savad əsri olduğunu dahi rəhbər bilirdi.

Ulu Öndər müəllimləri dünyanın ən fədakar, ən yüksək, ən zirvədə dayanan insanları kimi tanıtdı. Ümummilli lider deyirdi: «Mən dünyada müəllimdən yüksək ad tanımıram».

Bu gün biz təhsilimizdə qazandığımız uğurlara görə Heydər Əliyevə borcluyuq.

«Hər bir xalqın özünəməxsusluğunu bəyan edən başlıca amillərdən biri də onun dilidir», – deyən dahi rəhbər dil haqqında bir sıra qanunlar təsdiq edib fərmanlar imzalamışdır. Hansı rejim, hansı quruluş olmasına baxmayaraq, dahi rəhbər hər yerdə öz sözünü cəsarətlə deyirdi. Sovet imperiyasının tüğyan etdiyi bir dövrdə Ulu Öndər Azərbaycan dilini elan etdi. Heydər Əliyev ciddi cəhdlə çalışaraq Azərbaycan dilini əsl mənəvi sərvət kimi aşkarladı və bildirdi ki: «Dil hər bir millətin milliliyinin əsasıdır».

2001-ci ildə «Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü»nün təsdiq edilməsi haqqında» fərman imzaladı.

«Doğma ocaqlarından didərgin salınmış bir milyonadək qaçqın və məcburi köçkün soydaşlarımızın qayğıları, problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir», – deyən ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu neft strategiyası öz bəhrəsini verməyə başlayan andan əldə edilən ilk vəsait qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi, çadır düşərgələrinin ləğvinə başlanıldı.

Ulu Öndərin öz yurdlarından didərgin düşmüş vətəndaşlarımıza qayğı, diqqət, himayədarlıq siyasəti onun siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün Azərbaycanın hər regionu inkişaf edir, qaçqın və məcburi köçkünlər öz doğma torpaqlarını yaddan çıxarmırlar. Onlar anlayırlar ki, öz doğma ata-baba yurdlarına qayıtmaları üçün yaradılan münbit şəraitdən istifadə edərək, mükəmməl biliklərə yiyələnməlidirlər.

Heydər Əliyev də dövlət xadimi olaraq daim gələcək nəsilləri, gəncləri düşünür, onların qayğısına qalır.

Gənclər üçün aparılan mübahisəli məsələlərdən uğurla çıxış yolu tapması, hətta mümkün olmayanı belə gerçəkliyə çevirməsi məharəti onu gənclərin yaxın dostu etmişdir. 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması gənclər siyasətini həyata keçirən Heydər Əliyevin bu sahədə atdığı uğurlu addımlardan biri idi. O cümlədən, 1996-cı il 2 fevral tarixi Respublika gənclərinin yaddaşında unudulmayacaq tarix kimi qalacaqdır. Məhz həmin tarixdə Azərbaycan gənclərinin fəal hissəsinin iştirak etdiyi I Forum keçirildi. Artıq Respublika Gənclərinin I Forumunun keçirildiyi bu tarix ölkəmizdə «Gənclər Günü» kimi qeyd olunur.



Mükəmməl siyasət yeridən Heydər Əliyevə «baba» adı onun sadə insanlarla qaynayıb-qarışmasına, uşaqların sevimli babası olduğuna görə deyilir. İndi yaşından asılı olmayaraq, hər bir şəxs ona «Heydər baba» deyir.

Mənim tarixçi, ədəbiyyatçı, həkim, mühəndis babam! Bütün elmlərin bilicisi, uzaqgörən babam! Siz igid doğuldunuz, cəsur gəldiniz bu dünyaya. Xalqımıza arxa, dayaq olmaq üçün onlara hər cür şərait yaratdınız.

Mən səkkizinci sinif şagirdiyəm. Bir şagird kimi demək istəyirəm ki, «Azərbaycan», «Vətən» kəlmələri deyəndə Heydər Əliyev yada düşür: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevi düşünərkən fikrimdə bunlar canlanır. Amma bu, o demək deyil ki, mən Heydər Əliyevin Azərbaycan xalqı üçün etdikləri haqqında bu qədər bilirəm, xeyr! Mən onun xidmətlərini heç bir dövlət başçısının xidmətləri ilə müqayisə edə bilmərəm.

Heydər babam! Ən böyük nisgilimiz Qarabağ həsrəti, torpaq yanğısıdır. İnanıram ki, siyasi məktəbinizin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı zəfər çalacaq, yağı düşmənin tapdağı altındakı torpaqlarımız azad olacaq, üçrəngli bayrağımız Xankəndində, Şuşada, Xocalıda dalğalanacaq, narahat şəhid ruhları rahatlıq tapacaq.

Mən indi məktəbliyəm. Bütün yaşanan qanlı və şanlı hadisələrlə yaşadım. Uşaq ikən «Heydər baba» deyə səslədiyimiz şəxsiyyətin bizim üçün etdiklərini indi daha yaxşı başa düşürəm. İndi digər ölkələr bizə heç bir şey edə bilməzlər, çünki onlar bilir ki, bu xalqın belə cəfakeş, zəhmətkeş, təcrübəli Prezidenti olub. Əslində, «olub» demək düzgün deyil. Çünki indi də bizim ölkəni onun layiqli davamçısı İlham Əliyev idarə edir. Buna görə də narahat olmağa dəyməz, çünki Azərbaycan düzgün siyasətlə idarə olunur və əmin əllərdədir.

Biz inanırıq ki, Heydər Əliyev ocağının davamçısı İlham Əliyev düşmən tapdağı altındakı torpaqlarımızı alacaq, bütöv Azərbaycanımızın bayrağı ən yüksək zirvələrdən dalğalanacaq.



## İdrisova Almaz Qalib qızı

**Bakı şəhəri, 246 nömrəli**
**tam orta məktəbin X sinif şagirdi**

Həyatda hər kəs bir ömür payı yaşayır: kimisi az, kimisi çox. Həyatda hər kəs bir ömür payı yaşayır: kimisi adi, sakit, kimisi yazda coşan dağ çayları kimi təlatümlü, qaynar bir ömür. O da həyatın ona bəxş etdiyi bir ömür payını yaşadı. Təkcə bir ömürmü? Məncə yox. O, öz ömründə yüzlərin, minlərin, milyonların ömrünü yaşatdı.

*Su gələr axar gedər,*
*Dağları yıxar gedər.*
*Dünya bir pəncərədir,*
*Hər gələn baxar gedər.*

Babalarımızın «pəncərə» sandığı bu dünyaya sadəcə baxıb getmədi Heydər babamız. O, nağıllardan eşitdiyimiz səməndər quşuna döndü. El üçün doğuldu, el üçün yaşadı, el üçün döyüşdü, el üçün yandı.

Mənim 16 yaşım var. Şair deyiləm mən, adi bir şagirdəm. Sadəcə bu böyük şəxsiyyətə olan sonsuz sevgim qəlbimin dərinliklərindən süzülərək beləcə vərəqə köçür:

*Götürdü hər bir an çiyinlərinə,*
*Elin kədərini, dərdi-sərini.*
*Yazdı öz əməli, öz hünəriylə,*
*«Azərbaycan» adlı şah əsərini.*

Tarixdə bir çox şəxsiyyətlər barədə oxumuşam, öyrənmişəm. Lakin Heydər Əliyev haqqında bildiklərim mənə belə deməyə haqq verir ki, o, göndərilmiş əsl xilaskar idi. O bir günəş idi ki, torpağını, elini, obasını hərraca qoyan nankorların, «sapı özümüzdən olan baltalar»ın soyutduğu, soyuqdan dondurduğu xalqı isitdi. O bir günəş idi ki, hələ 1993-cü ilin dumanında, çənində qaranlığında yolunu azmış, üşüyən vətən övladlarını isitdi, bir nurlu çıraq olaraq onların yoluna işıq saldı. O bir mayak idi ki, sükansız gəmi kimi dalğalara, burulğanlara qərq olaraq irəliləyən Azərbaycana düzgün yol göstərdi.



Heydər Əliyevin zəngin bir salnaməni xatırladan həyat yolu ilə yaxından tanış olduqda belə qənaətə gəlirsən ki, harda, hansı vəzifədə olmağından asılı olmayaraq, onun yalnız bir amalı, arzusu olmuşdur. Mənsub olduğu xalqın milli mənafeyinin qorunması, millətin millət kimi dünya ölkələri arasında tanınması – bu olmuşdur dünyada Heydər babamızın qayəsi.

O, hakimiyyəti iki dəfə fəth etmiş bir lider kimi tanınmışdır. Hakimiyyətinin 70-ci illərində kəndlərimiz uçuq-sökük komalardan azad olaraq abad yaşayış məskənlərinə çevrildi. Şəhər və rayonlarımız mədəni mərkəzlər səviyyəsinə yüksəldi. Paytaxtımız Bakı şəhəri isə Avropa ölkələrinin paytaxtları ilə müqayisədə həsəd və heyranlıq rəmzinə çevrildi.

Bir imperiya rəhbərliyinə dəvət alan Heydər Əliyev burada da xalqının layiqli təmsilçisi kimi şan-şöhrət qazandı. Məhəmməd Peyğəmbərin gözəl bir kəlamı var: «Dünyada ən xoşbəxt adam əməli gözəl olan adamdır». Heydər Əliyevin əməllərinin gözəlliyi onda idi ki, bunlar onun xalqının gələcəyi naminə düşünülüb, görülmüş işlərdir. Azərbaycanımız məhz onun gərgin əməyi,yuxusuz gecələri sayəsində addım-addım irəlilədi, kərpic-kərpic quruldu, budaq-budaq böyüdü.

Xalqının ağır günləri olan 20 Yanvar günlərində Moskvada yaşayan Heydər Əliyev bunu bütün dünyaya yaydı. «Xalqın gözü tərəzidir», – demişlər ulu babalarımız. Xalq onun üçün yananla, ona biganə qalanı bir-birindən ayırmağı bacarır. Odur ki, 1993-cü ilin mürəkkəb, qarışıq günlərində boğulmaq ərəfəsində olan xalq əsl xilaskarı olan Heydər Əliyevə müraciət etdi. Millətin səsinə səs verərək onun ağır yükünü öz çiyinlərinə götürdü. Dövlətin üzərində kabus kimi dövrə vuran qara buludları darmadağın etdi, ölkədə sabitlik yaradaraq Qarabağ məsələsinin dinc yolla həll olması üçün əməli işlər gördü.

Məşhur bayatıda deyildiyi kimi:

*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala.*

Hakimiyyətə ikinici dəfə gəlişindən ömrünün sonuna qədər tarixdə əsl iz qoyacaq işlər sahibi Heydər babamız kimi tanındı. 1994-cü ildə neft

hasilatı ilə əlaqədar «Əsrin müqaviləsi»ni imzaladı. 2001-ci ildə Azərbaycan Avropa Şurasının tam hüquqlu üzvü qəbul olundu. 2002-ci ildə Azərbaycan Dövlət dili haqqında qanun qəbul olundu, Bakı–Tbilisi–Ceyhan əsas boru kəmərinin təməli qoyuldu...

Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Əliyev zəkasının, Əliyev dühasının işığı hiss olunmasın.

Hazırda Bakıda – Fəxri xiyabanda gül-çiçəyə qərq olmuş bir məzar var. Bu məzar artıq xalqın müqəddəs ziyarətgahına çevrilmişdir.

O ölməmişdir. O yaşayır. Nə qədər ki, Azərbaycan yaşayır, Heydər Əliyev yaşayır. Nə qədər ki, onun əməlləri yaşayır, liderimiz yaşayır. Bu günümüzdə varisi – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyi nəticəsində qazandığımız və qazanacağımız qələbələrdə yaşayır Heydər Babamız. O, burada olmasa da, mənən bizimlədi. Bizimlədi Xocalımız, Kəlbəcərimiz, Laçınımız düşmən tapdağından azad olanda, bizimlədi Şuşamız, Füzulimiz, Xankəndimizdə qalib Azərbaycan bayrağı dalğalananda. Bizimlə olacaq İsa bulağında, Cıdır düzündə çal-çağır məclisləri qurulanda, əzəmətli «Qarabağ şikəstəsi» oxunan günlərdə. O günlər isə uzaqda deyil.





## *İsmayıllı Həsən Vaqif oğlu*

***Şahbuz şəhəri, 1 nömrəli***
***tam orta məktəbin X sinif şagirdi***

İnsanlar var ki, bir müddət ağızlarda dolaşan nəğmələrə bənzəyirlər, az sonra isə bu nəğmə unudulur. Dahilərin adı isə hər zaman dillərdə olur. Heydər Əliyev də dahi idi və bütün dövrlərin dahisi olaraq qalacaq.

Bu gün yenə Heydər Əliyev fenomenindən söz açırıq, Heydər Əliyev bənzərsizliyindən danışırıq. Bu siyasət korifeyinin heç vaxt heç bir təbliğ təntənələrinə ehtiyacı olmasa da, biz dönə-dönə ona qayıdacağıq, o səbəbdən ki özümüzün ona ehtiyacımız var.

Heydər Əliyev... Müdrikliyi, uzaqgörənliyi, titanik fəaliyyəti ilə dünyanın ən nəhəng, say-seçmə siyasətçiləri ilə bir sırada özünə yer alan böyük azərbaycanlı. Adı Azərbaycanın, bütövlükdə türk dünyasının tarixinə qızıl hərflərlə yazılmış dahi. Belə dahilər, bu cür hərtərəfli düşüncə və dərrakəyə, təfəkkürə malik insanlar isə hər zamanın, hər əsrin, hər xalqın bəxtinə düşmür.

Heydər Əliyev böyük uzaqgörənliklə: «Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam...» dedi və xalqımızın qarşısında göstərdiyi möhtəşəm xidmətlərinə görə tarixdə əbədi yaşamaq haqqı qazandı. O, sözün əsl mənasında, vətənin böyük oğlu, liderlər lideri, bənzərsiz dövlət xadimi idi. O, sağlığında Azərbaycanın atası olmağı bacardı, bu zirvəyə ucaldı, xalqın sevgisini qazandı. O, müstəqil Azərbaycanın yaradıcısı, qurucusu, dövlətçiliyimizin qarantı oldu. O, respublikamızı hərtərəfli inkişafa çatdırdı, onun siyasətini, iqtisadiyyatını, elmini, təhsilini, mədəniyyətini dünya standartları səviyyəsinə qaldırdı, 34 illik rəhbərliyi dövründə, vətənimizin ən ağır vaxtlarında, ən çətin məqamlarında belə onu təklənməyə, dağılmağa, parçalanmağa qoymadı. İndi bütün dünyada səsi eşidilən, sözü eşidilən, ən super dövlətlərin belə hesablaşdığı Azərbaycan bu fenomenal şəxsiyyətin ən parlaq əsəridir.

Xalqımızın böyük lideri, əvəzolunmaz şəxsiyyət, nəhəng siyasətçi Heydər Əliyevlə bir dövrdə yaşamaq səadətinə qovuşan hər kəsi bu dahi şəxsiyyətin nümunəsi bir ahənrüba kimi özünə çəkib, çoxları bu qüdrətli insanın ömür yolundan təsirlənib.

Onun ağlı, müdrikliyi, uzaqgörənliyi, fəaliyyəti, bütövlükdə həyatı hər kəs üçün nümunədir. Bu nümunədən görüb-götürməli, hər birimiz onun ibrətamiz həyatından öyrənməliyik. Əlbəttə, onun müasiri olub ondan öyrənməmək qeyri-mümkündür. Ondan öyrənməyin özü böyük xoşbəxtlikdir. Təbii ki, o zirvəyə çatmaq, o zirvəni fəth etmək olduqca çətindir, amma Heydər Əliyev irsini öyrənmək, ondan bəhrələnmək olar. Heydər Əliyev irsi çox zəngindir. Biz bu irsdən ana dilinə olan sonsuz məhəbbəti, müstəqilliyimizi və azadlığımızı göz bəbəyi kimi qorumağı, yüksək yaddaş və dərin zəkanı, siyasi nüfuz və qüdrətin təzahürünü, xeyirxahlığın ali nümunəsini, böyüklüyü və sadəliyi, Azərbaycanın işıqlı gələcəyinin təminatını, xalq və onun taleyi üçün şam kimi əriyən bir ömrün salnaməsini öyrənirik.

Heydər Əliyev siyasətçi kimi böyüklük, insan kimi sadəlik simvoludur.

Hər il dekabr ayında BMT-nin Uşaq Fondu UNISEF-in xətti ilə bütün dünyada Beynəlxalq Teleradio Günü keçirilir. Həmin gün 120-dən çox ölkədə eyni vaxtda həm televiziyada, həm də radioda mikrofonlar uşaqlara verilir, onlar böyüklərin diqqətini öz problemlərinə yönəltmək istəyirlər. Uşaqların ən böyük arzusu isə dövlət başçısını öz verilişlərində görmək olurdu.

Amma Azərbaycan yeganə ölkədir ki, prezident həmin tədbirə qatılırdı. İşi başından aşan, vaxtın hər dəqiqəsinin ondan ötrü qızıla bərabər olduğu ümummilli liderimiz Heydər Əliyev heç vaxt uşaqların gözünü yolda qoymur, onların verilişlərində iştirak edirdi. O, böyük məhəbbətlə, səbirlə uşaqları dinləyir, hətta onlarla qol götürüb oynayırdı da. Bu, onun sadəliyindən, uşaqlara – Azərbaycanın sabahına qayğısından, sevgisindən irəli gəlirdi.

İllər keçəcək, əsrlər dəyişəcək, amma bir fakt faktlığında qalacaq: dünyanın Atilla, Atatürk, Vaşinqton, Şarl de Qoll, Bismark, Ruzvelt kimi siyasi liderləri sırasına Azərbaycan XX əsrdə Heydər Əliyev kimi dahini bəxş etdi. Bu, tarixin xeyirxahlığı, xalqımızın xoşbəxtliyidir!

Heydər Əliyev hər zaman zirvədə dayandı, indi də zirvədədir. Qoy ruhu o zirvədən canı qədər sevdiyi Azərbaycana, Azərbaycan xalqına duaçı olsun!

*Sən elə bir zirvəsən,*
*Küləklər neyləyəcək?!*
*Dünənim, bu günümsən*
*Səninlədir gələcək!*





## *İsmayılov Sahil Rəfi oğlu*

***Ordubad şəhəri, Ə.Ağayev adına***
***3 nömrəli tam orta məktəbin***
***VIII sinif şagirdi***

Dünya tarixini vərəqlədikcə qüdrətli zəka sahiblərinə, dünyaşöhrətli siyasətçilərə nadir hallarda rast gəlinir. Xalqımıza Tanrı tərəfindən bəxş olunan belə şəxsiyyətlərdən biri də türk dünyasının böyük siması, müstəqil Azərbaycanın qurucusu və xilaskarı ulu öndərimiz Heydər Əliyevdir. Onun adı Azərbaycan xalqının tarixi salnaməsinə qızıl hərflərlə həkk olunmuşdur.

Ümummilli lider Heydər Əliyev yalnız və yalnız Azərbaycan üçün yaşadı, xalqı, vətəni üçün mübarizə apardı.1969-cu ildə onun Azərbaycan siyasi rəhbərliyinə gəlişi dövlətçilik tariximizdə mühüm əhəmiyyət kəsb etdi.

Heydər Əliyev Azərbaycan və onun xalqının rifahı, respublikamızın ildən-ilə yüksəlişi, dünyada tanınması naminə əlindən gələni əsirgəmədi.

Azərbaycanın otuz beş ilə yaxın bir dövrü, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində yüksəliş tarixi bu böyük şəxsiyyətin adı ılə qırılmaz tellərlə bağlıdır.

Ümummilli liderimizin xalq və vətən naminə gördüyü işlər və söylədiyi hər bir söz xalqımızın milli sərvətidir.

Ulu öndər deyirdi: «Mənim yaratdığım hər şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektirik stansiyaları da, saraylar da – hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim torpağımdır». Bu sözlərlə ulu öndər Heydər Əliyev alovlu vətənpərvər, millətsevər olduğunu təsdiq edirdi. Bütün bunlar onun əməli fəaliyyətində, ölkənin inkişafında öz əksini tapmışdır.

Təkcə qurub yaratmaqda öz işini bilmiş hesab etməyən bu tarixi şəxsiyyət millətin adət-ənənələrinə, milli mənəvi dəyərlərə çox böyük hörmət bəsləyir, xalqın dərd-sərinə şərik çıxır, ən çətin anlarda xalqı ilə birlikdə olur və çətinlikləri böyük ustalıqla aradan qaldırmağı bacarırdı.

Azərbaycanda yaşayan xalqların monolit birliyini, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq burada yaşayan hər bir kəsin doğma ata-baba yurdu, vahid coğrafi-siyasi məkanda bütün vətəndaşların hüquq və azadlıqlarının təminatı Heydər Əliyev tərəfindən böyük ustalıqla həyata keçirilirdi.

O, eyni zamanda Azərbaycan vətəndaşı olmağın, azərbaycanlı adını daşımağın məsuliyyətini dərk etməyi, vətənə ləyaqətlə xidmət göstərməyi tövsiyə edirdi. Ümummilli liderin: «Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir» aforizmi uzaqgörənliklə söylənmişdir.

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam» çağırışı bu günümüzə, gələcəyimizə ünvanlanmış əsl vətəndaşlıq qayəsi kimi qiymətləndirilməlidir.

Beləliklə, dahi şəxsiyyət dövlət rəhbərinə, azərbaycanlıya xas gözəl nə varsa, onların hamısını öz timsalında cəmləşdirmişdi. Dünyaşöhrətli siyasətçi Azərbaycanı çox çətinliklərdən çıxararaq düz yola apardı.

*İnandı, gün gələcək,*
*Türkün ali sözütək*
*Azərbaycan torpağı*
*Dünyada yüksələcək.*

Dövlət başçısı necə olmalıdır, əsl azərbaycanlı hansı xüsusiyyətlərə malik olmalıdır və bu kimi bir çox suallara cavab tapmaq üçün Ulu Öndərimizin həyat və fəaliyyətinə möhkəm bələd olmaq lazımdır.

Bu unudulmaz liderin bütöv əmək və həyat fəaliyyəti tədqiq olunmalı, öyrənilməlidir. Çünki Azərbaycanı böyük çətinliklərdən xilas edərək düz yola çıxaran bu böyük xilaskar onun gələcək inkişafını müəyyənləşdirdi.

Türk dünyasının Atatürkü qədər özünə şöhrət tapan, adı və əməlləri ilə xalqın sevimlisi olan ulu öndərimiz Heydər Əliyev hər bir azərbaycanlının, hər bir Azərbaycan gəncinin həyatında örnək, nümunəvi, parlaq, ziyalı bir rəhbər, dahi bir şəxsiyyət kimi yaddaşlara keçmişdir.

Dahilər, qəhrəmanlar doğulmurlar, onlar öz əməlləri ilə bunu qazanır və ucalır, zirvələr fəth edir, qəhrəman, yaxud dahi şəxsiyyət olurlar. Ümummilli liderimiz Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir.

Bəli, o, Azərbaycan xalqının dahi oğlu, Vətənimizi yüksək zirvələrə ucaldan, əbədi bir rəhbər oldu. Onun apardığı hər bir siyasət, bütün islahatlar, gördüyü işlər xalqın ürəyindən xəbər verən, xalqın arzusunu, istəyini ifadə edən işlər idi. O, nəinki yaşlı nəslin, nəinki ata-anaların, həmçinin yeniyetmə gənclərin, uşaqların sevimlisi idi. Ulu öndərimizin o parlaq siması, o təbəssüm dolu baxışları, qayğı dolu gözləri hər bir azərbaycanlının həyatında dərin bir iz buraxmışdır.



34 illik hakimiyyəti dövründə xalqın ən mühüm işlərində öndə gedərək, ağır yükü öz çiyinlərində daşıyaraq böyük bir rəhbər, unudulmaz bir insan oldu.

Düşmənə qarşı qorxmadan, çəkinmədən xalqla birlikdə olduğunu dönə-dönə sübut etdi.

Azərbaycanda tökülən qanlar dayandı. Onun səyi və iradəsi nəticəsində atəşkəs elan edildi. Azərbaycan öz müstəqilliyini tapdı. Hamı rahat nəfəs almağa başladı. Ulu öndər xalqını yaşatdı. Azərbaycanın üçrəngli bayrağını dünyanın ən yüksək təşkilatlarında, böyük şəhərlərdə dalğalandırdı. Qurduğu iş planları ilə dünya ölkələrinin Azərbaycana olan marağı daha da artdı. Yeni islahatlar başlandı. Azərbaycan öz sərvətinin sahibi oldu. Qaçqınlara böyük qayğı göstərildi. Şəhid ailələrinə yardımlar edildi. Onların ailəsinə böyük hörmət, yüksək dəyər verildi. Gənclərə qayğı artdı, onlar üçün yeni iş yerləri, istirahət, idman kompleksləri salındı. Azərbaycan idmanı beynəlxalq aləmdə tanınmağa başladı. Təhsilimizin,mədəniyyətimizin, musiqimizin inkişafı böyük vüsət aldı. Azərbaycan tanındı, inkişaf etməyə başladı. O dahi şəxsiyyət yenidən «Azərbaycan» adlı möhtəşəm əsərini yaratdı.

Onun ugurları, gördüyü işləri saymaqla bitməz. Bəli, Ümummilli Lider hər kəsin həyatına girdi, hamının qəlbinə yol tapdı. İndi o, bizimlə olmasa da, arzuları, əməlləri, xeyirxah işləri bizimlədir. Bu gün Ulu Öndərimizin siyasətini onun layiqli davamçısı, möhtərəm prezidentimiz İlham Əliyev cənabları uğurla davam etdirir.

Bu gün Heydər Əliyev siyasəti yaşayır , davam etdirilir, yeni formalarla zənginləşir. Heydər Əliyev siyasətinin, siyasi kursunun davamı dövlətin milli maraqları və xalqın mənafeyi ilə tam uzlaşır.

Əlbəttə ki, cənab İlham Əliyevin xalq tərəfindən dəstəklənməsini şərtləndirən amillər onun yalnız Heydər Əliyev siyasi kursunun davamçısı olması ilə bitmir. Buraya möhtərəm prezidentimiz İlham Əliyevin siyasi imici, təmiz kariyerası, diplomatik keyfiyyətləri vaxtı ilə dünyanın iri neft şirkətləri ilə aparılan danışıqların uğurla başa çatmasında xidmətləri və digər amillər də daxildir.

O, nüfuzlu rəhbər kimi Heydər Əliyev ideyalarına dərin sədaqətini, Azərbaycanın müstəqilliyinə göstərdiyi xidmətlərlə sübut etməkdədir. Sabitliyi dönməz bir prosesə çevirmək, islahatları uğurla tamamlamaq və əhalinin rifahını yaxşılaşdırmaq İlham Əliyevin fəaliyyətinin əsasını təşkil edir.

O, Azərbaycanı XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirən və inkişaf etdirən bir liderdir.İlham Əliyev az müddətdə Azərbaycanın qonşu və uzaq dövlətlərlə mehriban dostluq və əməkdaşlıq münasibətləri yaratmasına nail oldu. Təbii ki, bu gün Azərbaycan dövləti üçün prioritet mövzu Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir. Hörmətli prezidentimiz bütün xarici səfərlərində keçirdiyi görüşlərdə problemin beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyini bildirir, Ermənistanın təcavüzkar siyasətini ifşa edir.

İnanırıq ki, bütün sahələrdə böyük uğurlar əldə etməyə nail olan görkəmli dövlət xadimi doğma torpaqlarımızın geri qaytarılmasına, qaçqın və köçkünlərimizin doğma ocaqlarına qayıdacaqlarına da nail olacaq, xalqımızın Qarabağ həsrətinə son qoyulacaqdır.

*Bu bahar bir özgə bahar olacaq,*
*Qələbə müjdəli zəfər baharı.*
*Ağdama, Şuşaya zəfər olacaq*
*Sınacaq həsrətin şaxta, buz, qarı.*

*Duman çəkiləcək, çən çəkiləcək,*
*Doğma Qarabağda dan söküləcək*
*Daşacaq zəhmətin bəhəri, barı,*
*Çin olacaq elin sülh arzuları.*

Azərbaycan rəhbəri kimi cənab prezidentimizin gördüyü işlər deməyə əsas yaradır ki, Azərbaycan yaxın gələcəkdə fövqəldövlətə çevriləcəkdir. Xalqımız xoşbəxt və firavan günlərə qovuşacaqdır. Bu günləri xalqımıza bəxş etmək üçün möhtərəm prezidentimizə gələcək fəaliyyətində uğurlar arzulayırıq.





## *Quliyev Rəsul Hüseyn oğlu*

***Bakı şəhəri, 192 nömrəli***
***tam orta məktəbin IX sinif şagirdi***

Bəli, adı tarixə qızıl hərflərlə yazılan Heydər Əliyevi ancaq yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran Günəşlə, bir də qartal məskəni, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək mümkündür. Heydər Əliyev bütün cəhətlərinə görə həmişə zirvədə dayanacaq bir şəxsiyyətdir. Onun zəkası, ideyaları həmişə Azərbaycan üzərində Günəş kimi parlayacaq, yolumuzu nura qərq edəcək. Xalqımız fəxr edə bilər ki, onun ləyaqətli övladı Heydər Əliyev hələ sağlığında ikən adını dünyada sayılıbseçilən dövlət xadimlərinin, tarixi simalarının siyahısına salmış və bununla da hər birimizə başucalıq gətirmişdir.

Hər birimizin dəyəri yaşadığımız zaman müddətində göstərdiyimiz xidmətlərimiz və əməllərimizlə ölçülür. Bu mənada ümummilli liderimiz Heydər Əliyev barəsində belə bir fikir söyləmək olar: «O, Tanrının Azərbaycan xalqını sevərək ona göndərdiyi fədakarlıq simvoludur». Böyük Öndərin yeganə amalı belə idi: Taleyin ona bəxş etdiyi fitri qabiliyyətini, bütün qüvvə və bacarığını, əqli və fiziki potensialını ana yurdu Azərbaycana həsr etmək!

Böyük öndərin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrə nəzər salsaq, bunu aydın görə bilərik. Məlumdur ki, ümummilli lider Heydər Əliyev respublikamıza müxtəlif ictimai-siyasi formasiyalarda rəhbərlik etmişdir və bu cəhətdən onun rəhbərlik illərini iki mərhələyə bölmək mümkündür. Birinci mərhələ 1969–1982-ci illəri əhatə edir. Həmin illərdə Azərbaycan Respublikası keçmiş SSRİ-nin tərkibində olsa da, Heydər Əliyev ittifaq büdcəsindən respublikamıza daha çox vəsait ayırmaqdan ötrü, sözün əsl mənasında, qətiyyət göstərmişdir. Heydər Əliyevin bu uzaqgörənliyi bu gün də hamımızda sevincqarışıq heyrət doğurur. Heydər Əliyev hələ Sovet İttifaqının mövcudluğunda respublikamızın nə vaxtsa müstəqillik qazanacağına inanmış və bundan ötrü güclü maddi-texniki baza yaratmışdır.

Heydər Əliyev ikinci dəfə Azərbaycana müstəqillik qazandıqdan sonra, yəni 1993–2003-cü illərdə rəhbərlik etmişdir. Həmin illərdə ölkəmizdə çox ağır vəziyyət hökm sürürdü. Ayrı-ayrı qüvvələr, Azərbaycanı vətəndaş qarşıdurmasının astanasına gətirib çıxarmışdılar. Ölkənin parçalanma təhlükəsi yaranmışdı. Belə ağır bir şəraitdə xalqımız Heydər Əliyevi rəhbərliyə dəvət etmişdi. Heydər Əliyev də xalqımızın səsinə səs verərək və xalqımıza arxalanaraq Azərbaycanda baş verən bu xaosun qarşısını alaraq, Azərbaycanı ahəngdar inkişaf yoluna çıxartmışdır.

Buna görə də Heydər Əliyevin adı tarixə digər böyük xidmətləri ilə yanaşı, ilk növbədə, müasir Azəbaycanın qurucusu kimi daxil olmuşdur.

Ümummilli liderimizin ən böyük ağrısı xalqın, Vətənin ağrısı idi. Məmləkətin ayağına dəyən daş onun qəlbinə dəyirdi. Bu sözləri yazarkən 1990-cı ilin 20 Yanvar faciəsi yada düşür. Azərbaycan üzərinə qoşun yeridiləndə, günahsız soydaşlarımız qətlə yetiriləndə Heydər Əliyev xalqımıza qarşı törədilən bu ağır cinayətə sakit yanaşa bilmədi. O, təqiblərə, özünə və ailəsinə qarşı yönələn təhlükələrə məhəl qoymadan respublikamızın Moskvadakı daimi nümayəndəliyinə gələrək ittifaq rəhbərlərinin vəhşi hərəkətlərinə qəti şəkildə etirazını bildirdi. Həmin dövrdə qapalı həyat tərzi keçirməyə məcbur edildi, Azərbaycanın qorxmaz, igid, mərd oğlu Heydər Əliyev.

Biz yeni nəsil Azərbaycan gəncləri Heydər Əliyevin bu qəhrəmanlığından həmişə özümüzə örnək götürürük.

Bəli, Heydər Əliyevin bu böyüklüyü, ilk növbədə, onun milliliyində, mənsub olduğu xalqa, adət-ənənələrə möhkəm bağlılığında idi. Onun həyatsevərliyinin, bitib-tükənməyən həvəsinin təməlində ana yurdu – doğma Azərbaycan dayanır. Bu böyük insan, köklərə möhkəm bağlı olduğuna görə güclü və qüdrətli idi. Böyük öndər bütün həyatı və fəaliyyəti boyu xalqına arxalanmışdır. Dillər əzbəri olan «Xalq – Heydər – Heydər – Xalq» deyimi də məhz bu kökdəndir. Şair Nəsib Qaramanlı yazır:

*Bu vətənə xidmətində,*
*Bu millətə hörmətində,*
*Bu dövlətin qüdrətində,*
*Yaşayır Heydər babamız!*
*Əməli zəfər babamız!*

Ümummilli liderimiz Heydər Əliyevin bu şərəfli ömür yolu hamımız, eləcə də Azərbaycan gəncləri üçün parlaq həyat nümunəsidir!





## *Mərdanova Ayşən Azər qızı*

***Saatlı şəhəri, S.Vurğun adına***
***1 nömrəli tam orta məktəbin***
***XI sinif şagirdi***

Xəyallar aləminin sonsuz dərgahını fəth edə-edə düşünürəm: Ulu yaradan kainatı xəlq edərək hə bir varlığın vəzifəsini, funksiyasını elə dəqiqliklə yaratmışdır ki, dünənimiz, bu günümüz və gələcəyimiz hətta həyatımızın idarəsi belə birbaşa olaraq həmin funksiyadan asılıdır. Bəşər övladlarını haqq dərgahına çağıran peyğəmbərlər, dahi filosoflar, görkəmli alimlər, şəxsiyyətlər Tanrının sirli-sehrli qüdrətinin bəxşişləridir. Azərbaycan xalqının soykökünə,keçmişinə, qədim türklüyünə bir nəzər keçirsək onda görərik ki, xalqımızın bütövlüyünü qorumaq naminə canlarını fəda edən Nizamilər, Füzulilər, Xətailər, Babəklər, Tomirislər və daha kimlər, nələr?!

Məgər bu əvəzedilməz şəxsiyyətlər Tanrının azərbaycan xalqı üçün bəxş etdiyi bəxşişləri deyildirmi?!.

Bu gün söz açacağım insan Azərbaycan xalqının, Azərbaycan torpağının, Müstəqil Azərbaycanın Qurtuluş dahisi Heydər Əliyevdir.

Mən Azərbaycanın Saatlı bölgəsində məskunlaşan Qarabağın tacı olan, Şuşa ab-havası ilə qidalanan əzəmətli dağlarından vüqar alan, İsa bulağından, Cıdır meydanından, Xan, Bülbül, Natəvan, Vaqif nəslindən qaynaqlanan elin, doğma bir diyarın övladıyam.

Valideynlərim öz doğma yurd yuvalarını tez-tez xatırlayaraq bizlərə yenilməz qala olan Şuşa haqqında məlumatlar verir və rəvayətlər danışırlar. Həmin rəvayətlər bizlərdə öyünüləsi vətənpərvərlik hisləri oyadırlar. Lakin Şuşanın işğalı əhvalatı bizləri dərin kədərə qərq edir.

«Kaş ki bu da bir əhvalat olaydı» istəyini ürəyimizdən keçiririk!

Bunları xatırlamağım təsadüfi deyil!

Azərbaycan xalqının başı nə bəlalar çıkib; bir tərəfdən parçalanmaq, digər tərəfdən isə erməni fitnəkarları içərisində boğulmaq. Dünya nəhəngləri susur. Xocalı qan gölündə fəryad edir...

Azərbaycan daxilində «mən-mən» deyib, kənarda isə «məndən ötüb qardaşıma dəydi» əqidəsi ilə hərəkət edən fitnəkar Azərbaycan torpağını sanki nər meydanına çevirmişdilər. Milləti səsləyən qüvvə, arxa dayaq olan bir şəxs lazım idi. Ümummilli lider Heydər Əliyev kimi. Heydər Əliyev Müstəqil Azərbaycan qurucusu, Qurtuluş dahisidir.

Azərbaycan hər zaman Heydər Əliyev kimi oğulları ilə fəxr etmişdir.

*Kimdir ən böyük şair?*
*Mənim babam Nizami!*
*Ən qəhrəman sənətkar?*
*İmadəddin Nəsimi!*
*İldırım sürətli at?*
*Koroğlunun Qıratı!*
*Qısa qaynar bir həyat?*

*Cabbarlının həyatı! – deyən şairə sual verilsəydi ki;*

*Ömüradlı payını,*
*Öz xalqıyla bölüşən!*
*Vətən məbədi adlı,*
*Daim çiçəkləndirən!*
*Tarixi dəyişdirən,*
*Ən böyük dahi Kimdir?..*

Sözsüz ki, şair deyərdi oğul! Bəli, Heydər Əlirza oğlu.

Azərbaycan xalqının şanlı oğlu, dahi siyasətçi, qüdrətli xadim Heydər Əlirza oğlu Əliyev 1923-cü ilin mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur.

O, 1939-cu ldə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. O, 1941–1944-cü illlərdə Naxçıvan MSSR xalq Daxili İşlər Komissarlığında çalışmışdır.

1964-cü ildən isə Dövlət Təhlükəsizliyi Orqanlarına işə göndərilmişdir. Heydər Əliyev həmin illərdə hətta general-mayor rütbəsinə qədər yüksəlmişdir. Bu dövr də Leninqradda xüsusi ali təhsil almış, hətta 1997-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Heydər Əliyev Azərbaycan xalqının həyatına heç vaxt biganə yanaşmamışdır. Hətta Heydər Əliyev 1990-cı ilin yanvarın 20-də Sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar olaraq ertəsi gün Azərbaycanın



Moskvadakı nümayəndəliyinə bəyanatla çıxış edərək sovet qoşunlarının törətdiyi qətllərin təşkilatçıları və iştirakçılarının cəzalandırmağını tələb etmişdir. Dağlıq Qarabağ münaqişəsində Sovet hakimiyyətinin ikiüzlü siyasətinin etiraz əlaməti olaraq Sovet İttifaqı Kommunist partiyaları sıralarını tərk etmişdir.

1991–1993-cü illərdə Heydər Əliyev Naxçıvan şəhərində işləyirdi.

1993-cü ilin iyun ayında hakimiyyət böhranı vətəndaş müharibəsi, müstəqilliyin itirilməsi təhlükəsi ölkədə yaşayan xalqları həddindən artıq çox narahat edirdi. Hakimiyyətə Heydər Əliyevin gətirilməsi tələbi ilə xalq ayağa qalxdı. Azərbaycanın o zaman ki, məmurları Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular.

1993-cü il iyulun 27-də Milli Məclisin qərarı ilə Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümümxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

1998-ci il oktyabrın 11-də xalqın fəallığı nəticəsində 76,1% səs toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Heydər Əliyev 2003-cü ilin oktyabrın 15-də keçiriləcək prezident seçkilərinə namizədliyini irəli sürülməsinə razılıq versə də sonralar səhhətində yaranmış problemlərlə əlaqədar geri götürmüşdür.

Heydər Əliyev 2003-cü il dekabrın 12-də Türkiyədə vəfat etmişdir. Hal-hazırda Birinci Fəxri Xiyabanda dəfn edilmişdir.

O, böyük siyasi və dövlət xadimi olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Onun coşğun siyasi həyat və fəliyyəti təkcə ölkə daxilində deyil, eləcə də dünya mətbuatında işıqlandırılmışdır.

Tarixi bəsirət, irəlini görmək nadir bir hisdir. Siyasətçilərin heç də hamısında bu hiss olmur. Təbiət bu hissi yalnız seçilmiş adamlara – zəmanəsini çox-çox qabaqlayan mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi...

Heydər Əliyevi güclü xarizmatik lider. Fenomenal şəxsiyyət adlandırırlar.

Heydər Əlirza oğlu Əliyev XX əsrin ən parlaq simalarından və ən nadir şəxsiyyətlərindən biridir. O, şərəfli həyat və fəliyyəti ilə tarixi min illərlə hesablanan zəfər salnaməsinə şanlı səhifələr yazılmış, qədim bir xalqın simvolu səviyyəsinə yüksəltmişdir.

Hər bir qədirbilən Azərbaycan vətəndaşının qəlbində Heydər Əliyevin işıqlı parlaq obrazı yaşayır.

Heydər Əliyevin 92 illik yubileyinə həsr edilmiş bu inşamda hislərimi daha aydın və dolğun şəkildə ifadə etmək üçün şeirdən istifadə edirəm:

*Bilirəm ki, dünənimiz bu günün keçmişi deyil.*
*Hər dövrdə bir şəxsiyyət tarixin vərdişi deyil.*
*Bir ölkəni xilas etmək bir insanın işi deyil*
*Allah səni öz nurundan yaratmışdır Heydər baba!*
*Gəlişinlə yoxa çıxdı mərmi yağış, balta külək.*
*Gedişinə ağlayırdı yerdə insan, göydə mələk*
*Hələ yanan ocaqların istiliyi, varsa demək.*
*Allah səni öz nurundan yaratmışdır Heydər baba!*
*Heydər dedim coşdu qələm, cənnət-məkan oldu sinəm.*
*Heydər dedim susdu bulud, güldü günəş doldu sinəm.*
*Heydəradlı zirvələrə, haqqa gedən yoldu sinəm.*
*Allah səni öz nurundan yaratmışdır, Heydər baba!*
*Bu torpağı, bu milləti, canındanda çox sevirdin.*
*Ayağını basan yerdə, daş üstündə gül bitirdin.*
*Özün getdin öz xalqına, özün kimi oğul verdin.*
*Allah səni öz nurundan yaratmışdır, Heydər baba!*
*Yer topunu sirr baxçası rəngsiz-donsuz göylərdədir.*
*Xeyir-duan üstümüzdə ruhun sonsuz göylərdədir.*
*Göydən gəldin göyə döndün ruhun onsuz göylərdədir.*
*Allah səni öz nurundan yaratmışdır, Heydər baba!*

Heydər Əliyev xalqın unudulmaz xilaskarıdır. Azərbaycan epoxasının önəmli bir hissəsi Heydər Əliyevin adı ilə bağlıdır. Yüksək dinamiklə inkişaf etmiş Azərbaycan Heydər Əliyev strategiyasının təntənəsidir. Azərbaycanın bugünkü mütərəqqi irəli addımları, müasir fərqli dövlət Əliyevlər ailəsinin zəkasının məhsuludur.

Bu gün Azərbaycan inkaşıf etmiş ölkələr sırasındadır. Ölkəmizdə keçirilmiş Euravision musiqi yarışmasının, gələcəkdə keçiriləcək Olimpiada yarışlarının ölkəmiz üçün necə gözəl müsbət əhəmiyyətləri var.

Günü-gündən inkişaf etmiş Azərbaycan öz gözəlliyi, yenilikləri ilə hamını mat-məətəl qoymuşdur. Bizim kimi gənclərin belə bir diyarda böyüməsi, belə bir mühitdə yaşaması çox gözəl duyğudur.

Azərbaycan bizim kimi gənclərdən çox şeylər gözləyir, çalışacağıq ki, həmişə vətənimizə layiqli bir övlad olaq, böyüyək, inkişaf edək.

Yazdığım inşamı Heydər Əliyevin sözləri ilə bitirmək istəyirəm «Həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam!»

Heydər Əliyev həmişə qəlblərdə qalacaq və yaşayacaqdır. Nə qədər ki, bu millət, bu torpaq, bu xalq, bu vətən var Heydər Əliyev həmişə seviləcək və anılacaq. Nur içində yatasan Heydər Əliyev...






## Məmmədova Fidan Şahin qızı

**Bakı şəhəri, 189–190 nömrəli tam orta məktəbin XI sinif şagirdi**


Bu gün dünya dövlətləri içərisində azad, suveren, müstəqil dövlət kimi tanınan Azərbaycan Respublikasının son otuz ildəki adı xalqın övladı Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır.

Çağdaş dünyamızda xalqın taleyi ilə sıx bağlanan, öz şəxsiyyəti ilə xalqının simvoluna çevrilən liderlərə az-az təsadüf olunur. Adətən, prezidentlər ölkənin ali məmuru kimi öz vəzifələrini icra edirlər. Vəzifə insanı tanıda bilmir, insan öz vəzifəsi ilə tanınır. O da belələrindən idi. Buna görə də Heydər Əliyev ümumxalq sevgisi qazanıb, millətin liderinə çevrilmişdi.

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalır. O, xalqımızın milli iftixarı, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz Böyük Azərbaycanlı idi.

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmaq bacarığı onu digər həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən keyfiyyətlərindən biri idi.

Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə, siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Ulu Öndər deyirdi ki,reallığı düzgün qiymətləndirən keçmiş təcrübədən yaradıcılıqla istifadə edən sosial-siyasi və iqtisadi problemlərin bütün mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Bu da bir həqiqətdir ki, dünyada tanınan, sevilən, şəxsiyyətinə, siyasi və dövlətçilik fəaliyyətinə çox böyük hörmətlə yanaşılan Heydər Əliyev haq-

qında söz demək, fikir söyləmək o qədər də asan deyil. Bu gün dünya ictimaiyyəti Azərbaycanı və onun liderini tanıyır, onu minnətdarlıqla xatırlayırsa, bu özü xalqımız üçün böyük şərəfdir. Mən bir azərbaycanlı kimi qürur duyuram ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən şəxsiyyəti var.

Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, yüksək analitik təfəkkürə və yenilməz iradəyə malik siyasətçi idi. «Siyasət üçün doğulmuşlar siyasətdən əl çəkdikcə, siyasət onlardan əl çəkmir», – deyimi tamamilə Heydər Əliyevə aid edilə bilər. Ona görə də bir sıra hallarda Heydər Əliyevi «siyasət nəhəngi», «siyasət patriarxı...» kimi xarakterizə edirlər.

Tarixi yazan və yaradan, onu yönəltməyi bacaran bu dahi insan təkcə təsərrüfatçı deyil, həm də kütləni arxasınca aparmağı bacaran bir siyasi xadim idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən güclü idi. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuşdur. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində qısa bir müddət ərzində böyük dönüş yaratdı. O, qərbə inteqrasiya yolunu tutdu. Bakı–Tiblisi–Ceyhan neft, Bakı–Tiblisi–Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin nəticəsi kimi reallığa çevrildi.

Bu gün ölkəmizin hüdudlarında dillər əzbəri olan «Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir» ifadəsi dövrünün reallığını əks etdirən danılmaz həyat həqiqətidir. Dövlət müstəqilliyimizin qorunub saxlanılmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində, iqtisadi, sosial və mədəni sahələrdə inkişafın təmin edilməsində, azərbaycançılıq məfkurəsinin milli ideologiyaya çevrilməsində olan xidmətləri Ulu Öndərə sonsuz ehtiram, məhəbbət və əbədiyyət qazandırmışdır.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqı üçün tükənməz bir xəzinədir. Vaxtı ilə böyük Füzuli deyirdi ki, sözdən elə bir süfrə açmışam ki, hər gələn qonağa orada mütləq bir nemət tapılar. «Heydər Əliyev xəzinəsi» adlandırılan milli sərvətdən də hamıya pay düşür. Siyasətçilər də, mədəniyyət və incəsənət işçiləri də, filosoflar da bu xəzinədən bəhrələnəcəklər. Heydər Əliyev zəkasından, onun zəngin irsindən öyrənəcək, qarşılaşdıqları çətinlikləri dəf edə biləcəklər.

Ona da şübhə ola bilməz ki, Heydər Əliyev xəzinəsindən ən böyük pay ədəbiyyat və mədəniyyət adamlarının, şairlərin, yazıçıların qismətinə



düşüb. Dünya tarixində elmə, sənətə, maarif və mədəniyyətə himayədarlığı ilə tanınan dövlət başçıları az olmayıb. Lakin Heydər Əliyevi digər siyasi xadimlərdən fərqləndirən bir mühüm cəhəti var; o, öz doğma xalqının ədəbiyyatına və mədəniyyətinə yalnız himayədarlıq etməmiş, həm də bu mədəniyyət sahələrinin dərin bilicisi olmuşdur. Azərbaycan xalqının əsrlər boyu yaratdığı elm və mədəniyyət abidələrinə olan sevgi Heydər Əliyevin öz doğma xalqına, torpağına olan sonsuz məhəbbətdən qaynaqlanır.

Ümummilli lider Heydər Əliyevi dünyanı yaxşılığa doğru dəyişmiş insanlar cərgəsinə aid etmək olar. Müasirləri onun gördüyü işləri hələ layiqincə qiymətləndirməyiblər. XX əsrin görkəmli siyasətçilərindən biri olan Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamlarına istiqamət verəcəkdir.

*Hökumət başçısı o ulu insan,*
*Eylədi ölkəni azad, firavan*
*Yaşadı hər zaman o xalqı üçün*
*Dövləti, milləti yaşatmaq üçün*
*Ən uca zirvələr fəth etdi ölkə,*
*Rəhbərlə, o Ulu Öndərlə birgə.*

*Ən uca yerlərdə çəkilir adın,*
*Lideri olmusan böyük bir xalqın*
*İlhamla sabaha biz inanaraq,*
*Yeni uğurlara imzalar ataq*
*Ey odlar yurdunun ulu öndəri.*
*Vətən torpağının ölməz Heydəri!*

Heydər Əliyev uzaqgörənliklə deyirdi: «Azərbaycan dünyaya günəş kimi doğacaqdır».

İndi müasir Azərbaycan onun arzuları səviyyəsində dünyaya meydan oxuya-oxuya inkişaf edir. Bu inkişafın başında isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev durur. Ölkəmizin üfüqlərində dünyaya günəş kimi doğan Azərbaycan xarüqələr yaradır.

Mən bu günün məktəblisi, sabahın tələbəsi kimi ölkəmlə, bu ölkənin dahi şəxsiyyəti Heydər Əliyevlə fəxr edirəm. Fəxr edirəm ki, onun şah əsəri olan Azərbaycan dövlətinin vətəndaşıyam. Bu vətəndaşlığı isə bizlərə O, yalnız O öyrədib. İşi, əməli, fəaliyyəti, elinə, obasına, torpağına olan sevgisi ilə...



## Məmmədli İbrahim Tofiq oğlu

**Beyləqan rayonu, Təbiət və humanitar fənlər təmayüllü liseyin X sinif şagirdi**

*«Müasir Azərbaycanın böyük gələcəyi var. Mən bu gələcəyə inanıram. Mən bu gələcəyin ümidi ilə yaşayıram».*

**Heydər Əliyev**

Əlimdə qələm var. Dərin və fikirli gözlərimlə bəmbəyaz, saf kağıza baxıram. Fikirləşirəm, görəsən, necə təsəvvür edim onu? Böyük, dahi bir şəxsiyyət kimi, yoxsa sadə, qəlbitəmiz, ürəyiaçıq bir Azərbaycan vətəndaşı kimi.

Danışdığım insan bu xüsusiyyətlərin ikisini də özündə daşıyır. İlahi, bir insan eyni anda necə dahi bir şəxsiyyət və sadə bir vətəndaş olar bilər?! Ancaq kamil insanlar bunu edə bilər. Yəqin ki, kimdən danışdığımı anladınız.

Bəli, mən Azərbaycanın xilaskarı, ümummilli lider, vətən oğlu, qayğıkeş ata, bütün xalqın ümid və pənah yeri Heydər Əliyevdən danışıram.

Azadlıq, müstəqillik, qürur, firavan həyat və Heydər Əliyev! Bu sözləri söylərkən özümüzdən asılı olmayaraq qürur hissi duyur və Azərbaycanın yetişdirdiyi bu mükəmməl və qüsursuz şəxsiyyəti böyük fərəh hissi ilə anırıq. Bəs biz onu və onun keçmişini tanıyırıqmı?!

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Hələ kiçik yaşlarından bacarığına görə həmyaşıdlarından seçilmiş, müəllimlərinin sevimlisi olmuşdur. Böyüdükcə içindəki vətənə məhəbbət hissi də böyümüş və onu daha da sıx sevgiylə Azərbaycana bağlamışdı. O, əvvəlcə Naxçıvan Pedaqoji Texnikumuna, sonra isə Bakı Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdur. Lakin müharibə təhsilini başa vurmağa imkan verməmişdir.



Müharibədən sonra yenidən Naxçıvana qayıtmış, bir müddət sonra Bakıya gəlmişdir. 1964-cü ildə Azərbaycan SSR-də Təhlükəsizlik Komitəsinin sədr müavini, 1967-ci ildə sədr vəzifəsində çalışmışdı. Bu müddət ərzində o, Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olur və təhsilini davam etdirir.

Məncə, Heydər Əliyevin həyatının bir hissəsini az da olsa, sizə çatdıra bildim. Bəs xalq onu bu keçmişə görə sevirdi? Əlbəttə, yox!

Heydər Əliyev Azərbaycanı və Azərbaycan xalqını işıqlı sabaha aparan işığın özü idi. O, bizim qaranlıq gecələrimizin sübhü, qaranlıq, zülmət otağımızın parlaq çırağı idi. O, ən çətin anlarda xalqın yanında olan idi, ona dayaq duran idi.

Yadınıza çalmaq istəyirəm ki, həmin dövrdə respublikamızda vəziyyət çox gərgin və acınacaqlı idi. Bir tərəfdə erməni daşnaqları qətliam törədir, soyqırımlar hazırlayır, qara əməlləri ilə gözəl torpağımız, azərbaycanlıların qədim diyarı olan o səfalı Qarabağımızı işğal edir, uşaqlar diri-diri yandırılır, anaların ah-nalələri ərşə çəkilir, qocalara zülm olunur, qadınlar döyülürdü. Bir tərəfdən də Bakıda baş verən üsyanlar, yeni yaranmış dövlətimizdə olan siyasi proseslər, dövlətin dağılması təhlükəsi.

Əlbəttə, xalq bilirdi ki, belə anda onlara ancaq və ancaq xalqın mübariz oğlu Heydər Əliyev kömək edə bilər. Xalqımız qətiyyətlə Heydər Əliyevin hakimiyyətə gəlməyini tələb edirdi.

Çox keçmədən millətin sədaqətli oğlu bu çağırışa səs verdi. Sakit dura bilməzdi, çünki qəlbi tamamilə vətən həsrəti ilə dolub-daşırdı.

Və nəhayət, o gün gəldi. 15 iyun 1993-cü il. Xalqımızın və dövlətimizin xoşbəxtliyinin bərpa olunduğu, ölkənin iqtisadi və siyasi böhrandan çıxdığı gün. Müstəqil siyasətin əsasının qoyulduğu gün. Heydər Əliyevin hakimiyyətə gəldiyi gün.

Bəli! O, verdiyi bütün sözlərə əməl etdi. İlk olaraq torpaqlarımız daxilində olan iğtişaşlar dayandırıldı. Qardaşın qardaşa tutduğu soyuq silahlar susdu. Beləliklə, dövlətimizdə bütün xalqlar Azərbaycan adı altında tək qüvvədə birləşdilər – təbii ki, Heydər Əliyev başda olmaqla.

Ən əası da budur ki, torpaqlarımızın işğalı təhlükəsi aradan qaldırıldı. Məhz onun güclü siyasəti nəticəsində tezliklə atəşkəs rejimi bərpa edildi. Azərbaycanın digər topraqlarının işğalı aradan qaldırıldı. Məcburi köçkünlərimiz onun yaratdığı şərait nəticəsində yeni mənzillərdə yerləşdirildi, rahatlıqlarına xüsusi qayğıyla yanaşıldı.

Ümummilli Lider çox təmizqəlbli insan idi. Bunu belə izah edə bilərəm ki, o, bu yaxşılıqları ona görə edirdi ki, köçkünlər, heç olmasa, keçirt-

dikləri dərdləri, dəhşətləri az da olsa, unutsunlar. Görün, necə də səmimi və pak bir insan imiş.

Bizdə məhz onun uzaqgörən siyasəti və inamı ilə Qafqazın ən güclü, ən yenilməz ordusu yaradıldı. Bu gün Azərbaycan ordusuna görə bir çox dövlətləri ötüb keçmişdir.

Heydər Əliyevin ən böyük nailiyyətindən biri də 1994-cü il 20 sentyabr tarixi idi. Bu tarixdə bütün dünyanın gözü Azərbaycanın üzərində idi. XX əsrin ən böyük, ən möhtəşəm müqaviləsi – «Əsrin müqaviləsi» imzalanırdı. Bəli, başqa kim dünyanın ən böyük neft şirkətlərini Bakıya toplaya bilərdi? Heç kim. Yalnız o dahi adam – Heydər Əliyev! Bu müqavilənin imzalanması ilə dövlət vahid dünya bazarına qoşuldu. Ölkənin iqtisadi sürəti artdı, dövlətimiz dünya dövlətləri səviyyəsinə yüksəldi. Beləliklə, xalq Heydər Əliyevə, Heydər Əliyev də xalqa arxalanaraq öz möhtəşəm və yenilməz siyasətilə Azərbaycan dövlətini yenidən canlandırdı. Sanki onu həyata qaytardı.

Heydər Əliyevin həyatı, fəaliyyəti və gördüyü işləri bir xronologiyaya düzsək, sözsüz ki. tarixin ən böyük səhifəsi yazılar. Heydər Əliyevin Azərbaycan xalqı üçün etdikləri danılmazdır. Elə xalq da onu dərin məhəbbətlə sevirdi. Ona rəğbət bəsləyir, gələcəyin onunla daha yaxşılaşacağına, daha güclü olacağına inanırdılar. Bir mahnının sözləri yadıma düşdü:

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər « Xalqım», – deyəcək,*
*Xalq «Heydər», – söyləyəcək.*

Həqiqətən də, belə oldu. Xalq onu qarşısıalınmaz bir məhəbbətlə sevdi. Elə bir sevgi, elə bir məhəbbətlə sevdilər ki, onun bir sözünə döyüşə çıxmağa, Qarabağı almağa hazır idilər. Amma...

Həyat bəzən bizi sınağa, ağır oyunlara, çətin vəziyyətlərə çəkir. Bizə lazım olanı alır. Bu, həyatın ən acı həqiqətidir və danılmazdır.

12 dekabr 2003-cü il. Soyuq bir gün. Xalq tamamilə qara geyinib. Hər tərf qərənfillərlə dolu. Həmin gün həm dövlətimizin, həm də xalqımızın ən ağır günü idi. Həmin gün, sanki hava, buludlar da kövrəlmişdi. Zəif çiskinli yağış yağırdı. Heydər Əliyev – xalqın yenilməz oğlu artıq həyata əbədi olaraq göz yummuş, son mənzilə yola salınır. Axı, neyə belə tez?! Hələ torpaqlarımız işğaldan azad olmamışdı. Hələ Azərbaycan dünyaya tam inteqrasiya edə bilmədi. Xəstəlik, əsas da ölüm vəfa etsəydi kaş...



Lakin, xeyr, xeyr! O ölməyib! Bəli, o, hələ də yaşayır. Heydər Əliyev Azərbaycan xalqının qəlbində yaşayır və yaşayacaq. O ölməzdir. Mən o insana ölməz deyirəm ki, o, həyatını, ömrünü vətəninə, millətinə həsr etsin. Mən o insana ölməz deyirəm ki, özü aramızda olmasa da, sözü-söhbəti, xoş kəlamları, nur üzü yaddaşlarda qalsın. Mən o insana ölməz deyirəm ki, o yaşasın! Hər gözdə, hər könüldə, ağızdan çıxan hər kəlmədə, düşündüyümüz hər fikirdə, keçən hər gündə xatirələrimizdə yaşasın. Məncə, hər bir insan bunu bacarmaz. Ancaq o, dahiliyi, müdrikliyi, xalqa olan inamı ilə, dərin məhəbbəti ilə bu ölməzliyi qazandı. O, sadəcə cismani olaraq yox olmuşdu. Ruhu isə hələ də aramızda, xatirələrimizdə, yaddaşlarımızdadır.

Ancaq onun ölümü dövləti çox sarsıtdı. Hər şeyi fikirləşən, uzaqgörən liderimiz bu məsələni də həll etmişdi artıq. Onun güclü, ən əsası, düzgün seçilmiş siyasəti ilə hakimiyyətə hal-hazırda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız, xalqın sədaqətli oğlu İlham Heydər oğlu Əliyev gəldi. Və beləliklə, dövlətimiz özünün qüdrətini daha da artırdı və bu gün prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz həm iqtisadi, həm siyasi, həm mənəvi, həm də tarixi cəhətdən dünyaya meydan oxuyur. Mən inanıram ki, dövlətimiz bundan da böyük uğurlara imza atacaq!

Son olaraq demək istəyirəm ki, tarix belə insanları nadir hallarda yetişdirir. Heydər Əliyev öz həyatı, fəaliyyəti ilə Türk salnaməsinə öz adını qızıl hərflərlə yazdırmışdır. Onun həyatı biz gənclər üçün həyat yolunda bir nümunə olmalı, onun siyasəti ilə parlaq gələcəyə addımlamalıyıq!

Mən də bir gəncəm, gələcəyin bir əsgəriyəm. Mən Heydər Əliyev irsini davam etdirəcəyimə, onun göstərdiyi yolla gələcəyə addımlayacağıma, dövlətimin bayrağını hər yerdə uca tutacağıma, Azərbaycanı canımdan da çox sevəcəyimə, onu göz bəbəyi kimi qoruyacağıma Ulu öndərin ruhu qarşısında and içirəm!

İndi isə, Ulu öndər! Bizə bax. Bunlar hamısı sənin bəhrələrindir. Bunların hamısını sən qurdun, sənin bəhrəndir bunlar. Bu günəşli, xoşbəxt Azərbaycan, bu firavan xalq, bu balaca körpələr, dövlətin gələcəyi olan gənclər, xoş xatirlərlə yada salan yaşlılar, qocalar, sənə onlara kömək etdiyin üçün minnətdar olan məcburi köçkünlər və onların bugünkü xoşbəxt həyatı. Bunların hamısı sənin bəhrəndir, Ulu Öndər!

Sonda deyəcəyəm ki, sənin etdiklərini xalq heç vaxt unutmayıb və unutmayacaq. Etdiyiniz hər şeyə görə mən və xalqın Sizə minnətdarıq. Allah ruhunuzu şad, yerinizi cənnət etsin! Amin!

**Qeyd:** Bu qeydi yazmağı özümə borc bilirəm. Çünki bəlkə də, Ulu Öndərə təşəkkür etməli olan ən vacib adam mənəm:

– Çox sağ olun, Ulu öndər. Çünki siz hakimiyyətə gəlməsəydiniz, bəlkə də nə mən, nə də mənim valideynlərim bu həyatda olardıq. Siz hakimiyyətə gələndə ermənilərin Beyləqana çatmalarına çox az qalmışdı. Onlar rayonumuzu tez-tez atəşə tuturdular. Lakin Siz gəldiniz, bizi də bu dəhşətdən xilas etdiniz. Buna görə də ömrümün axırına kimi Sitzə borcluyam, Ulu öndər, mənim xilaskarım Heydər Əliyev!









## Məmmədova Reyhan Füzuli qızı

*M.Ə.Sabir adına Azərbaycan Dövlət Pedaqoji Kollecinin IV kurs tələbəsi*

*Yaşamaq yanmaqdır, yanasan gərək*
*Həyatın mənası yalnız ondadır*
*Şam əgər yanmırsa yaşamır demək,*
*Onun da həyatı yanmasındadır.*

Bu misralar Ulu Öndərimizin həyatı haqqında tam fikir ifadə edir. Çünki o da ömrünü şam kimi xalqı üçün əritmişdir.

Azərbaycan Respublikasının bügünkü tarixini yaradan böyük oğlu Ümummilli lider, Ulu Öndərimiz Heydər Əliyev mənalı ömrünün tam otuz beş ilini ölkə rəhbərliyində olmaqla dövlətimizn və millətimizin yüksəlişi üçün bir şam kimi yandırıb, əridib.

Vaxtilə qan bahasına qazanılan müstəqilliyimizi qorumaq, dövlətimizi yaşatmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq həqiqətən böyük siyasi ustalıq tələb edirdi. O zaman düşdüyümüz vəziyyətdən çıxmaq üçün düzgün seçim etmək vacib idi.

Doğrudan da, xalq deyimində olduğu kimi «Elin gözü tərəzidir». Xalqımız belə ağır məqamda öz dəqiq seçimini etdi. Müdrik xalqımız həmin illərdə düzgün seçim edərək özünün xilaskarına, siyasi xadiminə, iradəsinə və qüdrətinə yaxından bələd olduğu böyük oğlu Heydər Əlirza oğlu Əliyevə üz tutdu.

Xalqın yekdil qərarı ilə məhz onun hakimiyyətə gəlişindən sonra xalqımız öz dövlətçiliyini qoruyub saxlamış, vətənimiz milli-mənəvi parçalanmaqdan, dövlətimiz yox olmaq təhlükəsindən xilas olmuşdur.

Heydər Əliyev prezident olduğu bütün dövrlərdə torpaqlarımızın, dilimizin, xalqımızın üzərində əzəli və əbədi Azərbaycan möhürünü özümüzə qaytararaq Türk-İslam birliyini bərpa etmişdir.

İdrakın gücü ilə tarixi dövrləri qabaqlamaq bacarığına malik olduğunu, müdrik siyasəti ilə Azərbaycanımızın nicatını, dövlətçiliyimizin xilasını əldə etdi. Ən böyük sərvətimiz olan müstəqilliyimizi qoruyub saxladı, möhkəmləndirdi. Azərbaycan–Ermənistan münaqişəsində atəşkəsə nail oldu.

Həmin dövrdə Azərbaycan dilini Dövlət dili kimi konstitusiyaya daxil etmək, Moskva rəhbərliyini buna razı salmaq və inandırmaq heç kimin inana bilmədiyi möcüzə və həqiqət idi. Bu yalnız Heydər Əliyev dühasının əldə edə biləcəyi bir nailiyyət idi. Heydər Əliyevin dahiliyi həm də onda idi ki, 70-ci illərdə də, ikinci dəfə hakimiyyətə gəldiyi 90-cı illərdə də xalqın ən mənəvi dəyəri olan doğma dilinə çox həssaslıqla yanaşdı.

Dilimizin təmizliyi, zənginliyi, saflığı uğrunda mübarizə təkcə fərmanlarla, sərəncamlarla yekunlaşmadı. Heydər Əliyev həyatda rastlaşdığı bütün digər məsələlərlə yanaşı, doğma dilinə də çoxtərəfli münasibət göstərir, onu bir neçə cəhətdən mükəmməlləşdirirdi. Son on ildə Heydər Əliyevin dilimizin saflaşması istiqamətində gördüyü işləri yüksək dəyərləndirmək lazımdır. Belə ki, 1990-cı illərin əvvəllərində populist siyasətçilərinin əbəs səyi nəticəsində Milli Məclisdə dilimizin adının «Türk dili» kimi səslənməsi barədə səthi gözəlliyə malik sadəlövh qərarın ləğvinə nail oldu. Əlifbamızın dünya standartlarına uyğunlaşdırılması və dilimizin Azərbaycan ərazisində yeganə ünsiyyət vasitəsi olması barədə məlum və çox dəyərli fərmanları imzalandı.

Tarix baxımından çox qısa görünə bilən son on il ərzində Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində ölkədə dünyəvi dəyərlər əsasında Demokratik-hüquqi dövlət quruculuğu işləri aparıldı, ictimai-siyasi sabitlik əldə edildi, sosial-iqtisadi həyatda böyük dəyişikliklər baş verdi.

Sənayedə və tikintidə, təhsildə və səhiyyədə, iqtisadiyyatda və siyasətdə görülən işlər Azərbaycanın yeni tarixinin parlaq səhifələridir və yəqin ki, barədə zaman-zaman danışılacaq.

Azərbaycan dövlətinin ötən illər ərzində qazandığı nailiyyətlər günümüzün reallığı və on il əvvəlki vəziyyətlə müqayisədə Beynəlxalq aləmi belə heyrətləndirən bir gerçəklikdir.

Bu gün müstəqil Respublikamızın baş memarı Heydər Əliyev aramızda yoxdur, ancaq bu dövlətin bütün digər atributları kimi onun dili də Heydər Əliyevin əzmkarlığı nəticəsində gündən-günə inkişaf etməkdə, mövqeyini möhkəmləndirməkdədir. Əminəm ki, bütün əməlləri ilə, nəcib işləri ilə yaşayan Heydər Əliyev dühası Azərbaycan, onun dili mövcud olduqca var olacaqdır.

Fəxri xiyaban Azərbycanın fəxri olan övladlarının əbədiyyət məkanıdır. Bu ünvanı seçmələri ilə onlar, Bakının yüksəklikdə yerləşən bu hissəsini



daha ali məqama yüksəltmişlər. Minlər, milyonlar Fəxri Xiyabana xatirələrinə ehtiram göstərdikləri insanları yad etmək üçün üz tutublar. Milyonlarla insan xalqımızın Ümummilli lideri Heydər Əliyevin əbədiyyət ünvanı seçdiyi bu məkana üz tutur. İnsanları ziyarətə çağıran, səsləyən əsas amil ürəklərdə yurd salan Heydər Əliyevin sevgisi və məhəbbətidir.

Ömrünü xalqına bağışlayan, vətəni üçün yaşayan Heydər Əlirza oğlu Əliyevin quruculuq izləri, qurub-yaratdıqları, Azərbaycanın dövlətçilik tarixindəki əvəzolunmaz xidmətləri müqabilində onun məzarını ziyarət etməyi özünə mənəvi borc bilənlər Fəxri Xiyabana axışır.

Bu izdiham həm də Heydər Əliyevin əziz xatirəsinə xalqın ehtiramıdır.

Heydər Əliyev elinin, yurdunun fəxri-fəxarəti olduğu üçün Fəxri xiyabanda bir qədər də ali məqama yüksəlir. Buradan onun möhtəşəmliyi, böyüklüyü daha aydın görünür.

Bakıya boylanırıq: Gözümüzə dəyən ən möhtəşəm tikililərin əksəriyyəti məhz onun göstərişi ilə tikilib-qurulub.

Son otuz beş ildə Azərbaycanın keçdiyi inkişaf mərhələləri məhz onun adı ilə bağlıdır.

Fəxri Xiyabana tək Azərbaycandan yox, dünyaının istənilən yerindən gələnlərin sayı günbəgün artmaqdadır. Respublikamıza gələn istər ali qonaqlar, istərsə də sıravi vətəndaşlar oun qəbrini ziyarət etməyi özlərinə şərəf bilirlər.

Mən də bu xiyabana gedərkən bir daha əmin oldum ki, xalq qədrini canından daha əziz bilənlər ölmürlər, onlar əbədiyyəti ünvan seçirlər. Fəxri Xiyabanda isə insan dənizi dalğalanır, ləpələnir, Heydər Əliyevin ucalığına can atır.

Bu həyatda hərkəsin bir idealı var. Bəziləri üçün ən yaxşı ideal onların valideynləri, bəziləri üçün kino qəhrəmanları, bəziləri üçün isə tarixi şəxsiyyətlərdir. Mənim üçün isə ən yaxşı və dəyərli ideal «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam» deyib bütün dünyaya səslənən Heydər Əliyevdir.

Ulu Öndərin çox qürurla, fəxrlə dediyi «Azərbaycan» şerindən bir parça heç vaxt bizim yaddaşımızdan silinməyəcək. Böyük şəxsiyyətin kövrək, titrək səslə, fəxrlə söylədiyi parça hər birimizi Azərbaycançılıq ideyası ətrafında birləşməyə səsləyir.

*El bilir ki, sən mənimsən*
*Yurdum yuvam məskənimsən.*
*Anam doğma vətənimsən*
*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan!*



## *Məmmədzadə Aytən Rəşad qızı*

***Şuşa şəhəri, 9 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Bu günü çox gözləmişəm. Ümummilli liderimiz Heydər Əliyevin – bugünkü xoşbəxt yaşayışımızın qurucusunun doğum günü ilə əlaqədar keçirilən inşa müsabiqəsinin iştirakçısı olacağım günü... Bu gün buradayam. Həyəcanlı və sevincli bir günü yaşayıram.

Məlumdur ki, Ulu Öndərin doğum gününə həsr olunmuş inşa müsabiqəsi məktəblilər arasında hər il keçirilir və bu musabiqədə respublikamızın bütün məktəbliləri iştirak edir. Qüdrətli Azərbaycanın qurucusu, işıqlı gələcəyimizin təminatçısı olan Heydər babanı sonsuz məhəbbətlə sevən məktəblilər öz sevgilərini, minnətdarlıq duyğularını inşa yazılarında ifadə edirlər. Əslində mən o yazıları sadəcə inşa adlandırmazdım. Onlar həm də milyon-milyon ürəyin sevgisidir. Məsum ürəklərdən qələmlərə, qələmlərdən sətirlərə süzülərək ümmana çevrilən bir sevgi...

Nə xoşbəxtəm ki, bu gün mən də müsabiqə iştirakçısıyam. Heydər Əliyev ucalığından, Heydər Əliyev dühasından bəhs etmək böyük şərəfdir. Heydər babanın həyat və fəaliyyəti o qədər zəngindir ki, nə inşalara, nə də kitablara sığmaz! Heydər baba dünyanın özünə belə sığmayan bir Dünyadır!

Bu gün Heydər babadan bəhs etmək şərəfinə nail olduğum üçün sevincimin həddi-hüdudu yoxdu. Böyük bir sevinc və həyəcan içərisində çalışıram ki, ürəyimin Heydər babaya olan sevgisini, minnətdarlıq təlatümlərini yazımda ən layiqli şəkildə ifadə edim.

Bəzən sevgini dilə gətirməkdə sözlər, kəlmələr, misralar belə yetmir. Axı sevgi ən müqəddəs, ən ali hisdir. Nəhayətsiz bir xoşbəxtlikdir qəlbində bir kəsə sevgi bəsləmək. Mənim qəlbimin sonsuz sevgisi həmişəyaşar Öndərimizə – Heydər Əliyevədir.

Unudulmaz dahi – o, bir yaz səhərinin ərmağanı, Tanrının xoş diləkli, xoş əməlli elçisidir. O, öz böyük əməlləri ilə milyonların qəlbində taxt



quran unudulmaz insan, yurdumun üfüqlərində böyük şövqlə parlayan Günəşdir. Bu Günəşin ziyaları qarşısında nurlu yollar açıb. Biz o nurlu yollarla qürurla, inamla xoşbəxt gələcəyə doğru addımlayırıq. Buna görə də o dahi İnsana – Heydər babaya qəlbimin sevgisi sonsuzdur, əbədidir...

Ümummilli liderin siyasəti axan çaya bənzəyir. Zaman-zaman çoxları o çayın qarşısında bənd olmağa çalışdı, ancaq bacarmadı. Çünki Heydər Əliyevin siyasəti o qədər ali, o qədər böyük idi ki, heç bir bənd onun qarşısını kəsə bilməzdi. Tarixin bütün dövrlərində Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş qəddar düşmənlərimiz, onların bitib tükənməyən məkrini, hiyləsini ən müasir silahları qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirdi. 70 ildən çox SSRİ-nin tərkibində olan bir asılı ölkəni müstəqil – bu gün tanıdığımız yeni Azhərbaycan səviyyəsinə çatdırmaq çox çətin olsa da, Ulu Öndərimiz bunu bacardı.

Ulu Öndərimiz hələ o illərdən vətənimizin gələcəyini düşünərək milli siyasət yeridirdi. Azərbaycan dilinin, milli adət-ənənələrinin qorunması, milli kadrların hazırlanması hər zaman onun diqqət mərkəzində idi. Yüksək vəzifələrdə azərbaycanlıların çalışmasını istəyən Heydər Əliyev bizim gənclərin Sovet İttifaqında və xaricin ən böyük elm ocaqlarında təhsil almasını təmin edirdi.

Heydər Əliyev hər sahəyə xüsusi diqqətlə yanaşırdı. Bunun nəticəsində Azərbaycan keçmiş Sovet İttifaqı məkanında sürətlə inkişaf edən bir respublikaya çevrilmişdi.

Heydər Əliyevin böyüklüyü onda idi ki, o, həmişə Azərbaycanın müstəqil olacağına inanırdı. Bu gün biz onun xoşbəxt gələcəyinə inandığı, qurduğu, yaratdığı müstəqil Azərbaycanın müstəqil vətəndaşlarıyıq.

Respublika Prezidenti seçilərkən 1993-cü il oktyabrın 10-da Respublika sarayında təntənəli andiçmə mərasimində vətənə, dövlətə, xalqa sədaqət andı içən Heydər Əliyev qarşısında duran əsas vəzifələri: Azərbaycanın müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün təmin olunmasını, respublikamızın ictimai-siyasi həyatında sabitliyin əldə edilməsini, Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğunun həyata keçirilməsini, vətəndaşların hüquq və azadlıqlarının qorunmasını, respublikanın iqtisadi, sosial islahatlar yolu ilə inkişaf etdirilməsini, ölkədə bazar iqtisadiyyatı münasibətlərinin bərqərar edilməsini bəyan etdi.

Həmin illər müstəqilliyimiz təhlükə altında idi. Heydər Əliyevin gəlişi bir çox problemi həll etdi. Ən əvvəl qardaş qırğınının qarşısı alındı.

Əllərdə oyuncağa çevrilmiş silahlar yığıldı, soyğunçuluq, talançılıq dayandırıldı, insanların bir-birinə qarşı yad münasibətlərinə son qoyuldu.

Zamanın nəbzini tutan Heydər Əliyev bütün bunları bacardı və ən çətin sınaqlardan üzüağ çıxdı. Bunları ona görə bacardı ki, Allah vergisi olan polad iradə, qeyri-adi yaddaş, təkrarolunmaz natiqlik istedadı, fantastik iş bacarığı ilə bərabər o, gərgin əməyin nəticəsi olan böyük təcrübəyə, müasir savada, yüksək mədəniyyətə sahib idi.

Azərbaycan bir zirvədir, Heydər Əliyev isə bu zirvənin fatehi.

Uzaqgörən rəhbər xalqının özündən sonrakı gələcək taleyini də düşündü, təməlini qoyduğu müstəqil dövlətin daha da inkişaf etməsi, möhkəm bünövrəyə malik müstəqilliyin yaşaması üçün hakimiyyəti əmin əllərə tapşırdı.

«Oğullar ataların yolunu davam etdirir» fikrinə əsaslanan xalq yekdilliklə İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Hakimiyyəti ən layiqli davamçıya etibar etdi. Bu gün əminliklə deyə bilərik ki, İlham Əliyev Ümummilli liderimiz Heydər Əliyevin yolunu, siyasətini uğurla davam etdirir. Məhz Prezidentin atdığı addımlar, bağladığı sazişlər, apardığı danışıqlar, gördüyü işlər bunu deməyə əsas verir.

Qədim yunan filosofu Sokrat deyirdi ki, dahilər müzakirə olunmur, onlar öyrənilir. Bu həqiqətən də belədir. Ümummilli lider Heydər Əliyev şəxsiyyəti özü kimi tarixi hadisədir. Onun şəxsiyyəti hələ əsrlər boyu öyrəniləcək və gələcək nəsillərə çatdırılacaq.

*Nə zaman ki, İrəvandan, Qarabağdan köç*
*edəcək xəyanət, şər,*
*Nə zaman ki, «Azərbaycan, Azərbaycan» söyləyəcək*
*bütün bəşər,*
*Nə zaman ki, sənin böyük abidəndən lent kəsəcək*
*körpə Heydər,*
*Arzuların vətənində açıldıqda çiçək-çiçək*
*Sənin yerin görünəcək!*

Heydər baba, Siz Azərbaycanın üzərində əbədi parlayan Günəşsiniz. nurunuz, ziyanız tarix boyu Azərbaycanı işıqlandıracaq. Və filosofların dediyi kimi Siz daima öyrəniləcək və yenə də öyrəniləcəksiniz. Gələcək nəsillər də bizim kimi Sizinlə fəxr edəcək, qürurlanacaq və Sizdən sevə-sevə minnətdarlıq dolu bir ürəklə bəhs edəcəklər. Budur əbədiyaşarlıq!

Qəlbimizdə, uğurlarımızda, tariximizdə əbədi yaşayan İnsan! Mən Sizin haqqınızda yazdıqca yazmaq istəyirəm. Ancaq qəlbimdə Sizə olan sevgim bir şagird dəftərinə sığmayacaq qədər böyük və sonsuzdur... Mən bu yazımla sadəcə məsum ürəklərin yaratdığı sevgi ümmanına qoşuldum. Buna görə də özümü çox xoşbəxt hiss edirəm.

Heydər baba, Siz düzlüyə, vətənpərvərliyə, xalqsevərliyə, qorxmazlığa, mübarizliyə, müstəsna uğurların qazanılmasına, əbədiyaşarlığa ən ali nümunəsiniz! Biz, bütün Azərbaycan xalqı sizinlə fəxr edirik!



## Sultanova Nəzrin Ceyhun qızı

*Salyan şəhəri, N.Gəncəvi adına*
*2 nömrəli tam orta məktəbin*
*VIII sinif şagirdi*

*«Hər yaşıl yarpaq Allahın qüdrətini anladan bir dəftərdir».*

**H.Şirazi**

Tam 92 il bundan öncə... Azərbaycan səmasında bir Günəş doğdu... Parlaq, sönməz bir Günəş...

Elə bir Günəş ki zərrin şüaları böyük bir məmləkəti işıqlandıracaq, ziyasına neçə-neçə illər və neçə-neçə nəsillər nura qərq olacaqdı.

1923-cü il may ayının 10-da, baharın ən gözəl çağında dünyaya gəlib Heydər Əliyev. Kim bilərdi ki, bu uşaq gələcəkdə dahi bir şəxsiyyət olacaq və böyük bir məmləkət onun sayəsində bahar təravətinə bürünəcək.

Hələ kiçik yaşlarından böyüklərin onun haqqındakı söhbətlərinə diqqətlə qulaq kəsilər və bu insanın mübarizliyinə, vətənpərvərliyinə heyran olardım. Bu söhbətlər mənə bir nağıl kimi gələrdi. Heydər baba isə mənim nağıllarımın əbədiyaşar qəhrəman idi.

İllər keçdi... Mən böyüdüm... Uşaq ikən gecələr yuxularımı, gündüzlər xəyallarımı bəzəyən Heydər babanın bir nağıl qəhrəmanı yox, gerçək və həqiqi bir qəhrəman olduğunu öyrəndim. Artıq o, mənim həyatımın, gələcəyimin idealına çevrilmişdi. Onun haqqında daha çox öyrənmək, keçdiyi o şərəfli həyat yolunu hər incəliyinə qədər bilmək istəyirdim. Və beləliklə, axtarışa başladım.

Heydər Əliyev layiq olduğu məqama təsadüfən gələn bir şəxsiyyət olmamışdır. O, kiçik yaşlarından mükəmməl təhsil almış, bir sıra nüfuzlu elm ocaqlarının məzunu olmuşdur.



Heydər Əliyevin əmək fəaliyyətinin əhatə dairəsi olduqca geniş idi. Rəhbər vəzifələrdə çalışmağa Naxçıvanda başlasa da, bu yol onu ta Moskvaya qədər aparmışdır. Vətənindən uzaqda fəaliyyət göstərməsinə baxmayaraq, o, daim Azərbaycanı düşünmüş və onun rifahı üçün əlindən gələni əsirgəməmişdir.

1990-cı ildə Qanlı Yanvar hadisələrində Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyində çıxış etmiş və bu cinayəti törədənlərin cəzalandırılmasını tələb etmişdir.

1993-cü ildə Azərbaycan çox ağır vəziyyətdə idi. Respublikamızda anarxiya, özbaşınalıq, siyasi qalmaqallar baş alıb gedirdi. Digər tərəfdən Qarabağ bölgəsində mənfur qonşularımızın başlatdığı müharibə bu vəziyyəti daha da gərginləşdirirdi. Amma heç kim ümidini itirmirdi. Xalq onun geri dönəcəyinə və vətənini bu məngənədən xilas edəcəyinə möhkəm inanırdı. Hamının bu xilaskara – Heydər Əliyevə ehtiyacı vardı.

Nəhayət, 1993-cü ildə xalqın istəyi ilə Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. Onun dönüşündən sonra ölkədəki siyasi qalmaqallara son qoyuldu. İqtisadiyyatımızda, mədəniyyətimizdə, sənayemizdə yaxşılığa doğru ciddi dəyişikliklər baş verdi.

Heydər Əliyev vətənimizin ən dəyərli sərvəti olan «qara qızıl»ın dünyaya ixracına nail oldu. «Əsrin müqaviləsi» imzalandıqdan sonra dünya ölkələrinin Azərbaycan neftinə olan marağı daha da artdı. Bir sözlə, Heydər Əliyevin sayəsində Azərbaycan dünyanın ən qüdrətli ölkələrindən birinə çevrildi.

Mən onu görməmişəm. Axı Heydər baba ömrünü bizə bağışlayanda mənim hələ 3 yaşım vardı. Onun haqqında ilk dəfə nənə və babamın dilindən eşitmişəm. Yadıma gəlir, qoca nənəm bəzən babamla dərdləşəndə onun dilindən bu sözləri tez-tez eşidərdim: «Axı mən sənə demişdim bu milləti ağ günə çaxartsa, birgə Əliyev çıxaracaq». Hətta «Əliyev» sözünü düzgün tələffüz edə bilməz və «Əliyof» deyərdi. Babam isə onun sözünə gülümsünər və arxayınlıqla başını yelləyərdi.

Öz uşaq təfəkkürümlə hələ çox şeyi dərk edə bilmədiyim o çağlardan istər-istəməz bu xilaskar insanın kimliyi haqqında düşünərdim. Get-gedə o, mənim həyatımın ayrılmaz bir parçasına çevrilmişdi. Demək olar ki, hər yerdə onunla qarşılaşırdım, sinif otağında, dərsliklərimizdə, televiziya ekranlarında.

Beləcə, Heydər Əliyev mənim düşüncələrimdə uzaqgörən, müdrik, təvazökar, hər kəslə öz dilində danışmağı bacaran, xalqı ilə daim fəxr edən bir şəxsiyyət, bir el atası kimi özünə yer edib.

Heç vaxt unutmayacağım bir hadisə olmuşdu. Səkkiz yaşım var idi. Bakımızın məşhur məkanlarından birində ailəmlə birgə doğum günümü qeyd edirdim. Birdən aparıcı elan elədi ki, uşaqlar arasında şeir və mahnı yarışması keçilirir. Qalib olana hədiyyə veriləcək. Bütün uşaqlar səhnəyə yığıldı. Hərə bir şeir və mahnı söylədi. Növbə mənə çatanda böyük sevgi hissi ilə aşağıdakı şeiri söylədim.

*Şöhrətin yayılıb dünya üzünə,*
*Əziz babamızsan sən, Heydər baba.*
*Ölkəmizi gülüstana döndərən,*
*Təkcə sən olmusan, sən, Heydər baba!*

Ardınca isə Dövlət himnimizi oxudum. Zaldakı bütün insanlar ayağa qalxıb böyük coşqu ilə alqışlamağa başladılar. Aparıcı hədiyyəni mənə təqdim etdi. Sevincimin həddi-hüdudu yox idi. Heydər babanın adı, şəxsiyyəti mənim həyatda qazandığım ilk uğuruma dəstək və səkkiz yaşımda ikən ilk dəfə yazdığın şeirə səbəb oldu:

*Dünyaya örnək oldun,*
*Ağlınla, kamalınla.*
*Bizlərə rəhbər oldun,*
*Şəxsiyyət olmağınla.*
*Biz həmişə qalibik,*
*Qurduğun nurlu yola.*
*Yaşayırsan hər zaman,*
*Qəlbimdə Heydər baba!*

Bir dəfə onun haqqında babamdan soruşanda o, mənə Hafiz Şirazinin bu kəlamını nümunə gətirdi. Qızım, necə hər yaşıl yarpaq Allahın varlığından xəbər verirsə, ölkəmizdə də gördüyün hər gözəllik, rastlaşdığın hər yenilik Heydər Əliyevin şəxsiyyətindən xəbər verəcək. O, özünü millətə xeyirxah əməlləri ilə tanıtdı və sevdirdi. Ömrü boyu düşündü, çalışdı-vuruşdu, mübarizə apardı və nəhayət, qalib gəldi! Bu xalqı canından əziz tutaraq elə böyük işlər gördü ki, onu görmədən, tanımadan da sevmək mümkün oldu.

Məndən soruşurlar ki, idealın kimdir? Heç fikirləşmədən «Heydər Əliyev» cavabını verirəm. Onun kimi zəkalı, uzaqgörən, mərd, şərəfli, mehriban, qayğıkeş, elini, obasını sevən, dilini, dinini sevən birisi olmaq istəyirəm.

Bu gün mən müstəqil, suverən, güclü iqtisadiyyata və hərbi qüvvəyə malik bir ölkənin – Azərbaycanın vətəndaşıyam. Belə bir ölkənin vətəndaşı



olduğum üçün də, əlbəttə ki, onu yenidən yaradan rəhbərimiz Heydər Əliyevə və bu siyasətin layiqli davamçısı İlham Əliyevə borcluyam.

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»

Bu sözləri Azərbaycanı həqiqi bir eşqlə sevən, onunla qürur duyan dünya azərbaycanlılarının ölməz lideri, görkəmli siyasi xadimi Heydər Əliyev demişdir. Bu gün eyni sözləri hər bir azəri gənci fəxrlə deməlidir. Doğrudan da, biz azərbaycanlı olmağımızla, belə bir ölkədə yaşamağımızla qürrələnməliyik!

Azərbaycan xalqı xoşbəxtdir ki, ona Heydər Əliyev kimi müdrik siyasi xadim rəhbərlik edib. Mən isə böyük sevgi hissi ilə Heydər babanın möhtəşəm abidəsini əbədi olaraq qəlbimdə ucaltmışam.

*Bu torpağı, bu milləti canından da çox sevirdin,*
*Ayağını basan yerdə – daş üstünrdə gül bitirdin,*
*Özün getdin, öz xalqına özün kimi oğul verdin,*
*Allah səni öz nurundan yaratmışdı, Heydər baba!*



## *Talıbzadə Səidə İdrak qızı*

*12 nömrəli Bakı Peşə Liseyinin*
*I kurs şagirdi*

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan və tükənməz fitri istedada sahib olmuş Heydər Əliyev xalqının dərdinə dərindən bələd olmuş, hələ çox gənc ikən məkrli qonşularımızın min bir hiyləsini öz gözləri ilə görmüşdür. Yüksək təhsil almış, tarixi biliklərə dərindən yiyələnmişdir.

İnsanlar Ulu Tanrıdan üç şey: güc, səbir, müdriklik diləmişlər. Ulu Tanrı bu xüsusiyyətlərin heç birini ümummilli liderimiz olan Heydər Əliyevdən əsirgəməmişdir.

Elə buna görə də XX yüzillikdə ondan yaxşı insan, siyasətçi və dahi təsəvvür etmirəm.

*Kəssə hər kim tökülən*
*qan izini,*
*Qurtaran dahi odur*
*yer üzünü.*

– deyən şair sanki Azərbaycanın igid oğlu olan Heydər Əliyevi nəzərdə tutmuşdur.

«Ən böyük şəxsiyyət özündən sonra xalqını düşünən, onun yolunda xoşbəxtliyini, səadətini verən şəxslərdir». Türk dünyasının böyük şəxsiyyəti olan Mustafa Kamal Atatürkün dediyi bu sözlər Heydər Əliyevin həyat və fəaliyyətini işıqlandıran ən önəmli sözlərdir.

Heydər Əliyevin Azərbaycan xalqına sədaqəti, müdrik siyasəti, geniş dünyagörüşü, parlaq zəkası, polad iradəsi və heyrətamiz enerjisi... bir dövlət başçısı kimi Tanrı tərəfindən ona bəxş olunan ən yüksək keyfiyyətlərdəndir.



Heydər Əliyevin Beynəlxalq Atatürk Sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinin nəticəsidir.

Onu digər dövlət başçılarından fərqləndirən xüsusiyyəti onun bütün xalqlarla öz dillərində danışma bacarığına malik olması idi və onları hər zaman sülhə çağırması idi.

Heydər Əliyev Azərbaycanımızın milli-mənəvi dəyərlərinə və incəsənətinə yüksək qiymət verib, onu dünyada tanıdırdı.

Heydər Əliyev dövlətinə, dilinə, dininə mənsub bir şəxsiyyət idi. Onun Ümummilli Lider adına layiq görülməsi Azərbaycan xalqı üçün gördüyü işlərin nəticəsidir.

Bunu da danmaq olmaz ki, o bizə müstəqillik bəxş etdi. Onun sayəsində artıq biz 20 ildir ki, müstəqil bir dövlətik. Ulu Öndərimizin xalqımız qarşısında ən böyük xidməti məhz Müstəqil Azərbaycanın qurucusu olmasıdır.

O, nəinki Vətəndə, hətta Moskvada olduqda da 20 Yanvar faciəsinə qarşı öz etirazını bütün dünyaya bildirmiş, xalqının dərdinə şərik olmuş və hər zaman xalqının, dövlətinin yanında olduğunu sübut etmişdir.

Müdrik xalqımız 1993-cü ildə yeganə və düzgün addım ataraq bu dahi şəxsiyyəti hakimiyyətə gətirdi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Qurtuluşumuzun bünövrəsi qoyuldu.

Gəldiyi ilk gündən etibarən o, «Əsrin müqaviləsi» və «Bakı–Tbilisi–Ceyhan» neft kəmərinin çəkilməsi fərmanını imzalayaraq ən böyük uğurlarına imza atdı.

Heydər Əliyev Şah İsmayıl Xətaidən sonra «Azərbaycan dilinin Dövlət dili» olması ilə bağlı fərman verən ən böyük şəxsiyyətdir. O, Azərbaycan dilini bütün dillər siyahısına salmağa nail olmuş və Azərbaycanı bütün dünyaya tanıtdırmışdır.

Heydər Əliyev xalqını hər zaman savadlı görmək istəmişdir. Ona görə də hər zaman xalqı üçün çalışmışdır.

Bugünki vaxtda həmin dahi şəxsiyyət əbədiyyətə, ölməzliyə qovuşmuşdur. Onun vəfat etməsi xəbəri bütün dünyanı və Heydər Əliyevi sevənləri sarsıtdı. Onun dəfnində iştirak edənlərin sayı-hesabı yox idi. İnsan seli bu müdrik insanın ölümü ilə heç cür barışmaq istəmirdi.

Ancaq bu gün özü bizimlə olmasa da, onun hər zaman arxalandığı və güvəndiyi yeganə varisi olan cənab prezident İlham Əliyev bizimlədir.

«Mən inanıram ki, mənim sona çatdıra bilmədiyim məsələləri, planları, işləri sizin dəstəyiniz və köməyinizlə İlham Əliyev başa çatdıracaqdır.

Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlərlə baxıram», deyən Heydər Əliyev bu gün yanılmamışdır.

Bu gün İlham Əliyevin və Azərbaycanın birinci xanımı UNESCO-nun xoşməramlı səfiri olan Mehriban xanım Əliyevanın gördüyü işlər göz qabağındadır.

Heydər Əliyevin fəth etdiyi bütün qalalar İlham Əliyevin səyi və rəşadəti nəticəsində qorunub saxlanılır.

İndi bütün dünyanın gözü Bakıda keçiriləcək – «Bakı 2015. Birinci Avropa Oyunları»-na yönəlmişdir.

Heydər Əliyevin 92-ci ildönümünə həsr etdiyim bu inşanın sonunda demək istəyirəm ki, insan ömrünün baharı olan gənc yaşında dahi şəxsiyyətin davamçısı olan İlham Əliyevlə addımladığım üçün çox xoşbəxtəm. Mən öz Prezidentimə güvənirəm və həmişə çalışacam ki, öz bacarığım və nailiyyətlərimlə digər ölkələrdə Azərbaycanın adını layiqincə təmsil edim.






## *Ağadadaşova Lalə Əbülfəz qızı*

***Qusar şəhəri, B.Ağaverdiyev adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi***


Həyat! Hər kəsə bir dəfə verilən həyat! Taleyimizə nələr yazılıb?! Qarşıda bizi nələr, hansı hadisələr gözləyir? Bilmirik. Bəlkə də çox vaxt fani adlandırdığımız dünyanın dəyəri elə bunlardır. Yaşayacağımız həyatın sonu bəllidir. Bir gün gələn bir gün də getməlidir. Bununla belə ölüm gözlənilməzdir, kəmfürsətdir, arzuolunmazdır, qapını qəflətən döyəndir. Hərəni bir məqamda yaxalayır.

Görəsən, kimlər gəldi, kimlər getdi, bu dünyadan, bu dünyadan...

Azərbaycanın ən qədim guşələrindən birində, gözəl bir may səhərində bir uşaq dünyaya gəldi. Əlirza kişinin ailəsində. Adicə bir uşaq.

Kim deyərdi ki, bu uşaq Azərbaycan xalqının xilaskarı olacaq, onu ağ günlərə – azadlığa çıxaracaq. XX əsrdə Azərbaycan xalqının taleyində bir ulduz kimi parlayan bu insan bahar oğlu – Heydər Əlirza oğlu Əliyev idi.

Əlbəttə, mənim şagird qələmim belə bir dahi haqqında yazmaqda çətinlik çəkir. Çünki Tanrının Azərbaycana bəxş etdiyi bu insan haqqında romanlar, epopeyalar yazılsa yenə də azdır.

Fikirləşirəm, görəsən, belə bir dahi haqqında yazmağa gücüm çatacaqmı? Yalnız Azərbaycanda deyil, bütün dünyada tanınmış bu insanın həyatını, fəaliyyətini, vətəninə, xalqına, millətinə olan məhəbbətini, Azərbaycan xalqının xoşbəxt gələcəyi uğrunda etdiklərini bu vərəqlər üzərinə düzə biləcəyəmmi?

Amma, cəsarətim fikirlərimə üstün gəldi. Mən əziz babamın əziz xatirəsini yaşadacağam. Bu isə mənim belə dəyərli insana olan məhəbbətimdən irəli gəlir. Məhəbbət ölən deyil. O, daimidir, əbədidir. Necə ki böyük bir xalqın, millətin Ulu Öndərə – Heydər babaya olan məhəbbəti kimi.

*Xəzər vuran ürəyi, Kür, Araz coşan qanı,*
*Qafqaz, Şahdağ, Savalan əyilməyən başıdır.*

Əziz babam, sənin yaratdığın bağçalar xəzansız bahar oldu. Sən milyon-milyon insana əziz bir sirdaş, yoldaş oldun.Azərbaycanda yaşayan bütün xalqların monolit birliyini yaratdın və dilindən, dinindən asılı olmayaraq, hər kəsin hüquq və azadlığını qorudun, onlara qayğı ilə yanaşdın. «Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir», – kəlamını böyük uzaqgörənliklə söylədin.

Adı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılan babam bütün həyatını Vətəninə, torpağına, dövlətinə həsr etdi və «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam», – dedi.

1988-ci il... 1990-cı il... Azərbaycan xalqının həyatına faciələr,fırtınalar, fəlakətkər, səfalətlər gətirən illər...

Həmin illərin acı həqiqətlərinin şahidi olan valideynlərim deyirlər ki, o zaman Azərbaycana Heydər baba başçılıq etsəydi, bu qədər müsibətlər olmazdı.

1993-cü il... Azərbaycan amansız fırtınalar burulğanında çırpınırdı. Belə bir vaxtda yeganə ümid yeri Heydər baba oldu. Naxçıvandan Bakıya köməyə gəlib vətənin, xalqın taleyinə yeni bir səhifə yazdı. Bu isə tarixdə yeni bir mərhələnin başlanğıcı oldu. Dövlət çevrilişinin, qardaş qırğınının qarşısı alındı, ölkəmizi parçalamaq təhlükəsindən qurtardı. «Mənim tanrım gözəllikdir, sevgidir», – deyən Hüseyn Cavid yazır:

*Kəssə hər kim tökülən qan izini*
*Qurtaran dahi odur yer üzünü.*

Ulu öndər Heydər baba ən unikal və nadir siyasi xadim idi. O, dünya siyasətinə təsir etmək qüdrətinə malik idi. O, lider idi. Onun liderlik siyasəti isə milli maraqlarımız üzərində qurulmuşdur. Belə ki, tarixə «Əsrin müqaviləsi» kimi daxil olan neft müqavilələri, Bakı–Tbilisi–Ceyhan neft kəmərləri, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin çəkilişi bu böyük insanın uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Dahi Öndər Azərbaycan xalqının yüz illər boyu görə bilmədiyi işləri çox qısa bir zaman kəsiyində yerinə yetirdi; itirilməkdə olan dilini, qədim mədəniyyətini, adət-ənənələrini, milli dəyərlərini qaytardı. O deyirdi:

– «Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini də harda olursa-olsun, yalnız və



yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməinə həsr edəcəyəm».

Bu gün inamla irəliyə doğru addımlayan Azərbaycan Qafqazda birincilər siyahısındadır. Beynəlxalq musiqi festivalları, idman yarışları keçirilir mənim vətənimdə. Çox sevindirici bir haldır ki, ilk Avropa Olimpiya idman oyunları məhz Bakı şəhərində keçiriləcəkdir. Bütün bunların təməlini isə Heydər babam qoydu.

Azərbaycanın gələcək inkişaf yolunda gənclərə böyük ümid bəsləyirdi və dəstək olurdu mənim Heydər babam.

O deyirdi: «Azərbaycan Respublikasının müstəqilliyi əbədi, sarsılmaz olacaq və Azərbaycanın bugünkü gəncləri gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaq». Öz arzularını həyata keçirmək üçün yüzlərlə gənci müxtəlif ölkələrə təhsil almağa göndərdi. Artıq sözünü deməyi bacaran, ölkəmizi layiqincə təmsil edən savadlı kadrlar yetişir bu gün.

Mən dağlıq bir rayonda anadan olmuşam. Ulu öndərimiz dağlar qoynunda olan bu məkanda dəfələrlə olmuş və sonuncu dəfə gələrkən demişdir: «Qusarlılar xüsusi etimada layiqdirlər. Sizin tarixiniz qurub-yaratmaq tarixidir. Vətənə, torpağa, xalqa xidmət göstərmək tarixidir».

«Mən gələcək nəsil üçün çox güclü, qüdrətli, iqtisadi cəhətdən inkişaf etmiş bir Azərbaycan qoyub getmək istəyirəm», – deyən babam xalqına verdiyi vədlərin əksəriyyətini yerinə yetirdi.

Yaratdığı müstəqil Azərbaycan onun şah əsəridir.

80 illik ömür yolu yaşadı mənim Heydər babam. Nə qədər deyilməmiş sözü qaldı, nə qədər görülməmiş işi qaldı ürəyində. Sənin çatdıra bilmədiyin yüzlərlə işi həyata keçirmək yadigarın, Respublikanın prezidenti İlham Əliyevə nəsib oldu. «Ot kökü üstə bitər», «Gəlin ocağa çəkər», – demişlər atalarımız. Azərbaycan xalqı sənə ona görə minnətdardır ki, İlham Əliyev kimi ləyaqətli oğul, Mehriban Əliyeva kimi bir gəlin sənin ideyalarını yorulmaq bilmədən davam etdirirlər.

Əziz babam, bu baharda 92 yaşın olacaq. Yoxluğuna inanmırıq, varlığına güvənirik. 10 mayda bütün Azərbaycan gül yağışına qərq olacaq. Şəhərlər, kəndlər, bayram libasını geyinəcək. Sən də bizimlə olacaqsan, Heydər babam.

Sən ölmədin, Heydər baba! Sən bizim qəlbimizə, yaddaşımıza həkk oldun.

Bu gün Azərbaycan inamla və İlhamla irəliyə doğru addımlayır. Bu yol sənin zəkandır, sənin dühanla işıqlandırılmışdır, əziz babam. Bu yolun günəşi sənsən. Günəş isə heç zaman sönməz!



## Behbudova Arzu Ramiz qızı

*Yevlax rayonu, Əkşəm kənd tam orta məktəbinin X sinif şagirdi*

Ey Ulu Öndərim! Ey Ulu Öndərin ulu dünyası! Sən mənim xəzinəmsən! Sən mənim var-dövlətimsən! Sən mənim bərəkət qaynadan suyumsan, torpağımsan! Sən mənim işıqlar yandıran məhəbbətimsən! Sən zamanın ən ağır yükünə bağlısan! Sən torpağın ən dərin kökünə bağlısan! Sən dünənə, sabaha, bu günə bağlısan!

Sən göy kimi möhtəşəmsən! Sən dağ kimi mətinsən! Səni haqq yolundan çətinmiş döndərmək! Sən əbədiyyətin heykəlisən! Sən səngərimsən, sən silahımsan! Sən qətiyyətimsən! Sən canın qeyrətisən! Sən qeyrətin canısan! Sən sıyrılmış qılıncımsan! Sən mənim cəsarətimsən! Sən öncülümsən, öndərimsən! Sən yol göstərənimsən! Dəli tufanlara sinə gərənimsən! Sən azadlıq bağından güllər dərənimsən! Sən sevgim, insanlığım, sən mənim mərhəmətimsən!

Ey Ulu Öndərim! Şərəf də səndədir, şöhrət də səndədir! Hikmət də səndədir, qüdrət də səndədir! Sən mənim xalqımsan, sən mənim məmləkətimsən! Sən mənim imzalı, möhürlü həqiqətimsən!

Ölümünə heç vaxt inanmadığım, ölümsüzlüyü ilə ömrüm boyu öyünəcəyim, xalqımızın ölməz oğlu, millətimin şərəfi, şanı – mənim Heydər babam! Şax duruşlu, sərrast danışıqlı, aydın baxışlı, iti zəkalı, möcüzə yaddaşlı, şair təbiətli, alim təfəkkürlü, sərkərdə cəsarətli, Azərbaycan deyilən bir zirvənin məğrur qartalı – mənim Heydər babam!

Ulu tanrının bəxş etdiyi ömür payım, canını xalqına bağışlayan, vətən üçün yaşayanlar, yaşadırlar Vətəni! Dünyanın taleyi üçün narahat olan dahi şəxsiyyətlər yaşadırlar dünyanı! Çoxları gəlib-gedib bu dünyadan, o cümlədən, Azərbaycan dünyasından da! Lakin qədirbilən xalqımız onların içərisindən tək-tək insanları – Cavanşirləri, Babəkləri, Şəmsəddin Eldənizləri, Uzun Həsənləri, Xətailəri, Nadir şahları... köçürüb əbədi yaddaşına. Bu tək-təklərin içərisindən elə şəxsiyyətlər də çıxıb ki, onlar öz xalqlarının coğrafi sərhədlərindən, təfəkkür çərçivəsindən çıxaraq bütün dünyanın – Yer kürəsinin dahi şəxsiyyətlərinə – Atatürklərə, Vaşinqtonlara, Nehrulara, De Qollara... çevriliblər.



Heydər Əliyev də məhz XX əsrin bəşəriyyətə bəxş etdiyi belə şəxsiyyətlərdəndir.

Bəli, mənim Heydər babam ən böyük siyasi xadimlərdən biri, müstəqil Azərbaycanın qurucusu, memarı, əfsanəvi dövlət xadimi, bir sözlə, Azərbaycanımızın simvoludur.

Hələ sağlığında əfsanəyə çevrilən Heydər babanın dahiliyi hamı tərəfindən birmənalı şəkildə qəbul olunmuşdur.

Heydər babanın vətən və vətənpərvərlik duyğusu bütün duyğulardan öndə idi, müqəddəs idi, Amanat idi – Vətən Amanatı! Alp Ər. Tonqa, Tomris, Milşa, Mete, Güntəkin, Səttar xan, Əmir Teymur, Şah İsmayıl Xətai, Şeyx Məhəmməd Xiyabani, Atatürk... kimi milli qəhrəmanlarımızın varislik amanatı idi – mənim Heydər babam! Tanrı, ruhlar və millət bu amanatı Heydər Əliyevə etibar etmişdir.

Heydər Əliyevin şəxsiyyəti öyrənilməmiş bir dünyadır, bu dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri, görünməyən bir ümmana bənzətmək olar. Onun həyatı gül ləçəyi üzərindəki səhər şehi kimi təmiz və şəffafdır. Biz orada – o şehin üzərində Azərbaycan xalqını görürük.

Heydər Əliyev tarixi yaradan, tarixin özü idi! Heydər Əliyev dahilər dahisi idi! Həyatının bütün sahələrinə dair yüksək ensiklopedik biliyə malik zəka sahibi idi!

Heydər Əliyev dövlət və dövlətçilik deməkdir! Heydər Əliyev dünya miqyaslı mədəniyyət deməkdir! Heydər Əliyev çox yüksək səviyyəli diplomat, diplomatik münasibətlər deməkdir! Heydər Əliyev beynəlxalq nüfuz, şöhrət və ölməzlik deməkdir!

Çingiz xan bütün günü qırpımsız yaşar, kirpik belə çalmazmış. Səbəbini soruşanda «mən kirpik çaldığım yerdən düşmən vətənə soxula bilər» deyərmiş.

Mənim Heydər babam da bax belə yaşadı; qırpımsız, kirpik çalmadan, dinclik, rahatlıq bilmədən!

Əziz Babam, müqəddəs ruhun, sarsılmaz ideyaların, ölməz adın xalqımızı yeni bəxtəvər günlərə səsləyir!

Böyük Öndər bizə elə bir sərvət, elə ləyaqətli varis bəxş edib ki, bu sərvətlə Azərbaycan xalqı daim bəhrələnəcək. Heydər Əliyev ideyalarını bayraq edərək bu ləyaqətli varisin – möhtərəm İlham Əliyev bizi neçə-neçə yeni qələbələrə, xoşbəxt illərə aparacaqdır.

*Odlar yurdu Azərbyacan,*
*Düşmən səni qıra bilməz, əyə bilməz!*
*Arxandadır Heydərimin*
*Qranitdən ucaltdığı mərd qalası.*
*Düşmən sənin torpağında qala bilməz!*
*Arxandadır Heydərimin ər balası!*
*Bu yolda Tanrı Azərbaycan xalqına yar olsun!*





## Cabbarova Həbibə Mirtağı qızı

**Bakı şəhəri, N.Teymurov adına**
**231 nömrəli tam orta məktəbin**
**IX sinif şagirdi**

Dünyada insan üçün azadlıqdan, dövlət üçün müstəqillikdən böyük nemət yoxdur. Əgər azad insan müstəqil dövlətdə yaşayırsa, bu, əvəzolunmaz xoşbəxtlikdir. Azərbaycan xalqı üçün Azərbaycanda xoşbəxtliyin belə yüksək zirvəsinin fəthi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Vaxtilə böyük filosof Platon demişdir ki, ədalət, müdriklik və güclü hakimiyyətin bir yerdə olacağı gün bəşəriyyət xoşbəxtliyə qovuşacaqdır. Azərbaycan xalqının ümummilli lideri, qüdrətli strateq Heydər Əliyevə tarixdə əbədilik qazandıran ən başlıca amil də məhz onun Azərbaycan miqyasında bu üç dəyəri bir araya gətirməyi bacarmasıdır. Onun tarixi xidmətləri, xilaskarlıq və quruculuq missiyası, həyata keçirdiyi sosial, siyasi və mədəni islahatlar haqqında çox yazılıb və hələ bundan sonra da yazılacaqdır. Heydər Əliyev haqqında yazmaq onun müəllifliyi ilə yaradılmış tarixi, cəmiyyətin düşüncə tərzini qələmə almaqdır. İllər ötdükcə Ümummilli Liderin əzəmətini daha aydın dərk edir, qoyub getdiyi irsinin, ideyalarının yüksək dəyərlərini daha dərindən anlayırıq. Heydər Əliyevin həyat dərsləri insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə ən parlaq nümunədir.

Ümummilli liderimiz Heydər Əliyev hələ 1993-cü ilin 15 iyununda, Milli Məclisin tarixi iclasında, ölkə parlamentinin başçısı seçilərkən demişdir: «... Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyəti ilə dərk edirəm... Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının müstəqilliyini qorumaq, möhkəmləndirmək və inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikası-

nın müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra başına nə gəlirsə-gəlsin, heç vaxt müstəqilliyini itirməyəcək, heç bir dövlətin tərkibinə daxil olmayacaq və heç bir dövlətin əsarəti altına düşməyəcəkdir...»

Həmin sözlər deyilərkən ölkəmiz ağır günlərini yaşayırdı. 1993-cü ilin iyun ayında Azərbaycan xalqının düçar olduğu təhlükəli və gərgin vəziyyət Heydər Əliyevi həyatının, bəlkə də, ən çətin sınağı ilə üzləşdirmişdi. Ölkədə hakimiyyət böhranı yaranmış, ictimai-siyasi sabitlik pozulmuş, xaos və anarxiya, hərc-mərclik mühiti formalaşmış, hüquq və qanunverici aparatda bir sıra ciddi problemlər meydana gəlmişdi. Bu sarsıntı və təlatümlər sübut etdi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik istedadına, geniş siyasi dünyagörüşə malik xarizmatik lider Azərbaycan Respublikasının müstəqilliyini qorumaq və yaşatmaq kimi ağır tarixi missiyanın öhdəsindən gələ bilər. Dahi alman filosofu İmmanuel Kantın «Sürətlə öz süqutuna yaxınlaşan xalqın taleyini yalnız dahi şəxs dəyişə bilər» fikri Ümummilli Liderimizin Azərbaycan xalqı qarşısındakı xidmətlərinin böyüklüyünü bir daha sübut edir.

Təsadüfi deyildir ki, Ulu Öndərimizin rəhbərliyi altında hakimiyyət böhranı qısa müddətdə tamamilə aradan qaldırıldı, ölkənin müxtəlif istiqamətlərindəki qanunsuz silahlı dəstələr, dövlətçiliyimizə qarşı qəsdlər təşkil etmiş cinayətkar ünsürlər zərərsizləşdirildi. Bütün bunlar gələcəkdə Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına təkan verdi.

Dövlət yalnız iki halda sarsıla bilər; cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda» – deyən ümummilli liderimiz Heydər Əliyev ədaləti ədalətsizliklə bərpa etməyin yolverilməzliyini önə çəkmiş, tutduğu vəzifədən, milli-irqi mənsubiyyətindən, sosial statusundan asılı olmayaraq hər bir şəxsin qanun qarşısındakı bərabərliyi prinsipindən çıxış etmişdir.

Ümummillim Liderimizin dövlətçiliyimiz qarşısındakı digər xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının təşkilidir. 1995-ci il noyabrın 15-də qəbul edilmiş ilk Konstitusiya Azərbaycan Respublikasının dövlətçiliyi əsaslarını möhkəmləndirdi. Ulu Öndərin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul olunmuş bu ali qanun ölkənin müxtəlif istiqamətlərində islahatlar keçirilməsinin əsasını qoydu. Konstitusiyanın qəbul edilməsindən sonra ümummilli lider Heydər Əliyevin başçılığı altında keçirilən məhkəmə-hüquq islahatları sahəsində məhkəmə hakimiyyətinin formalaşması, məhkəmə aparatlarının yaradılması kimi tədbirlər həyata keçirildi.



Azərbaycan Respublikasının müstəqil dövlət kimi mövcudluğunun təhlükə qarşısında qaldığı bir anda xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyevin dühası və siyasi irsi xalqımızı xoşbəxt gələcəyə aparan yoldur. Bu yolu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı siyasət onu göstərir ki, ümummilli liderimiz Heydər Əliyevin ideyaları yaşayır və həyata keçirilir. Son beş il ərzində aparılan və bu gün də müvəffəqiyyətlə davam etdirilən islahatlar, xalqın rifahının yüksəldilməsi uğrunda aparılan tədbirlər Ulu Öndərimizin əziz xatirəsinə ən yaxşı hədiyyədir.

Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olmuşdur. Gələcək nəsillər tarixin bizə bəxş etdiyi bu dövrü iftixar hissi ilə xatırlayacaq, öyrənəcək və təhlil edəcəklər. İllər keçəcək, çiçəklənən Azərbaycanın vətəndaşları bir gün deyəcəklər: «Heydər Əliyev ölkəni idarə edir. Onun ideyaları bu gün tarixin sınağından çıxmışdır və hələ də xalqın şüurunda, qəlbində yaşayır. Ölkəni idarə edən iqtisadi sistem əsl vətəndaşın, qüdrətli liderin əməyinin bəhrəsidir».



## Cavadova Valentina Afiq qızı

***Bakı şəhəri, F.Qədimov adına 222 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Müstəqil Azərbaycan Respublikasının banisi, Ulu Öndər, Ümummilli lider Heydər Əliyevin dünyamızı tərk etməsindən 12 il keçir. 12 il keçməsinə baxmayaraq, xalqımız bu böyük xilaskarını unutmur.

Məktəbdə müəlliməmiz bizə Ulu Öndər haqqında inşa yazmağı tapşırarkən çox sevindim. Bu, əslində, çox məsuliyyətli iş olsa da, məndə xoş təəssüratlar yaratdı. Çünki düşündüm ki, hər bir azərbaycanlı məktəbli Müstəqil Azərbaycanın banisi haqqında bilməlidir. Ulu Öndər haqqında bildiklərim və müəllimənin söhbətləri məni bu inşanı yazmağa daha da həvəsləndirdi.

Ulu Öndər haqqında inşa yazmağa başlayarkən böyük məsuliyyət hiss etdim. Çünki Ümummilli liderin uğur və nailiyyətlərini, mənalı həyat yolunu sözlə ifadə etməkdə şagird qələmi acizdir. Lakin bu dahi şəxsiyyət haqqında olan fikirlərimi yazmağı özümə borc bilirəm. Digər tərəfdən isə qarşımda dahi Öndərin tərənnümü, həm də mənə dərs deyən Fəridə müəllimənin inamı dururdu.

Ümummilli lider, ulu öndər Heydər Əliyev XX əsrin parlaq nümayəndələrindən və nadir şəxsiyyətlərdən biridir. Ulu Öndər Heydər Əliyevin keçdiyi mənalı həyat yolu, xalqına, millətinə, vətəninə sərf etmiş olduğu ömrü bu günün və gələcəyin gəncləri üçün parlaq nümunə, tərbiyə məktəbidir. Ümummilli lider Heydər Əliyev bəyan edib ki, uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz və gələcəyimizdir. Uşaqlara göstərilən qayğı bütün qayğılardan üstündür. Bir çox dövlət başçılarının dilindən bu sözlər dəfələrlə səslənib: «Azərbaycan xalqı xoşbəxtdir ki, ona Heydər Əliyev kimi müdrik siyasi xadim rəhbərlik edib». Bu sözlər tam bir reallıqdır. Doğrudan da, ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra Azərbaycan inkişafa, tərəqqiyə qədəm qoydu.



1969-cu il 14 iyul. Məhz bu gün. Bu gün Azərbaycan xalqının, Azərbaycan Respublikasının tarixinə əbədi həkk olunub. Çünki elə bu gündə möhtərəm Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldi. Və gəlişi ilə Azərbaycanda xeyli irəliləyişlər yarandı. Mən bütün bunlardan dolayı keçirdiyim qürur və sevinc hissini Ulu Öndərin ruhuna inşa şəklində ünvanlamağı qərara aldım. Bu yazını günlərin, ayların, illərin salnaməsi kimi saxlayacağam. Ulu Öndərin xalqına sərf etmiş ömrü haqqında nə qədər yazılsa da, azdır. Buna görə də, hər bir Azərbaycan vətəndaşı bu böyük xilaskarını, qəhrəmanını unutmamalıdır.

Belə bir vətənə layiqli övlad olmaq üçün, məncə, mükəmməl ali təhsil almalı, sənətinin, peşəsini əsgəri olmaq lazımdır

Fikrimi Ulu Öndərin bir müdrik kəlamı ilə bitirmək istəyirəm: «Gələcək bilikli, elmli insanların çiyni üstündə qurulacaqdır».



## Əhmədli Abbas Paşa oğlu

***Kəngərli rayonu, Yeni Kərki kənd tam orta məktəbinin VIII sinif şagirdi***

Hər bir azərbaycanlı kimi mənim də qəlbimdə uca bir məhəbbət yaşayır. Heydər Əliyev məhəbbəti!

Əziz həmvətənlərim! Mən də bu inşa yazımda öz qəlbimin dərinliklərində olan sevgimi ifadə etməyə çalışacağam.

Bəli, adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyevi ancaq yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran günəşlə, bir də qartal məskəni, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək mümkündür. O, bütün cəhətlərə görə hər zaman zirvədə dayanacaq bir şəxsiyyətdir. Onun düşüncə tərzi, ideyaları daim Azərbaycanımızın üzərində parlayacaq, yolumuzu nura qərq edəcək. Xalqımız fəxr edə bilər ki, onun ləyaqətli övladı Heydər Əliyev hələ sağlığında öz adını dünyanın sayılıb-seçilən görkəmli dövlət xadimlərinin, tarixi simalarının siyahısına yazmış və bununla da hər birimizə başucalığı gətirmişdir.

Belə bir deyim var: «Adam var ev üçün, adam var el üçün doğulur». Deyirlər, Ulu Tanrı bəşər övladının düçar olduğu sıxıntıdan, üzləşdiyi bəladan xilas olması üçün hər əsrdə ona bir dahi şəxs bəxş edir. Bu baxımdan Azərbaycan xalqı Tanrıya daha yaxın olan xalqdır. Allahın bu millətə bəxş etdiyi belə bir dahi Heydər Əliyevdir.

Hər kəsin dəyəri onun yaşadığı zaman kəsiyində göstərdiyi xidmətləri, əməlləri ilə ölçülür. Böyük öndərin yeganə amalı, yaşamaq devizi belə idi: «Taleyin ona bəxş etdiyi fitri qabiliyyətini, bütün qüvvə və bacarığını, əqli və fiziki potensialını ana yurdu Azərbaycana həsr etmək!»

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrə nəzər salsaq, bunu aydın başa düşə bilərik.



1969-cu ilin 14 iyulu əbədi olaraq Azərbaycan xalqının tarixinə həkk olunub. Məhz həmin gün möhtərəm Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi gündür. Azərbaycan dövlətinin həqiqi inkişafı həmin gündən başlayır.

Heydər Əliyevin adı tarixə digər böyük xidmətləri ilə yanaşı, ilk növbədə müstəqil Azərbaycanın qurucusu kimi daxil olmuşdur. Onun rəhbərliyi altında keçən illər respublikamız üçün sabitliyin möhkəmlənməsi, iqtisadi çiçəklənmə, nüfuzlu beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə əməkdaşlıq qurulması, əhalinin rifah halının yaxşılaşması illəri olmuşdur.

Xalqımızın tarixi taleyində, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlıdır.

Heydər Əliyevin böyüklüyü ilk növbədə onun milliliyində, mənsub olduğu xalqa, adət-ənənələrə bağlılığında, vətənpərvərliyində idi. O, varlığı, duyğuları və yanğıları ilə sözün müstəqim mənasında əsl azərbaycanlı idi.

Heydər Əliyevin həyatsevərliliyinin, bitib-tükənməyən həvəsinin təməlində Ana Vətən, doğma Azərbaycan dayanırdı. Bu böyük insan köklərə möhkəm bağlı olduğuna görə güclü, qüvvətli idi. Böyük Öndər bütün həyatı və fəaliyyəti boyu xalqını özünə arxa sanmış və özü də xalqa dayaq durmuşdur.

Belə ki, Heydər Əliyev dühası bütöv Azərbaycanı işıqlandırırdı. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz Heydər Əliyevə məxsus idi. O, Azərbaycan deyilən bir zirvənin məğrur qartalı idi.

*Həmişə qartala qibtə etmişəm,*
*Öz zəfər himnini çalır zirvədə.*
*Nə qədər düşsə də ucalığından,*
*Enəndə yenə də qalır zirvədə!*



**Əhmədova Əminəxatun**
**Alxas qızı**
**Oğuz şəhəri, H.Babayev adına**
**1 nömrəli tam orta məktəbin**
**X sinif şagirdi**

*Böyük təbiətlər yaranır az-az,*
*Hər yerdə, hər zaman inci tapılmaz.*

**S.Vurğun**

Mən inşa yazmağı çox sevirəm. Xüsusilə də tarixi şəxsiyyətlər barədə. Babək, Cavanşir, Tomris, Fateh İsgəndər, Şah İsmayıl Xətai, Heydər Əliyev... mənim pərəstiş etdiyim tarixi simalardır.

Yenə də inşa yazıram. Ancaq bu dəfə daha çox məsuliyyət hiss edirəm. Bu dahi barədə yazmaq həm çətindir, həm də şərəflidir. Bu şərəf mənə də qismət olduğu üçün sevinirəm.

Mənim qəhrəmanım Heydər Əliyevdir! Bu dahi şəxsiyyətin heykəli ilə üz-üzə dayanmışam. Qədim dövrdə yaşamış yunan filosofu və riyaziyyatçısı Pifoqorun sözləri sanki illər sonra Azərbaycanın qədim Naxçıvan torpağında doğulacaq, sonralar ziyası ilə bütün cahanı işıqlandıracaq. Heydər Əlirza oğlu Əliyev haqqında deyilmişdir: «Heykəli görkəmi, insanları isə əməlləri gözəlləşdirir». Görkəmi ilə heykəli bəzəyən, əməlləri ilə insanların qəlbində əbədi abidə ucaldan dahi lider! Sənə olan məhəbbətimi ifadə etməkdə qələm acizdir.

*Qədirbilən hər kəsin qəlbində heykəlin var,*
*Gələcəyin əlini sıxa bilən əlin var,*
*Dünyaya işıq saçan nurlu, pak əməlin var,*
*Sənə haqdan pay gəlib, bu cürət, təpər, baba!*
*Bütün türk dünyasının babası – Heydər baba!*



Kim idi Heydər Əliyev?

Görkəmli beynəlxalq siyasi xadim, tarixi milli lider, Azərbaycan xalqının «quruculuq və qurtuluş salnaməsi»nin müəllifi, türk dünyasının böyük oğlu, dünyanın siyasət nəhəngi, fenomenal şəxsiyyət, Azərbaycan gənclərinin böyük dostu!

2003-cü ilin 13 dekabrını xatırlayıram. Tariximizə qara hərflələ yazılmış günün ertəsi. O vaxt hələ balaca idim. Heydər Əliyevin vəfatı xəbərini televiziyadan eşidib ağlayan ailə üzvlərimi heç vaxt unuda bilmirəm. Atamdan bu göz yaşlarının səbəbini soruşduqda onun: «O, bizim hamımızın rəhbəri idi. Müstəqil respublikamızın qurucusu idi» sözlərini heç zaman unutmayacağam.

*Sən elə bir zirvəsən, küləklər neyləyəcək?*
*Dünənim, bu günümsən, səninlədir gələcək!*
*Nə qədər Azərbaycan, nə qədər bu millət var,*
*Heydər «xalqım», – deyəcək, xalq «Heydər», – söyləyəcək.*

Dünya siyasətində Heydər Əliyevə bərabər ikinci şəxsiyyət, siyasətçi tapmaq çox çətindir, məncə. Uzun müddət ərzində ən yüksək dövlət vəzifələrində işləmək, mühüm dövlət tədbirlərində iştirak etmək, ən çətin vəziyyətlərdən məharətlə çıxmaq dahi Öndərimizə məxsusdur. O, insanlar üçün həmişə əlçatmaz və əzəmətli olub, insanlar həmişə onu hamıdan bir boy, bir pillə uca görməyə adət etmişlər.

*Dünya elə bilməsin tək rəhbəri itirdik,*
*Ali baş komandanı, baş sərkəri itirdik,*
*Canlı həyat ,canlı söz, canlı tarix itirdik,*
*Heydər adlı bir aləm, bir kainat itirdik.*

Tarixi yaradan və yaşadan lider idi o. Təkcə yaratdığı tarixlər deyil, gələcək tarixlər, əsrlər də onu yaşadacaqdır. Həmişə Azərbaycan Respublikasının vətəndaşı olmağı ilə fəxr edən, Ölməz Lider, əzərilər də sizinlə fəxr edirlər!

Dünyanın heç bir siyasətçisinə Heydər Əliyev qədər fırtınalı ömür yolu sürmək, yerin dibindən dünyanın siyasət zirvəsinə yüksəlmək, bütün ömrünü xalqına həsr etmək qismət olmamışdır. Bu sadaladıqlarım, ancaq dahi Liderimizə məxsusdur. Çoxları onun incə və sərrast yumorunun, jurnalistlərlə görüşləri zamanı qeyri-adi gülüş və atmacalarının, uşaqların əhatəsin-

də səmimiliyinin və mehribanlığının, qaçqınların toy məclisində milli Azərbaycan rəqsimizi məharətlə və ağayana ifa etməsinin, şəhid ailələri ilə görüşləri zamanı kövrəlməsinin şahidi olmuşlar.

Bu gün Azərbaycanın dünya siyasətində aparıcı rol oynamasının səbəbi, əlbəttə, Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsidir.

*Tarix nə üz görür, nə rüşvət alır,*
*Tarixdə tarixi həqiqət qalır,*
*Adın həqiqətlə birgə ucalır,*
*Xalqına şöhrətdir qüdrətin sənin,*
*Var olsun bu oğul qeyrətin sənin.*
*Sizi unutmaq olarmı, dahi rəhbər? Əsla, yox!*

Əksinə, gülümsər və nurlu çöhrəni görmək, qətiyyət dolu səsini eşitmək, beyinlərə nüfuz edən çıxışlarını dinləmək istəyirik. Nə yaxşı ki, lentlərə köçürülmüş, kitablarda əksini tapmış nitqlər və fotoşəkillər var. Deməli, təsəllimiz var. Ən böyük təsəllimiz isə əsərin sayılan Müstəqil Azərbaycan və onu idarə edən siyasi varisin İlham Əliyevdir:

*Heydər bayrağının baş bayraqdarı,*
*Şəriksiz lideri sən olacaqsan!*
*«Heydər – xalq» söyləyən Azərbaycanın,*
*Layiqli lideri sən olacaqsan!*

Dərin savada, ali mədəniyyətə, dönməz iradəyə sahib olan Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində xalqımız XXI əsrə Şərq və Qərb arasındakı iqtisadi və mədəni körpünün ən etibarlı mühafizəçisi, Böyük İpək yolunun bərpasının – Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yenilənməsinin təşəbbüsçüsü, Avropa Şurasının bərabərhüquqlu üzvü, imzalar içində imzası» olan sivil bir dövlət kimi daxil oldu. Fəxr edirik ki, bu gün dünyanın bir çox ölkələrinin paytaxtlarında – Ankarada, Vaşinqtonda, Moskvada, Qahirədə, Londonda, BMT-nin binası önündə, Strasburqda – Avropa Şurasının iqamətgahı önündə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

80 illik zaman kəsiyi. Bu şərəfli həyat yolu ləyaqətlə yaşanıb.

Bu dahi şəxsiyyət gənclərimizin yaddaşında da əvəzolunmaz iz buraxıb. Heydər Əliyev tərəfindən 2 fevral Gənclər Gününün təsis edilməsinin nəticəsidir ki, hər il bu tarixdə respublikamızın hər yerində gənclər bu bayramı əlamətdar şəkildə qeyd edirlər. Heydər Əliyev Azərbaycan gənc-



ləri üçün parlaq nümunə olmaqla yanaşı, həm də onların yaddaşına qırmızı hərflərlə adını həkk etmişdir. Hər zaman gəncliyimizi, gələcəyimizi düşünən Dahi Lider müasir Azərbaycan gəncləri də Sizi heç bir zaman unutmayacaqlar.

Bu inşamı sənə ithaf etdim, böyük şəxsiyyət! Əlbəttə, sənin çoxşaxəli fəaliyyətini bir neçə vərəqdə əhatə etmək qeyri-mümkündür. Ancaq çalışdım ki, mənə həvalə olunmuş bu şərəfli işin öhdəsindən gəlim.

Tarixi fakt ardınca qaçmadım, dəbdəbəli kitab cümlələrinə müraciət etmədim. Sadəcə sevdiyim və hörmət etdiyim insana olan məhəbbətimi ifadə etməyə çalışdım.



**Əhmədova Lyubava Ramiz qızı**

*Qax şəhəri, N.Allahverdiyev adına 2 nömrəli məktəb-liseyin XI sinif şagirdi*

Kainatda hər şey böyük nizama tabedir. Sanki hər şey ən xırda detallarınadək ölçülüb-biçilib. Bir görünməz əl onları sahmana salır, lazım gələndə yerlərini dəyişir, məhv edir, yenidən yaradır.

Qarın altından günəşə boylanan qargülü yazın yaxında olduğunu söyləyir, vulkanlar isə bizə yerin dərinliklərindən xəbər gətirir. Bu kainatda heç bir şey səbəbsiz deyildir.

1923-cü ilin may ayının 10-da Naxçıvan torpağında dünyaya göz açan bir uşaq da bu böyük nizamın bir parçası idi. Azadlığı əlindən alınmış, arzularından qoparılmış, yolu yarımçıq qalmış bir ölkənin vətəndaşı olaraq doğulmaq, sonra isə onu əlindən qoparılanlara zorla qovuşdurmaq üçün uzun və əzablı yol keçmək. Mübarizələr üçün doğulmaq, çarpışmalarda bərkimək, müdri kləşmək... Qorxmadan, yorulmadan getmək, dözmək, səbr etmək və inanmaq. Xeyri, şəri, qaranlığı, işığı, qələbəni, məğlubiyyəti olduğu kimi dərk etmək, hər birindən nəsibini almaq və nəticələr çıxarmaq. Bir insan ömrünə sığmayacaq qədər böyük görünür, ancaq belə olmasaydı dahilər adi insanlardan fərqlənməzdilər. Dahilər bunun üçün doğulurlar. Zaman dahiləri bəşəriyyətin ehtiyacı olduğu üçün yaradır. Çiyinlərinə ağır vəzifələr qoyur, güc, dözüm, səbir və iradəni onlara verir. Bu yolçuluq Naxçıvan torpağında başlamışdı. Son məkan isə bütöv Azərbaycan oldu. O taylı-bu taylı, okeanları aşıb dünyaya səpələnən azərbaycanlıların ürəyində bütövləşən Azərbaycan!

Axar suların saflığındadır, doğan günəşin zərrələrindədir, gülündədir, dilindədir, bağındadır Azərbaycanım!

Azərbaycançılıq təkcə əməllərində deyil, zəkasında, qəlbində, onun daxili-mənəvi varlığında, əzəmətli şəxsiyyətində idi.



1923–2003-cü illər. Bu, təkcə Heydər Əlirza oğlu Əliyevin ömür yolu deyildir. Bu, Azərbaycanın tarixidir. Bu tarix Azərbaycanın yeni yolunun başlanğıcıdır.

«Qüdrətli» SSRİ-nin tərkibində Azərbaycan sərvətləri talanaraq, torpaqları zəhərlənərək, ən işıqlı şəxsiyyətləri məhv edilərək öz nicat yoluna doğru addımlayırdı. Bu dövr Heydər Əliyevin ən yaxın tariximizin yetişdirdiyi dahi insanlardan birinə çevrilməsi üçün hazırlıq dövrü idi.

1969–1982-ci illər Azərbaycan xalqının özünə qayıdışı, özünü dərk etməsi dövrü idi. Tarixindən, dilindən, dinindən, mədəniyyətindən qoparılmış milləti oyatmaq dövrü idi. Ona kim olduğunu göstərmək, «Ey türk, titrə və özünə dön!» gücündə, qüdrətində bir hayqırtı dövrü idi.

Heydər Əliyevin ömür yolu bir məktəbdir. Onun hər səhifəsi bir qəhrəmanlıq nümunəsidir. Zamanında hələ lazımınca dərk edilməmiş, qiymətləndirilməmişdi.

Təhsili inkişaf etdirdi ki, millətimiz güclü və qüdrətli olsun.

Xalqın dilini özünə qaytardı ki, öz mənəviyyatını daha aydın dərk etsin.

Ədəbiyyatına, tarixinə sahib çıxmağı öyrətdi ki. kim olduğunu unutmasın.

Ən başlıcası isə gələcəyə baxmağı öyrətdi, heç vaxt heç nədə təslim olmamağı öyrətdi. Yalnız vicdanını hökmündən başqa...

Moskva güclənən və qüdrətlənən Azərbaycanı ondan ayırmaq planını çoxdan hazırlamış olsa da, bir həqiqəti nəzərdən qaçırmışdı. Canı candan necə ayırmaq olardı?!

Müdrik olmaq kifayət deyil, ondan istifadə etməyi bacarmaq lazımdır.

Moskva dövrü, siyasət şahmatı taxtası arxasında dünyanın ən güclü liderləri ilə yanaşı oturmaq Heydər Əliyevə çox şey öyrətdi. Doğulmaqda olan qüdrətli dövlətə siyasət burulğanlarında yıxılmamağı, əyilməməyi, adını, qürurunu, böyüklüyünü saxlamağı öyrətdi. Hər vəziyyətdə təmkinli və qürurlu olmaq, ən əsası isə Heydər Əliyev olmağı öyrətdi.

Heydər Əliyev olmaq – vətənlə birləşmək deməkdir.

Heydər Əliyev olmaq – ruhu ilə, qanıyla, canıyla millətindən biri olmaq, lakin onun fövqünə yüksələ bilmək deməkdir.

1993-cü ildə Azərbaycan yenidən doğuldu. 1990-cı ilin soyuq yanvar ruzigarlarından nəsibini almış, müharibənin amansız pəncəsində əzilməkdə, doğulmaqda olan Azərbaycan bugünkü Azərbaycan olmaq üçün, keçmişindən qopub ayrılmaq üçün doğuldu.

Attilanın uzaq əsrlərin dərinliyindən gələn bir kəlamı vardır: «Heç bir dövlət başçısının öz xalqını başsız qoymağa ixtiyarı yoxdur!» Heydər Əliyev

də gəldi və bu dövləti yenidən qurdu. O, mənim xalqımın bükülməkdə olan dizlərinə təpər gətirdi.

– Dərəbəyliyə son qoy, ər ol, güclü ol! – dedi.

– Sərvətlərinin qiymətini bil, onlara sahib çıx! – dedi.

Arxasını xalqına söykədi və onunla çiyin-çiyinə gələcəyə doğru addımladı.

O, vətənimin daha da qüdrətli olması üçün öz layiqli davamçısını – İlham Əliyevi yetişdirdi. Yolunu cızdı Azərbaycanın. Baxın, bu dövlət indi I Avropa oyunlarına qucaq açmışdır. O, güclü və qüdrətli olduğunu, barış və sülh istədiyini dünyaya bəyan edəcək. R.Rza yazırdı:

*Keçmiş – ibrət, öyrənc*
*tutuşdurma, bələdçilik kitabımdır.*
*Mən bu günçün cavabdehəm*
*gələcəyin sorğusuna!..*
*Mən ümidlə, inamla*
*bağlıyam ona.*

Hər səhər məktəbə gedərkən qarşısından keçdiyim heykələ pıçıldayaraq salam verirəm, məktəbimizin hər guşəsindən boylanan şəklinə baxıb qürur duyuram, kitablarımın hər səhifəsindən gülümsəyən nurlu çöhrəsindən güc alıb xəyallar qururam. Adının qarşısına nə qədər epitetlər əlavə olunsa da, onun ruhunun əzəmətini ifadə edəcək gücə malik deyildir, – deyə düşünürəm. Heç bir söz, heç bir ifadə o doğmalığı, o istini, o gücü təsvir edə bilmir. Dünya da onu belə tanıyır: Heydər Əliyev.

O mənim xalqımın dünya tarixinə bəxş etdiyi dahidir.

Bəli, o, zirvədir. Bundan sonra kimlərsə bu zirvəyə çata bilər. Dövlət və hakimiyyət, şöhrət və siyasət zirvəsi fəth olunmaz deyildir. Lakin bundan sonrakı həyat çox az insanlara nəsib olur.

O, xalqımın taleyi, o, xalqımın özdərkidir.

O, bütün dünyanın gözünü, diqqətini Azərbaycana yönəldən cazibə idi.

O, kiçik xalqın, kiçik dövlətlərin böyüklük etalonu idi.

Zirvədən sonra bir zirvə də var: «Mən»indən qopub «Biz» olmaq! Heydər Əliyev xalqımın ürəyində bu cür yaşayır və yaşayacaq.







## Əhmədova Maryana Tofiq qızı

**İ.Əfəndiyev adına «Elitar» gimnaziyanın IX sinif şagirdi**


*«История ничего не стирает из своей памяти».*

**Г.А.Алиев**

Жил в стародавние времена один мудрец-патриарх азербайджанского народа Деде Коркут. Он воспевал личностей, оставивших след в истории. Мне кажется, если бы он жил в XX в. то обязательно бы посвятил песнь сыну азербайджанского народа – Гейдару Алиеву.

Огромный вклад внес Гейдар Алиевич в развитие нашей Родины. Первым делом, он приостановил военные действия в Карабахе, которые могли бы повлечь за собой войну на всем Южном Кавказе.

Еще больше продвинулось развитие с подписанием «Контракта века» и строительством нефтепровода «Баку–Тбилиси–Джейхан». Всемирно известные нефтяные компании заключили договоры с Азербайджанской Республикой.

Благодаря Гейдару Алиевичу, русский язык занимает большое место в нашей стране. Сам он прекрасно им владел. Его коллеги вспоминая о нем, говорили: «Его акцент все-таки ощущался, но говорил он грамотнее многих других членов Политбюро». Гейдар Алиевич нашел для себя двух университетских педагогов, обучавших его русскому языку. Вскоре он даже смог избавиться от акцента. И сейчас у нас проводится обучение на русском, выпускаются газеты и журналы, ставятся театральные постановки.

Гейдар Алиевич прекрасно говорил по-азербайджански и считал, что каждый обязан знать свой родной язык. Поэтому в русском секторе азербайджанский язык изучается на должном уровне.

«Не народ живет для государства, а государство для народа». С этим девизом Гейдар Алиев шел по жизни. Несмотря на то, что он был великим государственным деятелем, он был приближен к народу, очень любил детей, имел большое чувство юмора. Он принимал активное участие во всех мероприятиях. Дети ласково называют его «Гейдар-баба».

Самым главным для него была семья. Он воспитал замечательных детей и внуков. Его поколение очень чтит Фонд, названный его именем и возглавляемый первой леди, вкладывает средства в развитие образования культуры и спорта. Его внучка, Лейла Алиева, являющаяся вице-президентом Фонда, представляет его в России и других странах.

Гейдар Алиевич говорил: «Ни одну страну нельзя считать себе врагом». Его дети так же как и он поддерживают дружеские отношение с соседними странами и не только. Алиев наладил связь со многими странами зарубежа. Его вклад оценивали такие политики как Джордж Буш и Елизавета II.

В своей Оде Ломоносов воспел Петра I как посланника Бога. Мне кажется, Гейдар Алиев тоже послан в Азербайджан Аллахом, с целью вывести нашу страну на мировой уровень. Кончина нашего Лидера стала невосполнимой утратой для всего азербайджанского народа. Уходя, Гейдар Алиев оставил своего приемника, чтобы тот успешно продолжал его дело.

Я хочу пожелать Ильхаму Гейдаровичу следовать примеру своего отца, так же как и мы должны. Если все мы будем стремиться совершать такие же высокие дела, то наша Родина будет и дальше процветать и радовать будущее поколение.





## *Fətullayeva Səkinə Çingiz qızı*

***Naxçıvan şəhəri, 10 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Müəllimimiz deyəndə ki, zəmanəmizin böyük Azərbaycanlısı, türk dünyasının ən parlaq lideri Heydər Əliyev haqqında inşa yazacağıq, qəribə bir həyəcan hissi məni bürüdü. Çünki belə bir dahi şəxsiyyət haqqında yazmaq çox çətin, məsuliyyətli və şərəfli bir işdir. Öz ömrünün əlli ildən çoxunu Azərbaycan xalqının, Azərbaycan dövlətçiliyinin taleyi ilə bağlayan, iqtisadiyyatımızda, milli ideologiya və mənəviyyatımızda, mədəniyyətimizdə, elmimizdə, ümumiyyətlə, bütün həyatımızda misli görünməyən işlər görən, dünya şöhrətli şəxsiyyət olan Heydər Əliyevin fəaliyyətini görkəmli, tanınmış ziyalılarımız öz yazılarında təhlil edərək münasibət bildirmiş, necə milli qürur hissi keçirdiklərini qələmə almışlar. Mən də Azərbaycan xalqının kiçik bir nümayəndəsi, Heydər Əliyevin yaratdığı cəmiyyətdə yaşayan, təhsil alan, gələcəkdə öz vətəni üçün xeyirli işlər görməyə can atan gənc nəslin nümayəndəsi olaraq bu dahi şəxsiyyət haqqında yazmağı özümə borc bilir, bununla qürur duyuram.

Artıq iyirmi ildən çoxdur ki, Azərbaycan xalqı milli azadlıq və dövlət müstəqilliyi qazanmışdır. Azərbaycan dünyaya göstərmişdir ki, onun əsas yolu demokratiya, milli azadlıq, vətəndaş cəmiyyəti qurmaq, bazar iqtisadiyyatı yoludur. Yaşadığımız 2015-ci ildə Azərbaycan dövlətçiliyinin bu cür inkişaf etməsi mənalı ömrünün tam bir qərinəsini Vətənində yaşayan, qurub-yaradan Heydər Əliyevin gərgin və əməli fəaliyyətinin nəticəsidir.

Heydər Əliyev böyük ideoloq, yenilməz siyasət adamı, vətənpərvər Azərbaycan oğlu, ölkəmizdə milli dövlətçilik ideologiyasının – Azərbaycançılığın həm konsepsiyasını verən nəzəriyyəçi, həm də onu addım-addım həyata keçirən praqmatik böyük dövlət xadimi idi. Onun Azərbaycançılığın təməl prinsipləri olan ana dilinə, milli tarix və mədəniyyətə, milli adət-ənənələ-

rimizə, mənəviyyatımıza, mentalitetimizə dair çoxsaylı qərarları və həyata keçirdiyi qlobal işlər Respublikamızın tarixində silinməz izlər qoymuşdur.

Heydər Əliyev Azərbaycanda vətəndaş cəmiyyəti yaradıb, Azərbaycanın nüfuzunu bütün dünyada tanıdıb, müstəqil demokratik dövlət qurub, ölkəni vətəndaş müharibəsindən xilas edib, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün gecə-gündüz çalışıb, millətin şəriksiz lideri, xilaskarı olub. Yuxarıda sadaladığım bu böyük işləri tarixi faktlar, dövlətçilik təfəkkürü və ümummilli mənafe baxımından işıqlandırmağa ehtiyac yoxdur. Çünki Azərbaycanda elə bir ev, elə bir ailə yoxdur ki, orada Heydər Əliyevin adı iftixar, dərin hörmət və məhəbbətlə anılmasın.

Heydər Əliyev tərəfindən irəli sürülən Böyük İpək Yolunun bərpası, Asiya–Qafqaz–Avropa nəqliyyat dəhlizinin açılmasında Azərbaycanın strateji mövqeyi Vətənimizin beynəlxalq aləmdə böyük nüfuz qazanmasına gətirib çıxarıb ki, bu işdə Ümummilli liderin xidmətləri misilsizdir. Bu mənada dünya şöhrətli yazıçı Çingiz Aytmatovun «Heydər Əliyev XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir» kəlamı əsl həqiqəti əks etdirir.

Doğrudan da, Heydər Əliyev özü şəxsiyyət kimi tarixi hadisədir. Tarix şəxsiyyəti yaradır, bu cür şəxsiyyətlər isə tarixi. O, bütün dövrlərin siyasi lideridir. Heydər Əliyev imperiya dövründə də, ölümündən sonra da liderdir. Çünki onun amalı, əqidəsi və mənəviyyatı əbədiyaşardır.

Heydər Əliyevin xalqı, vətəni üçün gördüyü işləri aysberqin görünən tərəfi hesab etmək olar. Ancaq Heydər Əliyevin bizim görüb anlaya bilmədiyimiz xeyirxah əməlləri daha çoxdur. O, gördüyü işlərin heç birini alqışlanmaq, təriflənmək üçün deyil, içindən gəldiyi, Tanrının onu belə yaratdığı üçün etmişdir.

Bu yazdıqlarımdan belə bir sual ortaya çıxa bilər ki, sənin on altı yaşın var, Heydər Əliyev isə artıq on iki ildir ki, əbədiyyətə qovuşub. Sən onu necə tanıyıb haqqında mülahizələr yürüdə bilirsən? Elə bilirəm ki, bir insanı, hələ Heydər Əliyev kimi dahi şəxsiyyəti tanımaq üçün onu görmək vacib deyil. İnsan öz işi və əməlləri ilə əbədilik qazanır. Məgər Aristoteli, Nizamini, Əcəmini tanımaq üçün onun müasiri olmaq lazımdır? Yox... Onları əbədiləşdirən səbəb nədirsə, mənim Ulu Öndərimi, xalqımın atasını da tanıdan və yaşadan odur.

Heydər Əliyev elə bir fenomendir ki, Azərbaycanın siyasi xadimləri içərisində heç kim bu qədər sevilməyib, ürəklərdə özünə heykəl ucaltmayıb və siyasət Olimpinin zirvəsində qala bilməyib.



Bu gözəl insanın ömür salnaməsini dönə-dönə səhifələmək, oxumaq, öyrənmək lazimdir, çünki Heydər Əliyevin ömrü elə yaşadığımız Azərbaycanın tarixidir. Bu tarixi öyrənmək isə hər bir azərbaycanlının müqəddəs borcudur.

Mən bu kiçik inşamda onu da qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycanda Heydər Əliyevin dövlətçilik, siyasi təcrübə məktəbinin yetirməsi, Azərbaycançılıq ideologiyasının layiqli nümayəndəsi, görkəmli siyasi xadim, Prezident İlham Əliyev bu dahi şəxsiyyətin başladığı və bir qərinədən artıq müddətdə davam edən fəaliyyətinin ən layiqli davamçısıdır. Cənab İlham Əliyev möhtərəm Heydər Əliyev tərəfindən əsası qoyulan yeni Azərbaycan dövlətinin sabahının, xöşbəxt gələcəyinin lideridir, böyük siyasətdə Heydər Əliyev məktəbinin davamçısı, Heydər Əliyev kursunun layiqli varisi, genetik daşıyıcısıdır.

Mən də bir azərbaycanlı kimi, xalqının tərəqqisi, inkişafı, dünyada tanınması üçün müəyyən işlər görmək istərdim. Çalışacağam ki, Heydər Əliyev irsini öyrənib təbliğ edəm, onun Azərbaycançılıq ideyalarının davamçılarından bir olub Vətənimizin çiçəklənməsi və rifahı naminə yaşayam.




## Kərimova Fidan Azər qızı

**Bakı Avropa Liseyinin**
**IX sinif şagirdi**


Böyük şəxsiyyət, dünyaşöhrətli siyasi xadim, Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev haqqında yazmaq mənim üçün çox şərəfli və məsuliyyətlidir. Tarixdə unudulmaz ad qoyan dahi şəxsiyyətlər olmuşdur. Onların ön sıralarında ümummilli liderimiz Heydər Əliyevin də adının olması məni sevindirir, ürəyimi iftixar hissi ilə doldurur. O, siyasət üçün doğulmuşdu. Özü də ədalətli siyasət üçün. Fenomenal yaddaşa, dəqiq məntiqə, yüksək intellektə, aydın zəkaya malik Heydər Əliyev unikal bir şəxsiyyət olmuşdur. Dünyaya belə şəxsiyyətlər nadir hallarda gəlirlər. Və Heydər Əliyev bu şəxsiyyətlərdən biridir. Nə yaxşı ki, xalqımız Tanrının bu töhfəsindən məhrum olmadı.

«Xalqın, Vətənin taleyi hər bir şəxsin taleyi olmalıdır», – deyən Heydər Əliyevin taleyi – Azərbaycanın taleyi kimi müəyyənləşdi.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun rəhbərliyi dövründə Azərbaycan bütün sahələrdə böyük inkişaf yolu keçmişdir. Onun həyat prinsipi sülh, əmin-amanlıq, xalqımızın firavanlığı idi.

Heydər Əliyev gözəl bir natiq idi. Həmçinin, o, Azərbaycan dilini mükəmməl bilirdi. Azərbaycan dilini bu qədər dərindən bilən, danışan ikinci bir siyasətçiyə rast gəlməmişəm desəm, əminəm ki, mənimlə razılaşarsınız. «Hər bir xalqın milliliyini, mənəvi dəyərini yaşadıb inkişaf etdirən onun dilidir», – deyən Ümummilli Liderimizin məqsədi bir dövlət üçün dilin nə qədər vacib olduğunu bizlərə çatdırmaqdır. Onun gözəl nitq qabiliyyəti möhtəşəm natiqliyi, düzgün və yerində sözlərdən istifadə bacarığı məni həmişə məftun etmişdir. Belə natiqləri barmaqla saymaq olar. Heydər Əliyev belə bir şəxsiyyət idi. Xalqımız onunla fəxr edir. Heydər Əliyev bütün ömrünü xalqına həsr etmiş bir şəxsdir. Onun məqsədi xalqımızın rifahı və xoşbəxtliyi idi. Müstəqilliyimizin ilk illərində Azərbaycanın necə iqtisadi problemlərlə üz-üzə qaldığı,



yəqin ki, hamımızın yadındadır. Düzdür, mən həmin dövr barədə tarix kitablarından oxumuşam, ata-anamın, babamın dediklərinə qulaq asmışam və bütün bunlardan sonra belə bir qərara gəlmişəm: məhz Heydər Əliyevin sayəsində Azərbaycan iqtisadiyyatı inkişaf edib. Əgər Azərbaycan iqtisadiyyatı hazırda inkişaf etmiş şəkildədirsə, bunun tək səbəbkarı məhz Heydər Əliyevdir.

Azərbaycan coğrafi cəhətdən kiçik bir dövlətdir, lakin bu, Ulu Öndərin sayəsindədir ki, biz hazırda beynəlxalq miqyasda tanınırıq. Məhz onun sayəsində biz özümüzü təsdiqləmiş bir dövlətik və dünya ölkələri arasında tanınırıq. O, Azərbaycan iqtisadiyyatının və maliyyə sisteminin qurucusudur. «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycan öz maddi ehtiyatlarına sahibliyini irəli sürmüş oldu. Azərbaycan neftinin əsl sahibi müəyyən olundu. Uzun müddət sovetin təzyiqi altında olan Azərbaycan və Azərbaycan xalqı üçün bu, çox əhəmiyyətli idi. Belə bir əhəmiyyətli və vacib bir addım atmış olan Heydər Əliyevin sayəsində artıq Azərbaycanın beynəlxalq məsələlərdə rolu artmışdır. Bütün siyasətçilər Heydər Əliyevin mükəmməl siyasətçi olduğunu qəbul edir, onun ünvanına xoş sözlər söyləyirlər. Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti Corc Buş Heydər Əliyev haqqında demişdir: «Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirmişdir».

Onun Azərbaycana saysız-hesabsız yaxşılığı dəymişdir. Onun bizə miras qoyduğu bu müqəddəs torpağı biz fəxrlə qorumalıyıq. Xüsusilə də, biz gənclər. Biz bu torpaqların qeydinə qalmalıyıq və onu inkişaf etdirmək üçün əlimizdən gələni etməliyik. Xalqımız bu dahi insanla fəxr edir və şaddır ki, bu şəxsiyyət məhz Azərbaycanda doğulmuşdur. Biz sənin qarşında baş əyirik, Ulu Öndər!

Heydər Əliyev kimi şəxsiyyətlər bu dünyaya nadir hallarda gəlirlər. Nə bəxtəvərik ki, o, burada dünyaya gəlmişdir. O, bir günəş kimi Azərbaycanın möhtəşəm təbiətə malik digr bir guşəsində, Naxçıvanda dünyaya gəldi. Və bütün həyatı boyu Azərbaycanın başında bir günəş oldu. Qoy bu parlaq günəş gənclərimizin yolunu işıqlandırmağa davam etsin.

Heydər Əliyev Azərbaycanı biz gənclərə tapşırıb. Onun yaratdığı Yeni Azərbaycan Partiyasının üzvləri onun qoyub getdiyi mirasın qeydinə qalırlar. Mənim arzumdur ki, bir gün mən də onların sıralarına qoşulum.

«Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq, əbədi etmək dəfələrlə daha çətindir», – deyən Ümummilli Liderimiz sanki bizə nəsihət verir. Lakin Azərbaycan əmin əllərdədir. Cənab İlham Əliyev sənin bizə qoyduğun mirası layiqincə idarə edir, sənin siyasətini davam etdirir. Azərbaycan əvvəlkindən daha parlaqdır, daha yüksəklərdədir. Gözün arxada qalmasın Heydər baba, Azərbaycan gündən-günə güclənir və layiq olduğu yerə

çatır. Gənclərimiz də İlham Əliyevin ətrafında sıx birləşir, Azərbaycanı daha yüksəklərdə görmək istəyir. Biz, bütün gənclər bu vətənpərvərliyi səndən öyrəndik. Bizə torpağı, Vətəni sevməyi sən öyrətdin. Sən bizə sevdirdin bu Ana Vətəni, Ana torpağı. Və buna görə sənə təşəkkür edirik, çünki bu Vətən həqiqətən də layiqdir bu məhəbbətə, bu sevgiyə.

İlham Əliyev Azərbaycanı layiq olduğu səviyyəyə aparır və bu yolda tək deyildir. Mehriban Əliyeva etdiyi xeyriyəçilik işləri ilə nə qədər işlər görüb, sayı-hesabı yoxdur. Onlar sənin siyasətini yeridirlər, sənin arzunu gerçəkləşdirirlər Ulu Öndərim!

Heydər Əliyev Fondu Azərbaycan əhalisinin rifahı üçün mövcuddur və təhsilə, səhiyyəyə – bütün əhaliyə təsiri göz qabağındadır. Azərbaycan əmin əllərdədir.

Biz bunu sənsiz bacarmazdıq. Sən olmasaydın, Azərbaycanın vəziyyətini düşünmək belə istəmirəm. Sən oldun Azərbaycanı işıqlı günə çıxaran. Biz bunun üçün sənə borcluyuq. Mən sənin Azərbaycan üçün etdiyin hər şeylə fəxr edirəm və istərdim ki, məndən sonrakı nəsil də səni tanısın, səninlə fəxr etsin. Mən söz verirəm ki, gələcəkdə öz uşaqlarıma səndən danışacağam və yaşadıqları bu müstəqil ölkənin banisinin sənin olduğunu deyəcəyəm. Mən sənin ruhuna həmişə dua edəcəyəm. Dünyada baş verən müharibələrə, münaqişələrə şahid olduqca sənin yaratdığın bu müstəqil, firavan dövlətə parlaq gələcək arzulayacağam. Sənin yolunla irəliləyərək biz gənclər Azərbaycanı yaşadacağıq! Hər uğuru əldə etdikdə, sənin adını anacaq, «Azərbaycan» deyəcəyik. Ürəyimiz sonsuz məhəbbət hissi ilə dolacaq və sevinəcəyik ki, Tanrı səni bizə bəxş etdi. Tanrıya təşəkkür edirəm ki, natiqlik vergisi ilə, vətən sevgisi ilə doğulmuş səni bizə bəxş etdi. Sənə də təşəkkür edirəm ki, mənə bu cənnət əvəzi torpağı verdin, qoymadın bu torpaq düşmən tapdağı altına keçsin!

Bu gün, burada, Zərifə Əliyeva adına məktəbdə yığışmağımızın əbəs olmadığını bilirəm. Heç Heydər Əliyevi Zərifə Əliyeva olmadan anmaq olarmı? Bütün nailiyyətlərində səninlə birlikdə olan bu müqəddəs qadın bütün Azərbaycan əhalisinə ana əvəzi idi. Mən bilirəm ki, siz bizimləsiniz və o şəfqətli əllərinizi üstümüzdən çəkmirsiniz. Mən bilirəm ki, siz heç bir zaman qanadlarınızı üstümüzdən çəkmirsiniz. Mən bilirəm ki, Azərbaycan da sizi unutmur. Mən arzu edirəm ki, sizin ucalığınızı heç kəs unutmasın. Mən arzu edirəm bu gün mən hisslərimi tam ifadə edə bilim. Hər kəsə sənin necə bir dahi şəxs olduğunu göstərim. Əminəm ki, Azərbaycan sənin kimi oğul, biz də sənin kimi bir baba görməmişik. Bilirəm ki, bunu hər kəs bilir. Sözümüzü yerdə qoymayacağıq, Azərbaycan bayrağını dünyanın hər küncündə dalğalandıracağıq, dünyaya sənin yaratdığın Müstəqil Azərbaycanı göstərəcəyik!





## *Köçərli Nərmin Murad qızı*

***Bakı şəhəri, Ə.Abbasov adına 257 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

«Azərbaycan xalqı xoşbəxt bir xalqdır, ona görə ki, onun Heydər Əliyev kimi bir lideri olmuşdur». Artıq bu ifadə təkcə Azərbaycan vətəndaşlarının deyil, eləcə də dünya xalqlarının səlahiyyətli nümayəndələrinin dilindən dəfələrlə eşidilib. Sözügedən mövzuda bir neçə dəfə müzakirələr, diskussiyalar aparılmasına baxmayaraq, bu dahi şəxsiyyət haqqında olan fikir və düşüncələr hələ də mövcuddur və həmin fikirlər öz orijinallığı və konstruktivliyi ilə seçilirlər.

Heydər Əliyevin faktiki olaraq Azərbaycanın siyasi-tarixində mühüm bir mövqe sahibi olduğu ərəfələr, həqiqətən də, Azərbaycan üçün çox gərgin ərəfələr idi. Hansı ki Ümummilli liderin Azərbaycanda idarəçiliyə başladığı dövrlərdə, Azərbaycan Cənubi Qafqazın siyasi xəritəsindən tamamilə silinmək üzrə idi. Artıq Azərbaycan adlı bir dövlətdən bəhs etmək çox müşkül bir məşğələyə çevrilmişdir.

Sərt tarixi həqiqətlər belə idi:

Heydər Əliyevin Azərbaycan idarəçiliyində olduğu birinci dövrlə ikinci dövr arasında Azərbaycan «olum ya ölüm» seçimi ilə üz-üzə dayanmışdı. Azərbaycanın gələcək tarixi böyük bir sual altında idi. Onun idarəçiliyi, ən çətin vəziyyətlərdə çıxış yolunu qaçmaqda görən, ən adi bir idarəetmə forması haqqında heç bir anlayışı olmayan, rütbə, vəzifə üçün öz xalqını, millətini hər an satmağa hazır olan «rəhbərlərin» əllərində cəmlənmişdi. Yüksək vəzifələr üçün öz xalqını yarı yolda qoymaq, satqınlıq, xalqının yox, yalnız özünün mənafelərini güdmə halları artıq adi bir vəziyyətə çevrilmişdi. Məhz həmin dövrlərdə Azərbaycanın, əliyalın xalqın yeganə silahı Heydər Əliyev idi. Əgər Heydər Əliyev xalqın təkidi ilə hakimiyyət başına keçməsəydi, bəlkə də, bu gün Azərbaycan adlı bir dövlətdən bəhs etmək qeyri-mümkün bir hala çevrilərdi. Bəlkə də, onun uzaqgörən siyasəti, ən

çıxılmaz vəziyyətlərdə düzgün çıxış yolu tapa bilmək qabiliyyəti, dəqiq və qərəzsiz fikirlər söyləməsi Allah tərəfindən ona verilmiş bir vergi idi. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan bu gün bir çox dünya dövlətləri arasında xüsusi mövqeyə malik, öz sözünü çəkinmədən və səlis bir şəkildə söyləyən müstəqil bir dövlətdir.

Heydər Əliyevin hakimiyyətə gəldiyi ərəfələr artıq Azərbaycanın uçurum kənarında olduğu ərəfələr idi. Dahi Heydər Əliyev idarəetməyə rəhbərlik etdiyi vaxtdan etibarən, Azərbaycan öz dağılma dövrünü başa vurmuş, çiçəklənmə və tərəqqi mərhələsinə qədəm qoymuşdu. Bəhs edilən dövrləri Ulu Öndərimiz belə xatırlayır: «Eşitdim ki, Azərbaycan dağılma mərhələsindədir. Azərbaycanın inkişafı üçün xeyli işlər görmüş, onun bir mövqeyə malik olması üçün özünəməxsus çıxış yollarına əl atmış bir şəxsiyyət kimi, onun bu mərhələlərini uğurla geridə qoyması üçün, artıq idarəetmənin başına keçməyin zəruriliyini hiss etdim». Bu, həqiqətən də, belə idi. Heydər Əliyevin hakimiyyətə gəlməsi təkcə xalqın firavanlıq içində yaşaması, dövlətimizin gələcək uğurlarının təminatı demək deyildi. Onun idarəetmənin başına keçməsi, eləcə də Azərbaycanın inkişafına yönəlmiş addımları gözü götürməyən bədxahların çirkin istəklərinin gözlərində qalması demək idi.

Azərbaycanın «gələcək inkişafı» haqda olan, hər nə yolla olarsa olsun, onu Cənubi Qafqazın xəritəsindən tamamilə söküb atmaq istəyi ilə yaşayan qoluzorlu insanların bütün istəkləri Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə suya düşmüşdü. Azərbaycanı gözügötürməyən şəxslər belə terrorların, qiyamların əbəs yerə olduğunu dərk etməyə başlamışdılar. Artıq hər kəs anlayırdı ki, hakimiyyətdə ulu öndər Heydər Əliyev olduğu halda, heç bir qüvvə Heydər Əliyev iradəsinin, siyasətinin, uzaqgörən düşüncəsinin və əzminin qarşısında tab gətirə bilməz! Bütün bunların nəticəsində Heydər Əliyevin siyasi idarəçiliyə başladığı tarix – 1969-cu ilin 14 iyulu hər kəsin yaddaşına əbədi həkk olunub.

Elmi konfransların birində Heydər Əliyevin söylədiyi fraza kiçikdən tutmuş böyüyə kimi bütün insanların diqqətinə səbəb olmuş, bu gün də Azərbaycanın bir çox siyasi xadimləri, ziyalıları öz çıxışlarını Ümummilli Liderin həmin fikri ilə tamamlayırlar. «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!». Mən də fəxr edirəm, ona görə ki, mənim yaşadığım dövlət indi də Heydər Əliyev işığı altındadır. Ona görə fəxr edirəm ki, Heydər Əliyev kimi böyük bir siyasi xadimin, şəxsiyyətinin əbədi irsini qoruyub saxlamaq, bizdən sonrakı nəsillərə əmanət etmək kimi şərəfli bir borcum var. Bu borcu layiqincə yerinə yetirmək təkcə mənim deyil, bu dövlətdə yaşayan, bu torpağın havasını udub çörəyini yeyən,



suyunu içən, sülh və əminamanlıq içərisində yaşayan hər bir azəri övladının həm borcudur.

Azərbaycan xalqı, həqiqətən də, xoşbəxt bir xalqdır, ona görə ki, Allah bu xalqa Peyğəmbər əfəndimizin (s.a.s.) yolunun yolçusu olan bir şəxsiyyət əta etmişdir. Məhz bütün bunlar mənim azərbaycanlı olmağımla fəxr etməyimə səbəbdir.

Heydər Əliyev hakimiyyət başına keçdiyi ilk vaxtlardan etibarən Azərbaycanın möhkəm təməlinə yönəlmiş bir çox addımlar atmağa başladi: məktəblər tikdirdi, evlər, binalar inşa etdirdi, həmin dövrdə öz savadı, düşüncəsi, zəkası və biliyi ilə seçilən xüsusi seçmə gəncləri Azərbaycan hüdud-larından çıxarıb xaricdə təhsil almaları üçün şərait yaratdı. Hazırda həmin gənclərdən birinin övladı olaraq tam qətiyyətlə deyə bilərəm ki, ümummilli liderimiz Heydər Əliyev təkcə Azərbaycanın siyasi inkişafının deyil, eləcə də mədəni və iqtisadi inkişafın təməlini qoymuşdur.

Ümumilikdə isə bütün bunlar vaxtilə Heydər Əliyevin qoyduğu möhkəm təməlin bəhrələridir ki, Azərbaycanın əsl Azərbaycan kimi formalaşmasına yardım edən amillər sırasına daxildir. Böyük siyasi xadim, mütəfəkkir, öndəgedən ziyalılar sırasına daxil olmasam da, Azərbaycan vətəndaşı olaraq mən də fikrimi ümummilli lider Heydər Əliyevin fikri ilə tamamlamaq istərəm: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»



## Qədirova Səbinə Cavanşir qızı

**Bakı şəhəri, 132–134 nömrəli Təhsil Kompleksinin X sinif şagirdi**

Каждый из нас о чем-то мечтает. О беззаботной нации, о хорошей семье, о необитаемом острове… Многие люди довольствуются этим. А я мечтаю стать достойным для своего народа человеком, каким и был наш общенародный лидер Гейдар Алиев.

Человек с Большой буквы . Если бы не его дальновидная политика нас бы сейчас не было в живых или же мы были бы под покровительством какой-то страны. Он вновь поднял Азербайджан и поставил на ноги. Он дал понять своему народу, что если мы объединимся, нас никто не может сокрушить. И самое главное он получил доверие своего народа, при любом его призыве народ был готов пойти за ним. Даже тогда, когда Гейдар Алиев был во главе Нахчыванской ССР, многие известные люди Азербайджана пошли за ним и просили его встать во главе Азербайджана.

И это В 1993 году Гейдар Алиев стал Президентом уже независимой Азербайджанской Республики. Это было началом светлого будущего нашего народа.

Прошло два года, Азербайджанская Республика процветала. Но у нас все еще не было самого главного – Конституции. И Гейдар Алиев сам стоял во главе той группы, которая составляла Конституцию АР. И вот 12 ноября 1995 года были проведены первые парламентские выборы и была утверждена первая Конституция АР. С того дня 12 ноября официально отмечается как день Конституции.

Начало развития промышленности в Азербайджане тоже поставил Гейдар Алиев. Гейдар Алиев был не только дальновидным политиком, он также был образцовым отцом. Он вырастил и обучил двух прекрасных людей. Политику Гейдара Алиева в настоящее время продолжает его сын – Ильхам Алиев. В результате его политики, Азербайджан процветает изо дня в день, все больше и больше.



Гейдар Алиев всегда был и будет ярким примером для подражания нашей молодежи. Для меня он настоящий герой, который был готов отдать жизнь за свою Родину. Меня всегда воодушевляли такие люди. Мой отец всегда растил во мне истинного патриота и всегда моим примером для подражания был Гейдар Алиев. Сколько любви к Родине скопилось в одном человеке! Он был подарком от Бога нашей стране, нашему народу! Его политика, дипломатия покорили весь мир. Каждый человек в мире знает Гейдара Алиева – спасителя Азербайджанского народа. При слове «Азербайджан» у каждого человека в голове появляется только одно имя – Гейдар Алиев.

Его слова, которые всегда меня вдохновляют, когда я приступаю к какой-то работе, какому-то проекту: «Mən həmişə fəxr etmişəm və həmişə fəxr edəcəyəm ki, mən Azərbaycanlıyam!» – они делают меня еще сильнее и я добиваюсь своей цели.

И все это мое сочинение вдохновило меня написать несколько строк Общенациональном Лидере Азербайджанского народа:

*Под прицелом врага была прекрасная*
*страна…*
*И он пришел… дал извергам урок…*
*Он не писатель, не пророк…*
*Он просто истинный воятель,*
*Который свою страну на ноги*
*поставить смог…*
*Гейдар Алиев – сила, не было для*
*него преграды*
*Гейдар Алиев – Азербайджану*
*от Бога награда!*

Этот стих появился у меня в голове, как только я написала это сочинение, наверное это от моего безграничного уважения к этому человеку, настоящему человеку, который многого добился для своего Отечества…



## *İbrahimova Aynişan Asif qızı*

*Tovuz rayonu, Z.Yusifov adına*
*Bayramlı kənd tam orta məktəbinin*
*X sinif şagirdi*

Deyirlər, Ulu Tanrı bəşər övladını düşdüyü çətinlikdən, üzləşdiyi bəladan onu xilas etmək üçün hər əsrdə ona bir dahi şəxs bəxş edir. Bu baxımdan Azərbaycan xalqı Tanrıya daha yaxın olan xalqdır. Allahın bu millətə bəxş etdiyi belə bir dahi Heydər Əlirza oğlu Əliyevdir.

Azərbaycan xalqının tarixində görkəmli dövlət və siyasət xadimləri çox olmuşdur. Belə tarixi şəxsiyyətlət içərisində Azərbaycan Respubliaksının ulu öndəri Heydər Əliyevin xüsusi rolu var. Çünki dövlət xadimlərindən ancaq bu şəxs milli liderlik səviyyəsinə yüksəlmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi nadir rast gəlinən haldır.

Ulu Öndər bu iki keyfiyyəti özündə birləşdirməklə bərabər fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi tanıtmışdır.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalq məhəbbətini qazanan öndər kimi qalmıdır.

Bu dahi şəxs dünya siyasətinə təsir edirdi. Böyük dövlətlərin rəhbərləri onun ağılı, zəkası ilə hesablaşırdılar.

Bu da bir həqiqətdir ki, dünyada tanınan, sevilən, şəxsiyyətinə və dövlətçilik fəaliyyətinə hörmətlə yanaşılan Heydər Əliyev haqqında söz demək o qədər də asan deyil.

Dahilər həmişə zaman anlayışının hüdudlarından kənarda dayanırlar. Yəqin ona görədir ki, hər şeyi zaman yerbəyer etdiyi halda dahilər vaxtı qabaqlaya bilirlər. Ömürlərini xalq, Vətən yolunda şam kimi əritməkdən yorulmurlar. Onlar dünyaya sanki xüsusi missiya ilə gəlirlər və bu missiyanı yerinə yetirmədən həyat səhnəsini tərk etmirlər.



Dünyanın belə seçilmişləri, nəhəngləri Atatürk, Corc Vaşinqton, Nehru, De Qol... olub. Ulu Öndərimiz bu sırada özünə layiqli yer tutub. Dünya siyasətində, dövlətçilik fəaliyyətində adını tarixə qızıl hərflərlə yazdıran dühalardan Heydər Əliyev sonuncudur.

Heydər Əliyev hələ 1993-cü il 15 iyunda Milli Məclisin tarixi iclasında ölkə Parlamentinin sədri seçilərkən demişdir:

«Azərbaycan xalqının bugünkü ağır, gərgin və mürəkkəb vəziyyəti mənə məlumdur. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasına xidmət edəcəm. Azərbaycan xalqı bundan sonra heç bir dövlətin əsarəti altına düşməyəcək, heç bir dövlətin tabeliyində olmayacaqdır».

Həmin sözlər deyilərkən ölkəmiz ən ağır günlərini yaşayırdı. Azadlığımız, qanımız bahasına əldə etdiyimiz müstəqillik təhlükə altında idi. Xalqın təkidi ilə Heydər Əliyevin Bakıya dəvəti yaranmış çətin vəziyyətdən çıxışa yol açdı, əllərdə oyuncağa çevrilmiş silahlar yığıldı. Ən əvvəl qardaş qırğınının qarşısı alındı. Cinayətkarlar məsuliyyətə cəlb olundu. Hüquqi dövlətin əsası qoyuldu. Bəli, həmin vaxtdan etibarən Azərbaycan Respublikası müstəqil bir dövlət kimi formalaşmağa və inkişaf etməyə başladı. Heydər Əliyev böyük siyasətçi idi. Onun siyasətinin ana xəttində azərbaycançılıq dururdu. O, xalqını dərin məhəbbətlə sevən bir azərbaycanlı idi. İnsan Heydər Əliyev üçün ən ali varlıq idi. Hələ Sovet imperiyasının dövründə belə Heydər Əliyev hər şeyin insanlara xidmət etməsinə çalışırdı. O, insanların dərdini öz dərdi hesab edirdi. Bununla da o, milli ayrı-seçkiliyə yol vermirdi.

Bu gün bu rahat şəkildə yaşadığımız, təhsil və tərbiyə aldığımız torpaq-Azərbaycan torpağı bizə babalarımızın, Heydər Əliyevin mirası, əmanətidir. Bu əmanətin daşıyıcısı, rəhbəri Azərbaycan Respubliaksının Ali baş komandanı, Prezidentimiz İlham Əliyev, sakinləri isə bizik. Biz gənclər bu əmanəti layiqincə daşımalı, onun inkişaf etməsi üçün əlimizdən gələni etməliyik. Heydər Əliyevi ən çox düşündürən, narahat edən digər bir problem gənclərin problemi, düşüncəsi, həyata baxış tərzi idi. O, həmişə öz çıxışlarında gəncləri doğru yola səsləyirdi.

O, öz çıxışlarının birində gənclərə müraciət edərək belə demişdir: «Əziz gənclər! XXI əsr sizin əsriniz, sizin dövrünüz olacaqdır. Siz və sizin kimi Azərbaycan gəncləri, yeniyetmələri, yüksək təhsilli insanlarlı həmin əsrdə müstəqil, azad respublikamızı yaşadacaqsınız, inkişaf etdirəcəksiniz».

Bu deyilənlərin hamısı bizim əlimizdədir. Biz ölkəmizi inkişaf etmiş, önə çıxan dövlətlərdən etmək üçün yüksək təhsil və tərbiyə almalıyıq. Heydər

Əliyevin dediyi də məhz bu idi. İllər keçdikcə biz Heydər Əliyev böyüklüyünü, onun xalqı üçün nələt etdiyini daha çox anlayacağıq.

Sevindirici haldır ki, bu gün ulu öndərimiz Heydər Əliyevin qoyub getdiyi siyasi irs uğurla davam etdirilir. Xalqımız Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşmişdir. Heydər Əliyevin dövründən başlayaraq Azərbaycanda gənclərə xüsusi diqqət ayrılmağa başladı. Əgər bu gün bu salonda, bu mövzuda inşa yazırıqsa, əlbəttə ki, bu, gənclərə göstərilən xüsusi qayğının əlamətidir. Beəliklə, gənclər öz bacarıqlarını üzə çıxarmaq üçün fürsət tapırlar. Bu fürsəti bizə verən təşkilatçılara öz təşəkkürlərimizi bildiririk.

Mən bu gün özümü xoşbəxt sayıram. Ona görə ki, ümumilli liderimiz Heydər Əliyevin oğlu cənab İlham Əliyevin prezident olduğu bir ölkədə yaşayıram. Ona görə ki, bütün xalqımız kimi mən də ona inanıram, inanıram ki, xalqımız onun sayəsində yüksək inkişaf səviyyəsinə qalxaraq daha böyük uğurlar əldə edəcək.

Bu il dünyada ilk dəfə keçiriləcək Avropa oyunlarına Azərbaycan ev sahibliyi edir. Bu, Azərbaycanda olan yüksək inkişafın və qonaqpərvərliyin əlamətidir.

İki il idi ki, Bakıya gəlmirdim. İnşa müsabiqəsi üçün Bakıya gəldiyim zaman şəhərimizə heyran oldum. Bu inkişaf təkcə şəhərlərdə deyil, eyni zamanda, ətraf rayonlarda da mövcuddur. Bütün bunlar prezidentimiz İlham Əliyevin siyasəti və ulu öndərimiz Heydər Əliyevin qoyub getdiyi taktikanın düzgün yerinə yetirməsi sayəsində mümkün olmuşdur.

Hər kəs dünyaya gəlir, yaxşı və ya pis ömür sürür və sonra dünyanı tərk edir. Amma bir də var ki, ölümsüzlüyə qovuşmaq. O, hər kəsə nəsib olmur. Ulu öndərimiz Heydər Əliyev də belələrindəndir. Necə ki, dünyada Azərbaycan deyilən bir xalq var, yaşayır Heydər Əliyev də yaşayacaq. Heydər Əliyev adını tarixə qızıl hərflərlə həkk etdi. Böyük şəxsiyyətlər Heydər Əliyev haqqında fikir söyləyən zaman E.Şevardnadze belə deyib: «XXI əsr liderlər əsridir. Əsrin lideri Heydər Əliyevdir».

Heydər Əliyev təkcə Leylanın, Arzunun, Heydərin deyil, bütün Azərbaycan gənclərinin – bizim babamızdır. Mən Heydər babamın ruhu qarşısında baş əyir, Allahdan ona rəhmət diləyirəm.

Heydər Əliyev kimi bir dahi Azərbaycan xalqının qazandığı ən böyük uğur, əldə etdiyi ən böyük nailiyyətdir.

Dönüb XX əsr tarixini vərəqləsək, Heydər Əliyevin öz xalqı üçün nələr etdiyini daha yaxşı başa düşərik. O dövrdə geridə qalmış aqrar ölkə kimi tanınan Azərbaycanı qısa zaman kəsiyində inkişaf etmiş, qabaqcıllar sırasına daxil etmək heç də asan iş deyil. Bunun üçün böyük zəka və tükənməz enerji sərf etmək lazım gəlirdi. Bunu da Heydər Əliyev etdi.





## Maqsudova Aytac Gündüz qızı

**Qobustan rayonu, Q.Ələkbərov adına Çuxanlı kənd tam orta məktəbinin IX sinif şagirdi**

*O ölməmiş...*
*Ölə bilməz vətən üçün,*
*Millət üçün dağılanlar,*
*Arzusuyla, əməliylə, zəkasıyla*
*Vətənini ucaldanlar,*
*Millətinin gözlərinə nur olanlar*
*Ölə bilməz həyatını, varlığını*
*Öz xalqına bəxş edən kəs.*
*Millətinin arzusuyla,*
*Sevincini, kədərini,*
*Ürəyində göyərdən kəs, böyüdən kəs.*

Bəli, o da adi vətəndaşlar kimi doğuldu, böyüdü, amma hamıdan fərqli olaraq özü və ailəsi üçün deyil, vətəni üçün, ölkəsində yaşayan milyonlarla insanların problemli həyatını yaşamaq üçün, ömrünü şam kimi canından çox sevdiyi yurddaşlarının ömrünün içində qətrə-qətrə əritmək üçün bu işıqlı dünyada ömür sürdü, yaşadı, yaratdı.

Bəli, yaratdı, özü böyük, müstəqil, hər yana səs-səda salan bugünkü suveren Azərbaycanımızı, vaxtilə memar olmaq istəyən Heydər Əliyevin şah əsəri Azərbaycanımızı. Heydər Əliyev işlədiyi müddətdə daim Azərbaycanı tanıtmaq üçün çalışdı və buna dərin savadı, zəngin təcrübəsi və uzaqgörən siyasəti nəticəsində nail oldu.

Onu tanıyan, qüdrətini dərk edən məşhur insanlar, dünya siyasətçiləri, dövlət başçıları Heydər Əliyev haqqında öz fikirlərini söyləmişlər:

«O heyrətamiz insan, ağıllı, bacarıqlı, dəqiq rəhbər, əsl siyasətçi liderdir. Azərbaycanın bəxti gətirmişdir ki, dövlətinin başında Avropa və dünya

miqyasında tanınan bir siyasətçi dururdu!» Bu fikir Rusiya prezidenti Vladimir Putinə məxsusdur.

Aşağıdakı fəxr doğuracaq sözləri isə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Heydər Əliyev haqqında demişdir:

«Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan, sevilən lider idi. «Bir millət, iki dövlət» ifadəsi ona məxsusdur. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz bir millət olduğumuzu qoruyacaq, bütün dünyaya sübut edəcəyik». Heydər Əliyev üçün anası qədər sevdiyi doğma vətən məhəbbətindən müqəddəs heç nə yox idi. O, Azərbaycanın hər qarışını tanıyır və hər bir bölgənin təbii şəraiti, əhalisinin məşğuliyyəti haqqında hər bir şeyi bilirdi.

Hakimiyyətə gəldiyi ilk gündən Ulu Öndərimiz Ermənistan tərəfindən zorla zəbt olunmuş torpaqlarımızın geri qaytarılması, köçkünlərimizin doğma yurdlarına qayıtması üçün əlindən gələni əsirgəmədi. Məhz, Ümummilli Liderimizin gərgin səyi və zəhməti nəticəsində cəbhədə atəşkəs elan olundu, dünya dövlətləri Ermənistanı işğalçı dövlət kimi tanıdı.

Ümummilli liderimiz uzun illər bərbad edilmiş, dağıdılmış Azərbaycanı yenidən bugünkü vəziyyətinə gətirmək üçün «Nədən başlamalı?» fikri ilə çox tez bir zamanda qəti bir qərar verdi. «Neft strategiyası» adlı iqtisadi siyasəti həyata keçirməyə başladı. İti ağlını, güclü diplomatiyasını işə saldı və qısa zaman kəsiyində aparılan danışıqlar nəticəsində xarici şirkətlərdə ölkənin neft sektoruna maraq artdı. 1994-cü il 20 sentyabrda «Əsrin müqaviləsi» adlı neft kontraktı imzalandı. Bakı–Tblisi–Ceyhan neft kəməri çəkildi. Ötən müddət ərzində Xəzərin Azərbaycan sektorundakı neft-qaz yataqlarının istismarı üçün irimiqyaslı müqavilə imzalandı. Məhz ümummilli liderimiz Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət nəticəsində bu gün Azərbaycan iqtisadiyyatında analoqu olmayan iqtisadi artım müşahidə olunur. Neftdən gələn pullar hesabına ölkənin qeyri-neft sahələri də dirçəldilmiş və iqtisadiyyatda xüsusi çəki qazanmışdır. Ölkə daxilində yaradılmış əlverişli biznes mühiti iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına təkan verdi.

Heydər Əliyevin şəxsiyyəti hələ axıradək öyrənilməmişdir. Məncə, onun min insanın bir ömür boyu edə bilmədiklərini etməsi dahi öndərimizi hamı üçün sirli-sehirli bir dünyaya çevirir. Ən çətin və çıxılmaz vəziyyətlərdə belə çıxış yolu tapması Tanrının ona bəxş etdiyi vergi idi.

Bu gün sağlam düşüncəli hər bir Azərbaycan övladı bilir ki, Heydər Əliyevin bizə miras qoyduğu yol ilə getsə, bu xalqı xoşbəxt edər və tərəqqisini gücləndirər. Bu amal-müstəqil Azərbaycanı inkişaf etdirmək məqsədi ilə



hər bir azərbaycanlı bir yumruq kimi görkəmli ictimai, siyasi və dövlət xadimi olan Heydər Əliyevin yoluna, ideyalarına, siyasətinə sadiq olacağını qəti şəkildə bəyan edən hörmətli Prezidentimiz İlham Əliyevin ətrafında bir yumruq kimi birləşməlidir.

İlham Əliyev bünövrəsi ümummilli liderimiz tərəfindən qoyulan siyasəti davam və inkişaf etdirmək məqsədilə, onu daha genişləndirilmiş şəkildə həyata keçirir. Ölkə vətəndaşlarının maddi durumu, sosial rifahı günbəgün yaxşılaşır, dövlətimiz inkişaf edir, yeni-yeni uğurlar əldə olunur.

Bu gün doğma Azərbaycanımızın gələcəyi biz gənclərin əlindədir. Vətənimizin çiçəklənməsi, həyat şəraitimizin daha da yaxşılaşması üçün hər birimiz Azərbaycanı Heydər Əliyev qədər sevməyə çalışmalıyıq.

Mən inşamı Heydər Əliyevin aşağıdakı sözləri ilə bitirmək istəyirəm:

«Mənim xalqım – Azərbaycan xalqı indi azaddır. İndi müstəqil Azərbaycan var, heç kəsdən asılı olmayan, azad yaşayan bir dövlət vardır... Xalqımız bu müstəqillik yolunda daha böyük nailiyyətlər əldə edəcəkdir. Çünki azad xalq həmişə öz imkanlarından səmərəli istifadə edə bilir...

Bütün çətinliklərin hamısı keçib gedəcəkdir, Azərbaycan bir müstəqil dövlət kimi yenidən möhkəmlənəcəkdir. Azərbaycanın güclənən iqtisadiyyatı göz qabağındadır. Azərbaycanda demokratiya qələbə çalacaqdır. Azərbaycan demokratik hüquqi dövlət kimi dünya birliyində həmişə yaşayacaqdır».



## *Məlikzadə Aysel Akif qızı*

***Göygöl rayonu, C.Nazarov adına Balçılı kənd 1 nömrəli tam orta məktəbin X sinif şagirdi***

*«Həyatın mənası az və yaxud çox yaşamaqdan ibarət deyil, həyatın əsl mənası bu həyatda öz yerini dəyişmək, mövqeyini müəyyən etmək, layaqət göstərmək və başqaları üçün nümunə olmaqdır».*

**Heydər Əliyev**

Bu dahi insan haqqında ürək sözlərimi yazmaq mənim üçün dəyərli və eyni zamanda, məsuliyyətlidir.

Dahi öndər, böyük rəhbər, qəlbimdə yaşayan şəxs, uşaqların babası, böyük elin atası Heydər Əliyevdən yazmaq yeni dünyadan, işıqlı Azərbaycandan yazmaq deməkdir. Azərbaycan adlı dünyanı quran mərd, mübariz, dərin biliyə malik olan rəhbərdən ömrüm boyu yazsam da, yorulmaram. Ümummilli liderin ömür yolu ucu-bucağı görünməyən bir ümmana bənzəyir. Mən bu ümmandan ancaq bir damla götürə bilərəm.

Heydər baba ilə ilk tanışlığım uşaq yaşlarımdan ailəmizdən başlayıb. Sonralar böyüdükcə onun zəngin həyat yolu, dövlətçilik fəaliyyəti haqqında daha çox məlumatlar əldə etdim və sevgim böyüdü, böyüdü ruhuma və qəlbimin dərinliklərinə çökdü.

Əzəməti, vüqarı, dəyanəti, dözümü və möhkəmliyi ilə Azərbaycanı dünyaya tanıdan, vətənimiz haqqında bütün dünyaya yalnız müsbət fikirlər aşılayan xalqımızın böyük oğlu 80 illik ömrü ərzində isti qucağının hənirtisinin böyüdüyü Anası ilə Ana vətəni Azərbaycanı eyni sevgi ilə sevdi, əzizlədi və ucaltdı.



Heydər baba xalqı üçün vüqarlı dağ, şəfa verən bulaq oldu.

1923-cü il mayın 10-u Naxçıvandan doğan Günəş bütün Azərbaycanı işıqlandırdı. İsti şəfəqləri ilə vətəninə işıq saçdı. Tanrı Heydər babanı Azərbaycan üçün elçi göndərdi. Bu elçi ömrünü doğma xalqı üçün, yurdunun inkişafı yolunda sərf etdi. Ona görə də Heydər Əliyev adı XX əsr Azərbaycan dövlətçiliyində əzəmətlə həkk olundu. Bu şəxsiyyət canı-qanı bahasına müstəqillik qazanmış Azərbaycanın xilaskarı oldu.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan siyasi rəhbərliyinə gəlişi Azərbaycanda dövlətçiliyin inkişafında yeni bir mərhələ olmuşdur. Onun gərgin və səbirli əməyinin nəticəsi olaraq 1970-ci ildən vətənimiz göz önündə ildən-ilə həm mədəni, həm də iqtisadi cəhətdən dəyişməyə başladı.

Ulu öndərin xalqımıza qarşı ən böyük, ən dəyərli xidmətlərindən biri də Azərbaycan dilinə olan sevgisi və qayğısı idi. Onun 60-cı illərin sonu, 70-ci illərin əvvəlindən başlayaraq, bu günə qədər dilimizin inkişafı və yüksəlişi uğrunda apardığı mübarizə Azərbaycanşünaslığa qiymətli töhfədir. «Öz ana dilini bilməmək, onu qiymətləndirməmək, əlbəttə ki, xalqın qarşısında böyük qəbahətdir». Bu fikir Heydər Əliyevə məxsusdur. O, ana dilimizi qorudu, fəaliyyət dövrəsini genişləndirdi və inkişafına xüsusi diqqət yetirdi.

1993-cü ildə xalqın böyük və yüksək inamı ilə Heydər Əliyev yenidən Azərbaycan Respublikasının prezidenti seçildi. Bundan sonra böyük tarixi keçmişə malik olan Azərbaycanımız dünyanın bir sıra inkişaf etmiş ölkələri ilə əlaqəyə girdi, öz sözünü deyə bilən bir ölkə kimi tanındı. Uzaqgörən Heydər Əliyev siyasəti nəticəsində vətənimiz dünyanın bir çox inkişaf etmiş ölkələrinə çevrildi. Ulu Öndər təkcə sərhədlərimiz daxilində deyil, çox-çox uzaqlarda da, mədəniyyətimizin, iqtisadiyyatımızın, təhsilimizin inkişafı üçün çox səylər göstərdi. Heydər Əliyev təhsili «millətin gələcəyi» adlandırmışdır. O, bütün elm sahələrində böyük irəliləyişlər etdi. Dövlətimizin, xalqının gücünü yüksək təhsildə, maariflənmədə görmüş, elmin, təhsilin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, Azərbaycan oğul və qızlarının savadlı, vətənə layiq gənclər olmağını istəyirdi, çünki dövlətin və xalqın gücü elmli və bilikli gənslərin əlindədir.

Dahi Öndər yüz illər boyu görülə bilməyən işləri gördü. Dünyada yaşayan soydaşlarımızın birlik və həmrəyliyinə malik oldu. Türk dünyasının böyük lideri dünyada yaşayan soydaşlarımızı ilk dəfə bir araya gətirən dövlət xadimi oldu.

Ordu quruculuğunda, milli ordunun yaradılması və inkişafında böyük nailiyyətlərə imza atıldı.

Azərbaycanda ilk milli Konstitusiyanın qəbulu, Şərqdə ilk dəfə olaraq ölüm hökmünün ləğvi, demokratik yolla Prezident və Parlament seçkilərinin keçirilməsi, milli və tarixi sərvətlərimizin qorunması bu dahi şəxsiyyətin siyasətinin bəhrəsidir.

Heydər Əliyev 1994-cü ilin 20 sentyabrında «Əsrin müqaviləsi» neft kontraktının müəllifi oldu. Böyük çətinliklər dəf edərək, Bakı–Tbilisi–Ceyhan kəmərini xalqımıza töhfə etdi. Bu, Azərbaycan tarixində yeni iqtisadiyyat səhifəsini açdı. 2001-ci il yanvarın 17-si Azərbaycanın Parlament şurasına qatılması Heydər Əliyevin xarici siyasətdə əldə etdiyi ən böyük uğuru idi.

Ulu Öndər xalqımız üçün çox işlər gördü. Bunun müqabilində ümumxalq sevgisi qazandı, insanların qəlbində əbədi abidə ucaltdı. Heydər Əliyevi həm öz xalqı, həm də bütün ölkələrin sağlam düşüncəli insanları sevir, hörmət bəsləyir.

*Ucaltdı hər yerdə bayrağımızı,*
*Yazdı tarixlərə ad-sanımızı,*
*Tanıtdı dünyaya varlığımızı*
*Ulu bir sərkərdə, ulu bir Öndər!*

2003-cü il dekabrın 12-si yaddaşımıza ən ağır hüzn günü kimi daxil oldu. Ulu Öndər arxasınca irəliləyən minlərlə soydaşını birləşdirib, əbədiyyət dünyasına qovuşdu.

Heydər Əliyev hər kəsin qəlbində əbədi bir abidə ucaltdı. Xalqımız Ulu Öndəri heç zaman unutmayacaq.

Bu gün Heydər Əliyevin yolunu varisi İlham Əliyev uğurla davam etdirir. Dövlətimiz günü-gündən gözəlləşir. Bu, məhz İlham Əliyev siyasətinin nəticəsidir. O, xalqımızın rifahı naminə əlindən gələni əsigəmir.

Ölkəmiz bir sıra beynəlxalq tədbirlərin ocağı olub. 2015-ci il iyunun 12-si paytaxt Bakımız Avropa Olimpiya oyunlarına ev sahibliyi edəcəkdir. Bu, bir daha dölətimizin necə inkişaf etdiyini göstərir.

Mən bir azərbaycanlı kimi əminəm və inanıram ki, İlham Əliyev işğal altında olan torpaqlarımızı geri qaytaracaqdır. Dinclik tapmayan ruhlar sakitləşəcəkdir.

Mənim üçün fəxrdir ki, Ulu Öndərin qurucusu olduğu dövlətdə yaşayıb, təhsil alıram. Mən də vətənə borcumu oxumaqla, təhsil almaqla verəcəyəm. Heydər Əliyev adını həmişə yüksəklərdə saxlayacağıma söz verirəm!





## Məmmədov Cabbar Nəcəf oğlu

**Babək rayonu, Məmmədrza Dizə kənd tam orta məktəbin XI sinif şagirdi**

Əziz məktəbli dostlar. Hər bir azərbaycanlı kimi mənim də qəlbimdə möhtəşəm məhəbbət yaşayır – Heydər Əliyev məhəbbəti. Odur ki, qadir Allahdan bir diləyim var. Mənə qüdrət versin. Elə bir qüdrət ki, bənzərsiz həyat yaşamış, xalqımın tarix kitabının qızıl səhifələrini yazmış ulu öndər dahi Heydər Əliyevə olan ülvi məhəbbətimi, hüdudsuz sevgimi ifadə edə bilim. Axı adi bir məktəbli kimi ürəyimin dərinliklərində coşub-çağlayan duyğulardan söz açmaq o qədər də asan deyil.

*Xalqı zirvələrə qaldırmaq üçün,*
*Sevgi şahlığının taxtına çıxdın,*
*Oğul xalq üçündür, zirvə dağ üçün.*
*Nə yaxşı bu xalqın baxtına çıxdın.*

Bəli, bu, şirin bir həqiqətdir. Heydər Əliyev Azərbaycan xalqının mənəvi sərvəti, bəxtinə düşmüş Tanrı payıdır!

Nadir, təkrarsız şəxsiyyət, millətinin və məmləkətinin yeni tarixinin memarı, böyük dühа, güclü və müstəqil Azərbaycanın, hətta dünyanın saygı göstərdiyi, istiqlalı dönməz, gündən-günə qüdrətlənən çağdaş Azərbaycanın qurucusu.

Əziz dostlar! Heydər Əliyev tarixi yaradan idi. Tarixin özü idi. Tarix isə yalnız böyük dühaların parlaq əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünyanın tarix kitabına Cavanşir, Babək, Şah İsmayıl Xətai kimi qüdrətli şəxsiyyətlərin adını qızıl hərflərlə yazmışdı. XX yüzillikdə isə xalqın daha bir dahisi yetişdi – Heydər Əliyev.

Heydər Əliyev də dünyanın nadir simaları arasında layiqli yer tutdu. O, dünya tarixinin azərbaycanlı Dahisi oldu.

Aqillərdən biri demişdir: «Elə yaşa ki, öləndən sonra da ölməyəsən». Ölməzlik, həmişəyaşarlıq isə ancaq dahilərə, böyük şəxsiyyətlərə nəsib olan xoşbəxtlikdir. Xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev də məhz belə xoşbəxtlərdəndir. Bənövşə ətirli bir bahar günündə dünyaya göz açan bu bahar oğlu xalqına əbədi bahar gətirmiş, öz ömür kitabını şərəfləndirən cahanşümul uğurlara imza atmışdır.

Zirvələr fatehi Heydər Əliyev ömrü boyu xalq üçün, yurd üçün, dövlət üçün çalışdı. Müstəqil, suveren Azərbaycan Respublikasını yaratdı. «Əsrin müqaviləsi»ni içzaladı. Təhsilimiz, elmimiz dünya təhsil sisteminə inteqrasiya olundu. Torpaq torpaq sahibinə – kəndliyə qaytarıldı.

Torpağının bir hissəsi işğal olunmuş dövlətə güclü ordu lazım idi. Ulu Öndər onu da yaratdı. Ətrafında minlərlə vətənpərvər birləşdirən Yeni Azərbaycan Partiyasının yaradıcısı da O oldu. Azərbaycan Xalq Cumhuriyyətinin üçrəngli istiqlal bayrağı başımızın üstündə yenidən dalğalandı.

Əziz babam. Siz həmişə azərbaycanlı olmağınızla fəxr etdiyiniz kimi, Azərbaycan xalqı da dünyaya Sizin kimi dahi bəxş etdiyi üçün qürurlanır. Heç bir lider xalqını Sizin kimi sevməyib. Sizdən bizə çox yadigar qalıb. Ən dəyərlisi isə «Yol»dur. Böyük Heydər Əliyev yolu. Bu yolun yolçuları vətənə, xalqa sədaqəti məhz Sizdən öyrənirlər.

Amma hər bir xoş günün acı bir anı da olur. Bu acı an səni itirdiyimiz gün oldu. Hər bir azərbaycanlı vətəndaş kimi mən də sizin bu yoxluğunuza, bizi tərk edib getməyinizə inana bilmirəm. Amma onu bilirəm ki, xalqının, millətinin, sərkərdəsi, rəhbəri, fəxri olan bir dahi heç bir vaxt ölməz. Heydər Əliyev də ölərmi?!.

Əsla yox!

O, öz xalqının, millətinin qəlbində elə bir yer tutmuşdur ki, heç vaxt heç bir kimsə belə bir müdrik el ağsaqqalını, belə bir bacarıqlı dövlət başçısını unuda bilməz. Mən bilirəm ki, sabahım bu günümdən də gözəl olacaqdır.

Ali məktəbə daxil olub müəllim olmaq arzusundayam. Bu peşəyə yiyələndikdə də isə ilk dərsim, əlbəttə ki, «Heydər Əliyevin həyat yolu» olacaqdır.

Əziz babam! Sizə söz verirəm ki, bu gözəl vətənimin çiçəklənməsində Siz əziyyət çəkib iş görmüşdünüz və mən də Sizin gördüyünüz işləri davam və inkişaf etdirmək üçün yaxşı oxuyub, səy və bacarığımı nümayiş etdirəcəyimə bir məktəbli kimi – gələcəyin savadlı bir gənci kimi söz verirəm.









## Məmmədov Müslüm Aqil oğlu

*Şərur rayonu, Z.Hacıyev adına*
*Zeyvə kənd tam orta məktəbin*
*XI sinif şagirdi*

Bəşər tarixində mənsub olduğu xalqın taleyində müstəsna rol oynayan şəxsiyyətlər öz qüdrətli dühaları ilə qaranlığa işıq salır, millətini millətlər, dövlətini dövlətlər cərgəsinə çıxarırlar.

Bu gün dünyada demokratik nailiyyətlərə sadiqlik baxımından özünü təsdiq etmiş Amerika Birləşmiş Ştatlarında Cefferson, Fransada Şarl de Qoll, Türkiyə Cümhuriyyətində Mustafa Kamal Atatürk kimi şəxsiyyətlər hörmətlə yad edilir və onların dövlət quruculuğundakı müstəsna xidmətlər hamı tərəfindən birmənalı qəbul olunur. Bu mənada Azərbaycan xalqının ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş tarixi Heydər Əliyev adı ilə qırılmaz tellərlə bağlıdır. O, Azərbaycan xalqının taleyinə yazılan alın yazısıdır. Onun adı Azərbaycan xalqının tarixi salnaməsində qızıl hərflərlə həkk olunmuşdur.

Tarixə bir çox dühalar bəxş etmiş xalqımızın bəxtinə XX yüzillikdə daha bir günəş doğdu. Ötən əsrin altmışıncı illərində Azərbaycanın dövlət həyatında öz fitri istedadı, enerjisi və bacarığı ilə hamını heyran qoyan bir şəxsiyyət göründü. Bu böyük şəxsiyyət Tanrı tərəfindən bizlərə xilaskar göndərilmiş Heydər Əlirza oğlu Əliyev idi.

Heydər Əliyevin köksündə gəzdirdiyti ürək yalnız xalq üçün döyünürdü. O ürəkdə bütün Azərbaycan xalqı üçün yer vardır. O ürək günəş kimi nur saçdı. Günəşdən şəfəqlər dalğa-dalğa yayıldığı kimi, o ürəkdən də mehribanlıq, ədalət və sədaqət şəfəqləri dalğa-dalğa ətrafa yayıldı. Qədim Naxçıvan torpağının sakit bir guşəsində, bir bahar günü ilk dəfə döyünməyə başlayan o ürək kiçik bir ailənin böyük sevincinə səbəb olmuşdur. İllər keçmiş, o ürək daha qüdrətlilə döyünmüş, haqsızlığa və ədalətsizliyə qarşı fəal mübarizə aparmışdır. O, müstəqil dövlət qurmaq və formalaşdırmaq kimi

çətin və məşəqqətli bir vəzifəni əfsanəvi gücü ilə həyata keçirdi və Azərbaycan xalqının ümummilli lideri, Millət Atası kimi titullar qazandı.

Tarix sübut etdi ki, yalnız Heydər Əliyev nüfuzu, Heydər Əliyev qətiyyəti, Heydər Əliyev şəxsiyyəti və siyasəti Azərbaycanı bütün bəlalardan qorumaq, müstəqil dövlətçiliyimizi yaradıb möhkəmləndirmək qüdtərinə malik idi.

Ömrü boyu xalqa arxalanan Heydər Əliyev dünyanın nəzərini Azərbaycana yönəltməklə böyük işlər görmüş, erməni kimi rəzil, hiyləgər bir düşmənin planlarını alt-üst etmişdir.

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin xalqımız qarşısındakı xidmətləri təkcə qurub-yaratmaqları ilə ölçülmür. Onun gərdin fəaliyyəti bizim elimizin, mədəniyyətimizin, təhsilimizin inkişafında, milli-mənəvi dəyərlərimizin qorunmasında, ədəbiyyatımızın inkişafında, ordumuzun möhkəmlənməsində də özünü qabarıq göstərir, zəngin tariximizin hər bir səhifəsini açmaq, geniş təbliğ etmək, onu xalqımıza və dünyaya təqdim etmək Ümummilli Liderimizin siyasətində milli yaddaşın bərpası, milli şüur, əsas amil kimi daim öndə dururdu.

Dahi şəxsiyyət həmişə deyirdi ki, Azərbaycan xalqı müdrikdir. Ona arxalanan, ona namusla xidmət edən rəhbər də güclü və yenilməz olur. Ümummilli liderimiz eyni zamanda tövsiyə edirdi ki, hər bir insan həyatda öz yerini tapmalıdır. Çünki hər bir insan öz yerini tapanda böyük olur. Kim ki öz biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur. Əlbəttə ki, bu prinsiplət istər dövlətçilik ənənələrində, istər dövlət rəhbərlərinin kadr siyasətində, istərsə də hər bir kəs üçün yüz illər sonra da əsas götürüləcək meyarlardır. Dahi insan müdrikliklə müəyyən edirdi ki, milli ideologiyamızın əsasları milli dövlətçilik, milli-mənəvi dəyərlər və dünyəvilik prinsipləridir. Yəni dövlət quruculuğu işində milli-mənəvi dəyərlərə, onun tarixi şəxsiyyətlərinə, tarixinə hörmət bəşəri dəyərlər sintezindən götürülməlidir.

Heydər Əliyevin xalqlmlz qarşısında ən böyük, ən dəyərli xidmətlərindən biri də Azərbaycan dilinə böyük sevgisi və qayğısı idi. Onun Azərbaycan dilinin dövlət dili olması, dilimizin inkişafı və yüksəlişi uğrunda apardığı mübarizə Azərbaycanşünaslığa qiymətli töhfədir. Ulu öndərimiz Azərbaycan dilinin statusunu qaldıraraq dövlət dili etmişdir. Sovetlər Birliyi dövründə belə bir addım atmaq böyük cəsarət və iradə tələb edirdi.

Əzəməti, vüqarı, dəyanəti, dözümü, möhkəmliyi ilə Azərbaycanı dünyaya tanıdan, Azərbaycan haqqında bütün dünyaya yalnız müsbət fikirlər aşılayan xalqımızın böyük oğlu səksən illik ömrü ərzində isti qucağının hənirtisinə böyüdüyü anası ilə Ana vətən olan Azərbaycanı eyni sevgi ilə sevdi, əzizlədi.



1993-cü ildən başlayaraq Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının ən ağır illərində – keçid dövründə həyata keçirdiyi işlər onu bacarıqlı və istedadlı bir dövlət başçısı kimi böyük tarixi şəxsiyyətə çevirdi.

Heydər Əliyev əsl vətənpərvər idi. Azərbaycanın çıxılmaz vəziyyətində qəddi əyilmiş millətin harayına çatması, ölkəmizi dünya dövlətləri cərgəsinə çıxarması onun vətənpərvərliyinin bariz nümunəsidir. Heydər Əliyev elə bir dahidir ki, hələ sağlığında gördüyü işlər onu xalqının gözündə əbədiləşdirdi, hər bir azərbaycanlının qəlbində əlçatmaz heykələ çevrildi.

Heydər Əliyev həmişə gələcəyə ümidlə, inamla baxır, millətin gələcəyinə olan gənclərə inanırdı. Onlardan çox şey gözləyirdi. Ona görə də biz gənclərin yaxşı təhsil almalarına həmişə qayğı ilə yanaşırdı. Biz gənclər də çox çalışmalıyıq ki, ulu öndərimizə, vətənimiz Azərbaycana layiqli övlad olaq, Heydər Əliyev dühası elə bir sönməyən mayakdır ki, həyat dənizində, mübarizələr ümmanında onun ziyası həmişə bizim yolumuzu işıqlandıracaqdır.

Ey dahi şəxsiyyət, ey Azərbaycan xalqının tanrı payı!

Yaşım az olasa da, Vətənin nə qərər müqəddəs bir varlıq olduğunu anlayıram. Onu da dərk edirəm ki, Vətənimiz parçalanmaqdan, dağılmaqdan Siz xils etdiniz.

Biz hər zaman ulu öndərimiz Heydər Əliyevin xatirəsini əziz tutacaq, onu heç zaman unutmayacağıq. Heydər baba əbədi olaraq qəlbimizdə yaşayacaqdır.



## *Məmmədova Nurlana Elşad qızı*

*Göyçay şəhəri, N.Gəncəvi adına*
*7 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*

Azərbaycan xalqının qəhrəmanlıq tarixini qəhrəmanlıq dastanlarına bənzətmək olar. Bu dastanların qəhrəmanları real tarixi şəxsiyyətlər olan Cavanşir, Koroğlu, Babək, Həzi Aslanov, Mübariz İbrahimov və neçə-neçə igid vətən oğullarıdır. Tarixin yaddaşına köçmüş bu vətən oğulları indi də xalqın yaddaşındadır və neçə-neçə əsrlər sonra da xalqın yaddaşından silinməyəcəkdir.

Xalqın qürur, iftixar mənbəyi, düşmənlərinə göz dağı, dostlarına ümid, pənah yeri olan bir dahi şəxsiyyət də vardır. O, dünyanın ən böyük azərbaycanlısı, sinəsində Azərbaycan adlı bir ürək daşıyan, böyük dövlət xadimi, müstəqil, məğlubedilməz Azərbaycanın qurucusu, müstəqilliyi dönməz, sarsılmaz, əbədi olan Azərbaycan adlı sənət əsərinin yaradıcısı Heydər Əliyevdir.

Mən yaradıcı insan olsaydım, nağıllar, dastanlar yarada bilsəydim Ulu Öndər, qəhrəmanlıq tarixində öz şərəfli səhifələrindən birini yazan, biz məktəblilərin əziz babası olan Heydər Əliyev haqqında yaratdığım əsəri belə başlayardım: Biri var idi, biri yox idi... tarix boyu neçə-neçə sınaqlardan keçmiş, böyük dövlətçilik tarixi olan, dəfələrlə müstəqilliyini itirmiş, məhv olmaq təhlükəsi ilə üzləşsə də özündə güc, qüvvə taparaq yenidən dirçəlmiş, eyni əsrdə şimalda iki dəfə müstəqilliyini elan etmiş, cənubda üç dəfə azadlıq inqilabı etmiş Azərbaycan adlı müqəddəs bir məmləkət vardı... Əsrlər boyu parçalanmış, tikələnmiş ölkənin şimalında XX əsrin sonunda müstəqil dövlət yaransa da, yarandığı ilk gündən məhv olmaq təhlükəsi ilə üz-üzə qaldı. Xalq bu zaman inandığı, güvəndiyi vətən oğlunu – Heydər Əliyevi köməyə çağırdı.



Siyasətçilər, alimlər dəfələrlə özlərinə bu sualı vermişlər: Nəyə görə xalq belə çətin zamanda Heydər Əliyevə inandı, güvəndi, arxalandı?

Axı, o, 1987-ci ildə Moskvada ali dövlət vəzifəsindən imtina etdikdən sonra siyasi fəaliyyətdən uzaqlaşmışdı. Siyasi arenaya yeni-yeni simalar gəlmişdi. Populist çıxışlarla xalqa vədlər verən qüvvələr Heydər Əliyevin nüfuzuna kölgə salmağa çalışır, onun siyasi arenaya qayıtmasına əngəl törədirdilər. Lakin qədirbilən Azərbaycan xalqının böyük hissəsi – vətənpərvər ziyalılar, namuslu zəhmətkeşlər Heydər Əliyevin sovet dövründə Azərbaycan xalqı üçün etdiklərini unutmamışdılar. Elə bu suala xalq birmənalı şəkildə belə cavab verdi: Həyatını xalqına həsr edən, ömrünü vətən yolunda şam kimi yandıran Heydər Əliyevi qoyub bəs kimə arxalanmalıyıq?

Bax, əsl rəhbər, lider belə olur. Xalqın etibarını qazanan, eyni zamanda xalqa arxalanan, vətənə layiq oğul olan, eyni zamanda xalqın atasına, babasına çevrilən rəhbər, lider məhz bu keyfiyyətlərə malik olmalıdır. Bu şəxsiyyətin, rəhbərin adı tarixin yaddaşına əbədi olaraq həkk olan Heydər Əliyevdir.

O da hamı kimi doğuldu, dünyaya göz açdı, böyüdü. Hamı kimi vətən səmasından boylanan günəşin qızmar şüaları altında qızındı, gecələr əsrarəngiz ayını, ulduzunu seyr etdi. Bulaqların zümzüməsinə, çayların şırıltısına, doğma Xəzərin kükrəyən dalğalarına heyran kəsildi.

Göylərin gözəlliyini ayna sinəsində əks etdirən göllərinə, vüqarlı dağlarının qarlı zirvələrinə, yaşıl yamaclarına, əsrarəngiz meşələrinə tamaşa etdi.

Lakin o, hamı kimi yaşamadı. Vətənini sevən, ona layiq oğul olan bu şəxsiyyətin qəlbində yalnız xalqına xidmət etmək, onun inkişafına nail olmaq arzusu vardı!

Heydər Əliyev Azərbaycan gənclərini də çox sevirdi. Onların gələcəyi, təhsili üçün əlindən gələni edirdi.

«Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən azərbaycanlıyam», – deyən Heydər Əliyevlə bütün Azərbaycan xalqı fəxr edir, onunla həmvətən, soydaş olduğu üçün hər bir azərbaycanlı qürür hissi duyur.

Onun haqqında bir sıra nəğmələr də vardır. Lakin elə bir nəğmə də vardır ki, onu uşaq da, böyük də hər gün, demək olar ki, qəlbində də olsa oxuyur:

*Sən elə bir qüvvəsən,*
*Küləklər neyləyəcək?*
*Dünənim, bu günümsən,*
*Səninlədir gələcək!*

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər «Xalqım», – deyəcək*
*Xalq «Heydər», – söyləyəcək!*

Bütün nağıllar «Göydən üç alma düşdü» sözləri ilə bitir. Lakin tarixi gerçəklikdən, reallıqdan danışılan «Heydər Əliyev» adlı bir əsər güclü, müstəqil, yenilməz, günbəgün, anbaan çiçəkləyən Azərbaycanın yaranması ilə bitir.





## Orucov Elmağa Yəhya oğlu

**A.S.Makarenko adına Humanitar fənlər təmayüllü gimnaziyanın XI sinif şagirdi**

Qələmi əlimə götürüb düşünürəm: «Necə başlayım? Nədən başlayım?» Axı ürəyimdə sözüm çoxdur. Necə başlayım ki, bütün duyğularımı ifadə edə bilim? Düşünürəm, düşünürəm... Nəhayət, «Heyif ki, belə yazsam, qalib gələ bilmərəm» söyləyəndə bayaqdan bəri məni sakitcə müşahidə edən atam mənə müraciətlə: «Sən ki bilirsən, əsas məsələ qalib olmaq deyil, düşündüklərini olduğu kimi çatdıraraq iştirak etməkdir», – söylədi.

Atamın sözləri elə bil mənə qol-qanad verdi. Xəyalım çox illər əvvələ qayıtdı. Atam ilk dəfə onu mənə tanıdanda 4–5 yaşım olardı. Atamın: «Bax, bu insan olmasaydı, mən olmazdım, sən də olmazdın», – söyləməsi mənə çox qəribə gəldi. Televizorda Qanlı Yanvar faciəsi haqqında veriliş gedir, fraqmentlər göstərilirdi. Ümummilli liderimiz Heydər Əliyevin Moskvada Azərbaycan Nümayəndəliyindəki tarixi çıxışı səsləndirildi. Atamın o hadisələr haqqında danışmağı mənə çox maraqlı gəlirdi. Atam həmin gün Moskvadakı azərbaycanlı tələbələrin xalqımızın başına gətirilən faciədən hiddətlənərək nümayişkaranə bir tərzdə Azərbaycan Nümayəndəliyinə axışmasından danışdı: «Tələbələrin Azərbaycandan uzaq olması, informasiya qıtlığı, düzgün məlumatların verilməsi, inandıqları hakimiyyətin doğma xalqına divan tutması ehtirasları coşdurmuşdu. Qəzəb sel kimi tüğyan edirdi. Əgər Heydər Əliyev Nümayəndiliyə gəlib xarici dövlətlərin diplomatik korpuslarına məlumatlar çatdıraraq Qorbaçov hökumətini kəskin tənqid etməsəydi, qəzəbli tələbələr iğtişaşlara uyar, qeyri-bərabər vəziyyətdə həyatlarını təhlükəyə atardılar. Həmin gün Heydər Əliyev Bakıda törədilmiş qanlı qırğın hadisəsinə etiraz əlaməti olaraq, mövcud rejimi kəskin tənqid etdi və Kommunist Partiyasının sıralarından çıxdığını elan edərək partiya biletindən imtina etdi. O, hadisələrə düzgün siyasi qiymət verməsi ilə neçə-neçə azərbaycanlı tələbə

gəncin gözünü açdı, onların həyatını xilas etdi, ikinci qanlı qırğının Moskvada törədilməsinin qarşısını aldı. Elə bircə bu epizod onun bütün xalqının qəlbində yaşaması üçün kifayət edərdi. Çünki 1990-cı ilin yanvar ayında heç kim Sovet rejiminin çökəcəyini bilmirdi və bu güclü imperiyaya qarçı çıxmaq böyük cəsarət tələb edirdi. Heydər Əliyev heç nədən çəkinməyərək, Sovet hökumətindəki tutduğu yüksək vəzifəni itirməkdən qorxmadı və Bakıya, dinc əhaliyə qarşı törədilmiş əməlləri qətiyyətlə pislədi, çətin günlərində qəlbi xalqı ilə birlikdə döyündü, ona mənəvi dayaq oldu.

Dünyada Heydər adlı şəxslər çoxdur. Əliyev soyadı da az deyil. Amma bu gün «Heydər Əliyev» deyiləndə heç kim onun kim olduğunu soruşmur. Bu adı eşidənlərin qəlbinə bir qürur dolur, üzlərinə təbəssüm, gözlərinə bir fərəh qonur. Bu gün bütün dünyanın tanıdığı, bütün millətlərin dəyərləndirdiyi bu şəxsiyyət bizim vətənimizin, Azərbaycanın övladıdır. Özü də elə bir övlad ki, bütün ömrünü, bütün şüurlu həyatını xalqının yolunda sərf etdi, ömrünü gülə-gülə, zərrə-zərrə bir şam kimi xalqının yolunda əritdi, sonra özü də məşəl kimi yanan bir ürəyə döndü. O, vətən göylərinə ucalaraq daim işıq saçacaq bir günəşə çevrildi.

Aclıq, yoxsulluq illərində uzaq Naxçıvanda dünyaya göz açdı. Əziyyətlə böyüdü. Çətinlik də gördü, ehtiyac da. Lakin uşaqlıqdan qəlbində bir yüksəliş, ucalığa çatmaq arzusu vardı. Elə bu arzudan irəli gələrək o, bu həyatda çox böyük içlər gördü. Hələ məktəb illərində hamıdan seçildi. Öz ağlı, zəkası ilə bütün yoldaşlarını ötüb keçdi. Sonra ali təhsil illəri gəldi. Burada da neçə yüz tələbənin içində o seçildi. Hər yerdə, hər işdə öndə, birinci sırada oldu. Taleyinə liderlik, öndərlik, başçılıq yazılan bu gənc ali məktəbi bitirdikdən sonra çox ciddi və çətin işlərlə məşğul olmağa başladı. Dövlət təhlükəsizlik orqanlarında işləməsi üçün bütün keyfiyyətlər bu şəxsdə cəmlənmişdi. Öz xalqına layiqincə xidmət edəcəyinə özü inanmışdı. Onun gələcək fəaliyyəti bunu bütün dünyaya təsdiq etdi.

Tarix görkəmli şəxsiyyətlər və dahi liderlərin fəaliyyəti nəticəsində yaranır. Heydər Əlirza oğlu Əliyevlə Azərbaycan tarixində yeni bir eranın başlanğıcı qoyuldu. 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilən Heydər Əliyev bütün fəaliyyətini respublikamızın çiçəklənməsinə yönəltdi. Onun rəhbərliyi illərində Azərbaycanda coşqun əmək dövrü başlandı. Özü olduqca əməksevər olan, dayanmaq bilmədən çalışan Heydər Əliyev həm rəhbər, həm də sıravi işçiləri coşqun, ilhamlı əməyə cəlb etdi. Azərbaycan iqtisadiyyatı yüksək inkişaf mərhələsinə qədəm qoydu. Keçici bayraqların respublikamıza axını başladı. Rayon təsərrüfatları əmək raportu vermək üçün növbəyə dururdu.



Azərbaycanda bu dövrdə neçə-neçə sənaye obyektləri, zavodlar tikilib istifadəyə verildi. Bakımız yaraşıqlı binalar, böyük bağlar, parklar, saraylarla gözəlləşdirildi. Məktəb binaları tikildi, azərbaycanlı tələbələrin SSRİ-nin ali məktəblərində təhsil almaları üçün imkan yaradıldı. Böyük şəxsiyyətlərimizin xatirəsi heykəllərlə əbədiləşdirildi. N.Nərimanova, C.Cabbarlıya heykəl qoyulması, H.Cavidin nəşinin uzaq Sibirdən doğma vətənə gətirilməsi, Aşıq Ələsgər, Vaqif, S.Vurğun poeziya günlərinin bayram edilməsi, elm, ədəbiyyat və incəsənət xadimlərimizin yubileylərinin keçirilməsi, maddi vəziyyətlərinin yaxşılaşdırılması məhz Ulu Öndərin adı ilə bağlıdır.

Heydər Əliyevin sinəsində Azərbaycan ürəyi döyünürdü. Ana kitabımız olan «Kitab-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin UNESCO xətti ilə təntənəli şəkildə qeyd edilməsinin təşəbbüskarı da Heydər Əliyev oldu. Bununla da o, özünün Türk dünyasının layiqli övladı olduğunu sübut etdi. Heydər Əliyev yeni dövrün Xətaisi oldu. O, rus dilinin təzyiqi altında ikinci plana keçirilmiş doğma Azərbaycan dilini həqiqi mənada dövlət dili elan etdi. «Ana dilim müstəqil Azərbaycanın ən böyük milli sərvətidir», – söylədi. «Hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, Dövlət dilini mükəmməl bilməlidir», – deyə tövsiyə etdi.

Deyirlər ki, Allah öz sevimli bəndələrini sınağa çəkir. Heydər Əliyev zamanın bütün sınaqlarından üzüağ çıxmışdır. Ona qarşı təxribatlar törədildi, fitnə-fəsadla SSRİ hökumətindəki tutduğu yüksək vəzifədən azad edildi. Lakin bu, onun dəmir iradəsini qıra bilmədi, polad vüqarını əyə bilmədi.

Doğma respublikaya qayıtdı və bu dəfə öz xalqına onun özü tərəfindən seçilmiş bir prezident kimi xidmət etməyə başladı. Dünya tarixində çox prezidentlər olmuşdur və hələ çox da olacaqdır. Lakin hanı elə bir rəhbər ki, qısa müddət ərzində həm siyasi, həm iqtisadi, həm mənəvi, həm də hərbi cəhətdən mühasirəyə alınmış, yenicə müstəqillik yoluna qədəm qoymuş bir ölkəni inkişaf etdirsin, onu dünyaya tanıtsın? Xəyanətkar qonşumuz mənfur Ermənistan tərəfindən cəlb olunduğumuz elan olunmamış müharibəni müvəqqəti də olsa dayandırmaq üçün Heydər Əliyev 1994-cü ildə «Atəşkəs» elan olunmasına nail oldu. Bundan istifadə edərək bütün gücünü iqtisadiyyatımızın inkişafına yönəltdi. Əsas sərvətimiz olan neftimizi dünya bazarına çıxarmaq üçün «Əsrin müqaviləsi» imzalandı. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasına başlandı. Tarixi «İpək Yolu» bərpa edildi. TRASEKA nəqliyyat dəhlizi yaradıldı. «Azəri», «Çıraq», «Dədə-Qorqud», «Günəşli», «Şahdəniz» kimi neft yataqlarının istismarına diqqət yetirildi. Həyatımızın hansı hissəsi qaldı ki, bu böyük insan, bu dahi şəxsiyyət ona diqqət yetirməmiş olsun? Dilimiz, ədəbiyyatımız, incəsənətimiz inkişaf etdirildi, elmi-

miz, iqtisadiyyatımız, hərbi qüdrətimiz yüksəldi. Bü gün məhz Heydər Əliyevin səyi nəticəsində formalaşmış bir ordumuz var. Özü də elə bir ordu ki, bircə əmrə müntəzirdir ki, vətən torpaqları yağı tapdağından azad edilsin. Heydər Əliyev Müstəqil Azərbaycanın qurucusudur.

Bu böyük insan, bu fenomen şəxsiyyət həm də sadə bir Allah adamı idi. O, əsl müsəlman kimi öz dini dəyərlərimizi özümüzə qaytardı. Biz bu gün məhz onun sayəsində vicdan azadlığına sahibik. Allah da öz sevimli bəndəsini layiqincə mükafatlandırdı. Heydər Əliyevə peyğəmbər qəbri ziyarət etmək, o pak məzara üz tutaraq dua etmək, o pak məzarı öpmək şərəfi nəsib oldu.

Heydər Əliyevi bir insan kimi mənə ilk dəfə atam tanıtdı. Hələ uşaqlıqdan onun adı qəlbimdə iz qoydu. İllər ötüb böyüdükcə, yetkinləşdikcə onun ömür yolunu, həyat və fəaliyyətini öyrəndikcə mən özüm də bilmədən ona heyran kəsildim. Bütün dünyanın tanıdığı bu insanı özüm üçün yenidən kəşf etdim. Onun qəlbində necə böyük duyğular yaşayırmış! Çiynində dünyanın yükünü, zamanın ağrılarını daşıyan bu insanın necə duyğulu,kövrək, həssas bir qəlbi varmış!.. Xalqın düşmənlərinə qarşı qətiyyətli, sərt, yeri gələndə amansız olan bu insan qocalarla, uşaqlarla görüşəndə necə mülayim, necə mehriban olurdu! Heydər babmızın çox qəribə bir yumor hissi də var idi. Şən və Hazırcavablar Klubunun üzvləri onu parodiya edəndə necə xoşlanmış, necə ürəkdən gülmüşdü. Heydər Əliyevin heç kəsin səsinə bənzəməyən bir səs tembri də var idi. O, S.Vurğunun «Azərbaycan» şeirinin ölməz misralarını necə sevə-sevə, necə kövrək bir səslə deyirdi. Təəccüb edirəm: bir qəlbdə neçə dünya yerləşər? Onun qəlbində dəniz kimi fırtınalı, ümman kimi dərin, şəlalə kimi coşqun, saf duyğular necə qərar tuturdu? Ulu Tanrı bunu məhz Heydər Əliyev qəlbinə bəxş etmişdir.

«Ailə kiçik bir dövlətdir», – deyirlər. Doğrudan da, öz ailəsinə, ömürgün yoldaşı olan Zərifə xanıma, uşaqlarına və nəvələrinə olan hörmət və məhəbbəti onu sübut edir ki, əgər o, kiçik dövlətə–ailəsinə bu qədər bağlıdırsa, gör o böyük Dövlətə – Xalqına, Millətinə, Vətəninə nə qədər bağlı olan bir insandır. Heydər Əliyev bir ailə başçısı kimi də gələcək nəsillərə nümunə olacaq bir insandır.

Ümummilli liderimiz Heydər Əliyev artıq cismən aramızda yoxdur. Lakin onun həyat və fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir və uğurla həyata keçirilir. Ulu babamızın ideyalarının yaşamasında və həyata keçirilməsində Azərbaycan Respublikası Prezidentinin xanımı, Milli Məclisin deputatı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik



etdiyi Heydər Əli-yev Fondu da çox böyük xidmət göstərir. Bu iki layiqli vətəndaş Azərbaycan xalqının Ulu Öndərinin humanizm, azərbaycançılıq, mənəvi və əxlaqi dəyərlərinə sadiq qalaraq onun bütün arzularını həyata keçirir.

Heydər babamız gəncliyi çox sevirdi. O deyirdi: «Uşaqlar, gənclər xalqımızın, müstəqil Azərbaycan Respublikasının parlaq gələcəyidir». Bu gün Azərbaycanda Heydər Əliyev məktəbinin yetirmələri, müstəqilliyimizin və demokratiyanın qarantı olan, yeni bir təfəkkürə malik bir gənclik yaşayır. Mən də bu gənclərdən biriyəm. Mən bu gün həyatımın mənasını dərslərimi yaxşı oxumaqda, biliklərə mükəmməl yiyələnməkdə görürəm. Axı, qazandığım bilikləri mən də xalqımın rifahı naminə sərf edəcəyəm. Bu gün Heydər Əliyev arzuladığı kimi, bir gənclik böyüyür. Biz bütün gənclər Heydər Əliyevin arzularını yerinə yetirməyimizə söz veririk.

Heydər Əliyevlə Azərbaycan – bir canda döyünən iki ürəkdir. Nə qədər ki, Azərbaycan xalqı yaşayır, Heydər Əliyev ömrü də var olacaqdır və qəlblərdə heykələ dönərək əbədiləşəcəkdir. Çünki,

«Azərbaycan», – deyəndə biz – «Heydər», – düşünürük,
«Heydər» düşünən zaman «Azərbaycan», – deyirik.



## Seyidova Xanım Rafiq qızı

*Siyəzən şəhəri, M.Müşfiq adına*
*2 nömrəli tam orta məktəbin*
*XI sinif şagirdi*

«Dahi bəşəriyyət kitabının sərlövhəsidir», – deyirlər. Adını bəşər tarixinə əbədi həkk edən bir dahidən – Ulu Yaradanın bizlərə bəxş etdiyi əvəzolunmaz insandan söz açmaq istəyirəm sizə. 1923-ün baharında dünyaya göz açdı Heydər Əliyev. Günəş şöləl追ndiyi, ulduzların parladığı isti bir yaz günündə. Gəlişinə təbiət belə sevinir, qürrələnirdi. Axı onu Tanrım yer üzünə donmuş nəfəslərdəki buzu əridən günəş, qaranlıq səmalara işıq saçan ulduz olaraq hədiyyə göndərmişdi. Dünyaya gəldiyi gündən adi bir fəhlə ailəsinin sevinci olan bu insan illər keçdikcə bütöv bir xalqın, millətin, milyonların sevimlisi oldu. Alın yazısına Vətənimiz qəhrəman oğlu, türk xalqlarının vüqarlı, şəxsiyyəti, qətiyyətli və mübariz insan olacağı yazılmışdı. Bunu isə bizə tarixin çətin sınaqları sübut etdi.

Mənim Vətənim yaşadığı müsibətləri dünyanın daş yaddaşına əbədi olaraq yazdı. 20 Yanvar, Xocalı faciəsi, Şuşanın itirilməsi dağ çəkdi xalqımızın ürəyinə, dərin ağrımız, sağalmaz yaramız oldu Qarabağ.

20 Yanvar gecəsi gözlərdə ümid qığılcımı küçələrə səpələnmişdi xalqım. Mənim xalqım saflığından inanmışdı, ancaq yanılmışdı. Məkrli hiylənin qurulmasına Ulu Yaradanın özü mat qalmışdı. Əllərdə toy xınası, bətnlərdə ilk eşqin nübarı, dillərdə «vətən», «demokratiya», «suverenlik» kəlmələri dondu. Bakı kəndliləri satıb-dolanmaq üçün becərdikləri qırmızı qərənfilləri küçələrə yaydılar, elə-belə yaymadılar, aralarında yer qoymadılar; bir-birinə söykənib Hökumət evindən Şəhidlər Xiyabanına qədər yan-yana düzdülər. Anaların naləsindən göydəki quşlar qanad saldı. Zamanın nadanlıq üstündəki qəh-qəhəsini qara qarğa qarıldatdı. Anaların, gəlinlərin, qızların fəryadı ərşə yetdi. Ancaq xəyanətkar iblislərin tutulmuş qulaqlarına çatmadı. Ta ki, azadlıq carçısı Heydər Əliyev bu səsi dünyaya yayanadək.



Yox! O, hakimiyyəti ələ keçirib yuxarı başda əyləşmək, tribunalarda boş-boşuna ayaq döymək üçün gəlmədi. O, xalqına arxa-dayaq olub, millətinə təsəlli vermək, vətənini isə xilas etməyə gəldi: öz ağlı, uzaqgörənliyi və vətənpərvərliyi ilə. Güclü siyasəti, möhkəm iradəsi və düşüncəsi hesabına dar günündə köməyi oldu Azərbaycanın. O Azərbaycan ki, paytaxtının küçələrini insan qanı yumuş, dilbər guşələri düşmən tapdağı altında qalmış, əhalisi pərişan olmuşdu. Heydər Əliyev cəhənnəmə döndərilmiş məmləkətimi yenidən qurub cənnətə çevirdi. Özbaşınalığın hökm sürüb, var-dövləti talanan diyarını abadlaşdırdı O.

Belə bir deyim var: «Qəhrəmanlar təkcə əldə silah tutanlar deyil, həm də qələm tutanlardan yaranır». Onun qələmi idi xalqımın silahı, düşmənə tutacaq ən böyük zərbəsi. Millətimin imzası bu qələmlə atılmış, Azərbaycanımızın taleyi də onunla yazılmışdı. Heydər Əliyev hər zaman xalqımın dərdinə şərik oldu, çətinliklərə sinə gərib dözümlü olmağı öyrətdi bizlərə. Bu xalq sabaha inamı, haqq səsini cahana yaymağı, mübarizə eşqi, qələbə əzmini də ondan öyrəndi. Axı O, azadlığın yolunda canını, Vətəni yolunda isə azadlığını fəda etmişdi.

Hər dəfə Heydər Əliyev şəxsiyyəti haqqında fikirlərimi dilə gətirəndə bir sual məni düşünməyə vadar edirdi: görəsən, o bu qədər gücü, cəsarəti, əzmkarlığı nədən alırdı? Bəlkə onun adi bir insan ürəyindən fərqlənən ürəyi, düşünən beyni, bəlkə yalnız dahilərə məxsus ruhu, istedadı var idi? Tanrının yüz insandan birinə nəsib etdiyi bu keyfiyyətlər büsbütün Heydər Əliyevdə cəmləşmişdi Ona dəbdəbəli həyat, saxta san-şöhrət lazım deyildi. Onun zənginliyi xalqının sevgisi, ülvi məhəbbəti idi.

Ömrü başdan-başa qəhrəmanlıq salnaməsi olan bu fenomen haqqında yazdıqca öz-özlüyümdə fikirləşirəm: rəssam olsaydım onun gözlərindəki əbədi Vətən sevgisini canlandırmaqda, memar ölməz bir ruhun heykəlini yaratmaqda gücsüz olduğunu anlayırsa, bəs yazdığım bu inşam, qələmə aldığım cümlələr onun böyüklüyü qarşısında çox cılız və aciz qalmazmı? Ömrünü tamamilə xalqına bəxş edən, onunla ağlayıb, onunla gülən bu bəxtiyar insanı kiminlə müqayisə edim, kimə bənzədim? Axı tarix Heydər kimi ölkə quran ikinci bir memar, odlu-alovlu çıxışlarıyla düşmənin bağrına köz salan natiq gözləyir. Dünya belə dühanın, Yer üzü bu Tanrı möcüzəsinin şahidi olmamışdı. Bəzən düşünürəm, biz həqiqətən də, xoşbəxt bir xalqıq. Çünki cənubda Heydərbaba dağımız vardırsa, şimalda əzəməti ondan da böyük olan Heydərimiz var idi. O, zirvələri fəth etmişdi. Xalqının ürəyi, millətinin hünəri kimi böyük zirvələrini. «Şəxsiyyəti tarix yetişdirir», – deyirlər. O isə şanlı bir tarix yaradan şəxsiyyət idi.

Uşaq olarkən tez-tez böyüklərdən soruşardım: «Heydər baba kimdir?» Onlar gülümsəyib cavab verərdilər: «Azərbaycanın atası». Mən isə bu sözün mənasını anlamırdım, fikirləşirdim ki, «Vətənin atası» olmaq nə deməkdir? Amma indi yaxşı başa düşürəm. «Ailə kiçik bir dövlət, dövlət isə böyük bir ailədi», deyirlər. O, olduqca böyük, mehriban, xoşbəxt bir ailənin başçısı idi. Heydər Əliyev bu ailənin möhkəm olacağına, işıqlı sabahlara çıxacağına inanırdı. Odur ki, ailəsindən nəvazişi, diqqət və qayğısını əsirgəmirdi.

Yaxşı yadımdadır, bir gün məktəbdə tarix müəlliməmizlə bir söhbətim olmuşdu. Müəllim Heydər Əliyevin doğum günü ilə bağlı keçiriləcək tədbirdə mənim də çıxış etməyini istədi. Elə dahi rəhbərlə bağlı ilk düşüncələrim ürəyimdə o söhbətdən sonra yaranmağa başladı. Müəllim deyirdi:

– Mən Universitetdə tələbə olduğum zaman Heydər Əliyevlə görüş keçirildi. Mən onunla üzbəüz əyləşmişdim. O, portretlərdki kimi deyildi, daha məğrur, daha vüqarlı, zəhmli idi. Simasına sanki müdriklik çökmüşdü. Mən onun gözlərinin içinə uzun müddət baxa bilmirdim. Onlar insanı dərinliyə qərq edir, harasa uzaqlara aparırdı.

Xalqın öz böyük oğluna üz tutduğu məqamda özünü yetirdi Heydər Əliyev. Ölkəni bəladan qurtarmağa, millətiin səsinə səs verməyə gəldi. Müqəddəs «Quran»a əl basıb, üçrəngli bayrağımızı öpərək Vətəninə, xalqına, dövlətinə sadiq qaldı. Ağıllı dövlət başçısı, uzaqgörən siyasətçi kimi Vətən oğullarının nizami sıralarından ibarət ordu yaratdı, bir vaxt düşmən cibində əskinaslara çevrilən «qara qızıl»ımızı iqtisadiyyatın dirçəlişi üçün borularla axıtdı, insanların hüquq və azadlıqlarını təsbit edən ali kitab qəbul etdi, öz doğma ana dilini dövlət dilinə çevirdi, ən əsası isə atəşkəsi mürəkkəb bir şəraitdə elan edən bu böyük insan Avropanın qapılarını Azərbaycanın üzünə açdı. O, xalqının ürəyinə gedən yolu tapdı, orada yurd saldı, həmişəlik də o qəlblərin sakini oldu. Həmişə sadə, təvazökar insan olub Vətən balalarıyla əl verib görüşdü, onlarla bir gülüb, bir oynadı. Unutmadı heç bir zaman cəmiyyətin gələcəyi olan uşaqları. Heydər Əliyev böyüklərə qarşı nə qədər sərt və tələbkar idisə, uşaqlara qarşı son dərəcə mərhəmətli və nəzakətli idi. O, uşaqları hədsiz sevgi ilə sevir, onların hər birinə doğma münasibət bəsləyirdi. Heydər Əliyev hər zaman uşaqların təhsilinə, onların savadlı və cəmiyyət üçün yararlı olmlarına çalışmışdır. Uşaqların hər biri onu doğma babası kimi sevirdi. Heç bir tədbir Heydər Əliyevsiz keçmirdi. O, hər kəsin – mənim də, sənin də çox yaxın dostu idi.

2003-cü ilin 12 dekabr günü. Sağlığında Səməd Vurğunun «Azərbaycan» şeirini kövrələrək necə deyib ağlamışdısa, yoxluğuyla da onu sevənlərin ürəyinə elə təsir etmişdi. Bu itkiylə xalq yox, yurdumuzun təbiəti də barışa bilmirdi. Əslində o gün göydən yağış yox, milyonların göz yaşları yağırdı. Mən onun cismani ölümünü təsvir etmək istəməzdim. Çünki qəhrəmanlar ölmürlər, Vətəninin, xalqının qəlbində, hafizəsində yaşadılar özlərini. Bətnləri Vətən torpağında uyusa da, ruhları onun göylərində gəzir.



O, unudulanlardan yox, unutduranlardan oldu. Vətənimin ağrı-acılarını, anaların naləsini, şəhidlərimizin faciəsini unutdurdu bizlərə. Təkcə bizlərə yox, bütün dünyaya göstərdi türkün gücünü, onun yenilməz qüdrətini. Heydər Əliyev bütün Şərqin əfsanəvi siması idi. O bu əfsanəni həqiqətə çevirmişdi. Onu Tanrım Yer üzünə dünyanın əşrəfi olan insanın necə böyük qüvvəyə, parlaq zəkaya, tükənməz gücə malik olduğunu sübut etmək üçün göndərmişdi. Xəritədə qanadlarını açıb uçan qartalın – Azərbaycanın ürəyi idi Heydər Əliyev. Bu həyatdan Dünya azərbaycanlılarını bilik və vəhdətə səsləyib bütün türk xalqlarının yenilməz şəxsiyyəti, Azərbaycanın xilaskarı, millətimin dostu, ən əsası isə bugünkü yeni Azərbaycan qurucusunun atası olaraq köçdü. O, Nəqşi-cahanda dünyaya göz açdı. Cavidimizin uyuduğu torpaqda da gözlərini həyata əbədi olaraq yumdu.

Bu vətən bütün varlığıyla-yoxluğuyla, azıyla, dəhşətləri, sevincləri ilə onun evi idi. Heydər Əliyev bir məmləkət qurdu ki, o, dünyanın hər bir yerindən – zamanın keçmişindən, dövranın indisindən, əsrin gələcəyindən görünürdü.

Biz Məhəmməd Əminlə yoxdan bir bayraq, müqəddəs bir ideal yaradıb «bir kərə yüksələn bayraq, bir daha enməz» dediksə, Heydər yadigarı İlhamla bir gün ordumuzun zəfər bayramını Qarabağımızda qeyd edəcəyik! Vətən torpağının yürüşünə çıxacaq, üçrəngli bayrağımızı ən uca zirvəyə sancacağıq! O gün mütləq gələcək!



## Sədirova Aytən Elxan qızı

*Bakı şəhəri, 87 nömrəli*
*tam orta məktəbin VIII sinif şagirdi*

İllər ötür, fəsillər keçir, yaşadığımız anlar tarixə və xatirəyə çevrilir. Bəzən biz hətta öz ömrümüzün müəyyən anlarını da unuduruq. Çünki ömür yolunun bütün məqamlarını xatırlamaq, yada salmaq mümkün deyildir. Amma dünyada elə şəxsiyyətlər vardır ki, onların yaşamının hər bir anı, hər bir günü insanlar üçün maraqlıdır. belə şəxsiyyətləri seçilmiş insanlar adlandırırlar. Çünki həmin adamlar mənsub olduqları millətləri, xalqları təmsil edir, bəzən də dünya həmin millət və xalqları məhz həmin şəxslərə görə tanıyır. Heydər Əliyev və onun həyatının hər bir anı hər kəs üçün maraqlı olan şəxsiyyətlərdən biridir.

Adətən, tarixi şəxsiyyətləri kainatın dərinliyində parlayıb-sönən ulduzlara bənzədirlər. Elə ulduzlara ki, onların işığı nəsildən-nəslə yayılaraq əbədiyyətə qovuşur. Ümummilli liderimiz Heydər Əliyevi yalnız parlayan, sönmək bilməyən parlaq ulduza bənzətmək olar. Çünki Heydər Əliyev Azərbaycanın timsalında öz kainatını yaratdı, bu kainatın ulduzuna deyil, əbədi günəşinə çevrildi.

1923-cü il mayın 10-da qədim Naxçıvan torpağında, dəmiryolçu Əlirza kişinin ailəsində bir uşaq dünyaya gəldi. Ona Heydər adını qoydular. Onda hələ heç kəs bilmirdi ki, bu körpə XX əsrin dahi şəxsiyyətlərindən, dünya siyasətinin nəhənglərindən biri olacaqdır.

Ulu Öndər gəncliyində memar olmaq istəyirdi. İstəyirdi ki, yaratdığı sənət nümunələri əbədi yaşayan olsun. O, Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alıb. Amma insanın yaşamına, taleyinə rövnəq verən illər onu siyasət meydanına atdı.

34 il Heydər Əliyevin rəhbərliyi ilə xalqımız sosial-iqtisadi tərəqqi, milli oyanış, mədəni intibah, azadlıq hərəkatı missiyasından keçərək müstəqillik əldə etmiş, suverenliyini və milli birliyini qorumuşdur.



Həmin dövr müasir tariximizə Heydər Əliyev erası kimi həkk olunmuşdur. Ulu öndər Heydər Əliyev böyük uzaqgörənliklə «Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam. Mənim həyatım həmişə xalqla bir yerdə olub» – dedi və xalqımızın qarşısındakı möhtəşəm xidmətlərinə görə tarixdə əbədi yaşamaq haqqı qazandı.

Böyük öndər Heydər Əliyev həyatı və fəaliyyəti boyu xalqını özünə arxa bilmiş, özü də xalqa dayaq durmuşdur. Dillər əzbəri olan «Xalq–Heydər! Heydər–Xalq!» deyimi də məhz bu qırılmaz bağlılığın dəqiq ifadəsidir.

İnsan müqəddəs varlıqdır. Onu kateqoriyalara bölmək düzgün deyil. Amma şəxsiyyətləri müəyyənləşdirən bəzi kriteriyalar mövcuddur. Bunlar arasında şəxsiyyətlərə xas olan xüsusiyyətlərin ən alisi səmimi, qətiyyətli və müdrik olmaqdır. Bu kriteriyalardan biri hər hansı insanda varsa, o kəs xalqın rəğbətini qazana bilər. Heydər Əliyev isə bu xüsusiyyətlərin hər üçünü özündə cəmləşdirən şəxsiyyət idi. Buna görə də onun qazandığı ümumxalq məhəbbəti ölçüyəgəlməzdir.

Dahi şəxsiyyətlərin tarixdəki rolu danılmazdır. Zamanın yetişdirdiyi Heydər Əliyev kimi nadir dühaların qismətinə isə nəinki mənsub olduqları xalqın taleyində, eləcə də dünya siyasətinin formalaşmasında böyük bir missiyanı həyata keçirmək səadəti nəsib olmuşdur.

Böyük şəxsiyyətlər tarixin sütunlarıdır. Onlar nə qədər möhkəm və davamlı olsa, bəşəriyyətin inkişafı da bir o qədər dayanıqlı olar.

Vətənə, insana, torpağa tükənməz məhəbbəti olan ulu öndər Heydər Əliyevin xarakterində böyüklük, sədaqət və cəsarət var idi. Xalqın mədəni irsinə dərin sevgi, Odlar Yurdunun keçmişinə maraq Heydər Əliyevdə həmişə olmuşdur.

Həyatın sevincini və zamanın sürətli axınını qabaqlayan Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı.

*Ucaltdı hər yerdə bayrağımızı,*
*Yazdı tarixlərə ad-sanımızı,*
*Tanıtdı dünyada varlığımızı,*
*Ulu bir sərkərdə, Ulu bir Öndər.*

22 il əvvəl xalqımızın həyatında böyük dəyişiklik baş verdi. Ölkəmizin başı üzərini almış qara buludların arasında əbədi bir günəş parladı. Bu günəşin nuru, şəfəqləri ölkəmizin hər yerinə yayılaraq bütün Azərbaycanı işığa qərq etdi. İllərlə buza dönmüş könüllərə hərarət, taqətdən düşmüş dizlərə güc, gözlərə nur gəldi. Bəli, bu Heydər Əliyev zəkasının nuru idi. Bu nurun qarşısında zülmətlər əridi, qaranlıqlar məhv oldu. Sözsüz ki, Heydər Əliyevin

dahiliyi, böyüklüyü, unikal bir şəxsiyyət olması xalqımıza çoxdan məlum idi: 1969-cu ildən başlayaraq gördüyü nəhəng işlər heç kimin yadından çıxmamışdır. Lakin 1993-cü ildə ölkəmizin üzərini şimalın topa-topa qara buludları alanda gözlər Heydər Əliyevi Azərbaycana gətirəcək yollara dikilmişdi. Heydər Əliyev xalqın vəziyyətini yaxşı bildiyi üçün ona ünvanlanmış xahiş və tələbləri qəbul edərək yenidən hakimiyyətə qayıtmağa razılıq verdi:

Azərbaycan ədəbi dili məhz Heydər Əliyevin nitqində dünyanın ən yüksək kürsülərində səslənirdi. Heydər Əliyevin gərgin əməyi və xidmətləri sayəsində Azərbaycan dili bu gün özünün inkişaf dövrünü yaşayır. Dil yaşayırsa, inkişaf edirsə, deməli, millət də yaşayır və inkişaf edir. Heydər Əliyev sözlərinin çəkisi və sanbalı olan, xalqı arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir natiq idi.

Heydər Əliyev qısa müddətdə sənayeni inkişaf etdirərək Azərbaycanı neft-kimya sənayesi ölkəsinə çevirdi. Təkcə biz yox, bütün dünya bilir ki, «Əsrin müqaviləsi»nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik Bakı–Tbilisi–Ceyhan neft kəmərinin reallaşması Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına əfsanə kimi görünən layihələri məhz Heydər Əliyevin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində həyata keçirmək mümkün olmuşdur.

Heydər Əliyevin başladığı işlər bu gün onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərinin dünya miqyasında qazandığı böyük nüfuz, nəhəng dövlət başçıları ilə bərabərhüquqlu tərəfdaş kimi apardığı danışıqlar, xalqımızın həqiqətlərini uca səslə bəyan etməsi bir daha sübuta yetirir ki, Heydər Əliyevin dövlətçilik ideyalarının, Heydər Əliyev yolunun alternativi yoxdur. Bu yol xalqımızı yeni-yeni uğurlara, zəfərlərə aparır.

Biz hamımız bu gün böyük qürur hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycan Ulu Öndərimizin şah əsəridir, onun öz xalqı qarşısında əvəzsiz tarixi xidmətidir.

Bizim borcumuz Heydər Əliyev ideyalarını cəmiyyətdə bundan sonra da yaymaq, ləyaqətlə inkişaf etdirməkdən ibarət olmalıdır. Nə qədər ki Azərbaycan xalqı var, ümummilli liderimiz Heydər Əliyevin parlaq xatirəsi qəlbimizdə yaşayacaq, onun mübariz əməlləri yüz il sonra da nəsillərə örnək olacaqdır.





## *Şərifova Səkinə Arif qızı*

***Naxçıvan Qarnizonu tam orta məktəbin IX sinif şagirdi***

*«Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam».*

**Heydər Əliyev**

Bu sözlər adını və əməllərini həmişə hörmət və ehtiramla xatırladığımız xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevə məxsusdur.

Sözgəlişi deyilməyən bu kəlamların arxasında fövqəlbəşər bir insan, bütün mənalı həyatını dövlətinin, xalqının, millətinin, Vətəninin tərəqqisinə, inkişafına və xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndərin söz və əməl birliyini görürük. Qarşımızda dünyanı heyran qoyan ən böyük azərbaycanlıların əzəmətli obrazı canlanır. Elə bir azərbaycanlının ki, sağlığında xalqımızın qəlbində özünə əbədi yuva qurmuş, ürəklərdə, arzularda heykəlləşmişdir. İstər Vətəndə, istərsə də doğma diyarımızdan çox-çox uzaqlarda özünü bir an da olsun belə Azərbaycanımızdan ayrı hiss etməmiş, qəlbi həmişə Azərbaycanla birgə döyünmüşdür. Səməd Vurğunun «Azərbaycan» şeirini söyləyərkən, hansı kövrək hisləri keçirdiyinin hər birimiz şahidi olmuşuq.

*«El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən...»*

Dünyanın məşhur dövlət rəhbərləri, elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri Heydər Əliyev fonomenini təbiətin yüz ildə, min ildə bir dəfə yaratdığı nadir şəxsiyyət, Azərbaycanın hüdudlarına sığmayan beynəlxalq səviyyəli bir siyasətçi, uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini, bugünkü mövqeyə çatmasını təmin edən ölkə başçısı, bütün çətinliklərdən, ən ağır sınaqlardan keçməyi bacaran rəhbər kimi qiymətləndirirlər. Hətta Azərbaycan xalqına qibtə edirlər ki, belə bir dünyagörüşlü milli liderimiz olmuş və onun ideyaları bu gün də müstəqil dövlətimizdə uğurla həyata keçirilməkdədir.

Doğrudan da, Azərbaycan xalqı xoşbəxt xalqdır. Çünki bu xalqın taleyinə Heydər Əliyev kimi böyük bir xilaskar düşmüşdür. Məqsədi Azərbaycan, Azərbaycan xalqı, Azərbaycan Respublikası, Azərbaycan vətəndaşı olan Heydər Əliyev ürəklərimizdə yaşayır. Onun ideyaları bizi daha xoşbəxt gələcəyə aparır. Başa çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri onun layiqli davamçısı olan hörmətli Prezidentimiz cənab İlham Əliyev, yüzlərlə, minlərlə Heydər Əliyevçilər həyata keçirirlər. Azərbaycan deyəndə Heydər Əliyev, Heydər Əliyevin adı çəkiləndə isə çiçəklənən Azərbaycanımız yada düşür. Müasir müstəqil Azərbaycan Respublikasının qurucusu, ümummilli liderimiz Silahlı Qüvvələrimizin əbədiyaşar Ali Baş Komandanı ölməz Heydər Əliyevdir. Fəxrlə, qürurla etiraf edirik ki, bəli, bugünkü Azərbaycan Heydər Əliyevin şah əsəridir. Nə qədər ki Azərbaycan var, deməli, Heydər Əliyev də var və tarix durduqca əbədi yaşayacaqdır.

«Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir», – deyən Ümummilli lider 1994-cü ildə Gənclər və İdman Nazirliyinin əsasını qoydu. Gənclərə etibar edən Ulu Öndər onlarla ünsiyyətin tərəfdarı idi və mütəmadi görüşlər keçirməklə, onların düşüncəsini, fikirlərini və təkliflərini öyrənir, müvafiq addımlar atırdı. Elə gənclərlə bu cür ünsiyyətin qurulması üçün ilk dəfə ümummilli lider Heydər Əliyev1995-ci ildə gənclər forumunun keçirilməsi haqqında təklif irəli sürdü və bundan sonra 1996-cı ildən başlayaraq forumlar təşkil edildi.

Zirvələr fatehi Heydər Əliyev ömrü boyu xalq üçün, yurd üçün, dövlət üçün çalışdı. Müstəqil, suveren Azərbaycan Respublikasını yaratdı, «Əsrin müqaviləsi»ni imzaladı. Təhsilimiz, elmimiz dünya təhsil sisteminə inteqrasiya olundu. Torpaq sahibinə – kəndliyə qaytarıldı.



Heydər Əliyev! Bu ad Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuşdur. Bu ad Azərbaycan xalqı üçün çox-çox əziz, doğma və müqəddəsdir.

*Əbədi rəhbərsən Azərbaycana,*
*Ona həyat verdin,*
*sən həyan durdun.*
*Ölkəni tanıtdın bütün cahana,*
*Onu sən yaratdın,*
*onu sən qurdun.*

Sevimli babam, Siz həmişə azərbaycanlı olmağınızla fəxr etdiyiniz kimi, Azərbaycan xalqı da dünyaya Sizin kimi dahi bəxş etdiyi üçün qürurlanır. Heç bir lider xalqını Sizin kimi sevməyib. Sizdən bizə çox yadigar qalıb.

Bilikli alimlərdən biri demişdir: «Elə yaşa ki, öləndən sonra da ölməyəsən». Ölməzlik, həmişəyaşarlıq isə ancaq dahilərə, böyük şəxsiyyətlərə nəsib olan xoşbəxtlikdir. Xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev də məhz belə xoşbəxtlərdəndir. Bənövşə ətirli bir bahar günündə dünya göz açan bu bahar oğlu xalqına əbədi bahar gətirmiş, öz ömür kitabını şərəfləndirən cahanşümul uğurlara imza atmışdır.

Heydər Əliyev ocağının qılınc kimi kəsərli sözü, əməli olan İlham Əliyev, Tomris qeyrətli, Sara xatun siyasətli Mehriban Əliyeva kimi varisləri var. Onlar da biz gəncləri çox sevir, xoşbəxt gələcəyimiz üçün əllərindən gələni əsirgəmirlər.

Mən gələcəkdə oxuyub müəllim olmaq arzusundayam. Bu peşə sahibi olduqda ilk dərsim «Heydər Əliyev» olacaqdır. Dahi rəhbər vaxtilə demişdir: «Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda həmişə olacağam». Onun ən böyük abidəsi xalqın ürəyindədir.

Mən bu gün özümü xoşbəxt sayıram. Ona görə ki, Heydər Əliyevin vaxtilə prezident olduğu, əmin-amanlıq yaratdığı bir ölkədə yaşayıram. Mən inanıram ki, onun qurduğu Azərbaycan dövləti yüksək inkişaf səviyyəsinə qalxacaq, xalqımız xoşbəxt və firavan bir həyat sürəcəkdir.

Azərbaycan bizə babaların əmanətidir, ulu öndərimiz Heydər Əliyevin əmanətidir. Prezident İlham Əliyev isə Azərbaycan adlı əmanətin etibarlı dayağı, həqiqi qarantıdır.

Əziz və ölməz rəhbərimiz, hər an, hər dəqiqə, hər saat, hər yerdə qəlbimizdəsiniz. Sizinlə həmişə fəxr edəcək, Sizin adınıza layiq oxuyacaq, bizlərə əmanət etdiyiniz Azərbaycanı göz bəbəyimiz kimi qoruyacağıq.

*Yurdunu dünyaya tanıdan dahi,*
*Səni də yüksəltdi böyük ilahi,*
*Köçdün ürəklərə, ey böyük insan,*
*Haqqın özü idin, bilir yaradan.*

Bu gün hərtərəfli dövlət qayğısı ilə əhatələnmiş Azərbaycan gəncliyi Heydər Əliyev ideyalarına sadiqdir və biz gənclər bundan sonra da dövlətimizin parlaq gələcəyi naminə, Vətənimizin inkişafı üçün böyük səylə çalışacağıq. Prezident İlham Əliyevin göstərdiyi etimadı doğruldacağıq.





## Allahverdiyeva Nurcan Elçin qızı

**Quba şəhəri, A.Məmmədov adına 2 nömrəli Təbiət fənləri təmayüllü məktəb-liseyin VIII sinif şagirdi**

*Bu qala bizim qala,*
*Həmişə bizim qala.*
*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala.*

Doğma yurdum Azərbaycanın nə qədər qədim olduğu qədər də möhtəşəm və əzəmətli qalaları var: Şuşa qalası, Ərk qalası, Gülüstan qalası, Dərbənd qalası. Qalalar mənim gözündə ən uca, yenilməz və düşmənlərə meydan oxuyan bir abidədir. Elə bir abidə ki, quruluşu, tikilişi baxımdan madiyyatla bağlı olsa da, görünüşündə böyük, ulu bir xalqın mənəviyyatı, məğlubedilməzliyi, tükənməzliyi, əbədiliyi əks olunub. Amma mənim – 14 yaşlı məktəblinin qəlbində bu qalaların məcmusu, tikilişindəki mənəvi ölməzlik və yenilməzlik qururunun daha yüksək həddə çatdığı bir qala ucalır. Bir qalaya «Heydər qalası» adını vermişəm. O biri qalalar kim qala ucalır. Bir qalaya «Heydər qalası» adını vermişəm. O biri qalalar kim müqəddəs vətən daşından tikilsə də çox fərqlidir «Heydər qalası». Bu qala həm ümumidir, həm də xüsusi. Ümumi adı «Bizim qalamız»dır. Mənim könlümdə isə «Mənim qalam». Palçığı, qumu, gili Naxçıvan torpağından yoğrulmuş, içərisinə durna gözlü, ayna bulaqların suyu qatılmış, rənginə «Azərbaycan mənim eşqim, mənim andım» qanı hopmuşdur. Elə bir rəng ki, xeyir şərə, nur zülmətə, ağ qaraya qalib gəlmək üçün bu rəngə boyanır.

Bəs kimdir bu qalanın memarı? Bəs nədir onu «mənim qalam», «bizim qalamız» edən? Nə üçün o bütün azərbaycanlıların qəlbində tikilib? Nədir onu bu qədər sevdirən, əbədiləşdirən?

Bu qala – Azərbaycandır. Dağından, daşından, elindən, obasından, gülündən, çiçəyindən, ərindən, igidindən,sözündən, bəstəsindən ilham aldığımız vətənimiz. Bu qalanın canına can qatan. onun mübarizliyinə zamin

duran, onu nəfəsi, nəzəri, düşüncə və fəaliyyəti ilə yaradan, quran memarı var. Elə bir memar ki, gecəyə, iblisə, namərdə, küləyə, sazağa qalib gələrək yaratdı, ucaltdı onu.

Bəli, «Naxçıvan memarlar atasının yurdudur» deyəcəksiniz. Əbubəkr Əcəmi Naxçıvaninin yurdunda doğuldu bu memar. Amma bir-iki ilə kifayətlənməyən memar. O memar ki, xatirələrdə yurdu kiçik olsa da, böyük dünyaya: «Mənə bax, bax», – dedi.

Heydər Əliyev ucaltdı yurdunu, obasını. Heydər bina etdi «Azərbaycan qalası»nı. Bu memar güc verdi yazan əllərə, nəğmə qoşan dillərə, düşmənin canına vəlvələ salan yellərə, əks-sədası üstün gəldi coşan sellərə. Ömrünü şam tək əritdi vətən yolunda, xalqın ağır günündə ona dayaq oldu, xalqı özünə vəkil etdi. Xalq bu şəxsiyyətə güvəndi. «Heydər dağı» dayaq oldu Azərbaycana. Haqq səsini yetirdi uzaq-uzaq ölkələrə. Sözü, sədası, nidası, ömrünün «kəlmeyi-şəhadəti» oldu «Müstəqil Azərbaycan» kəlməsi.

Əsarət zəncirini qırdı, Azərbaycanı xəcalətdən qurtardı. Bir yumruq kimi birləşdirdi Azərbaycanı. Qurtuluş zənginin səsini cingildətdi qulaqlarda. Vətəndaşlıq dərsi keçdi, yerə sərdi namərdi el qınaqlarında. Kür Araza qarışdı, Xəzərə qovuşdu. Vətənin dağı-daşı gülüşdü, möcüzələr yaratdı memar. Dərəyə dağ, köhnəyə çağ, sola-sağ,ürəyə yağ oldu. Zülmət dünyasına ağ qoç, çaqqala şir, arxasıza dayaq oldu Müstəqil Azərbaycanın memarı.

Ağlaya-ağlaya gəlmişdi baharın çiçəyi çırtlayan vaxtında. Bahara döndərdi xalqının ömrünü, gününü, rüzgarını. Xain, ayrılıq salan əllər bənd-bənd kəsildi. Qəhrəmanlıq salnaməsinə neçə-neçə Azərbaycan oğulları öz adlarını yazıblar. Tarix hərəsini bir vərəqə çevirib onların. O isə qəhrəmanlıq salnaməsinin mahiyyətini dərk etdirdi bizə. Ay-ulduz işıq saçır yolçuların yoluna. O isə bizə azmamağın yolunu öyrətdi. Günəş gündüzün canı olur, nura qərq edir cahana. O isə Günəş olub sönməməyi öyrətdi bizə. Qəhrəmanlar, şir ürəklilər dastana çevriliblər. O, bizə dastana çevrilməyin yolunu öyrətdi.

Dədə Qorqud xalqı dar günündə, şad günündə tonqal qalayıb yığardı Oğuz elinə. Birləşməyi, bir olmağı öyrətdi. İsgəndər dirilik suyunun dalınca getmişdi. Əbədiyyətin nə olduğunu elinin qəlbində əbədi qala qurması ilə göstərdi.

Amma bir gün... Qışın şaxtasına, boranına hayqıraraq «mən ömrümün qalan hissəsini xalqıma bağlayıram», – deyən memar bütün ömrünü bağışladı Azərbaycana. Xoşu gəlirdi Məmməd Arazın «Düya mənim, dünya sənin» şeirindən. Dünyanın fani olduğunu qəlblərdə əbədi olaraq qalması



ilə göstərdi. Bax buna görə də «Bizim qalamız» oldu. Mən də bu qalaya baxıb qəlbimdə kiçik bir qala qurdum. Adını da qoydum «Heydər qalası».

Nə qədər ki, mən varam bu qala var. Nə qədər ki, Azərbaycan xalqı var, «Bizim qala»var.

Heç kəs yaşaya bilməz yaşadığın həyatı. Sənin fədakarlığın zamanın yaddaşında dörd misralıq bayatıya dönəcək:

*Bu qala bizim qala,*
*Həmişə bizim qala.*
*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala.*

Mən də bir şagird olaraq demək istəyərdim ki, öz inşamla bu müsabiqəyə fərəh hissi ilə qatıldım. Amma inşamla qalamın qurulmasına yox, izimin qalması üçün qatıldım. Mən fərəh hissi duyuram ki, hazırda müstəqil Azərbaycanın memarının həyat yoldaşının adını daşıyan məktəbdə Ümummilli Liderimiz haqqında inşa yazıram. Mən həm bununla, həm də azərbaycanlı olmağımla fəxt edirəm!!!



## *Ağayev Mirceyhun Eldəniz oğlu*

***Xaçmaz rayonu, akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-liseyin X sinif şagirdi***

Tarixdə öz əməli, müdrikliyi və uzaqgörən siyasəti ilə əbədi iz qoymuş şəxsiyyətlər çox olub. Təbii ki, onları bir-birilə müqayisə etmək düzgün olmazdı. Çünki belə şəxsiyyətlər gördükləri işə görə seçilirdilər. Həyatda elə şəxsiyyətlər də vardır ki, onlar ömrünü xalqının firavanlığına, ölkəsinin inkişafına, qüdrətlənməsinə, dünyanın inkişaf etmiş ölkələri cərgəsinə qoşulmasına sərf edir.

Belə şəxsiyyətlərdən birinin adını uşaqlıq yaşlarından duymağa başladım. Ona Ulu Öndər deyirdilər. Sonra məktəbimizin divarlarında, kitabların ilk səhifəsində şəklini və adını gördüm: Heydər Əlirza oğlu Əliyev.

Heydər Əlirza oğlu Əliyev 1923-cü ilin may ayının 10-da anadan olmuşdur. Valideynlərinin ona qoyduğu ad sanki onun gələcək həyatını müəyyənləşdirmişdir. Qədim türk dilində «Heydər» sözünün «qabaqda, irəlidə, öndə çapan atlı» mənasında olması da əbəs yerə deyildir. Azərbaycanın liderinin, dünyanın dahi rəhbərlərindən birinin həyatı qədim Naxçıvan torpağında keçmişdir. İllərdir onu və onun həyatını öyrənməyə çalışdım. Doğrudur, bir insanın həyatını bilmək vacibdir, ancaq onu anlamaq, dərk etmək daha vacibdir. Heydər Əliyevi tanımaq üçün onun fikirlərinə, ideyalarına bələd olmaq lazımdır. Heydər Əliyev ideyaları isə Azərbaycana, azərbaycançılığa, türkçülüyə, müasirliyə və demokratiyaya xidmət edən amallarla zəngindir.

Heydər Əliyev vətənini dərin məhəbbətlə sevən, xalqına əvəzsiz xidmətlər göstərmiş nadir şəxsiyyət idi. Müstəqilliyi qazanmaq çətin olduğu kimi onu qoruyub, saxlamaq da bir o qədər çətindir. Məhz XX əsr dünya siyasətinin nəhəng simalarından biri olan Heydər Əliyev ən yeni Azərbaycan tarixinin yaradıcısı, müasir, dünyəvi və hüquqi dövlətimizin banisi oldu.



Əbədiyaşar liderin böyük fəaliyyəti, ötən əsrin 60-cı illərindən başlayaraq Azərbaycanda 30 il fəaliyyət göstərməsi ölkəmizi nəinki keçmiş ittifaq mərkəzində, hətta dünyada belə sayılan, seçilən dövlətlər sırasına qaldırdı.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkənin ictimai-siyasi həyatında canlanma baş verdi, xalq rahat nəfəs almağa başladı. Heydər Əliyevin əzmi, cəsarəti və böyük dünya təcrübəsi sayəsində ölkədə separatçılığın qarşısı alındı, qanunsuz silahlı dəstələr ləğv edildi. Onun keçirtdiyi islahatlar nəticəsində sahibkarlığa geniş meydan verildi. Kəndli öz torpağının əsl sahibi oldu. İstedadlı gənclərin tanınması məqsədi ilə müsabiqələr təşkil edildi. Ölkədə geniş abadlıq işlərinə başlanıldı. Bütün bunlar Heydər Əliyevin cəsarətinin, böyük dünya təcrübəsinin bəhrələri idi.

Həyatını xalqının xoş gələcəyinə həsr etmiş dahi öndər xalqına sonsuz güvənən, arxalanan bir insan idi. Dahi şəxsiyyətin dediyi kimi: «Mən belə bir məsuliyyətli işi ö üzərimə götürərkən Azərbaycan xalqının elminə və zəkasına arxalanıram».

Heydər Əliyev xalqının görən gözü, vuran əli, ən önəmlisi də düşünən beyni idi. O, xalqına, vətəninə, elinə və obasına dərin məhəbbətlə bağlı olan bir insan idi. Ulu öndər əbəs yerə deməmişdir: «Mən fəxr edirəm ki, mən azərbaycanlıyam».

Heydər Əliyev şəxsiyyəti hələ də axıradək öyrənilməmişdir. Dahi şəxsiyyətin siyasət aləmini bitməz-tükənməz, sahilləri görünməyən ümmana bənzətmək olar. Əlbəttə, belə bir şəxsiyyət haqqında olan fikirləri kiçik bir yazıda işıqlandırmaq olmur. Onun həyatı cild-cild kitaba sığmaz.

Hazırda Heydər Əliyevin qoyub getdiyi daxili və xarici siyasətin nəticəsində Azərbaycan Respublikası sürətlə inkişaf edir, ölkəmiz dünya səviyyəsində sayılıb seçilən dövlətlər sırasına daxil edilmişdir. Məhz bu siyasəti Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev cənabları davam etdirir. İlham Əliyevin siyasəti də xalqımız tərəfindən bəyənilir və təqdirəlayiq qiymətləndirilir.

Ölkəmizdə ən gözəl parklar, küçələr, muzeylər Ümummilli Liderin adını daşıyır. Onun adı daim əbədiləşir.

Hörmətli Prezidentimiz İlham Əliyevin də dediyi kimi: «Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir».

Demək olar ki, Heydər Əliyevin bütün arzuları reallaşıb. Bir arzusundan başqa: Dağlıq Qarabağ problemi. Mən inanıram ki, İlham Əliyevin düşünülmüş daxili və xarici siyasəti nəticəsində tezliklə biz bu sevinci də yaşayacağıq.

Ümummilli Liderin ildönümü hər il xalqımız tərəfindən ona layiq bir şəkildə keçirilir. Ulu Öndərin 92-ci ildönümüylə əlaqədar olan bu qeydlərimi yekunlaşdırmaq istərdim. Ruhun şad olsun, Azərbaycanın «Sönməz Günəşi»! Ruhun şad olsun, ölümü ilə ölümsüzlüyə qovuşan Ulu Öndər!

*Ata-Oğul! Azərbaycan adınızla yüksələcəkdir,*
*Gələcək bizimdir, tarix sizindir.*
*Oxuyub adınızın salnaməsini,*
*Bütün türk dünyası baş əyəcəkdir.*





**Ağayeva Aişə Hikmət qızı**
**Bakı Slavyan Universiteti nəzdində məktəb-lisey kompleksinin X sinif şagirdi**

*O odlar yurdunun qələbə rəmzi,*
*O, bizim millətin azadlığıdır.*
*Heydər baba adı tariximizin,*
*Qeyrət zirvəsidir, hünər dağıdır.*

Dünyanın ilk insan düşərgələrindən biri olan Azərbaycandan təbiət heç nəyi əsirgəməyib. Uca dağlar, yamyaşıl meşələr, kəhrəba zəmilər, axar çaylar, mavi göllər, durnagözlü bulaqlar, barlı-bəhrəli bağlar... Və hər şeydən öncə mehriban, səmimi, qayğıkeş, müdrik, mübariz, dəyanətli, yaradıcı insanlar.

Azərbaycan böyük şəxsiyyətlər, müdrik insanlar, mahir sənətkarlar, yenilməz, əyilməz sərkərdələr beşiyidir. Bu beşikdən pərvazlanan dühalar əsrlər boyu mənsub olduqları xalqa başucalığı gətirmiş Azərbaycan elinin – Odlar yurdunun şan-şöhrətini bütün dünyaya car etmişlər.

Ötən XX yüzillik Azərbaycan xalqının tarixinə Heydər Əliyev əsri kimi daxil olmuşdur desək, yanılmarıq.

Heydər Əliyev... Bu ad özünü azərbaycanlı sayan, yaxud Azərbaycana bu və ya digər dərəcədə bağlı olan hər bir kəsə çox şey deyir və ona çox doğmadır. Belə ki, «Heydər Əliyev» ifadəsi nəinki təkcə siyasi şüurlarda, hətta gündəlik həyatımızda da Azərbaycan sözünün sinoniminə çevrilib. Biz Azərbaycan deyəndə Heydər Əliyevi, Heydər Əliyev deyəndə Azərbaycanı göz önünə gətiririk. Azərbaycanın, Azərbaycan dövlətinin və Azərbaycan xalqının taleyi Heydər Əliyevin taleyi idi. Və əksinə, Ümummilli Liderim, sözün bütün mənalarında, özünü doğma xalqına, Azərbaycanına həsr etmişdi. Ömrünü, taleyini Azərbaycana bağlayanlar çox ola bilər. Ömrünü,

özünü, taleyini, bütün varlığını Azərbaycana həsr və fəda etmək isə... Bu artıq seçilmiş insanların işidir. Heydər Əliyevin həyatı biz gənclər üçün bənzərsiz bir nümunədir.

Bəli, Heydər Əliyevin böyüklüyü ilk növbədə onun milliliyində, mənsub olduğu xalqda, adət-ənənələrlə bağlılığında, vətənpərvərliyində idi. O, duyğu və yanğıları ilə sözün əsl mənasında, əsl azərbaycanlı idi. Heydər Əliyevin həyatsevərliyinin, bitib-tükənməyən həvəsinin təməlində Ana Vətən, doğma Azərbaycan dayanırdı. Bu böyük insan köklərə möhkəm bağlı olduğuna görə güclü, qüdrətli idi. Böyük öndər bütün həyatı və fəaliyyəti boyu xalqını özünə arxa sanmış və özü də xalqa dayaq durmuşdur. Dillər əzbəri olan «Xalq – Heydər! Heydər – Xalq!» deyimi də məhz bu qırılmaz bağlılığın dəqiq ifadəsidir.

Müasir Azərbaycanda dövlət quruculuğunun iqtisadi dirçəlişin, siyasi həyatın son otuz ildən artıq bir dövrünü əhatə edən hamar kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin – Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin təməlini təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Heydər Əliyevin iqtisadi, siyasi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar Azərbaycanın gerçəkliyinə çevrilmişdir.

Hər bir azərbaycanlının həyatında Heydər Əliyev dühasının bir zərrəsi vardır. Mənim həyatımda Heydər Əliyevlə bağlı gözəl bir xatirə yaşayır...

Novruz bayramı tədbirlərindən biri idi. Tədbirimizdə dahi şəxsiyyət Heydər Əliyev və İlham Əliyev də qonaq olmuşdu. O, rəqs edən uşaqlara yaxınlaşaraq bizi nəvazişlə dindirdi. Bu, mənim həyatımda dərin iz buraxan, unudulmaz və gözəl anlardan biri idi. Heydər Əliyevin mənim rəqsimi bəyənərək, İlham Əliyevə məni işarə edib göstərməsi isə məni daha çox sevindirmişdir. Bu, çox sevindirici hal oldu. Bir çox yaşıdlarımdan fərqli olaraq, Heydər Əliyev kimi dahi, müdrik, qüdrətli bir insanla şəxsən ünsiyyət qurmaq, təmasda olmaq isə çox böyük şansdır. Onun uşaqlarla olan münasibətindən, gözlərindən o sevgini, qayğını, isti məhəbbəti sezmək olurdu. Mənə onun sevgisini, nəvazişini duymaq nəsib olmuşdur. Buna görə də mən özümü çox xoşbəxt hiss edirəm.

Bu gün, bəlkə, o bizimlə deyil, amma ruhən hər zaman xalqımız onu qəlbində yaşadıb və yaşadacaqdır. Onun sayəsində dirçələn, ayaqda duran



Azərbaycan ona borcludur. Öndərin bizə qoyduğu bu mirası, bu xəzinəni göz bəbəyimiz kimi qorumalıyıq. Biz gənclər, biz uşaqlar ana Vətənimizi, doğma Azərbaycanımızı qoruyub gələcək nəsillərə ötürməliyik.

Mən bu gün öz vətənimlə, xalqımla, Azərbaycanımla fəxr edirəm. Təməli Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanımla! Atasının siyasətini davam etdirən İlham Əliyev cənablarının yaşadığı bir ölkədə yaşadığıma görə şərəf və qürur hissi duyuram.



## *Bayraməli Şaxanım İlqar qızı*

***Bakı şəhəri, C.Məmmədyarov adına 155 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

*Könlünü, gözünü verib işinə,*
*Baxıb həyatının yüksəlişinə.*
*Həyatdan doymayan, işdən doymayan,*
*Əfsanə sözlərə məhəl qoymayan,*
*Xalqıyla sevinən, xalqıyla gülən,*
*Vətənçün yaşayan, vətənçün ölən*
*Sevimli bir insan nə bəxtiyardır.*

**M.Müşfiq**

Mən də bu gün öz yazımda bütün həyatını xalqına, vətəninə həsr etmiş böyük bir şəxsdən bəhs etmək istəyirəm. Əlbəttə, bu ulu şəxs haqqında söz tapıb yazmaq çətindir.

Ancaq mən beynimdən keçən fikirləri, ürəyimdəki sözləri ifadə etməyə çalışacağam.

Mən hərdən düşünürəm ki, Azərbaycan xalqı Allahın sevib-seçdiyi xalqdır. Çünki Allah Azərbaycandan heç nəyi əsirgəməyib. Misilsiz təbii gözəlliklərə, maddi nemətlərə malik olan Azərbaycanın ən böyük sərvəti isə onun adını tarixə yazan böyük şəxsiyyətləridir.

Hər bir dövrdə Azərbaycanda görkəmli alimlər də olub, yazıçılar da. Musiqiçilər də, rəssamlar da.

Amma, elə insanlar var ki, onlar yüz ildə bir doğulur və yalnız yaşadığı dövrə yox, əsrlərdən keçib gələcəyə nur çiləyirlər.

Ulu öndərimiz, xalqımızın əbədi və ölümsüz lideri Heydər Əliyev məhz belə şəxslərdən idi.

Ağlımdan belə bir fikir keçir: «Mən Vətənə həm də Heydər Əliyev deyirəm!» Çünki Azərbaycan deyəndə məhz, milyonların sevimlisi olan şəxs



göz önündə canlanır. Bütün ömrünü xalqına həsr etmiş, həyatını bir Səməndər quşu kimi məşələ çevirib gələcəyə nur çiləmiş bu ulu, böyük şəxsiyyət.

1993-cü il 15 iyulda Milli Məclisin tarixi iclasında parlamentin sədri kimi çıxış edən Heydər Əliyev belə demişdi:

– Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb, gərgin vəziyyətini tam məsulliyyətlə dərk edirəm. Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət quruculuğunu inkişaf etdirməyi özümə ən əsas vəzifə bilirəm.

Bəli, xalqına söz verdi və verdiyi sözə də əməl etdi. Sanki tale özü onu xalqın ağır vəziyyətində bir dərman, bir ilac kimi göndərdi.

Azərbaycan Respublikası təhlükədə olanda, sanki dünya dövlətləri içərisində təcridolma səviyyəsinə çatanda Heydər Əliyev bir xilaskar kimi xalqın imdadına yetişdi.

Xalqın adını qızıl hərflə tarixə, imzasını isə «imzalar içinə» yazdı.

Heydər Əliyev həmişə deyirdi: «Mən həmişə fəxr etmişəm ki, azərbaycanlıyam».

Biz də həmişə fəxr etmişik ki, azərbaycanlıyıq və Azərbaycanın Heydər Əliyev kimi oğlu var.

Öz siyasəti, liderliyi ilə dünyanı mat qoyan Ulu Öndərimiz yalnız bununla deyil, həm də insanlarla səmimi söhbətləri, xoş davranışlarıyla hər kəsə örnəkdir. Biz məktəblilər isə bunu yalnız televiziya verilişlərində görə bilmişik Belə verilişlərin birində Heydər Əliyevin Böyük Britaniyaya səfərindən bəhs edilirdi. Burada qısa bir epizod baş verdi. Belə ki, Böyük Britaniya baş naziri Heydər Əliyevə qiymətli düymələr bəxş etdi və həmin düymələri elə ziyafətdə taxmaq istədiyini bildirdi. Hər kəsə təəccüblü idi ki, Heydər Əliyev nə deyəcəkdi və öz düymələrini nə edəcəkdi. Çox keçmədən iti zehnli, zəhmli və hazırcavab olan liderimiz ona belə cavab verdi:

– Çox gözəl, onda mən də öz düymələrimi sizə bağışlayıram. Düzdür, bu düymələr qızıldan deyil, amma prezident düyməsidir. Siz bununla fəxr edə bilərsiniz.

Belə ağıllı, tutarlı cavabın qarşısında necə dayanmaq olar?! Heydər Əliyev bununla Azərbaycan xalqının necə dərin təfəkkürə malik olduğunu, dövlətçilik ənənələri ilə heç bir dövlətdən geri qalmadığını sübut etdi.

Bugünkü Azərbaycan Heydər Əliyevdən bizə yadigardır. Bu istinadgah, bu vətən bizə bütün dünya azərbaycanlılarının ümidlə baxdığı istinadgahdır.




## *Baxşıyeva Arzu Əhliman qızı*

***Lerik rayonu, N.Muradov adına Günəşli kənd tam orta məktəbin X sinif şagirdi***


Bir çox azərbaycanlı gəncin idealına çevrilmiş Heydər Əlirza oğlu Əliyev! O, bütün həyatını doğma Azərbaycanımızın inkişafı, tərəqqisi və çiçəklənməsinə həsr etmişdir. Bu yolda ona dəstək olan Azərbaycan xalqı oldu.

Bu, əzəldən belə olmuşdur. Onun hətta məktəb illərindən marağı elmə idi. Bu əvəzsiz şəxsiyyət 1923-cü il 10 may tarixində Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur.

Dünya siyasətçiləri arasında özünə ən yüksək mövqe qazanmış Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu, xilaskarıdır.

1969-cu il 9 oktyabrda Heydər Əliyev Azərbaycana gəlib Azərbaycanın idarəçiliyini özü öz üzərinə götürməsəydi, indi Azərbaycan Respublikası adlı bir dövlət olmayacaqdı.

Heydər Əlirza oğlu Əliyev hər bir azərbaycanlının qürurla andığı bir şəxsiyyətdir.

Azərbaycan dövlətinin inkişafı üçün o, Azərbaycanda məktəblər, universitetlər açdırdı. Savadlı və istedadlı gəncləri isə başqa ölkələrə yüksək səviyyədə təhsil almağa göndərdi.

Heydər Əliyev hər bir azərbaycanlıya nümunə olacaq bir şəxsiyyət olmuşdur.

Bir azərbaycanlı kimi Heydər Əliyevi hamı sevir. Heydər Əliyev müharibə şəraitindən çəkinməyərək Azərbaycanı daima inkişafa doğru aparırdı.

Onun Azərbaycanda yürütdüyü siyasətin nəticəsidir ki, bu gün hər bir azərbaycanlı gənc istədiyi ali məktəbdə, yüksək səviyyədə təhsil ala bilər.

Bir azərbaycanlı gənc kimi mən də hər gün məktəbdə və ya evdə rahatlıqla dərslərimə hazırlaşarkən Heydər Əliyevin zəhmətini yüksək qiymətləndirir və bunun üçün ona borclu olduğumu anlayıram.



«İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadırdir», – demişdir ulu öndər Heydər Əlirza oğlu Əliyev. O, az bir müddətdə Azərbaycanı elə bir inkişafa gətirib çıxardı ki, hətta Azərbaycanı dünyanın ən güclü dövlətlərilə müqayisə edirdilər. Yüksək dərəcədə inkişaf etmiş Azərbaycan məhz ümummilli lider Heydər Əliyevin səyi nəticəsində müstəqil bir dövlətə çevrilib.

Onun keşməkeşli, lakin şərəfli bir həyatı olmuşdur. Azərbaycana qayıtdıqdan sonra bir çox hədə-qorxularla qarşılaşan cəsarətli Heydər Əliyev qorxmadı, çəkinmədi, doğma xalqına qarşı ədalətsizliyi qəbul etmədi. Elə bu səbəbdən də Azərbaycanı idarə etməyə başladı. 1992–1993-cü illərdə baş vermiş vətəndaş qarşıdurmasını aradan qaldırmağa səy göstərdi və bunu bacardı. O, bu hərəkəti ilə bir çox azərbaycanlıya nümunə oldu.

Heydər Əliyev dəfələrlə müharibə şəraitində olan bölgələrimizə səfər etmişdir. Ömrünün sonunadək Qarabağ münaqişəsi ilə əlaqədar qaniçən erməni siyasətçiləri ilə görüşmüş və bunu həll etməyə cəhd etmişdir.

Bu gün hər bir azərbaycanlıya Heydər Əliyevdən bir miras qalmışdır: «Müstəqil Azərbaycan».

Ulu Öndərin hakimiyyəti illərində Azərbaycan xalqı çox xoşbəxt və firavan yaşayırdı. O, Azərbaycanda bunun üçün hər bir şəraiti yaratmışdı. Lakin Azərbaycan xalqı nə biləydi ki, bir gün Heydər Əliyev onları birdənbirə tərk edəcək.

2003-cü il 12 dekabr – hələ Bakıda belə bir sükut olmamışdı. Heydər Əliyev Azərbaycanı cismən tərk etdi. O, gözlərini əbədiyyən yumdu. Ölümündən sonra ona «İlin adamı» adı verildi. Bu, Azərbaycan xalqının acısını azalda bilərdimi? Heydər Əliyev «İlin adamı» yox, «Elin adamı» idi.

Hər bir Azərbaycan gəncinə onun bir tövsiyəsi vardı: «Mən arzulayıram ki, hər bir Azərbaycan gənci Puşkini rus dilində, Şekspiri ingilis dilində, Nəsimini, Nizamini, Füzulini – Azərbaycan dilində oxusun». Əgər hər bir azərbaycanlı gənc Heydər Əliyevin arzuladığı kimi olsaydı, o zaman Azərbaycan ən yüksək siyasətçilərə sahib olardı.

Hər il Azərbaycanda minlərlə gənc inkişaf etmiş universitetlərə qəbul olunur.

Hal-hazırki dövrdə müstəqil Azərbaycan həm təhsil, həm də iqtisadi cəhətdən yüksək səviyyədə inkişaf edib.

Onun həyat yolunu heç bir kitaba sığdırmaq olmaz. O, elə bir həyat yaşayıb ki, onun həyatı hamı üçün ağlasığmaz dərəcədə keşməkeşli və şərəfli olub.

Hər bir azərbaycanlının qürur duyduğu insan Sizsiniz Ulu Öndər! Biz Sizlə fəxr edirik, Ulu Öndər!

Onun fəxrlə dediyi «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam» kəlamını bir azərbaycanlı gənc kimi mən hər bir azərbaycanlının dilindən eşitmək istəyirəm.

Hər bir azərbaycanlı gənc yalnız və yalnız bir şey üçün vuruşmalıdır: Qarabağın azad edilməsi uğrunda!

Bunun üçün də Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyev əlindən gələni edir.





## *Cəfərova Kəmalə İbadət qızı*

***Füzuli rayonu, 33 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər!*

Dahi şairimiz Səməd Vurğun bu sözləri görkəmli bəstəkarımız Üzeyir Hacıbəyovun ölümü münasibətilə yazmışdır. Bu sözlər istedadı və dühası ilə xalqımızın müstəqilliyini əldə edən Ulu Öndərimizə də aiddir.

Mən onu yaxından görməmişəm. Lakin müəllimim onu yaxından görüb, onun sadəliyi, səmimiliyi barədə bizə danışıb.

Sabirabad rayonunda məcburi köçkün kimi yaşayanda 1998-ci il prezident seçkilərindən əvvəl seçicilərlə görüş zamanı Ulu Öndərimizin təqdimatını aparan müəllimimiz çox həyəcanlı olduğunu söyləyir. Tədbiri necə aparacağını düşündüyü zaman sakit səslə Ulu Öndər ondan: – «Elə bil, həyəcanlısan?» – deyə soruşub əlini çiyninə qoyur. Müəllimimiz deyir ki, elə bildim yanımda dayanan atamdır, qardaşımdır. Həyəcanım həmin anda keçdi və tədbir çox gözəl alındı. Heydər Əliyev memar, yazıçı, rəssam, aktyorla, bir sözlə, hamı ilə öz dilində danışmağı bacarırdı. Hərtərəfli biliyə malik olan, tariximizi, ana dilimizi gözəl bilən və bunu hamıya tövsiyə edən Ulu Öndər Ulu Tanrının Azərbaycana ən böyük hədiyyəsi idi.

Naxçıvanda doğulan, böyüyən Heydər Əliyevin ata-anası da öz ata-baba yurdundan zorla köçürülən azərbaycanlılardan idi. Bəlkə, ona görə də öz doğma yurdundan, yuvasından didərgin düşmüş insanların dərdi ona bu qədər doğma idi.

Ümummilli liderimiz Heydər Əliyev gənc yaşlarında müəllim olmaq istəyirdi. Naxçıvan Pedaqoji Texnikumunu bitirdi. Müəllim işləmədi, amma müəllim oldu! Sonra Azərbaycan Sənaye İnstitututunun memarlıq fakültəsini bitirdi, memar işləmədi, amma Müstəqil Azərbaycan dövlətinin baş memarı, qurucusu oldu!

Heydər Əliyevin Vətənimiz üçün, xalqımız üçün gördüyü işləri saymaqla qurtarmaz.

Hələ SSRİ dövründə, Azərbaycanda hakimiyyətdə olduğu illərdə xalqımızın ziyalı potensialının artırılması üçün əlindən gələni etdi.

Hazırda Azərbaycan dövlətini müxtəlif sahələrdə idarə edənlər Heydər Əliyevin xaricə oxumaq, təhsil almaq üçün göndərdiyi adamlardır.

1993-cü il iyunun 15-i müstəqil Azərbaycanın Qurtuluş Günüdür. Əgər ulu öndərimiz Heydər Əliyev xalqın təkidi ilə Bakıya gəlməsəydi və Azərbaycana rəhbərlik etməyi öz öhdəsinə götürməsəydi, Azərbaycan dövləti dünyanın siyasi xəritəsindən silinəcəkdi. Heydər Əliyev Azərbaycanı dünya xəritəsindən silinməkdən, xanlıqlara parçalanmaqdan, bütövlükdə məhv olmaqdan qurtardı.

Heydər Əliyevin prezidentliyə gəldiyi ilk gündən Azərbaycanda müstəqillk, iqtisadi yüksəliş, azadlıq, elmi-tərəqqi dövrü başlanmışdır. Getdikcə Azərbaycan dünya dövlətləri içərisində öz layiqli yerini tutmuş, 1994-cü il Heydər Əliyevin səyi nəticəsində «Əsrin müqaviləsi» adı altında neft müqaviləsi imzalanmışdır.

Qısa bir müddətdə Azərbaycan bir çox nüfuzlu beynəlxalq təşkilatların üzvü olmuşdur. Dölət quruculuğu mürəkkəb prosesdir. Müstəqillik ələ etmiş müstəqil respublikamızın düzgün inkişaf yolu seçməsi böyük siyasi müdriklik, zəngin təcrübə, strateji təfəkkür tələb edirdi. Həyat göstərdi ki, Heydər Əliyev həmin keyfiyyətlərə malik olan nadir şəxsiyyətdir. Yüzlərlə ailə yeni salınmış qayıdış qəsəbələrində məskunlaşdı. Gözəl havası, suyu dərman olan ərazidə Ulu Öndərin komandanlığı altında beş iri qəsəbə salınmışdır. Biz də həmin qəsəbələrə köçmüşük və burada yeni tipli müasir məktəblərdə təhsil alırıq.

Müxtəlif tarixi dövrdə, xalqımızın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş, düşmənlərimizin bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında Heydər Əliyev şəxsiyyəti duruş gətirmişdir.

Misilsiz dövlət xadimi kimi, ən nadir, ən mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən vətən üçün, doğma xalqından ötrü ən yaxşı çıxış yolu tapmaq bacarığı Ulu Tanrının ona bəxş etdiyi vergi idi.



Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkiltında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, UNESCO-da digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır.

Ulu Öndərimizin xarici siyasəti öz bəhrələrini verir. Beynəlxalq əməkdaşlıq, mədəniyyət, siyasət, idman və digər sahələrdə Azərbaycanın qazandığı uğurlar danılmazdır.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, Azərbaycan enerji layihələrində fəal iştirak edir. Azərbaycanın enerji daşıyıcıları bir neçə istiqamətdə ixrac edilir. Bu, Azərbaycana dünyanı bürüyən böhrandan qorunmaq imkanı yaradır. Ata və analarımızın, baba və nənələrimizin Ulu Öndərə hörməti, minnətdarlığı daimidir. Azərbaycan xalqı xoşbəxtdir ki, onlara Heydər Əliyev kimi şəxsiyyət qismət olub.

*Səni Ulu Tanrı göndərdi bizə,*
*Doğdun günəş kimi taleyimizə.*
*Vətənin ən ağır günündə gəldin*
*Dayandın millətin önündə, gəldin!*

*Gəldin mərd ər kimi, fədai kimi,*
*Döndün öz taxtına Xətai kimi.*
*Həqiqət önündə mayaksan, baba!*
*Ədalət sənindir, sən haqsan, baba!*

Heydər Əliyev həmişə azərbaycanlı olduğu ilə fəxr edib. Biz də həm azərbaycanlı, həm də belə böyük bir şəxsiyyətin davamçıları olmağımızla fəxr edirik.



**Əliyeva Göyçək İlqar qızı**

*Ağstafa şəhəri, A.Abdullayev adına
2 nömrəli tam orta məktəbin
XI sinif şagirdi*

*Я Президенту гимн пою,*
*Коль слух имеешь, справедливый,*
*Встань перед ним, как я встаю*
*Великий человек Алиев!*

Я взяла в руки ручку, села перед белым листом бумаги, собираясь написать сочинения про общенационального лидера Гейдара Алирзы оглу Алиева. Вот уже полчаса сижу, в глубокой задумчивости. В голове крутится вопрос «Что можно написать про общенационального лидера, о великой личности, о человеке роль и значение которого не всеми осознанна и пометка».

В мир в целом дал Гейдар-баба, Гейдар Алиев!

В чем смысл жизни – для человека?

Для Гейдара Алиева этот вопрос не существовал. Смыслом его жизни был Азербайджан. Любовь к родине красной линией проходящей через весь его жизненный путь.

Деятельность Гейдар Алирзы оглы Алиева – страницы современного Азербайджана. За годы правления 1969–1982 гг. объем национального производства вырос 2,8 раза, а промышенность в 2 раза.

Экспортировали из новых предприятий. Он сделал все возможное и невозможное для благополучия и развития Азербайджана.

Гейдар Алиеву дана прозорливость ста мудрецов.

Еще хотела добавить, где бы он ни находился Гейдар Алиев всегда думал о своей родине.



В то время Карабахская проблема серьезно встревожил его. Самый первый Гейдар Алиев дал этому кровавоми террору оценку и вышел из рядов КПСС.

Когда Гейдар Алиев вернулся на Родину в Азербайджан, а точнее в Нахичевань, где он родился, его встретил 30 тысяч человек. И в этот период в Республике были народные восстания. Увидя, все это Гейдар Алиев день и ночь работал над всеми этими проблемами.

Гейдар Алиев родился в семье простого труженика и не понаслышке слышал и знал о нуждах людей. Он всегда помогал бедным людям и почти в каждом доме, лица детей были улыбками.

Г.Алиев в очередном собрание дал слово, что его Родина получить независимость и мы видим, что наша республика стала независимой и суверенной республикой.

Деятельность Гейдара Алиева относится то, что он заключил в « Контракт века» в 20 сентября 1994 г.

Уже конец моего сочинения, несмотря на то, что я мало написала, но в душе моей столько слов и столько предложений, что я не могу точнее выразить свои мысли об общенациональном лидере Гейдаре Алиеве.

Я очень рада, что участвую в 92 номере соревнования и я даю слово буду достойным гражданином Азербайджана.



***Əliyeva Günay Telman qızı***
***Sumqayıt Dövlət Texniki Kollecinin II kurs tələbəsi***

Bu gün bütün Azərbaycan xalqı, bütün azərbaycanlılar fəxr edir, qürür duyur ki, onların Heydər Əliyev kimi rəhbəri, başçısı, prezidenti olub.

Heydər Əliyev bizim hər birimizin sevdiyi, fəxr etdiyi bir rəhbər, bir başçı, bir ata, bir babadır. «Bağban bağa baxar, bağ bar verər». Heydər Əliyev də öz xalqı üçün, xalqının gözəl, firavan, rahat həyat sürməsi üçün bütün ömrünü sərf etmişdir. Hər birimizin qəlbində Heydər Əliyev var. Heydər Əliyev bizim qəlbimizdə elə bir iz qoyub ki, o iz heç vaxt silinməz.

Biz yaşadığımız bu gözəl günlər üçün ümummilli liderimiz Heydər Əliyevə borcluyuq, minnətdarıq.

Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, inkişafdan geri qalsın. Biz hər birimiz bu inkişaf üçün Heydər Əliyevə borcluyuq, minnətdarıq.

Heydər Əliyev Tanrının bizə, bizim xalqımıza bəxş etdiyi dahi şəxsiyyətdir. Min illər belə keçsə, Heydər Əliyevin kölgəsi bizim üzərimizdən əskik olmayacaq, daim öz xalqını qoruyacaq.

Gün gələcək, bizi erməni faşistlərindən Heydər Əliyev siyasəti xilas edəcək. Gün gələcək, biz Heydər Əliyevin siyasəti ilə, onun yadıgarı İlham Əliyevin əli ilə, qüdrəti ilə erməni faşistlərindən xilas olacağıq. Həmin gün tariximizə yeni bir qələbə günü kimi qeyd olunacaq.

Ədəbiyyatımızda, tariximizdə ən gözəl sözlərə, ifadələrə layiqdir Heydər Əliyev. Elə bir cümlə, elə bir söz axtarıram, elə bir məntiq axtarıram ki, Onun qüdrətini ifadə etməyi bacarsın. Amma onu ifadə etməyə sözün də qüdrəti yetməz. Siz ən gözəl sözlərə layiqsiniz, Heydər Əliyev!!! Siz bizim Azərbaycan xalqının azadlığı oldunuz. Siz vətənimizin azadlığı oldunuz.



Bu gün Heydər Əliyevin uğurlu siyasətini, bizi işıqlı gələcəyə doğru aparan siyasətini yalnız İlham Əliyev davam etdirə bilər. Biz hər vaxt, hər zaman İlham Əliyevi dəstəkliyəcəyik və onun yanında olacağıq.

Heydər Əliyev Azərbaycanın xarici dövlətlər tərəfindən tanınmasında, Azərbaycan xalqının maariflənməsində, Azərbaycanın inkişafında böyük səy göstərmişdir. Azərbaycanın inkişaf etməsində, tanınmasında böyük Heydər Əliyev dühası var. Heydər Əliyev bütün ömrünü Azərbaycanın gələcəyi üçün, gənc nəsil üçün sərf etmişdir.

«Əziz gənclər! XXI əsr sizin əsriniz, sizin dövrünüz olacaqdır. Siz və sizin kimi Azərbaycan gəncləri, yeniyetmələri, yüksək təhsilli insanları həmin əsrdə müstəqil, azad respublikamızı yaşadaqsınız, inkişaf etdirəcəksiniz». Bu sözləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev söyləmişdir.

Heydər Əliyev Azərbaycan gəncləri üçün, onların gözəl həyatı üçün çalışmışdır. Azərbaycanın savadlı gənclərinə daim dəstək olmuşdur. Azərbaycanda idmanın inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Azərbaycanda gənc idmançılarımız vətəndə, eləcə də digər Avropa ölkələrində böyük nailiyyətlər əldə edirlər və daim bayrağımızı yüksəklərə qaldırırlar.

İllər illəri, fəsillər fəsilləri, nəsillər nəsilləri əvəz edəcək və Heydər Əliyev fəsillərin nəfəsində, nəsillərin qəlbində daim yaşayacaqdır. Təkrarolunmaz, əvəzolunmaz dahi şəxsiyyət Heydər Əliyev.

Biz Sizinlə fəxr edirik!

Azərbaycan Sizinlə fəxr edir!



**_Əlipaşayeva Səbinə Mehman qızı_**

**_Ağdaş Dövlət Humanitar Kollecinin IV kurs tələbəsi_**

Ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolu Azərbaycan gəncləri üçün parlaq həyat nümunəsidir.

Tarix dahi şəxsiyyətlərin nurlu əməlləriylə nəsillərin yaddaşında yaşamaqdadır. XX yüzilliyin I rübündə tale Azərbaycan xalqına məhz belə bir dahi şəxsiyyət, əvəzolunmaz lider, vətənini, xalqını ürəkdən, candan sevən, əsl vətəndaş, əsl azərbaycanlı bəxş etdi. O, Heydər Əlirza oğlu Əliyevdir.

*Naxçıvanda doğuldu 23-ün mayında*
*Güllü bahar fəslinin ən işıqlı ayında*
*Anası İzzət xanım, atası Əlirza*
*Şükürlər oxudular onlara oğul verən Tanrıya, İlahiyə*
*Bu bahara, bu yaza,*
*Ata-ana ad qoyub adına Heydər dedi.*
*Bu həyatın barını dərdikcə hey, dər, dedi.*

O, sadə bir azərbaycanlı ailəsində, dəmiryolçu Əlirza kişinin ocağında dünyaya göz açmışdı. Dünyaya gəlişi ilə, dediyi kimi, beş-on nəfəri sevindirən, dünyadan gedişi ilə tərəqqipərvər bəşəriyyətin sülhsevər insanlarını gözüyaşlı qoyan, dünyada yaşadığı illər boyunca bütöv bir xalqın sevgisini qazanan «Dünyanın ən böyük azərbaycanlısıydı» o. Onu bu nəhayətsizliklərinə görə türk dünyasının ikinci Atatürkü adlandırıram.

*Türk soyunda iki igid, ər tanıdım,*
*Biri Heydər, biri Atatürk.*
*Bu cahana səs salıbdır qoşa cütlük*
*Dədə Heydər, Atatürk*



Cabbarlılara, Cavidlərə, Vaqiflərə yeni ruh verdi. İtib-batmış tariximizi, saxtalanmış, yasaq olmış bayramlarımızı, ədəbiyyat nümunələrimizi üzə çıxardı, xalqın arxası və dayağı oldu.

*Tarix idi tarixləri yaxşı bilirdi.*
*Çıxarmışdı dərinlərdən üzə tarixi.*
*Bu tarixdi: kim yaratdı, kim yaşatdısa,*
*Yaddaş onun, kitab onun, əsər onundur!*
*Gələcəyi qucaqlayan məhəbbət onun!*
*Qılınclardan kəskin olan kəsər onundur!*

Heydər Əliyev Əshabü-Kəhflə müqəddəsləşən, Möminəxatun türbəsi ilə tarixə iz salan, Gəmiqaya rəsmləri ilə tarixin dilini açan qədim Naxçıvan şəhərində dünyaya göz açmışdır. Xalqın sevimlisinə çevrilmiş, Azərbaycanı qarış-qarış gəzib quran bir vətəndaş olmuşdur.

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən*
*Anam, doğma vətənimsən*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

Hansı bir azərbaycanlı bu şeiri Heydər Əliyev kimi ürəkdən, candan, gözləri yaşla dola-dola söyləyə bilər və hansı bir azərbaycanlı ürəkdən, candan, qururla söyləyə bilər ki, «–Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Heç bir şərhə ehtiyac olmadan bu sözlərlə çıxış edə bilərəm ki, Heydər Əliyev «Dünyanın ən böyük azərbaycanlısı» idi və onun yeri hər zaman görünəcəkdir.

*Tarixinin ər oğlu sən, mərd oğlu sən!*
*Hər il sənin ad günündə*
*Sənin yerin görünəcək, sənin yerin görünəcək.*

Nə qədər ki, Azərbaycan, nə qədər ki, bu xalq var, Heydər «xalqım» deyəcək, xalq «Heydər» söyləyəcək. Ona görə xalq Heydər söyləyəcək ki, onun adına neçə-neçə təhsil mərkəzləri, fabrik və zavodlar, istirahət mərkəzələri, küçə və prospektlər və bir də bu yolun davamçısı İlham Heydər oğlu Əliyev var. Azərbaycanın hər yerində Heydər Əliyevin nurlu əməllərinin izi görünür. O, dahi bir şəxsiyyət idi. Azərbaycanı vahid bir dövlət altında birləşdirdi. Azərbaycanın memarı və qurucusu oldu. Heydər Əliyev

Azərbaycanı necə sevdisə, necə tanıdısa, bütün dünya xalqları da Azərbaycanı Heydər Əliyevin gözü ilə tanıdı. «Dünyanın ən böyük azərbaycanlısı»nın vətəni kimi, Odlar yurdu Azərbaycan kimi.

Biz səndən öyrənmişik bu vətəni sevməyi, biz səndən öyrənmişik azərbaycanca danışıb, azərbaycanca oxuyub, azərbaycanca sevməyi. Yolumuz sənin yolun, işimiz haqq işidir. Andımız bu torpaq, qibləgahımız Vətəndir. Çünki biz Heydər Əliyev məktəbinin davamçılarıyıq, gənc Heydərçilərik. Andımızla, inamımızla, bütün varlığımızla sevdiyimiz bu vətənə bağlıyıq. Səndən – dünyanın ən böyük azərbaycanlısından əsl azərbaycanlı olmağı öyrəndik. Çünki sən «Dünyanın ən böyük azərbaycanlısısan».






## Əsgərzadə Əsmər Şahin qızı

***Astara şəhəri, C.Babayev adına 3 nömrəli tam orta məktəbin IX sinif şagirdi***


Valideynləri bu uşağa Heydər adı verdilər. Atabəy Eldəniz hökmündən, Mömınə Xatun türbəsindən, Əcəmi naxışlarından güc alan bu uşaq haqqın ona verdiyi İlahi vergidən güc ala-ala böyüdü. Dünyanın dühaları sırasına daxil oldu. O, insanları sevdi, insanlar da onu. Bu qarşılıqlı sevgidən Azərbaycan adlı çiçək yarandı. Bu çiçək böyüdü, qol-budaq atdı. Ətri dünyanın bütün ölkələrinə yayıldı. Bu layihədən ürəyi şad olanlar da oldu, bağrı çatlayanlar da. Amma xalqımız «Azərbaycan» adlı çiçəyini də sevdi, onu həmişə ucalardan uca görmək istəyən dahi oğlunu da ürəyinin ən isti yerində əzizlədi.

*Tarixlərə yazılan şəxsiyyət var, İlahi!*
*Özü tarix yaradan şəxsiyyət var, İlahi!*
*Adını xalqım verdi – Dahi!*

Biz Azərbaycan deyəndə Heydər Əliyevi, Heydər Əliyev deyəndə Azərbaycanı düşünürük. Mənim fikrimcə isə Heydər Əliyev vətəndaşdır, adı qızıl hərflərlə tarixə düşmüş insandır. Bəli, məhz adı böyük hərflərlə yazılmağa mənəvi hüququ çatan bir şəxsiyyətdir. Bu şəxsiyyətin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır.

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müstəqil Azərbaycan dövlətinin qurulmasına və xalqımızın azadlıq arzusuna çatmasına nail olmuşdur. Bu xüsusiyyətlərinə görə o, Dədə Qorqud babamıza bənzəyir. Daha doğrusu, Heydər Əliyev min üç yüz ildən artıq yaşı olan Dədə Qorqud babamızın çağdaş simvoludur, onun davamçısıdır. Məhz onun fəaliyyəti nəticəsində

Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Ulu Öndər böyük qurucu, memar kimi yurdumuzun hər bir guşəsində iz qoymuşdur.

Ümumilikdə götürsək, Azərbaycanın ən yeni tarixinin bütöv bir hissəsi Heydər Əliyevin adı ilə bağlıdır. Onun ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969–1982-ci illərdə dahiyanə siyasəti və gərgin xidməti nəticəsində ölkəmiz təhsildə, iqtisadiyyatda, mədəniyyətdə – həyatın bütün sahələrində tərəqqi dövrü yaşadı. XX əsrin 70-ci illərində Azərbaycan tarixində, sözün əsl mənasında, inkişaf dövrü başladı. Həmin dövrdə Azərbaycan müttəfiq respublikalar arasında birincilər sırasına çıxmışdır.

Çörçill ingilis xalqına 40 il xidmət etdi, amma 1940-cı ildə lazım oldu. Həmin dövrdə onun edəcəyi xidməti göstərəcək başqa bir adam yox idi. Bəşər tarixində insanlar öz millətinə çox xidmət göstərirlər, amma bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, de Qollun 1958-ci ildə lazım olduğu kimi, Heydər Əliyev xalqımıza çox xidmət göstərdi, lakin 1993-cü ildə lazım oldu. Bu zaman onu heç kəs əvəz edə bilməzdi.Yaxşı ki, o vardı! Xalq belə düşünürdü və haqlı çıxdı.

Azərbaycan 2-ci dəfə müstəqillik qazandıqdan sonra naşı siyasətçilər ölkəmizi olum və ölüm qarşısında qoydular. Müstəqilliyimizin itirilməsi təhlükəsi yarandı. Xalq faciə ilə üz-üzə durdu. Belə ağır və mürəkkəb dövrdə xalqımız dahi siyasətçi Heydər Əliyevə üz tutdu. Bu, ən düzgün yol idi. Heydər Əliyev xalqın səsinə səs verdi. Siyasi sabitlik yaradıldı. Böhran aradan qaldırıldı. Sənayenin inkişafı dövrü başladı. Bu, Heydər Əliyev ömrünün yeni bir qəhrəmanlıq səhifəsi idi. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən Ulu Öndər kimi vətənpərvər insan, dahi şəxsiyyət bu tarixi yarada bilərdi. O bütün bu nailiyyətlərə xalqın dəstəyi ilə nail oldu. Xalq əmin oldu ki, Azərbaycanın müstəqilliyi daimidir, sarsılmazdır və dönməzdir.

Ümummilli Liderimizin milli dövlətçilik ideologiyasının əsas prinsipində azərbaycançılıq mühüm yer tuturdu. Ulu Öndərimiz qürurla deyirdi: «Mən fəxr edirəm ki, mən azərbaycanlıyam».

Heydər Əliyev dövlətçilik ideyasının əsasını həmrəylikdə, Azərbaycanda yaşayan xalqların monolit birliyində görürdü.

Dinindən, dilindən, etnik mədəniyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsində dostluğu əsas prinsip kimi irəliyə sürən prezidentimiz yaxşı bilirdi ki, bütün bunların reallaşması Azərbaycanı sivil dövlətlər sırasına çıxaran yoldur.



Dahi siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə bir neçə dəfə də bizim Astaraya səfərlər etmiş və sadə zəhmət adamları ilə çay plantasiyalarında, tərəvəz tarlalarında, heyvandarlıq fermalarında səmimi görüşlər keçirmiş, onların qayğıları ilə maraqlanmış, müdrik tövsiyələrini vermişdir. Bu görüşlərdən illər keçsə də, Ulu Öndərlə görüşən insanların qəlbində xoş xatirələr əbədi olaraq qalmışdır.

Ulu Öndərimizin 92 illiyi ərəfəsində bu unudulmaz görüşlər bir daha xatırlanır, xoş təəssüratlar söylənilir. Heydər Əliyev astaralılar qarşısında demişdir: «Allah sizə dünyanın ən gözəl guşəsini bəxş edibdir. Buna görə də siz xoşbəxt adamlarsınız. Astara müstəqil Azərbaycanın cənubunda dövlət qapısıdır, dayaq nöqtəsidir, sütunlardan biridir». Dahi rəhbərimiz Astaramıza hər səfəri zamanı xalqın maddi rifah halının yaxşılaşdırılmasına, iqtisadiyyatının çiçəklənməsinə çalışıb. Bəli, əsl rəhbər də elə bu cür olmalı, xalqın dərdinə-sərinə şərik çıxmalıdır.

İndi hər yerdə Heydər Əliyev işləri görünür: məktəblərimizdə, yaşayış binalarımızda, yollarımızda, mədəniyyətimizdə, dinimizdə, dilimizdə... bunları saymaqla qurtarmaz ki... Hazırda bu nailiyyətlərin qazanılmasında onun oğlu, xalqın sevimlisi İlham Əliyev iştirak edir. Müasir meyarlara görə demək olar ki, cənab Prezidentimiz İlham Əliyev, xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva Azərbaycan və türk dünyasının yaddaşına həkk olunmuş şəxsiyyətlərdəndir. Ümummilli Liderimizin möhtəşəm ocağında dünyaya göz açan övladları məhz bu ocaqdan bəhrələnmişlər.

Hazırda dövlətçiliyimizin keşiyində əsgər sayıqlığı ilə dayanan Heydər Əliyev əmanəti İlham Əliyev var. Dünyanın nehrə kimi çalxalanıb qarışdığı indiki dövrdə Azərbaycan adlı gəmi yolunu azmır, yüksəlişə gedən istiqamətdə inamla üzür.

Ulu Öndərimizin düzgün siyasəti, vətən sevgisi, keçdiyi yol Azərbaycan xalqı üçün qürur və iftixar dolu bir aləmdir. Belə ki, müstəqil dövlətimizin simvolu olan üçrəngli bayrağımız BMT-nin və Avropa Şurasının iqamətgahları qarşısında əzəmətlə dalğalanır. Dünyanın 70 ölkəsində 60 milyondan çox azərbaycanlı yaşayır. Harada yaşadıqlarından asılı olmayaraq onların Azərbaycan deyilən bir vətəni, Heydər Əliyev kimi millət atası, Ümummilli Lideri var.

Azərbaycan o qədər inkişaf edib ki, hətta beynəlxalq musiqi və idman yarışları üçün meydana çevrilib. Bakını heyranlıqla seyr edən əcnəbilər heyranlıqlarını gizlətməkdə çətinlik çəkdiklərini bildirirlər. Elə bu yaxın-

larda keçiriləcək «Bakı 2015 I Avropa Oyunları» idman yarışının baş tutması bunu əyani şəkildə sübut edəcək. Alnımız açıq, üzümüz ağdır, səbəb isə Bakının dünyanın ən böyük və inkişaf etmiş şəhərləri ilə rəqabət apara biləcək gücdə olmasıdır. Heydər Əliyevin siyasəti ilə ağ günə çıxan Azərbaycan qonaqlarını da ağ üzlə qarşılayacaq.

Ümummilli Liderimizin 92 illiyi ərəfəsində Astaramız daha da gözəlləşib. Hər tərəfdə təmir işləri gedir, bağçalarda güllər əkilir. Ulu Öndərimizin heykəlini həm ürəyində, həm də şəhərin mərkəzində ucaldan camaatımız bu bayramı səbirsizliklə gözləyir.

Dahi siyasətçi, əbədiyaşar prezidentimizin doğum gününü qeyd etməyə təbiət də hazırdır. Çünki ürəyi bahar təravətli prezidentim qəlbən də ürəyiyuxa, təbiəti sevən, Allahı sevən bir şəxs idi. O, sönməz bir ulduz idi. Ulduz isə heç vaxt məhv olmur, sadəcə olaraq axır və qeyb olur.

Prezidentimizin 92 illiyinin qeyd olunduğu gün onun əziz xatirəsinin qəlblərdə əbədiyaşar olduğunu bir daha duyuruq. Heydər Əliyevin Azərbaycan Respublikası və xalqı üçün etdiklərini yada salır və fəxr edirik ki, onun siyasəti və arzusunu İlham Əliyev indi uğurla həyata keçirir. Mən də bu inşamla dahi prezidentimizə dərin hörmət, məhəbbət və ehtiramımı bildirirəm. Qoy bu inşam ən ətirli çiçəklərlə onun məzarı üstünü bəzəsin, ona bütün astaralılar adından hədiyyəm olsun!






## Ələsgərova Aysel Firdovsi qızı

**Bakı Sosial Pedaqoji Kollecin**
**I kurs tələbəsi**


Hər bir xalqın onu layiqincə təmsil edən, uzaqgörən, təvazökar, xalqın dəyərini bilən bir liderə ehtiyacı var. Məhz Heydər Əliyev bütün bu cəhətləri özündə birləşdirən bir şəxsiyyət idi. Azərbaycan Respublikasının təməl daşını qoyan Heydər Əliyevin yaratdığı bu qüdrətli dövlətin bir nümayəndəsi olmağımla fəxr edirəm. Günəş şüaları torpağa, bitkilərə necə can verirsə, Heydər Əliyev də Azərbaycan xalqına elə can vermiş, onu dirçəltmişdir. Heydər Əliyevin özünə və Allaha inamı ona xalqını pis günlərdən qurtarmağa imkan vermişdir. Heydər Əliyev Tanrının Azərbaycan xalqının bəxtinə yazdığı sevinc payıdır. Biz bu gün Heydər Əliyevin sayəsində vaxtilə onun bizim üçün açdığı yolda inamlı addımlarla yürüyərək dünyada öz sözünü demiş bir dövlətə çevrilmişik. Heydər Əliyev nadir şəxsiyyət, əvəzolunmaz bir insan idi. Onun ürəyi öz xalqı ilə döyünürdü. «Azərbaycan» deyildikdə Heydər Əliyev, «Heydər Əliyev» deyildikdə Azərbaycan yada düşür. Ulu Öndərimiz öz xalqı üçün canını belə verməyə hazır olan bir şəxsiyyət idi. Heydər Əliyev öz siyasəti, biliyi, istedadı ilə nəinki öz xalqı tərəfindən, hətta dünyanın bir sıra dövlət başçıları və siyasətçiləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Azərbaycan xalqı xoşbəxtdir ki, ona Heydər Əliyev kimi güclü, əzmli bir rəhbəri olmuşdur. Heydər Əliyev çox müdrik bir şəxsiyyət idi. O, hər zaman öz sözünü deməyi bacaran, xalqının düşmənlərinə qarşı canını sipər edən insan idi. Dahi liderimizin Azərbaycan xalqı üçün etdiyi xeyirxah əməllərin sayı-hesabı yoxdur. O, xalqının oğlu idi. Azərbaycan övladlarının qəlbində Heydər Əliyevin yeri tamamilə fərqli, özəldir. 1993-cü ildə vətəndaş müharibəsi baş verdikdə Heydər Əliyev buna müdaxilə etmiş, öz sözünü demişdir. O deyirdi: «Mən biləndə ki, vətənim dağılır, burada

narazılıqlar baş qaldırıb, bu vətən üçün çalışan biri olaraq mən bilirəm ki, burada nələr etmişik və mən bundan qıraqda qala bilməzdim. Bu xalqa bağlı olan bir insan kimi gəldim, bütün məsuliyyəti öz üzərimə götürdüm, özümü qurban verməli oldum». Bəli, məhz belə insan idi Heydər Əliyev. Onun bu fikirləri bir daha öz xalqına necə bağlı olduğunu isbata yetirir. Sözlər yetərsizdir Heydər Əliyevi anlatmağa. Bu dahi insanın bizim üçün, bu vətən üçün etdikləri saya-hesaba gəlməzdi. Biz necə də xoşbəxt insanlarıq ki, ulu tanrım məhz Heydər Əliyevi bizim dayağımız seçib. Bu, hər millətə nəsib olan xoşbəxtlik deyil. «Mən fəxr edirəm ki, mən Azərbaycanlıyam!» – demişdir Heydər Əliyev. Biz də fəxr edirik əziz babamız, həm azərbaycanlı olmağımızla, həm də dünyada öz siyasəti və şəxsiyyətindən bəhs etdirməyi bacaran ulu öndər Heydər Əliyevin yaratdığı Azərbaycan Respublikasının vətəndaşı olmağımızla! Heydər Əiyevin dövründə respublikamızda çox mühüm hadisələr baş vermişdir. 1994-cü il sentyabr ayının 20-də dünyanı heyrətə salan «Əsrin müqaviləsi» imzalandı. Bu, ona görə dünyanı heyrətə gətirmişdi ki «Əsrin müqaviləsi» dünyanın ən tanınmış şirkətləri ilə bağlanmış bir müqavilə idi, həm də ərazisinin 20%-i işğal altında olan və hələ də müharibə şəraitində olan bir dövlət bu uğura imza atmışdır. Bu da məhz ulu öndər, əvəzolunmaz sima, bənzərsiz şəxsiyyət olan Heydər Əlirza oğlu Əliyevin nailiyyəti idi. Bu müqavilə ölkəmizi kənar təsirlərdən də qorumuşdur. Bununla bərabər, Heydər Əliyev müstəqil suveren Azərbaycan Respublikasını yaratdı, konstitusiyamız qəbul olundu. Üçrəngli bayrağımız yenidən mavi səmada dalğalanmağa başladı. Təhsilimiz, elmimiz dünya təhsil sisteminə inteqrasiya olundu. Heydər Əliyev təhsilə böyük qayğı göstərdiyi kimi, hər bir azərbaycanlı gəncinə, uşağına da xüsusi qayğı ilə yanaşmışdır. Ulu Öndər biz gəncləri gələcəyin qurucusu hesab edirdi. Heydər Əliyev hər zaman deyirdi: «Azərbaycanın uşaqları bizim gələcəyimizdir, onlara daim diqqət, sevgi göstərməliyik. Əziz balalarım, mən sizi çox sevirəm. Sizin yanınızda olanda özümü çox xoşbəxt hesab edirəm, heç ayrılmaq istəmirəm. Mənim də nəvələrim var. Mən öz nəvələrimi, övladlarımı necə sevirəmsə, bütün Azərbaycan övladlarını da onlardan ayırmıram, eyni sevgiylə sevirəm». Biz də sizi çox sevirik, əziz babamız. Çox təəssüf ki, bu gün bizlərlə deyilsiniz, amma hər zaman qəlbimizdə, xatirəmizdə əbədiyaşarsız. Nə qədər ki, Allah ömür verəcək daim ürəyimizdə olacaqsız.

Heydər Əliyev ölümündən sonra belə ölməzlik qazanmış şəxsiyyətdir. Bu, hər insana nəsib olan xoşbəxtlik deyil. Əziz babamız, siz xalqımızın döyünən ürəyi idiniz. Yoxluğunuz bizlərə çox çətindir. Necə ki, 1923-cü il may ayının 10-da Azərbaycanın gələcək xoşbəxtliyinin müjdəçisi, mavi gözlü, sarışın gözəl bir oğlan balaca Heydər Naxçıvan şəhərində dünyaya göz açmışdır, 2003-cü il dekabr ayının 12-də artıq öz şəxsiyyəti, uzaqgörən siyasəti ilə dünyada adından bəhs etdirən, bir dövlətin qurucusu, ulu öndəri olan Heydər Əliyev dünyasını dəyişdi. Azərbaycan xalqı yasa batdı. Mən də bu xalqın bir nümayəndəsi kimi Heydər babamın ölümünə göz yaşı tökdüm, kədərləndim. Nə qədər üzülsək də, ağlasaq da boyun əydim, çünki bu, Allahın qanunudur. Bir gün doğulan bir gün ölür. Amma bir şeyi özümüzə təsəlli bilirik – Heydər Əliyev ölmədi, əbədiyyətə qovuşdu. Allah rəhmət etsin xalqın müdrik oğluna.



Bu gün Heydər Əliyev irsinin layiqli davamçıları olan İlham Əliyev kimi prezidentimiz və Mehriban Əliyeva kimi uzaqgörən birinci xanımımız var. Uca rəbbim onları bu xalqın üzərindən əskik etməsin. Heydər Əliyevin yolunu layiqincə davam etdirməyə ömür nəsib etsin. Amin!

Xatırlayaq o günü ki, Heydər Əliyev müqəddəs Kəbəni ziyarətə getmiş, orada öz xalqı üçün əllərini rəbbinə açmışdır, bu millətin övladları üçün Allaha dua etmişdir. Bu gün məhz İlham Əliyev və onun dəyərli ailə üzvləri də Kəbəni ziyarətə getməklə, müqəddəs torpaqlarda ibadət etməklə Heydər Əlirza oğlu Əliyevin layiqli davamçıları olduqlarını bir daha isbata yetirdilər. Allah qəbul etsin ziyarətlərini. Amin!

Xalqımızın sizin kimi başçıya hər zaman ehtiyacı var. Azərbaycan xalqının nümayəndələri sizlərin sayəsində firavan həyat sürür. O gün olsun Heydər Əliyevin torpaqlarımızı geri qaytarmaq istəyini bir xalq olaraq əl-ələ verib həyata keçirək. Bizim bu yolda İlham Əliyev və Mehriban Əliyevanın uzaqgörən siyasətlərinə, zəkalarına böyük ehtiyacımız var. Bu xalqın gələcəyi sizinlə bağlıdır, cənab prezidentimiz! Ulu tanrım sizə və ailənizə uzun ömür, cansağlığı və həyata keçirmək istədikləriniz böyük işləri həyata keçirməyə imkan versin».



## Əliyev Fərid Rövşən oğlu

*Yardımlı şəhəri, M.F.Axundov adına*
*1 nömrəli tam orta məktəbin*
*VIII sinif şagirdi*

*«Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, layaqət göstərmək və başqaları üçün nümunə olmaqdır».*

**Heydər Əliyev**

Mən inşama böyük insanın – Heydər Əliyevin müdrik sözləri ilə başlamaq istədim. Çünki onun işıqlı xatirəsinə həsr etdiyim inşaya yalnız özünün ibrətamiz fikirləri ilə başlanğıc verə bilərdim.

Heydər Əliyev! Hər bir azərbaycanlı ailəsinin üzvü, hər kəsin dostu, qayğıkeş, səmimi, alicənab, cəsarətli insan, vətən sevgisi ilə silahlanan vətəndaş!

Müasir Azərbaycanımızın memarı, dünya azərbaycanlılarının şəksiz lideri, uzaqgörən şəxsiyyət, əsl vətənpərvər. Bəli, hədsiz qürur hissi ilə onun haqqında bu sözləri yazıram. Çünki onu belə tanıdım və sevdim. Yaşım az olsa belə, sevə-sevə ağ vərəqlərə köçürdüyüm bu ürək sözlərim böyük bir sevginin ifadəsidir. Əlbəttə, mən çox xoşbəxtəm. Ona görə ki, Heydər Əliyevin sevdiyi, göz bəbəyi kimi qoruduğu, qurub-yaratdığı Azərbaycanın bir parçasıyam.

*O qalib yaşadı, köçdü zəfərlə,*
*Deməram zəhmətdən usandı, doydu.*
*Vətən torpağını qəbriylə belə*
*Bir az da dikəldib ayağa qoydu.*



Azərbaycanın dahi oğlu, zəmanəmizin ən qüdrətli şəxsiyyəti olan Heydər Əliyev Vətənimin, xalqımın inkişafı naminə misilsiz xidmətlər göstərən, dövləti parçalanıb məhv olmaqdan xilas edən, ölkənin ən ağır günlərində ona sahib çıxan əsl vətən övladıdır.

O, mübarizələrlə dolu həyatının hər anını, hər dəqiqəsini xalqına bağışlamaqdan usanmadı, yorulmadı. Xalqını əzilməkdən və əyilməkdən xilas etdi. Dünyada layiq olduğu şöhrətə çatdırdı. Azərbaycan dövlətini qurdu, bu dövləti öz qüdrətli əlləri ilə ayağa qaldırdı. Möhkəmləndirdi. Onu xarici düşmənlərdən, daxili xəyanətkarlardan qoruyaraq öz sinəsini sipər etdi. Milli və ümumbəşəri dəyərlərlə söykənərək azərbaycançılıq ideyası ilə silahlandı. Milli mənsubiyyətini bütün dünyaya bəyan eytdi. Hər bir dövlət «Azərbaycan» deyəndə Heydər Əliyevi, Heydər Əliyev deyəndə «Azərbaycan»ı düşündü. Bəli, polad özüllər üzərində qurduğu Azərbaycandan dünyaya meydan oxudu. Hələ 60-cı illərdən başlayaraq Azərbaycan incəsənətini, ədəbiyyatını, mədəniyyətini var gücü ilə qorumağa nail oldu. Yasaqlanmış milli dəyərlərimizi yenidən bərpa etdi. Dedi-qoduların, cəfəngiyyatların burulğanında əsl alicənablıq nümayiş etdirərək heç kəsə və heç nəyə məhəl qoymadan çətin mərhələləri şərəflə addımladı. Yorulmaz zəhmətsevərliyi ilə xalqının Ümummilli Lideri səviyyəsinə ucaldı. Sadəliklə silahlanaraq bütün simasında daxili təvazökarlığının parlaqlığını əks etdirərək xalqın hər bir nümayəndəsinin təhsil almasına, dəyərli insan olmasına çalışırdı. Çalışırdı ki, Azərbaycan intellektual bir respublikaya çevrilsin. Milli-mənəvi keyfiyyətləri bəşərilik səviyyəsinə ucaldan Heydər Əliyev Azərbaycanı ürəyi, həyatı hesab edirdi. Eyni zamanda dünya ölkələrinə səpələnmiş azərbaycanlıların banisinə çevrildi Heydər Əliyev. O, elmi, təhsili sevdiyi üçün gənclərin oxumasına xüsusi diqqət və qayğı göstərirdi. Çalışırdı ki, ölkə həyatının hər yerində uğurla işləyəcək savadlı gənclər hazırlasın. Bu niyyətini gerçəkləşdirmək üçün respublikada yeni orta və ali məktəblər açdırırdı. Hər kəsin təhsil alması üçün böyük imkanlar yaradırdı.

Mən böyüklərimin söhbətini dinlərkən onun haqqında bu sözləri eşitmişəm: O insanlara çörək verməyi bacarırdı... Bacarıqlı insanlar onun diqqətindən kənarda qalmazdı... Vətənin tarixini mükəmməl bilirdi... Böyük ürək sahibi idi... Daha nələr... nələr... Mənim bütün bu öyrəndiklərim kiçik qəlbimdə, böyük insana qarşı sonsuz sevginin təməlini qoydu. Bu sevgi böyük və dahi insana Heydər Əliyevə də möhkəm bağlarla bağlanıb ki, heç vaxt qırılmaz. Böyüklərimdən eşitdiyim sözlərin sehrinə düşərək Heydər Əliyevin vurğunu olmuşam. Bu vurğunluq məndə insanlara hörməti, sevgini, sadəlövh və təvazökar olmağı, kökünə, soyuna arxalanmağı öyrətdi. Buna görə təşəkkürlər, əziz babam!

Vətənin adını, ünvanını, şərəfini artıran, şöhrətini dünya ilə bir edən babam! Mən ürək sözlərimi əziz xatirənin önünə qoyulan bir gül dəstəsi hesab edirəm.

Mənim unudulmaz, qayğıkeş, həssas, qədirbilən babam! Əbədi Günəşim. Daim parlayan, parladıqca öz şəfəqləri ilə uca göylərdə «Azərbaycan» yazan Günəşim. Hər birimiz bu Günəşin hərarəti ilə bağlandıq doğma yurda. Hər birimiz bu Günəşin istiliyi ilə sığındıq qara torpağa.

Mənim xalqın sinəsinə mübarizlik toxumu səpən babam! Bu toxumdan cücərən mübarizlik ağacının şaxələri uca göylərdə yazılan «Azərbaycan kəlməsinə doğru daim boy atdı, uca göylərə dikəldi». Bunla da, babam, baş ucalığı öyrətdin bizə.

Mənim xalqın təfəkküründə əzəmət işığı yandıran babam. Bu işıq bərq vurarkən hər bir azərbaycanlını bir olmağa səslədi. Bu birlik dünya azərbaycanlılarını bir yumruğa çevirdi.

Yolunu azana yol göstərən, yolda yorulanın qolundan tutan babam. Hər kəsin dilində bir nəğməyə, bir himnə çevrildin.

Qarabağ ağrısını, Qərbi Azərbaycan həsrətini, Cənubi Azərbaycan nisgilini, dünyaya məcburi səpələnən azərbaycanlıların birlik yanğısını ürəyində daşıyan babam! Bu yanğıyla sərhəd dirəklərini alışdırdın, cəsarət simvoluna çevrildin.

Qarabağ müharibəsində mənfur ermənilərі atəşkəs sazişi bağlamağa məcbur etməklə atamı mənə qaytardın. Axı mənim atam da Qarabağda döyüşüb, yaralanıb. Atəşkəs olmasaydı... Atamı mənə qaytardığı üçün əzir babama minnətdaram.

«Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir» – kəlmələrin yaşamaq həvəsimizdir, əziz babam! Bəli, mən qürurla deyərdim ki biz zəngin xalqıq. Artıq öz taleyimizin sahibiyik.

Heydər Əliyev ideyalarının bu gün möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən layiqincə həyata keçirilməsinin şahidiyəm. Mən uşaq sadəliyi ilə böyüklərimdən eşitdiyim «İlham Əliyev Heydər Əliyevin ləyaqətli varisidir» sözlərinin mənasını artıq dərk etdim. Dərk etdim ki, ot kökü üstə bitər.

Yardımlı şəhərinin mənzərəli bir guşəsində əbədiyaşar liderimiz Heydər Əliyevin əzəmətli qranit heykəli ucalır. Mən yaşıdlarımla birlikdə tez-tez sağlığında əbədiyaşarlıq qazanmış, sağlığında heykəlləşmiş Heydər Əliyevin əziz abidəsi önündə baş əyib öz-özümə pıçıldayıram: Bugünkü əmin-amanlığı, xoş güzəranı bizə bəxş edən sənsən, əziz babam. Mən söz verirəm ki, sənin müqəddəs ideyalarına sadiq qalacaq, əla təhsililə hər an Azərbaycan naminə yaşayacağam.

Ruhun şad olsun, əziz babam!





## *Hacıyeva Aytən Rafiq qızı*

***Sumqayıt şəhəri, İ.Qayıbov adına***
***1 nömrəli tam orta məktəbin***
***X sinif şagirdi***

Yazın gözəl çağlarından biri idi. Səmaya səpələnmiş pambıq kimi buludların arasından günəş şəfəq saçırdı. Torpaqdan təzə baş qaldırmış xoş ətirli bahar çiçəklərinin üzərinə düşən şeh günəşin parlaq şüaları altında büllur kimi işıldayırdı. Quşların xoş avazlı cəh-cəhi baharın bu çağına xüsusi gözəllik qatırdı.

Təbiətin həzin melodiyasının müşayiəti ilə Zəlimxan Yaqubun şeirlər kitabını əlimə aldım. Kitabın mündəricatına nəzər yetirdiyim zaman böyük şairin «Əbədiyyət dastanı» adlı poeması nəzərimdən yayınmadı. Əsərə diqqət yetirdim:

*Dərdi varsa, dərmanı da var bu millətin.*
*Dərd düşməndən, dərman dostdan, güc Haqdan gəlir.*
*Onu torpaq yaddaşımdan qoparmaq çətin,*
*Güvəndiyi hər nə varsa, torpaqdan gəlir.*
*El arxası, yer ürəyi, yurd dayağıydı,*
*Yaddaş adlı bir torpaqdan dikəldi Heydər.*
*Ona görə arxamızda Qafqaz dağıydı,*
*Ona görə qəlbimizdə heykəldi Heydər.*

Bu misraları oxuduğum zaman ulu şəxsiyyətin mənalı ömür yolu gözümün önündən keçdi. Bu sözlər məni çox uzaqlara apardı. Şahidi olmadığım, ancaq ailəmdən, məktəbdə müəllimlərimdən eşitdiklərim bir anlıq gözümün önündə canlandı. Dahi şəxsiyyət Heydər Əliyev yeni Azərbaycanı – Müstəqil Azərbaycanı hələ birinci katib işlədiyi vaxtlardan qurmağa başlamışdı. Heydər Əliyev sərt totalitar rejimin az da olsa, verdiyi imkanlardan maksimum istifadə edərək, bəzən isə məhdudlaşdırıcı qanunlardan məha-

rətlə yan keçərək xalqının, Vətəninin həyatın bütün sahərində inkişafını təmin etmək üçün mümkün olan hər şeyi etdi. Bu zaman yadıma düşdü ki, Heydər Əliyev gəncliyində memarlıq təhsilini yarımçıq qoymağa məcbur olmuşdu. Fikrimcə, onun Azərbaycanı gündən-günə daha da gözəlləşdirmək üçün gördüyü işlər onun vaxtı ilə qəlbində olan azrularının güclü təsirindən doğmuşdu. Elə buna görə də filosof təbiətli böyük siyasətçi Müstəqil Azərbaycanın memarıdır...

Düşüncələr dəryasında yelkən açdığım bu anda qeyri-ixtiyari kitab rəfindən Ulu Öndərin mənalı ömür yolunu özündə əks etdirən kitabı əlimə aldım və vərəqləməyə başladım. Qarşıma çıxan sətirləri oxumağa başladım. Bildim ki, hələ o dövrdə Heydər Əliyev müstəqil yaşadığımız bu günləri görürdü, xalqını, vətənini bu günlər üçün hazırlayırdı. Ulu şəxsiyyət Heydər Əliyev kommunist rejiminin ağalığı dövründə Azərbaycan xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilmədiyi mübarizə aparırdı. Kremlin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq Azərbaycanın bu günü və gələcəyi baxımından olduqca uzaqgörən və çox cəsarətli addımlar atmışdır. Lakin min doqquz yüz səksən yeddinci ildə Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosu üzvlüyündən istefa verməsi ilə Azərbaycan xalqına üz vermiş faciələr və itkilər məhz bundan sonra başladı. Onun Sovet adlı dövlətin rəhbərlərindən biri olduğu dövrdə Azərbaycana qarşı hansısa addımı atmağa cürəti çatmayan qüvvələr fəallaşdılar. Heydər Əliyev Siyasi Büro üzvlüyündən istefa verdikdən sonra Bakıya qayıtdı. Burada təqiblərə məruz qaldığından doğma yurdu Naxçıvana üz tutdu. İqtidar isə nə etmək lazım gəldiyini bilmirdi. Xalq üzünü Heydər Əliyevə tutaraq ondan Bakıya qayıdıb respublikaya rəhbərlik etməsini istəmişdi. Həmin dövrdə xalqın müxtəlif təbəqələrinin neçə-neçə nümayəndə heyəti Naxçıvana gəlib onunla görüşürdülər. O illərdə Naxçıvana vurulan teleqramların, göndərilən məktubların sayı-hesabı yox idi. Dövləti idarə etmək iqtidarında olmayan iqtidar da ondan Bakıya qayıtmasını inadla istəmişdi. Heydər Əliyev xalqının səsinə səs verdi. Onu düşdüyü ağır vəziyyətdən xilas etdi. Məhz onun Azərbaycana rəhbərlik etdiyi illərdə güclü iqtisadiyyatın təməlinin qoyulması ilə Müstəqil Azərbaycan bu gün iqtisadi potensialının zirvəsindədir.

Ulu Öndər siyasi yolu haqda az da olsa məlumat aldıqdan sonra onun vətəndaşlıq missiyasını, həyata keçirdiyi siyasətin nəhəngliyi və incəliyini bütün dolğunluğu ilə daha dərindən anladım. Dahi rəhbərin siyasi yolu haqda daha çox məlumat qazanmaq istədiyimdən oxumağa davam etdim:



Heydər Əliyevin təşəbbüsü ilə bir çox beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanmışdır. Onun rəhbərliyi altında böyük siyasi məna kəsb edən bir çox dünyamiqyaslı iqtisadi proqramların keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır. Böyük coğrafi mənada region qüvvələrinin birləşməsində Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur. Onun daxili siyasət məsələlərinə mühüm əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, xalqının maraqları naminə ən nüfuzlu tribunlardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından olduqca əhəmiyyətli olmuşdur.

Bu fikirləri oxuduqdan sonra mənə tam aydın oldu ki, əzmi, vüqarı, ağıllı fikirləri ilə seçilən böyük azərbaycanlı Heydər Əliyev bütün ömrü boyu parlaq fikirləri ilə xalqımızın mənəvi dəyərlərini qoruyub təbliğ etmiş, öz parlaq istedadının gücü ilə yurdumuzun tərəqqisi naminə çalışmışdır.

Dahi liderin vətənsevər siyasətinin zirvəsində dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinin təmin edilməsi yolunda gördüyü işlər durur. Ulu Öndər dünya azəərbaycanlılarının təşkilatlanması və onların bir mərkəz – Müstəqil Azərbaycan ətrafında birləşməsi üçün mümkün olan hər şeyi etdi. Ən əvəzolunmaz isə qəlbi vətən eşqi ilə döyünən soydaşlarımızın sökdüyü tikanlı sərhəd məftillərini gül çələngi kimi Dünya azərbaycanlılarının Həmrəylik Günü olaraq bütün dünya azərbaycanlılarına ərmağan etməsidir.

Xəyalımı bəzəyən bu fikirlərlə əlimdəki kitabın ilk səhifəsini açdım. Dahi rəhbərin sakit, mütəfəkkir halının, vüqarlı duruşunun əks olunduğu rəsminə baxarkən onu ulu şəxsiyyət, görkəmli dövlət başçısı, böyük siyasətçi kimi gördüm. Amma ilk dəfə bu ulu insanı «Heydər baba» kimi tanımışam, körpə uşaq qəlblərində taxt qurmuş mehriban, qayğıkeş, mərhəmətli, müdrik «Heydər baba» kimi.

Bu zaman gözümün önündə qüdrətli bayrağımızın səmalarda dalğalandığını təsəvvür etdim. Qulağımda «Koroğlu» operasından üverturanın coşqun melodiyası əzmlə səsləndi. Özüm də fərqinə varmadan bu sözləri söylədim: «Böyük Azərbaycanlı Heydər Əliyev Azərbaycan tarixinə öz dəsti-xətti ilə əbədi olaraq silinməz, unudulmaz bir dastan yazmışdır».

Bu dastan bizim üçün məktəbdir – tərbiyə, inkişaf, şəxsiyyət kimi formalaşmaq, mənalı yaşamaq, mübarizə aparmaq və qazanmaq, ürəklərə hopmaq məktəbi. Bəli, Ulu Öndərin şəxsi nümunəsi, yaradıcılıq irsi, dövlətçilik fəaliyyəti, siyasi görüşləri bizim üçün ən dəyərli mənbədir. Bu mənbə bizim

yolumuzda parlaq mayakdır. Onun işığında böyüyür, təhsil alır, Müstəqil Azərbaycanın aydın sabahına layiq şəxsiyyət kimi formalaşmağı özümüzə borc bilirik. Bir də sevinirik ki, sabah etibarlı əllərdə – Heydər Əliyev tərbiyəsi almış, Heydər Əliyev məktəbindən bəhrələnmiş möhtərəm prezidentimiz İlham Əliyevin əlindədir. Biz onu sevir, ona inanır və onun ətrafında birləşməyi özümüzə şərəf bilirik.

Vaxtın məhdudluğu sağlam, büllur kimi saf təfəkkürümdən gələn fikirlərimi deməyə imkan vermədi: kövrək qəlbimin dərinliklərində deyilməmiş nə qədər sözüm qaldı. Buna səbəb isə mövzunun doğmalığı və sonsuzluğudur.





## İsmayıllı Aytac Ramin qızı

**Bakı şəhəri, C.Cabbarlı adına**
**187 nömrəli tam orta məktəbin**
**IX sinif şagirdi**

*«92 il əvvəl mayın 10-da,*
*Naxçıvan torpağı sevindi, güldü.*
*Əlirza kişinin xanimanında*
*Bir göyçək övladı dünyaya gəldi».*

Bəli, 1923-cü il 10 may tarixi dünyaya ömrü qısa da olsa, ikinci bir Günəşin gəldiyi gündür.

Hər bir xalqın tarixində onu qoruyan, yaşadan bir lider olmuşdur. Zaman gedərkən bizi də özü ilə apardıqca, çox təəssüflər olsun ki, bir çoxları öz liderlərini də itirmişdir. Belə liderlərin sayı çoxdur, lakin araşdırdıqda liderlərin də lideri aşkarlanır. Məsələn, mən yaşadığım müddətcə çox öndər haqqında eşitmişəm və onların həyatı, yaşam məqsədini öyrəndikcə beynimdə və ürəyimdə: «Yenə də o», – demişəm.

Xüsusilə də türk millətinin şərəfli tarixinə baxdıqda iki insan məni özünə heyran qoyur: Dədə Heydər, Atatürk.

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində rolu əvəzsizdir. Onun həyat səhifələrini vərəqlədikcə yaşadığım hislərin ifadəsi olduqca çətindir. Çünki onun bizə bəxş etdikləri qiymətli və dəyərlidir.

Ümummilli lider Heydər Əliyevin hələ lap kiçik yaşlarından qəlbindəki vətən sevgisi onun gələcəyindən xəbər verirdi. O, daima vətəninə, millətinə, xalqına layiq övlad olmaq üçün çalışmışdır. Və həmişə bunu bacarmışdır. İstər uşaqlıq, istər yeniyetmə, istərsə də digər yaş dövrlərində döyünən ürəyi onun həyatının daha da şərəfli olmasına gətirib çıxarmışdır. Hər zaman təhsilə, elmə xüsusi fikir verən liderimiz bu sahədə də öz mükəmməlliyini isbat etmişdir. Onun atdığı hər addımın altında sonrakı yüzlərlə addım düşünülmüşdür, dediyi hər sözün dərinliyində yüzlərlə fikir

yatmışdı. Hə, yəqin ki, məhz buna görə də hər yerdə onun sözləri qızıl kimi dəyərli olaraq daşlara yazılmışdır.

Heydər Əliyevə məhəbbətim sonsuzdur... Məncə onu itirmək zamanın bizə vurduğu ən böyük zərbələrdəndir. Düzdür, biz onu sadəcə cismən itirmişik, lakin o, bizim qəlbimizdə, ruhumuzda daim yaşayır:

*Yaxından mən səni görə bilmədim,*
*O dərin gözlərə baxa bilmədim,*
*Amma sənə olan min bir sevginin,*
*Sirrini anlayıb yaza bilmədim.*

Mənə aid olan bu sətirlərdə hər nə qədər könlümdəki hislərin bir qismini çatdırmaq istəsəm də, buna nail olmayacağımı bilirəm. Çünki bəzi şeylər var ki, ifadə etmək mümkün olmur, sanki bunun üçün sözlər çatmır. Heydər Əliyevi ifadə etmək də bu qədər çətindir.

Onun sayəsində sahib olduqlarımız, başda müstəqilliyimiz olmaqla Allahın bizə lütfüdür. Məhz Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycan bu gün azad, müstəqil, demokratik dövlətlərdəndir. Onun sözləri ilə desək: «Azərbaycan dünyaya günəş kimi doğacaq» və bu gün bu Günəş yavaş-yavaş çıxmağa başlayır. Bir gün bu Günəşin işığı və istisi bütün dünyanı özünə möhtac qoyacaq. Mən buna inanıram. Çünki Tanrı bizə bunu yaşamaq üçün onu bəxş etmişdi. Vətəni üçün hər şeyi edən Heydər Əliyev.

*«Vətən üçün alışıb-yandın hər zaman,*
*Səninlə ayaqda durdu bu vətən.*
*Dünən də, bu gün də ey Heydər babam*
*Xalqını düşünüb qoruyan sənsən».*

Yazdığım bu şeirdə Heydər Əliyevin bu gün də xalqını düşünüb qoruduğunu qeyd etdim. Sizcə, də bu belə deyilmi? Ulu Öndərimizin yetişdirdiyi oğul sayəsində Azərbaycan hələ də inkişafdadır. Bu gün Azərbaycanda gedən irəliləyişlər ölkəmizin dünyanın demək olar ki, hər yerində tanınmasına səbəb olmuşdur. Azərbaycan neftinin dünya bazarına çıxarılması respublikamızın iqtisadi inkişafını təmin edən əsas amillərdəndir. Əlbəttə, bu iş də Heydər Əliyev siyasəti nəticəsində reallaşmışdır. 1994-cü il 20 sentyabr tarixində 6 ölkə arasında imzalanan bu müqavilə mahiyyətinə görə «Əsirin müqaviləsi» adını almışdır.



Bəli, bütün bunların göstəricisidir ki, biz bu gün rahat, firavan həyat sürürük. Zamanında Heydər Əliyevin çox dərin bir quyunun lap yaxınlığında olan Azərbaycanı burdan uzaqlaşdırması bunun səbəbidir.

Heydər Əliyev bütün bunlarla yanaşı əsl insanlıq nümunəsi göstərən şəxsiyyət olmuşdur. Onun nur saçan sadəliyi, gözlərindəki insaniyyəti, gülüşündəki mehribanlığı hər bir bəşər övladı üçün nümunədir.

Bu gün biz də onun Azərbaycan səmalarında dolaşan ruhunun rahatlığı üçün əlimizdən gələn hər şeyi etməliyik. Çünki o, həmişə bizim üçün – bu xalq, bu Vətən üçün yaşadı. Aldığı hər nəfəsdə bu torpaqları düşünürdü. Biz isə ən azından onun bizə qoyub getdiklərini qorumalı, Vətənə, millətə layiq övlad olmalıyıq. Bu, hər birimizin şərəfli borcudur.

Bundan sonra çox oğul gəlib-gedəcək, ancaq onun kimisi – Ulu öndər, ümummilli lider, dahi insan Heydər Əliyev kimisi bir daha olmayacaq. Onun yeri həmişə görünəcək!

*Tarixinin kökündə, zatında da, əslində də,*
*Bu dünyaya, təzə gələn neçə-neçə nəslində də*
*Hər yüz ilin başında da, hər ilin dörd fəslində də*
*Hər il sənin ad günündə, may günündə,*
*Sənin bizə ulu nemət, ilahinin pay günündə*
*Azərbaycan başdan-başa açılanda çiçək-çiçək*
*Dünya dadlı, dünya gözəl, dünya şirin görünəcək*
*Sənin yerin görünəcək!*



## İsmayılova Ülkər Qabil qızı

**Mingəçevir şəhəri, Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü liseyin XI sinif şagirdi**

Biz öz valideynlərimizi seçə bilmədiyimiz kimi, öz vətənimizi də seçə bilmirik. Bizi bu vətənə, bu vətəni qismətimizə Yaradan yazır. Vətən sevgisi insanın yaradılışında var. Hara getsən də, harada məskən salsan da ilk gördüyün həyət-baca, ağaclar, dağ, dərə, yollar, cığırlar ömür boyu səninlə gedir, gündüzlər xəyallarından, gecələr yuxularından çıxmır. «Vətən sevgisi imandandır» – buyurur Könüllər Sultanı Uca Peyğəmbərimiz (s.ə.s.).

Belə imanlı, qəlbində vətən, yurd sevgili ilə yaşayan dahilərdən biri mənim Heydər babamdır. Sən 1923-cü il 10 mayda günəşli bir gündə Azərbaycan səmasına Günəş kimi doğdun, babam. Məndən «Vətəni sevməyi kimdən öyrəndin?» – deyə soruşsan, «ilk öncə anamdan, daha sonra səndən öyrəndim» – deyərdim, babam. Sən mənə vətəni sevmək necə olur, onu öyrətdin, babam... Sən mənim üçün öz işini ən gözəl şəkildə yerinə yetirən, öhdəsinə götürdüyü işdə usta olan ədalətlilik, dürüstlik zirvəsisən. Sən elə bir zirvəsən ki, o zirvəyə qalxmaq tək-tək insanlara nəsib olur desəm, az demiş olaram. O zirvə ancaq sənin kimi vətənini, xalqını bütün varlığı ilə sevən igidlərin zirvəsidir. Sən Salur Qazanların, Bamsı Beyrəklərin, Koroğluların, Babəklərin, neçə-neçə ismətli ana-bacıların yetirdiyi vətənimin baş tacısan, Heydər babam. Sən mənim qürur mənbəyim, Vətənim Azərbaycanın şanlı tarixinin qəhrəmanlıq salnaməsisən. Sən nəinki mənə, hətta bütün Azərbaycan gəncliyinə bir mayaksan. Sənin keçdiyin şərəfli ömür yolu hər birimiz üçün parlaq bir nümunədir. Səninlə öyünür, qürur duyuram.

*Bar verən ağacın, gül açan daşın,*
*Baharı sən oldun, baharı baba.*



*Müasir müstəqil Azərbaycanın,*
*Memarı sən oldun, memarı, baba!*

Bunlar mənim məktəbli qəlbimdən gələn sözlərdir. Sənin vətənin, millətin uğrunda göstərdiyin fədakarlıqları söyləyəcək adi sözlər. Adidən də adi. Çünki səni vəsf etməyə, öyməyə heç bir söz tapa bilmirəm. Nələr yazılmadı sənin haqqında, nələr söylənmədi. Hələ bunlar nədir ki? Sənə olan sevgi nəsillərdən nəsillərə ötürülərək, yaşayacaqdır. Sənin haqqında nə qədər yazsaq da, yenə qəlbimizdəkiləri ifadə etməkdə acizik. Dünyanın hər bir nöqtəsində yaşayan azərbaycanlıları bir amal, bir bayraq altında birləşdirən sən oldun, babam. Sanki Nəsimi əsrlərin o tayından səni görərək yazmışdı:

*Məndə sığar iki cahan, mən bu cahana*
*sığmazam,*
*Gövhəri-laməkan mənəm, kövrü-məkana*
*sığmazam.*

Sən yaşadığın zaman kəsiyində bu cahana sığmadın, babam. Vətənini parçalayan, torpaqlarına göz dikən mənfur cəlladlara meydan oxudun. Sinəsi dağlı anaların, gözü yaşlı gəlinlərin ah-naləsi sənin sayəndə təpər tapdı, səndən güc aldı igid oğullarımız, qeyrətli ərlərimiz... Dayandın xalqının başı üstündə qeyrətli ər kimi. Yazdın vətənimin adını dünya dövlətlərinin adlarının sityahısına... Babalardan miras qalan vətənimizin gələcəyi naminə gecə-gündüz şam kimi əridin. Ölkədə sabitlik, əmin-amanlığın yaradılması, iqtisadi dirçəliş, Azərbaycan təhsilinin, səhiyyəsinin, söz və mətbuat sərbəstliyinin təmin edilməsi, daha nələr, nələr... Saymaqla bitməz ki... Biz hər şeyə görə sənə minnətdarıq... Bizi biz edən məhz sən oldun. Müasir Azərbaycan məhz sənin şah əsərindir. Bu gün burda heç kimdən, heç nədən qorxmadan öz fikirlərimi yaza bilirəmsə, bunun üçün sənə borcluyam. Bu gün vətənimin azad, müstəqil vətəndaşıyam. Bir şagird kimi, bu torpağın övladı olduğum üçün fəxr edir, öyünür, qürur duyuram ki, Ümummilli Liderimiz mənsub olduğu xalqın bir nümayəndəsi, vətəndaşıyam. Sənin bizlər üçün qurub ucaltdığın respublikada yaşadığıma, oxuduğuma görə fəxr edirəm. Hər gün müstəqil sabaha göz açdıqca, üçrəngli bayrağımız vətən göylərində əbədi dalğalandıqca, sülh şəraitində, barış içində yaşadıqca, bu torpağın havasını udduqca, suyunu içdikcə bu sevgi həmişə artacaqdır. Yaradanıma şükürlər olsun ki, səni bizim taleyimizə, qismətimizə yazdı. Nə mən, nə də ki mənim xalqım Ulu Öndərini heç vaxt unutmayacaq və yaddan çıxarmayacaqdır.

*Vətən mənə oğul desə, nə dərdim.*
*Mamır olub qayasında bitərdim.*

Bəli, məhz mənim Heydər babam vətənimin əsl vətəndaşı, sirdaşı oldu... Vətənin qayasında mamır olmağı bacaran bir oğul oldu... Vətəni Odlar Yurdunun alovundan, istiliyindən güc alaraq bütöv bir xalqın qəlbini isitdi. Bu istilik, doğmalıq yurdunu bir bayraq altında birləşdirə bildi... Bu gün biz parta arxasında əyləşən bir məktəbli olsaq da, vətəni sevməyi, göz bəbəyimiz kimi qorumağı səndən öyrəndik. Məhz Siz bizə həmişə irəli getməyi, heç vaxt ruhdan düşməməyi, qalib olmağı öyrətdiniz. Sən bizə öyrətdin ki, həyatda yalnız mübarizlər qalib gəlir. Sənin kimi, babam!

2003-cü ilin 12 dekabrında Vətənimizin Günəşi – Heydər Əliyev vətənindən çox-çox uzaqlarda gözlərini yumdu. Amma o, həmişə Azərbaycan səmasında günəş kimmi doğacaq, onu qoruyacaqdır.

İllər əvvəl «Azərbaycan dünyaya günəş kimi doğacaq» dediyin fikirlər öz təsdiqini tapdı, babam. Bu gün biz dünyaya zirvələrdən baxa biliriksə, o zirvəni fəth edən məhz sən oldun, sən, babam!

Azərbaycan günəş, bu günəşin peyki, ən nurlu siması sənin ümidlərini doğruldan, layiqli davamçın İlham Əliyevdir. Biz gənclər söz veririk ki, sənin getdiyin uğurlu yolu gedərək, dərslərimizi müvəffəqiyyətlə oxuyaraq sənin bizi görmək istədiyin yerlərdə olacağıq. Sənin layiqli davamçıların Azərbaycan Respublikası Konstitusiyasını rəhbər tutan ali baş komandanımız İlham Əliyev və Mehriban Əliyevanın ətirafında birləşərək vətənimizin gələcəyi naminə əlimizdən gələni əsirgəməyəcək, sənin layiqli davamçılarından olacağıq!.. Bir gün dilbər Qarabağımızda sənin şanına ucaldılan heykəlin qarşısında bu sözləri deyəcəyəm:

*Zirvədən enən deyilik,*
*Yanmışıq sönən deyilik,*
*Bu yoldan dönən deyilik,*
*Yolumuz Heydər yoludur!!!*









## *İsmayılova Aypara Paşa qızı*

***Kəlbəcər rayonu, 37 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Mən XI sinif şagirdiyəm. Azərbaycanlıyam. Bu an nədənsə birinci sinfə getdiyim günü xatırladım. İlk olaraq hərfləri, yavaş-yavaş sözləri, daha sonra «Ana», «Vətən», kəlməsinin şirinliyini, məmləkətimin Azərbaycan olduğunu yazmağa başladım. Bu sözlər içərisində mənə şirin, əziz olan başqa bir ad, başqa bir söz də vardı: Heydər Əliyev. Nədənsə bu adı hər deyəndə Azərbaycan bayrağını, yaxud Azərbaycan bayrağını hər görəndə Heydər Əliyevi düşünür, var olan bir xalqın möhtəşəmliyini hiss edirdim.

Heydər Əliyev! Bu adın hər hərfində mənim üçün bir anlam var:

«**H**» hərfi: hünər rəmzidir. Xalq onu qorxmazlığı, quruculuğu və duruşu ilə sevdi.

«**E**» hərfi: etibarının rəmzidir. Xalq onu ən çətin zamanlarda elini tək qoymadığı, xalqı qoruduğu üçün sevdi.

«**Y**» hərfi: yaxşılığının rəmzidir.

Xalq yarandığı ilk gündən son mənzilədək hər addımında hər kəsə yaxşılıq etdiyi üçün, hər kəsin haqqını qoruduğu üçün sevdi.

«**D**» hərfi: dəyanətinin rəmzidir.

Xalq onu ölümlə üz-üzə qaldığı ən çətin anında belə sınmadığını, əsl türk oğlu olduğunu sübut etdiyi üçün sevdi.

«**Ə**» hərfi: əziyyətinin, əzminin rəmzidir.

Xalq onu ömrü boyu bu xalqın əziyyətinin tapdalanmamasına görə çalışdığı üçün sevdi.

«**R**» hərfi: rəşadətinin rəmzidir.

Xalq onu xalqın haqqını hər şeydən uca tutduğu üçün sevdi.

İnsan ömrü qərinələrin şövqündən qopan bir zərrəcik və ya dənizdən götürülürmüş bir damlaya bənzər. Bu gəlimli dünyada hər birimizin taleyinə bu zərrəciyi, bu damlanı yaşatmaq yazılmışdır. Amma necə? İnsan həyatı

boyunca gərək elə yaşaya ki, özündən sonra bir iz qoysun. Bu həyatı yaxşı, layiqincə yaşasın. Bu həyatı yaxşı yaşamaq, bu xalqa layiqincə xidmət etmək və vətənimizə layiqli övlad olmaqdır.

Biz xoşbəxt bir xalqıq ki, bizim Heydər Əliyev kimi dahi bir şəxsiyyətimiz var. Heydər Əliyev bütün dünyada tanınmış dahi bir şəxsiyyətdir.

Dahilər heç bir zaman ölmür və unudulmurlar. Onlar cismən dünyalarını dəyişirlər. Məhz Heydər Əliyev də belə şəxsiyyətlərdəndir. Heydər Əliyevin bizlərə bəxş etdiyi ideyaları, amalları bizim üçün bir mayakdır.

Azərbaycanın ən çətin anında dövlətin idarə edilməsi missiyasını Heydər Əliyev öz üzərinə götürmüşdür. O, canından çox sevdiyi Vətənin hər zaman yükünü öz çiyinlərində daşımışdır. Heydər Əliyev hər zaman ucadan uca, böyükdən böyük, yüksəklərdən yüksəklərdə olmuşdur. Məhz onun liderliyi sahəsində ölkəmiz inkişaf etmiş və müstəqil bir dövlətə çevrilmiş, azad Azərbaycan olmuşdur. O, Azərbaycan Respublikasının Prezidenti olduqdan sonra dövlətimiz inkişaf etmiş və bir çox uğurlara nail olmuşdur: Azərbaycan dövlətini tanıdıb və Azərbaycan dilinin inkişafında böyük rolu olmuşdur. Siyasi arenalarda nüfuzlu yerlərin sahibi olmuşuq. Elm, mədəniyyət, incəsənət, ədəbiyyat, təhsil və tibb sahəsində xeyli irəliləyişlərimiz olmuşdur. Ölkəmizdə abadlaşdırma işləri görünməz vüsət almışdır.

Heydər Əliyev ömrünün son anına qədər dövlətimizin başında, xalqımızın yanında olmuş və bütün dünyaya «Xalq Heydər, Heydər xalq» kəlamının doğru olduğunu bir dünyaya sübut etmişdir.

Heydər Əliyev bu dövlətin sükanını siyasi varisi olan oğlu İlham Əliyev cənablarına əmanət etmişdir. Eyni zamanda xalqımız da İlham Əliyevin ətrafında sıx birləşərək dövlətimizin uğurları üçün çalışırlar. Bu da xalqımızı və o cümlədən də məni çox sevindirir.

Soyadı: Əliyev! Əli adı onu Məkkəyə, Mədinəyə – o müqəddəs ocaqlara qədər apararaq, dövlətimizi məhv etməyə, bu xalqın haqqını tapdalamağa çalışanlara tutarlı cavab verməkdə Heydər Əliyevə kömək olmuşdur.

Heydər Əliyev xalqımızın qürurunu, onun mənafeyini hər zaman hər şeydən uca tutmuşdur. Dünya onu mütəfəkkir, ağıllı, əyilməz bir şəxsiyyət kimi tanıyır. Heydər Əliyev bütün dünyaya Azərbaycan xalqını sülhsevər, Azərbaycan dövlətini isə suveren, demokratik, müstəqil bir dölət kimi tanıtmışdır. Heydər Əliyev bizim üçün bir tarixdir.

Heydər Əliyev demişdir: «Mən fəxr edirəm ki, mən azərbaycanlıyam!»

Mən də bu ideyadan, fikirdən çıxış edərək demək istəyirəm ki, «Fəxr edirəm ki, Heydər Əliyevin canından çox sevdiyi Azərbaycan torpağının bir zərrəsiyəm».





## *Kərimli Aqil Namiq oğlu*

*Şəki şəhəri, 18 nömrəli*
*tam orta məktəbin X sinif şagirdi*

Mən gecələr saysız-hesabsız ulduzların bərq vurduğu kəhkəşana, sübh tezdən isə dan yerinin sökülməsinə tamaşa etməyi çox sevirəm. Sanki gecələr səmada sayrışan ulduzların hər biri bir insan taleyi, bir insan ömrüdür – doğulur, parlayır, mövcud olur, axıb sönür gedir. Bizlər – sadə insanlar onların sönməsindən həmişə xəbərsiz oluruq.

Dan yeri söküləndə isə daha parlaq, əzəmətli bir ulduz – Günəş qızılı şəfəqləri ilə qaranlıqların bağrını dəlir. Onları yox edəcək Yer üzünü nura qərq edir, hərarət paylayır, həyat bəxş edir.

Zülmətləri dəf edərək xalqların taleyinə nur saçan, onları aydınlığa çıxaran dahi insanlar – liderlər də Günəş qədər möhtəşəmdir.

Mənim üçün lider anlayışı nə deməkdir? O deməkdir ki, belə dahi insanlar öz xalqlarının taleyüklü məsələlərinin həllində həlledici rol oynaya bilmişlər. Onu düşdüyü çətin vəziyyətlərdən çıxarmış, bacarıqlı, uzaqgörən, dövlət xadimi, görkəmli siyasətçi, dahi mütəfəkkir kimi liderlik zirvəsinə ucalmışlar.

Ulu öndərimiz Heydər Əliyev isə daha uca zirvəyə qalxa bilmiş və əbədiyaşar lider olmuşdur.

Mən dahi şəxsiyyət olan Heydər Əliyev irsini kitablardan, mətbuatdan, iştirak etdiyim onun adı ilə bağlı tədbirlərdən, müəllimlərimin söhbətlərindən, televiziya verilişlərindən, sənədli filmlərdən, ziyarət etdiyim muzeylərdən öyrənirəm. Öyrəndikcə də heyran qalır, qəlbim qürur hissi ilə dolur, duyğulanıram. Onun haqqında deyilən bu sözləri tez-tez təkrar edirəm: Fövqəlbəşər.

Azərbaycanın 1960-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixinin otuz beş illik bir dövrü ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

O, bütün bu illər ərzində Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmlə-

kəti, onun bugünkü həqiqətlərini və işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi onun adı ilə bağlıdır.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969–82-ci illərdə Sovet İttifaqı çərçivəsində gələcək müstəqil Azərbaycan dövləti üçün xidmət göstərə biləcək zəruri addımları ata bilməyə nail olmuşdur.

Sonralar SSRİ kimi böyük bir dövlətin rəhbərliyində təmsil olunsa da, öz xalqına həmişə sədaqətli olmuşdu. Bu isə xalqımızın düşmənlərinə yaxşı məlum idi. Ona görə də Sovet İttifaqının rəhbəri M.Qorbaçov Azərbaycan torpaqları üzərində erməni daşnakları ilə sövdələşməyə gedərkən bu yolda yeganə maneə olan Heydər Əliyevi istefaya göndərdi. Bundan təxminən bir ay sonra ermənilərin Dağlıq Qarabağla bağlı bədnam iddiaları ortaya atıldı.

Azərbaycanda baş qaldırmış kortəbii azadlıq hərəkatını boğmaq məqsədi ilə Sovet ordusu tərəfindən törədilmiş qanlı 20 Yanvar gecəsinin səhəri günü Heydər Əliyevin Moskvadakı Azərbaycan Nümayəndəliyinə gələrək xalqına qarşı törədilmiş bu ağır cinayətə kəskin etirazını bildirməsi, nəhəng imperiyanı ittiham edərək ifşa etməsi bir tərəfdən öz şəxsi həyatı daim təhlükədə olan Heydər Əliyevin böyük cəsarət, qətiyyət sahibi olmasının və xalqına bağlılığının nəticəsi idisə, digər tərəfdən də informasiya blokadasına alınmış Azərbaycanda nələrin baş verdiyini dünyaya çatdırmaqla öz xalqının haqq səsinin carçısı olmasının nümunəsi idi.

1991–1993-cü illərdə Azərbaycanın iqtisadiyyatı tamamilə dağılmış, siyasi hakimiyyət xalqın milli maraqlarını təmsil edə bilmirdi. İctimai-siyasi sabitlik pozulmuş, dərəbəylik yaranmış, ayrı-ayrı şəxslərə xidmət göstərən silahlı dəstələr meydana gəlmişdi. Bundan istifadə edən erməni daşnakları Azərbaycan torpaqlarını işğal edir. Artıq 1993-cü ilin ortalarına doğru ölkə vətəndaş müharibəsinin və parçalanmanın tam astanasında idi. Xalq yaranmış bu vəziyyətdən çıxmaq üçün çıxış yolunu dahi lider Heydər Əliyevdə görüb onu köməyə çağırdı.

Qətiyyətli və uzaqgörən siyasi xadim Heydər Əliyev xalqın səsinə səs verir, ona tərəf uzanmış əlindən tutaraq 1993-cü ilin iyununda Bakıya gəlir. Bu, bir xilaskarın gəlişi idi. Xalqımız 15 iyun tarixini Milli Qurtuluş Günü kimi qeyd edir.

3 oktyabr 1993-cü ildə Heydər Əliyev böyük səs çoxluğu ilə prezident seçildi. Bu, Azərbaycan xalqının və dövlətinin tarixində ən əlamətdar gündür! Bu, tariximizin dönüş nöqtəsidir!

1994-cü ilin sentyabrında dünyanın ən iri neft şirkətləri ilə «Əsrin müqaviləsi»nin bağlanması ölkədə sabitliyin bərqərar olmasının əyani sübutu idi. Bu, Azərbaycanı dünya iqtisadiyyatına qovuşduran tarixi hadisədir.



Çoxlarının əfsanə adlandırdığı «Bakı–Tbilisi–Ceyhan» neft kəməri layihəsi reallığa çevrildi, uzunmüddətli neft strategiyası uğurla davam etdirilməyə başlandı. Azərbaycanın gələcək inkişaf tarixinin əsası qoyuldu.

1994–2000-ci illərdə əlverişli investisiya mühitinin yaradılması sayəsində xarici kapital qoyuluşunun sürətlə fəallaşması xüsusilə qeyd olunmalıdır.

Son illərdə xarici investisiya ilə yanaşı, maliyyə hesabına da kapital qoyuluşu sürətlə artır. Müdrik rəhbərimizin başçılıq etdiyi Azərbaycan regionda sülh və əmin-amanlığın qorunması uğrunda mübarizə aparan dövlətə çevrildi. Bir çox beynəlxalq və regional layihələrin keçirilməsi sayəsində beynəlxalq aləmdə ölkəmiz nüfuz qazanmağa nail oldu.

1993–2003-cü illər Azərbaycan tarixinə tərəqqi, dirçəliş və inkişaf dövrü kimi qeyd edildi.

2003-cü ildən sonrakı dövr isə uğurlu yolun davamı kimi dəyənləndirilir. Müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın qarşısında böyük imkanlar açır.

Bu gün möhtərəm prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xoşbəxt günlərini yaşayan xalqımızın mətin, cəsarətli, işğal altında olan torpaqları hər an azad etməyə, Ali Baş Komandanın əmrini şərəflə yerinə yetirməyə hazır olan ordusu vardır. Hər bir Azərbaycan gənci kimi mən də inamla söyləyə bilərəm ki, bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş hər bir gəncə göstərilən qayğı ölkə prezidenti İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Bu isə bizim gələcəyə olan inamımızı artırır, vətənpərvər olmağa, yeni nailiyyətlər qazanmağa ruhlandırır.

İnşa yazımın son sətirlərini yazarkən xəyalən Qızıl Qaya massivindəki Heydər Əliyev Zirvəsinə qalxıram. Burada əllərimi geniş açaraq, əlbəttə ki, şair olmasam da, düşüncələrimdən ürəyimə, oradan da dilimizə süzülən bu misraları söyləmək istəyirəm:

*Sən xalqımın taleyinə*
*Üfüqlərdən gün tək doğdun.*
*Tarixlərə gömülmədin*
*Sabahlara işıq oldun.*
*Hey titrədir ürəyimi*
*Sevgi dolu bu kəlmələr.*
*Ey xilaskar dahi rəhbər*
*Ulu öndər, fövqəlbəşər!*



## *Qəhrəmanova Almaz Samədddin qızı*

***Gəncə şəhəri, İ.Məmmədov adına 27 nömrəli Fizika, riyaziyyat-informatika təmayüllü liseyin IX sinif şagirdi***

Həyat yolunun hər günü başlanğıc və sondur. Biz də bu haqq yolunun əbədi və əzəli yolçularıyıq...

Mən bu inşamda Azərbaycanı müstəqil, azad edən, illərlə ona rəhbərlik edən, həmişə qəlblərimizdə yaşayan ulu öndər Heydər Əliyev haqqında danışmaq istəyirəm.

Heydər Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan Muxtar Respublikasında anadan olmuşdur. O zaman heç kəs bilmirdi ki, bu körpə XX əsrin dahi siyasətçilərindən biri olacaq. O, çox savadlı idi. Azərbaycan Respublikasının rəhbəri olmamışdan əvvəl Heydər Əliyev bir sıra yüksək vəzifələrdə çalışmışdır.

Heydər Əliyev öz dövrünün dahisi idi. O, kimsəsizlərə əl uzatdı, acları doyuzdurdu. işsizlərə iş verdi. Heydər Əliyev1990-cı il faciəsindən sonra Allah tərəfindən bizə göndərilən mələk idi. O, xalqının gələcəyinə, təhsilinə xüsusi fikir verirdi.

Hər il dekabr ayının 12-də Heydər Əliyevin ölümünü xatırlayanda çox sarsılıram. Axı belə bir insan bu dünyadan necə köçə bilərdi? Ancaq xəyalımdan təsəlli ola biləcək iki misra keçdi:

*Ölüm – acı bir badə ki,*
*hər kəs içəcəkdir.*
*Bir körpü ki, ondan*
*bütün aləm keçəcəkdir.*

Necə gözəl ifadə edir. Böyük insan ömrüunün son anlarını...

Heydər Əliyev, doğrudan da, Böyük İnsan idi. O, bu körpünü şərəflə, qürurla, vuqarla keçdi. Heydər Əliyev əsl dahi idi. Dahilər isə bu dünyaya gəlirlər, lakin getmirlər. Əbədiyyətə qovuşurlar. Heydər Əliyev ölümdən qorxmazdı. Hətta Konstitusiyada müstəsna cəza tədbiri kimi nəzərdə tutulan



ölüm cəzasının Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin təşəbbüsü ilə ləğv edilməsi insana xas olan yaşamaq hüququna verilən ən yüksək dəyərdir. Bu isə 1998-ci il 10 fevral tarixində oldu.

Heydər Əliyevin heykəlinin önündən keçəndə mənə çox pis təsir edir. Çünki Heydər Əliyevin tükənməyən arzuları var idi. Çox əfsuslar ki, o, bu arzuların yalnız bir neçəsinə ölməmişdən əvvəl nail ola bilmişdi. Ulu Öndərin sayəsində Azərbaycan müstəqil, suveren dövlət oldu.

Heydər Əliyevin ölüm xəbəri mənim kimi xalqını da sarsıtmışdı. Hamı göz yaşlarına qərq olmuşdu. Amma nə fayda, artıq o, yoxdur. Lakin bu sadəcə cismani yoxluqdur. Heydər Əliyev daim bizim qəlbimizdə var olacaqdır.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər «Xalqım!» – deyəcək,*
*Xalq «Heydər!» – söyləyəcək.*

Bu, həmişə belə olaraq qalacaq. Heydər Əliyev bizim qəlbimizdə həmişə yaşayıb, yaşayır, yaşayacaqdır.

Məhəmmədhüseyn Şəhriyarın «Heydər babaya salam» poemasını oxuyanda elə bilirdim ki, bu, Heydər Əliyev haqqındadır. Sonradan biləndə ki, dağ haqqındadır, çox təəcübləndim. Çünki Heydər Əliyev də Heydərbaba dağı kimi vüqarlıdır, əlçatmazdır. Hər ikisi də Azərbaycanın ayrılmaz, əzəmətli bir parçasıdır. O vaxtdan Heydər baba və Heydərbaba dağı yaddaşımda qoşa heykəlləşib. Bu isə məndə fəxarət hissi oyadır.

2002-ci il 18 sentyabr tarixində ümummilli liderimiz Heydər Əliyevin fərmanı ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də atası Heydər Əliyevin yolunu davam etdirir. 17 mart 2015-ci il tarixində Türkiyə prezidenti R.T.Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevlə birlikdə Trans Anadolu təbii qaz boru xəttinin təməlini qoymuşdur. Bu isə Azərbaycanın iqtisadiyyatının inkişafı üçün çox vacib bir layihədir.

Heydər Əliyevin ən böyük arzularından biri işğal olunmuş torpaqlarımızı geri qaytarmaq idi. O, bunun üçün əlindən gələni edirdi. Bu istiqamətdə xeyli danışıqlar aparmışdı. Hal-hazırda isə bu problemlə bağlı onun yolunu oğlu cənab İlham Əliyev davam etdirir.

Mən inanıram ki, biz tezliklə Qarabağımızda himnimizi oxuyaraq üçrəngli bayrağımızı göylərə ucaldacağıq. Mən bu günü səbirsizliklə gözləyirəm.

Mən doqquzuncu sinifdə oxuyuram. Öz inşamı isə Heydər Əliyevin məşhur bir kəlamı ilə bitirmək istəyirəm: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»




## *Quliyeva Lalə Arzu qızı*

***Şamaxı rayonu, E.Rzayev adına Mədrəsə qəsəbə tam orta məktəbinin X sinif şagirdi***


Dünyaya gəlişinin 92-ci baharını qarşılamağa hazırlaşdığımız, qurucusu olduğu Azərbaycanımızın Avropa oyunlarına ev sahibliyi edəcəyi bir vaxtda bütün həyatını xalqına həsr etmiş ümummilli lider Heydər baba haqqında qürur və fərəhlə inşa yazıram.

Fikrimi Bəxtiyar Əkbərovun ümummilli lider, görkəmli dahi şəxsiyyət Heydər Əliyev haqqında dediyi bir kəlamla başlayıram:

«Çox tez-tez düşünürəm, nə yaxşı ki Tanrı bizə özü kimi qüdrətli, özü kimi müdrik, böyüklərdən böyük, ucalardan uca olan Heydər Əliyev kimi dahi bir şəxsiyyət bəxş etmişdir. O insanlığa işıq verən bir Prometey, öz ürəyini məşəl edərək, xalqını zülmətdən işığa doğru aparan qəhrəman Danko kimi bizi irəliyə aparır. Biz də onun bayrağı altında irəliyə doğru inamla addımlayırıq».

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirib, daha sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

Heydər Əliyev 1941–1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında bir sıra məsul vəzifələrdə xidmət göstərmişdir. Heydər Əliyev Leninqrad (indiki Sant-Peterburq) və Moskva şəhərlərində təhsil almışdır. O, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan tarixində və taleyüklü məsələlərin həllində dövlət xadimlərinin rolu vardır. Onlar zaman-zaman gördükləri işləri və əməlləri ilə yaddaşlarda qalmış və unudulmamışdır.



Ərəblərə qarşı 22 il mübarizə aparan Babək «Qırx il kölə kimi sürünməkdənsə, bir gün azad yaşamaq, ixtiyar sahibi olmaq yaxşıdır» demişdir.

XVI əsr Azərbaycan Səfəvilər dövlətinin qurucusu, qüdrətli Şah İsmayıl Xətai vəsiyyətlərinin birində «Babalardan bizə üç miras qalıbdır: dilimiz, qeyrətimiz və Vətənimiz. Yaxşı nə başlamışamsa, göyərdin! Səhvlərimi təkrar etməyin!» – söyləmişdir. Belə tarixi şəxsiyyətlərdən biri də Heydər Əliyev olmuşdur. Çünki dövlət xadimlərindən hec kim milli liderlik səviyyəsinə yüksəlməyib. Milli liderliklə siyasi liderlik keyfiyyətlərini özündə ehtiva edən bu böyük insan fəliyyət göstərdiyi hər bir sahədə özünü birinci və lider kimi təsdiq etmişdir.

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Heydər Əliyev Azərbaycan xalqının mənəvi, iqtisadi, siyasi həyatında misilsiz xidmətlər göstərmişdir. Bu cəhətdən misilsiz xidmətlər göstərən ikinci bir dövlət xadimi tapmaq mümkün deyil. Elə buna görə də xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlı idi. Liderlər var ki, onlar siyasət sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Lakin elə liderlər var ki, bu onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Buna Allahdan lider deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam isə səlahiyyət məsələsidir. Heydər Əliyev təkcə Azərbaycanda deyil, keçmiş ittifaq, hətta Qərb miqyasında tanınan siyasətçi idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı.

Tarixi-bəsirət, irəlini görmək nadir bir hissdir. Dövlət adamlarının heç də hamısında bu hiss olmur. Təbiət ancaq bunu secilmiş adamlara, zəmanəsini çox-çox qabaqlayan mütəfəkkirlərə vermişdir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. O, analitik düşüncə tərzi ilə, dünya intellekt səviyyəsinə bələdliyi ilə hamını heyrətləndirmişdir. O, təkcə bir ölkə səviyyəsində deyil, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətlə sözünü deyən siyasətçilərdən idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə vəziyyəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdir.

Təsadüfi deyildir ki, onun söylədiyi fikirlər, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar öz dəqiqliyi, aktuallığı və obyektivliyi ilə hamının diqqətini cəlb etmiş, heyrətləndirmişdir. Dünyanın görkəmli siyasətçiləri , şəxsiyyətləri Heydər Əliyevlə məsləhətləşdiklərini dönə-dönə etiraf etmişlər. Bu görkəmli siyasətçilər Heydər Əliyevi «liderlərin lideri» adlandırmışlar.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici fəaliyyəti ilə ölkənin nüfuzunu artırmış, onun müstəqilliyini əbədi və dönməz etmişdir.

1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev öz siyasətini daha da uğurla davam etdirmişdir. İllərin sınağından cıxmış uğurlu siyasəti nəticəsində o, kiçik bir ölkəni böyük, yenilməz və qüdrətli dövlətə çevirdi. «Bakı–Tbilisi–Ceyhan» neft və «Bakı–Tbilisi–Ərzurum» qaz kəmərlərinin çəkilişində bu dahi insanın əməyi çoxdur.

Heydər Əliyev fəaliyyət göstərdiyi illərdə bir cox ölkələrin, universitetlərin fəxri adlarına layiq görülmüşdür. O, iki dəfə «Lenin» ordeni, «Qırmızı Ulduz» medalları ilə təltif olunmuşdur. Heydər Əliyevə iki dəfə «Sosialist Əməyi Qəhrəmanı» adı verilmişdir.

Heydər Əliyevi dünyanı dəyişmiş insanlar cərgəsinə aid etmək olar. Müasirləri hələ də onun işini layiqincə dəyərləndirməyiblər.

Bu gün Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Onun siyasətinin icraçısı varisi cənab İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirərək inamla addımlayır.





## *Quluzadə Mahirə Nəsib qızı*

*Xızı rayonu, akademik M.A.Dadaşzadə adına Şuraabad qəsəbə tam orta məktəbinin X sinif şagirdi*

İnsan dünyaya gələndən bəri səadət, xoşbəxtlik sorağındadır. Ömürdən aylar, illər ötdükcə, arzudan arzular yarandıqca bəzən insana elə gəlir ki, bu xoşbəxtliyin açarı lap uzaqlarda, nağıllarda deyildiyi kimi, zülmətin qucağında, əlçatmaz Qaf dağındadır. Ancaq fərqinə varmırıq ki, təmiz səma altında zərrin günəş şəfəqlərinə bürünüb abad, azad bir ölkədə yaşamaq özü ən böyük xoşbəxtlik, ən böyük səadətdir!

Mən xoşbəxtəm! Xoşbəxtəm ki, Azərbaycan adlı gözəl bir diyarın, Odlar yurdu kimi firavan məmləkətin vətəndaşıyam. Mən vətənimi canımdan artıq sevirəm. Mənim yeniyetmə qəlbimin səmimiyyətinə inanın! Bu xoşbəxtliyi, bəxtiyarlığı bizə bəxş edən, xalqımızın fəxarətli oğlu, Vətəni naminə ömür boyu çarpışan, dünyanın dahi şəxsiyyətləri içərisində müstəsnalığı ilə seçilən ulu öndərimiz – Heydər Əliyevdir!

Əziz rəhbərimiz! Xatirəsini ehtiramla yaşatdığımız Heydər babamız! Bu səmimi, qəlbimin hərarətindən doğan xitabların sayını, müraciətlərimin hesabını istədiyim qədər artıra bilərəm. Lakin heç bir müraciətimdə mən Sizinlə keçmiş zamanda danışa bilmərəm. Azərbaycan dövləti yaşadıqca, bu dövlətin taleyi də yaşayacaqdır. Dahilərin ömrünün sonu olmur, çünki onlar zamanın çərçivəsinə sığmırlar.

Müstəqil Azərbaycanı sağlam zəmin üzərində quran müdrik liderimiz dövlətin strateji fəaliyyətinin əsaslarını milli adət-ənənələrimizin, tarixi nailiyyətlərimizin fonunda yaratdı. Onun salnaməsini vərəqlədikcə elə bir möhtəşəm əzəmətlə rastlaşırsan ki, bu əzəməti yeni bir sözlə ifadə etmək istəyirsən, əfsus, yenə təkrarçılığa varırsan. Zəngin ana dilimizin üfüqlər qədər geniş imkanları da bu möhtəşəmlik önündə aciz qalır!

Azərbaycan xalqının həyatına əbədi həkk olan 14 iyul 1969-cu il tarixi ilə milli ruhun tərəqqisi dövrü başladı. Heydər Əliyevin müdrikliyi, geniş dünyagörüşü, nadir siyasətçi istedadı xalqımızı dönə-dönə mənəvi sarsıntılardan xilas etdi. İstər Moskvada yaşadığı illərdə ürəyi Azərbaycanla döyünən, istərsə də 90-cı illərin qanlı keşməkeşli anlarında gur səsi ilə mötəbər tribunalardan mənfur düşmənləri ifşa edən Ulu Öndərimiz yenilməz bir sərkərdə qeyrəti ilə dövlətimizi məhv olmaqdan qorudu. «Xalqımın ən böyük nailiyyəti onun müstəqilliyidir», – dedi. Bütün ömrünü bu müstəqilliyin qorunmasına, möhkəmlənməsinə sərf etdi. Ölkəmiz sülh danışıqlarının, əməkdaşlığın mərkəzinə çevrildi. Ulu Öndərin iti zəkası sayəsində Azərbaycanın dumanlı taleyi qara buludlardan təmizləndi. Taleyüklü sazişlər bağlandı, böyük layihələrə start verildi. Müstəqil dövlətimiz ATƏT, BMT, Avropa Şurası kimi nüfuzlu, beynəlxalq təşkilatların üzvü oldu. Budur dahi şəxsiyyətin Azərbaycan naminə böyük mücadiləsi! Xalq öz böyük oğluna güvənməkdə səhv etməmişdi. Daxili çəkişmələr, xarici müdaxilələr, hərc-mərclik, daha nələr, nələr... Azərbaycan yağlı bir tikə kimi çoxlarının iştahını özünə çəkirdi. Lakin harın düşmən unudurdu ki, bu xalqın Heydər kimi sərkərdəsi vardır. Xalq isə inanırdı ki, bu dahi insan bütün dünyanı məğlub edə biləcək qüdrətə malikdir. Bu qüdrət xalqın aydın sabahını təmin etdi. Görəsən, nə üçün nekroloqlar imzalayanda insanın ən ülvi arzularını qeyd etmirlər?! Ulu Öndərimizin ən böyük arzusu doğma Azərbaycanın müasir dünyamızın ən inkişaf etmiş ölkələrindən birinə çevrilməsi idi. Şah İsmayıldan Fətəli xana qədər yol gedən dövlətçilik ənənələri Heydər Əliyev timsalında zəfər dağına qədər yüksəldi. Müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul olundu. Milli Məclisə seçkilərin keçirilməsi, özəlləşmənin başlanması, «Əsrin müqaviləsi» sayəsində ilk neftin çıxarılması, «Bakı–Tbilisi–Ceyhan» neft kəmərinin çəkilməsi – bütün bu nəhəng işlər Heydər Əliyev fəaliyyətinin nəticəsidir. Bu da mənalı ömür simfoniyasının monumental akkordları!

Rahat yat, əziz Babam! Sənin qurub yaratdığın dövlət etibarlı əllərdədir, öz ciyərparanın iradəsi ilə inkişaf edir, möhkəmlənir. Xalqımızın böyük ümid bəslədiyi möhtərəm prezidentimiz İlham Əliyev sənin arzularını yarımçıq qoymadı. O müqəddəs arzular bu gün çiçək açaraq Azərbaycanı cənnət misallı bir ölkəyə çevirmişdir. Şair elə bil bu günləri öncədən görərək yazmışdı:

*Vətənimin seyrinə çağırıram elləri,*
*Cənnət görmək istəyən Azərbaycana gəlsin...*



Dünyanın siyasi xəritəsinə baxıram, baxıb min xəyala dalıram. Bütün dünyanı min bir rəngli xətlərlə parça-parça bölüblər. Əsrlər boyu bu bölgü dəfələrlə dəyişir, təzələnir. Ancaq təzada bax ki, bu qanlı bölgülər, torpağı gəmirən vəhşi caynaqlar dünyanı nə böyüdə bilir, nə də kiçildə bilir. Böyük hikmətdir, deyilmi?!

Ulu Öndər bu hikməti öz dağ əzəməti ilə, müdrik təmkini ilə qəbul edib, xalqına əbədi bir tövsiyəsini vermişdir: «Bütün ürəklərin arzularını, bəlkə də, bir sinə altında birləşdirmək mümkün deyil. Ancaq ən dəyərli inamları, nə müqəddəs əqidələri bir bayraq altında birləşdir, mənim ulu xalqım!»



## Məmmədzadə Gülşən Mehman qızı

*Ağdaş rayonu, M.Şeyxzadə adına Texniki, təbiət və humanitar fənlər təmayüllü gimnaziyanın XI sinif şagirdi*

Günlərdir əlimə kitab və qələm alıb saatlarla ağ kağıza baxıram. Deyirlər ki, bülbül qəfəsdə oxumaz. O, oxuması, cəh-cəh vurması üçün səmaları süzməlidir. Çiçək açan bahar gülü sübh şəfəqlərini görməlidir. İnsanın əlindəki qələmi də onun ruhunun açarı imiş. Bu misraları yazıb qələmi dəftərimin arasına qoyub uzaqlaşdım. Səhər tezdən yazmaq istədiyim mövzu haqqında yenidən fikirləşməyə başladım. Yazmağa o qədər gözəl sözlər, fikirlər var ki, sayı bilinməyən kitablar yazaram. Yazaram demişkən, yadıma bir şey düşdü. Biz dərs oxuyarkən nənələrimiz və babalarımız: «Ay bala, nə oxuyursan, nə yazırsan?», – deyə soruşardılar.

– Ay nənə, heç nə, inşa yazıram.

– Nə haqda, kimin haqqında?

– Təbiət haqda və ya hansısa qəhrəman haqqında.

– Ay bala, ondan asan nə var? Yaz ki...

– Ay nənə, o asandır. Ölməz ulu öndərimiz Heydər Əlirza oğlu Əliyev haqqında yazmaq elə də asan iş deyil.

Rəvayətə görə, Ağdaş rayonunda kiçik bir qızcığaz yaşayırmış. Bu qızcığazın adı Gülşən imiş. Bir gün bu qız dərin bir yuxuya gedir. Bu yuxu 40 (qırx) gün, 40 (qırx) gecə davam edir. Körpə yuxuda olarkən, ilan kimi qıvrılıb-açılırmış, hıçqıra-hıçqıra ağlayırmış. Ta ki, 40-cı günə bir gün qalmış, yəni 39-cu günə kimi. 39-cu gün körpənin üzündə təbəssümlər, güllər, çiçəklər açmağa başlayır. 40-cı gün artıq balaca yuxudan oyanmağa başlayır. Hər kəsin onun başı üzərində dayandığını görüb təəccüblənir. Heç kəs də cəhd edib ondan nə olub-bitdiyini soruşa bilmir. Gülşən dərin bir ah çəkib qırx gün ərzində yuxuda gördüklərini danışmağa başlayır:



«Gördüm ki, Azərbaycanım ac-yalavac düşmən canavarları tərəfindən ələ keçirilir. Azğınlaşmış düşmən canavarları öz aralarında yurdumu parçalayır. Birdən göydən mələklərin qanadında nurlu bir sima yer üzünə endi. Bu simadan ağıl, müdriklik yağırdı. O, yurdumun parçalarını birləşdirib güllü, çiçəkli bir gülüstana çevirdi. O, mənim başıma sığal çəkib – «Qorxmayın, mən qoymaram ki, mənim elim, obam, övladlarım, nəvələrim hansısa düşmən canavarlarının ağzında qalsın. Mən sizin «dünəniniz, bu gününüz, işıqlı sabahınız üçün əlimdən gələni edəcəyəm», – deyirdi. Mən də ona söz verdim ki, biz sənin bu yurdunu göz bəbəyimiz kimi qoruyub gələcək nəsillərə verəcəyik».

Biz səninlə, sən də bizimlə fəxr et. Biz hər birimiz bir Heydərçiyik. sən bizim üçün hər zaman var idin, varsan və var olacaqsan. Sən bizim aramızda ruhən olmasan da, cismən hər zaman gələcək nəsillərin qəlbində yaşayacaqsan.

Əgər məndən soruşsalar ki, Azərbaycanın hansı simvolik dəyərləri var?

Tam səmimiliyimlə Heydər Əliyevi, gerbi, himni, bayrağı, dili və s. deyərdim. Bunu bütün Heydərçilər adından, qürurla deyirəm. Əvvəl də qeyd etmişdim, yenə də deyirəm: insan inşa yazarkən onun ruh duyğuları yazır. Əldəki qələm sadəcə yazıları, fikirləri vərəqə həkk etmək üçün bir vasitədir. Heydər Əliyev dedikdə insanın gözünün önündən illər, tarixlər, səfərlər, səfərlərin zəfərləri, ölkəmiz haqda, ölkəmizdə və xaricdə gedən münaqişələr, qızıl xətlərlə tarixə düşmüş imzalar gəlib keçir. Bax, bu, Heydər Əliyev tarixçəsidir!



## Məsimova Elmira Arzu qızı

*Gədəbəy şəhəri, İ.Əliyev adına*
*1 nömrəli tam orta məktəbin*
*IX sinif şagirdi*

Qoca tarix öz təkərini yorulmadan, usanmadan irəliyə doğru hey fırladır. Neçə böyük imperiyalar, neçə yüksək mədəniyyətə malik bütöv xalqlar, bəzən bütöv ölkələr silinib dünya xəritəsindən. Bu eniş və yüksəlişlər bütün xalqların tarixində var. Bütün xalqlar nə zamansa məhv olmaq təhlükəsi ilə üz-üzə qalıblar. Sadəcə bəzi xalqların bəxti onda gətirib ki, ən kritik və çıxılmaz anlarda meydana elə bir lider çıxıb ki, onları bir yumruq kimi birləşdirib, var olmaq üçün mübarizəyə qaldırıb. Attila, Çingizxan, Əmir Teymur, I Pyotr, Atatürk və s. Bu siyahını çox uzatmaq olar. Bunlar öz tarixlərində adlarını qızıl hərflərlə yazdıran liderlərdir. Mən öz xalqımdan, onun şanlı olduğu qədər də keşməkeşli, bəzən faciəvi taleyindən, XX əsrin sonlarında yox olmaq təhlükəsi ilə qarşı-qarşıya qalmasından, onu son anda məhv olmaqdan qoruyan liderindən yazmaq istəyirəm.

70 il Sovet imperiyasının əsarəti altında yaşayan xalqımız bir də imperiyanın labüd süqutu ərəfəsində vətən müharibəsinə cəlb olundu. Rus havadarlarına arxayın olan ermənilər Qarabağı işğal etdilər. «Arxalı köpək qurd basar» prinsipi ilə hərəkət edən ermənilərin torpaq iddialarını dəf etmək üçün qoşulduğumuz amansız müharibədə minlərlə şəhid verdik. 20 Yanvar, Xocalı faciələrini yaşadıq. Üstəlik daxildə baş verən hakimiyyət uğrunda qruplaşmalar mübarizəsi xalqımızı vətəndaş müharibəsinə də sürükləyirdi.

İqtisadiyyatı dağıdılmış, həm daxili, həm xarici qüvvələrlə mübarizəsi, beynəlxalq siyasətdə heç bir təcrübəsi olmayan, təhsili, mədəniyyəti böhran içərisində olan ölkəmiz, sözün həqiqi mənasında təhlükə ilə üz-üzə idi. İndi onun polad məntiqə, möhkəm iradəyə, beynəlxalq siyasətdə



təcrübəsi olan bir liderə ehtiyacı var idi. Və belə bir lider ən kritik anda gəldi. Bu, ümummilli lider Heydər Əlirza oğlu Əliyev idi.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda dəmiryolçu ailəsində dünyaya gəlmişdir. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almışdır. 1941–1944-cü illərdə Naxçıvanda müxtəlif məsul vəzifələrdə çalışmış, 1944-cü ilin mayında dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmişdir. 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Heydər Əliyev iyirmi beş il dövlət təhlükəsizliyi orqanlarında çalışmışdır. 1959-cu ildə isə Azərbaycan KP MK-nın I katibi seçilərək 1982-ci ilə qədər Azərbaycan SSR-yə rəhbərlik etmişdir. 1982-ci ildə isə SSRİ Nazirlər Soveti sədrinin müavini təyin edilmiş və SSRİ-yə rəhbərlik edənlərdən biri olmuşdur. 1987-ci ildə Heydər Əliyev vəzifəsindən öz ərizəsi ilə istefa vermişdir.

1990-cı ildə yenidən Azərbaycana qayıdan Heydər Əliyev Naxçıvana getmiş, 1991–1993-cü illərdə Naxçıvan Ali Məclisinin sədri, 1992-ci ildə isə YAP-ın sədri seçilmişdir.

1993-cü ildə dövlət böhranının dərinləşməsi, müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq Heydər Əliyevin gətirilməsi üçün ayağa qalxdı. Heydər Əliyev rəsmən Bakıya dəvət olundu. 1993-cü il oktyabrın 3-də Heydər Əliyev Prezident seçildi. Onun qayıdışı ölkənin sosial-iqtisadi, elmi-ictimai, beynəlxalq əlaqələrin qurulmasında dönüş yaratdı. Müstəqil dövlət quruculuğu prosesi başlandı.

1994-cü il sentyabrın 20-də dünyanın 11 ən iri neft şirkəti ilə «Əsrin müqaviləsi» imzalandı.

1994-cü ilin mayında Dağlıq Qarabağ münaqişəsinin həllində ilk proses olaraq atəşkəsə nail olundu.

Heydər Əliyevin prezidentliyi dövründə həyatın hər sahəsində onun qurub-yaratmaq həvəsi hiss olunurdu. Milli ordunun qurulmasında, səhiyyədə, təhsildə ciddi tədbirlər gedirdi. Onun da bəhrəsini bu gün biz gənclər görürük və yaşayırıq.

Heydər Əliyev 2003-cü il dekabrın 12-də Klivlend klinikasında vəfat etmişdir. Onun əziz xatirəsini xalqımız daima anacaqdır.

*Çiynində daşıdığın hər ağırlığı,*
*Xalqımız qəlbində daşıyacaqdır.*
*Sənin hünər dolu qəhrəmanlığın*
*Nəsildən-nəslə yaşayacaqdır.*



## *Məmmədova Tahirə Tahir qızı*

*Tovuz Peşə Liseyinin*
*I kurs şagirdi*

Hər bir insan həyata atılıb müstəqil bir şəxs kimi formalaşarkən çalışır ki, tarixin səhifələrindən heç vaxt silinməyən bir iz qoyub getsin. Əlbəttə, qəlbləri fəth etmək, ürəklərdə yer tutmaq, elinə-obasına gərək olmaq, xalqın yaddaşında daima yaşamaq – bu, ən böyük arzu-istəkdir.

Təəssüflər olsun ki, bu, hər insana nəsib olmur. Çünki belə şəxsiyyətləri Tanrı nadir hallarda yaradır.

Ulu Tanrının Azərbaycana bəxş etdiyi belə böyük şəxsiyyətlərdən biri də Heydər Əlirza oğlu Əliyevdir. Heydər Əliyev Azərbaycan üstündə parlayan elə bir günəş idi ki, onun istisindən, parlaq şüasından hər bir azərbaycanlıya pay düşürdü.

Bildiyimiz kimi, Azərbaycan XX əsrin axırlarında ağır vəziyyətdə yaşayır, enişli-yoxuşlu yollarla rastlaşırdı. Belə ki, Azərbaycanda zülmə, haqsızlığa qarşı açıq etraz səsləri yüksəlirdi. Həmin dövrlərdə Azərbaycan xalqı azad olmaq üçün öz tələblərini irəli sürürdü. Lakin sovet rəhbərliyi bunula heç cür razılaşmırdı. Çünki sover rəhbərliyi üçün Azərbaycanın itirilməsi «yağlı tikənin» əldən çıxması idi. Onlar xalqın azadlıq qığılcımlarını söndürmək üçün Bakıya qoşun yeritdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı qan dənizində boğulurdu. Azərbaycan xalqı bu faciə ilə çox sarsıldı. Belə çətin bir vəziyyətdə Azərbaycan xalqı üçün doğma, dəyərli bir səs ucaldı. Bu səs ümummilli liderimiz Heydər Əliyevın səsi idi. O, qanlı qırğın törədənlərin cəzalanmasını tələb edirdi.

*Mən sevirəm oğulların mərdini*
*Oğul odur çəkə elin dərdini.*



Nəhayət ki, müstəqillik günəşi Azərbaycanı öz al şəfəqləri ilə qızdırdı. 1991-ci il 18 oktyabrda Dövlət müstəqilliyi haqqında Azərbaycan Resublikasının Konstitusiya Aktı qəbul olundu. Əldə olunmuş müstəqilliyi qoruyub saxlamaq çox böyük məsuliyyət tələb edirdi. Heydər Əliyev siyasəti nəticəsində bu müstəqillik daha yüksəklərə qaldırıldı.

1993-cü il 15 iyunda xalqın təkidi ilə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldi. Onun gəlişi Azərbaycan xalqı üçün sözün əsl mənasında bir «qurtuluş» idi.

Heydər Əliyev hakimiyyəti dövründə Azərbaycanın müstəqillik rəmzi olan üçrəngli bayrağımız bəzi xarici dövlət paytaxtlarında dalğalandı. 1994-cü ilin 20 sentyabrında xarici dövlətlərin iri neft şirkətləri ilə «Əsrin müqaviləsi» adlı neft müqaviləsi bağlandı. 1994-cü il oktyabr, 1995-ci il mart qəsdləri yatırıldı. Azərbaycan dövlətinin düşmənləri min bir hiylə ilə vətənimizi təkləməyə çalışırdılar. Ulu öndər Heydər Əliyevin yenilməz iradəsi, qətiyyəti və zəngin idarəçilik təcrübəsi ilə Azərbaycanın nailiyyələri daha çox artdı. 1995-ci il 12 noyabr ana dilimiz – Azərbaycan dili dövlət dili qəbul olundu. Heydər Əliyev uzaqgörən siyasəti ilə Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub saxlayırdı. Vətən oğullarının qanı ilə qazanılmış azadlığımızı qoruyub saxlamaq üçün Heydər Əliyev Azərbaycan xalqını üçrəngli bayrağımız altına toplamışdır.

«Azərbaycan müstəqilliyi əbədi olacaqdır və Azərbaycanın bugünkü gənc nəsili gələcək Azərbaycanı daha yüksəklərə qaldıracaq». Heydər Əliyevin dediyi bu sözlər Azərbaycan xalqını işıqlı gələcəyə səsləyir. Ulu öndərimiz Heydər Əliyev tarixin səhifələrinə qızıl hərflərlə yazıldı. O, Azərbaycan xalqının milli mədəniyyətinə, mənəvi irsinə göstərdiyi hörmət, verdiyi dəyər sayəsində mədəniyyətimiz daha da dərindən zənginləşmişdi. Heydər Əliyev Azərbaycan xalqının fəxridir və həyat davam etdikcə də fəxri olacaqdır.

*Bu milləti yetirmişən*
*Xoş günlərə, toy-büsata.*
*Sənə olan hörmətimiz,*
*Əbədidir Heydər Ata.*

Heydər Əliyevin həm dövlət başçısı, həm də vətənpərvər bir şəxsiyyət kimi Azərbaycan xalqının qədim adət-ənənələrinin qorunması, milli mədəniyyətimizin inkişafı üçün misilsiz xidmətləri olmuşdur. «Xalq bir çox xüsusiyyətlərinə görə dövlətlər arasında fərqlənir, tanınır. Bu xüsusiyyətlər-

dən ən yüksəyi mədəniyyətdir», – deyən Heydər Əliyev ona görə həmişə xalqın mədəniyyətini, milli-mənəvi dəyərlərini diqqət mərkəzində saxlamışdır. Görkəmli dövlət xadimlərindən biri, heç bir tarixi şəxsiyyətlə müqayisə olunmayan Heydər Əliyev bu gün əbədiyyətə qovuşub. O, öz ömrünü xalqına həsr etdi. Öz sükanını isə oğlu İlham Əliyevə etibar etdi.

İlham Əliyev onun layiqli davamçısıdır. Azərbaycanın çiçəklənməsi üçün İlham Əliyev əzmlə çalışır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev incəsənətimizin bu gün ən dəyərli mövzusudur. Heydər Əliyev Azərbaycanın xilaskarı, qurucusu, həm də əvəzolunmaz tarixi bir şəxsiyyətidir.

Ümumiyyətlə, Heydər Əliyev dühasindan bəhs etməklə qurtarmaq olmaz. Onun haqqında epopeya yazmaq, yorulmadan danışmaq olar. Lakin mənim şagird qələmimin sapa düzdüyü inciləri tamamlayaraq deyirəm:

– Heydər Baba! Biz əmanət qoyub getdiyin Azərbaycanın çiçəklənməsi üçün əzmlə çalışacağıq. Bizə uzanan xain əlləri kəsib, üçrəngli bayrağımızın daim zirvələrdə dalğalanması üçün əlimizdən gələni edəcəyik. Azərbaycana, Heydər Əliyevə layiqli vətənpərvər bir şəxs kimi daha çox uğurlar, daha çox nailiyyətlər qazanmaq üçün calışacağıq. Düşmənlərimizin tapdağı altında olan torpaqlarımızı azad etmək üçün addımlar atacağıq. Çünki biz Həcərlər, Nigarlar, Salatınlar kimi aslan ürəkli analarımızdan süd əmmişik. Vətənə, xalqa sevgi bizim qanımıza, canımıza hopmuşdur. Öz vətənini qorumaq hər bir gəncin borcudur.





## Mehtiyeva Gilas Mahir qızı

***Hacıqabul şəhəri, 10 nömrəli Texniki-təbiət fənlər təmayüllü məktəb-liseyin VIII sinif şagirdi***

Yüz ildə bir dəfə yaranan kamil tarixi şəxsiyyət! Təbiətdə bizi valeh edən bir çox yaradılışlar zaman-zaman «əriyib gedir...» və biz onların həsrətini çəkirik.

Azərbaycan xalqının «əsrin nəhənginə» ehtiyacı olan bir dövrdə gələn şəxsiyyətin doğuluşunun cazibəsində əsrlərin səmasında həmişə günəş şüalarının çılpaq qayaları belə yandırdığı, soyuq daşları isitdiyi, son baharın yaşayan xəstələrə sevinc gətirdiyi şəfəqləri müşahidə olunur. Onun kimi vətəndaş olmaq yüz minlərdən seçilmək deməkdir.

1923-cü ilin 10 may günü. Bu mübarək gün. Bəlkə də, bu gün heç nə ilə fərqlənmirdi. Amma, sözsüz ki, dünyaya göz açan uşaq – Heydər Əlirza oğlu Əliyev fərqli bir fərd idi. Ona görə yox ki, ona daha çox göz nuru verilmişdi və ya beyni «fövqəladə» şəkildə qurulmuşdu. Ona görə ki, o, əsl vətəndaş ruhunda böyüyüb, ümummilli lider, «ölməz» şəxsiyyət olacaqdı və oldu da. Ürəklərə yol açmaq, qəlblərdə yuva salmaq, cismaniyyət olmadıqda belə «ölməz» adını qazanmaq hər bir fərdin işi deyil. Bu gün kiçik uşaqlar belə Heydər Əliyev adını eşitdikdə böyük şəxsiyyətdən danışıldığını yəqin edirlər.

Mən əsl vətəndaş, ümummilli lider, tarixi şəxsiyyət haqqında danışıram. Bu üç fenomen keyfiyyətin daşıyıcısı, möhtərəm Heydər Əliyev dahi şəxsiyyət idi. Heydər Əliyev həm birinci, həm də ikinci dəfə hakimiyyətə gəldikdə Azərbaycanda ictimai münasibətlər kəskin şəkildə gərginləşmiş, dövlətin fundamental əsasları dağılmışdı. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra isə, Azərbaycanı nəinki düşdüyü vəziyyətdən çıxartdı, habelə qısa müddət ərzində dövlətin sürətli inkişafına nail oldu. Bu düha haqqında dünyanın ən güclü siyasətçiləri belə öz fikirlərini dərin heyrətlə bildirmişlər. Amma onun haqqında deyilənlər və yazılanlar tam dolğunluğu və dəqiqliyi

ilə bizi qane edə bilməz. Göylər kağız, dənizlər mürəkkəb olsa belə Heydər Əliyevin daxili gözəlliyini yazıb qurtara bilmərik. Bu şəxsiyyəti yazmağa, anlatmağa kəlmələr yetmir. Mən isə Heydər Əliyevin daxili portretini belə təsvir edirəm: Böyük şəxsiyyətin həyatına tamaşa həmişə gözəl mənzərədir: o, ruhu yüksəldir, fəaliyyət həvəsi oyadır. Elə qanadlı sözlər var ki, olduqca mürəkkəb hadisələrin mahiyyətini təəccübedici sərrastlıqla təsvir edir. Amma Heydər Əliyevi sözlərlə təsvir etmək, daxili aləmini tam dolğunluğu ilə, valehedici surətdə kəlmələrdə əks etdirmək mümkün deyil. O, müdrik insan idi. Müdrikliksə təcrübənin övladıdır. Heydər Əliyevdə ruh mətanətliyi vardı. Ümumiyyətlə, hakimiyyət başında olan adama gərək qorxu məsləhət verməsin. O, elə bir varlıq idi ki, dünyada ona bərabər olan ikinci nisan, yalnız özünün aynadakı əksidir. Onun məziyyətlərini bir sözlə ifadə etsəm, daha doğrusu, etməli olsam, deyərdim ki, o, ləyaqət məcmuəsi, daxili gözəllik xəritəsidir. Onun fədakar həyatı Azərbaycanın salnaməsinə qızıl hərflərlə həkk olunub, onun ümidləri və məqsədləri Azərbaycanın çiçəklənməsi və inkişaf etməsi idi. Bütün ömrünü xalqına həsr edən, sabahki gün, insanların xoş gələcəyi, arzuları və xəyalları ilə yaşayan, qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olan bir insanın, xəyal və arzularını həqiqətə çevirən dahinin həyat amalı, ancaq həqiqət konsepsiyasına bağlı ola bilərdi. Həqiqət həyatın nəfəsidir, hər cür ləyaqətin əsasıdır. Kim buna ciddi riayət edərsə, bu ona işgüzarlıq aləmində uğur qazandırar. İsbat üçün haqqında danışdığım şəxsiyyəti qeyd etmək kifayətdir. Ümumiyyətlə, hakimiyyət başında olmaq şəxsi mənafeyindən imtina etməkdir.

Heydər Əliyev uşaqlıqdan, ağlı «vətən» məfhumunu başa düşdüyü gündən hər bir addımı xalqı yolunda olmuşdur. Təbii ki, buna səbəb xalqın taleyi, tarixi tələbat olmuşdur. Həm də dərin fikirlər elə dəmir mismarlardır ki, onları heç nə ilə çıxartmaq olmaz. Heydər Əliyevin də uşaqlıqdan vəfat edənə kimi bu fikirlər beyninə həkk olunmuş vəziyyətdə qaldı. İndi də həmin fikirlərin daşıyıcısı Heydər Əliyevin ən böyük əsəri olan İlham Əliyevdir.

Biz qaranlıq gecədə, zülmət səltənətində yaşayırdıq. Heydər Əliyev hər bir əməli zülmət asimanda şimşək kimi çaxdı, ildırım kimi parıldadı. Bir göyə baxın. Orada sayrışanları görürsünüzmü? Qaranlıq gecə bir pərdə kimi Yer kürəsini bürüyüb, örtmək istəyir. Amma işıq onu deşir, ordan-burdan süzülüb kimə isə işıq vermək istəyir. Tabe olmur. Maraqlıdır, işıqla zülmətin arasında daim mübarizə gedir. Sizcə, kim qalib gələcək? Əlbəttə, işıq. Qığılcımlar bir yerə yığılıb qorlanacaq. Qorlananlar isə od törədəcək. Bu od da bizi günəşli günlərə aparacaq. Heydər Əliyevin də əməyi buna bənzəyir. O da bizi beləcə işıqlı dünyaya çıxartdı. Nə gözəl təşbeh! Hərdən mənim



qələmim özümdən daha ağıllı sözləri yazır. Təbii ki, misranın sahibi hislər olanda... belə də olmalıdır. Axı mən yerin və göyün bütün sehrlərinin yaratdığı sərvət haqqında danışıram.

Təbii ki, Heydər Əliyevi «HEYDƏR ƏLİYEV» edən onun valideynləri, tarixin tələbatı, Naxçıvan torpağı olmuşdur. Məncə, bu səbəbkarların adını çəkməmək günah olar. Düzdür, Heydər Əliyevi bu yerə böyük miqyasda öz ağlı gətirmişdir, amma valideynlərinin də az qatqısı olmamışdır. Ümumiyyətlə, uğur qazanmağın başqa bir yolu da var: Uğur qazanmaq istəyirsənsə, ürəyinin səsinə qulaq as, ürəyin sənə məsləhət vermək iqtidarında olmasa, gözlərini yum, ananın və atanın adını çək. O zaman qabiliyyət səni izləyəcək.

Çox təəssüflər olsun ki, bu çiçəkli bahardan, ləyaqət məcmuəsindən, işıqlı səhərdən, sönməz ziyadan «bağlı pəncərə» arxasından baxaraq danışırıq... Təbiət tamaşadır, həmişə təzə və təravətlidi. Həyat onun yaratdığı ən böyük gözəllik, ölüm isə çoxlu həyat əldə etmək üçün işlətdiyi hiylədit. Bizə də təsəlli verən bu təbiətin strategiyası – «Hər doğulan bir gün dünyasını dəyişəcək» adlı qanundur. Bu qanun nə qədər acı olsa da, qəbul etməyə məcburuq.

Heydər Əliyevin ən böyük uğuru 1994-cü ilin 20 sentyabrında bağlanmış və «Əsrin müqaviləsi» adı ilə tarixə düşmüş ilk neft müqaviləsi oldu. Bu müqavilə bütünlükdə Azərbaycan dövlətinin, onun prezidentinin uğuru oldu. Heydər Əliyevin ümummilli lider kimi fundamental uğuru ondan ibarətdir ki, onun qurduğu müstəqil Azərbaycan dövləti yaşayır və inkişaf edir!

Bütün bu uğurların hamısı bir keyfiyyət altında birləşir: Heydər Əliyev böyük azərbaycanlıdır. Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşidir. Gəlin, bir həqiqəti də qəbul edək. Heydər Əliyev kimi şəxsiyyət olmaq çətin yox, sadəcə mümkünsüzdür. Everest zirvəsi qoy incimәsin, dünyada ən böyük zirvə – Heydər Əliyev adlı zirvədir ki, o da Azərbaycanda yerləşir. Biz gənc və yeniyetmələr də bu təkrarolunmaz şəxsiyyətə baxaq və nümunə götürək.



***Muradova Rəbinə Ramin qızı***

***Zaqatala rayonu, Əliabad qəsəbə 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Heydər Əliyev XX əsr bəşər tarixinin parlaq şəxsiyyəti, tanınmış və uzaqgörən diplomatı, görkəmli ictimai-siyasi və dövlət xadimi, Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi böyük bir möcüzədir.

Azərbaycan xalqının taleyində müstəsna rol oynamış Heydər Əliyev zəngin və şərəfli bir ömür yolu keçmişdir.

Belə bir deyim vardir: «Adını tarixə yazanlar, adı ilə tarix yazanlar». Bizim ulu öndərimiz Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.

Öz müdrik siyasəti ilə dünyanı fəth edən bu dahi insan sadə bir fəhlə ailəsində anadan olmuşdur. Heydər Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Onun atası Əlirza çox uzaqgörən bir şəxsiyyət idi.

Heydər Əliyev 1939-cu ildə Naxçıvanın Pedaqoji Texnikumunu bitirərək, Azərbaycanın Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almağa başlamışdı. Lakin başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

Heydər Əliyev 1964-cü ilin oktyabrında Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədrinin müavini, 1967-ci il isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə Heydər Əliyev Leninqradda xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Respublikası Kommunist Partiyasın Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Mərkəzi Komitənin I katibi vəzifəsinə seçilmişdir.

1990-cı il 20 Yanvar hadisələrinə Heydər Əliyev öz kəskin etirazını bildirmiş və SSRİ-nin Mərkəzi Komitəsinin ikiüzlü rəhbərlərinə kəskin etiraz



əlaməti olaraq, 1991-ci ildə SSRİ rəhbərliyini tərk etmişdir. Heydər Əliyev əvvəl Bakıda, daha sonra isə Naxçıvanda yaşamağa məcbur olmuşdur.

Heydər Əliyev çox zəhmətkeş bir şəxs idi. Onun iş günləri ll-12 saat davam edirdi. O, çox gözəl bir natiq idi. Heç bir çətinlik çəkmədən, qabaqcadan hazırlaşmadan bir mövzu barəsində saatlarla danışa bilərdi. Heydər Əliyev çox əzəmətli və polad əsəblərə malik idi.

1985–1987-ci illər ulu öndərimiz Heydər Əliyev üçün ən ağır illərdən biri idi. Hakimiyyətə yiyələnmiş Mixayil Qorbaçov Heydər Əliyevi sevmirdi. Hər zaman onun işlərində bir səhv axtarmağa çalışırdı. Lakin Heydər Əliyev öz işlərinə hər zaman böyük hörmətlə yanaşır və dəqiqliklə yerinə yetirirdi. Daima öz siyasi rəqiblərinə öz gücünü göstərməyə nail olmuşdur. Heydər Əliyev 1987-ci ildə SSRİ Nazirlər Sovetinə və baş katib Mixayil Qorbaçovun siyasi xəttinə etiraz əlaməti olaraq öz tutduğu yüksək vəzifələrdən istefa vermişdir.

Xalq Azərbaycanın müstəqilliyini itirməsi təhlükəsi yarandıqda, Heydər Əliyevi geri qaytarmaq tələbi ilə ayağa qaxdı. Bununla da Heydər Əliyev 1993-cü ilin 15 iyun tarixində Azərbaycana gələrək, Ali Sovetin rəhbəri olmuşdur. 24 iyunda isə Milli Məclisin qərarı ilə prezident seçkilərini irəli sürmüşdür.

Heydər Əliyev 1993-cü ilin 3 oktyabrında ümumxalq səsverməsi yolu ilə Azərbaycan xalqının prezidenti seçilmişdir.

O yenidən səsvermə yolu ilə 1998-ci il oktyabrın 11-də prezident seçkilərində uğur əldə etmişdir. Xalqın 76,1 faiz səsilə Heydər Əliyev prezidentlik əldə etmişdir. Əgər cənab Heydər Əliyev xalqın təkidi ilə Azərbaycana qayıtmasaydı, bu gün bəlkə də dünyanın siyasi xəritəsində Azərbaycan Respublikası adlı dövlət mövcud olmayacaqdı. Heydər Əliyev Azərbaycan xalqını dünya xəritəsindən silinməkdən, keçmişdə olduğu kimi, xanlıqlara bölünməkdən və bir sözlə, Azərbaycanı məhv olmaqdan, yox olmaqdan qurtardı.

Cənab prezidentimiz Heydər Əliyev sonralar o günləri belə xatırlayır: «Eşidəndə ki mənim doğma torpağım, mənim doğma vətənim dağılır, özüm də bilirəm ki, mən bu vətənin keşiyində nə qədər əzab çəkmişəm və bu gün onlar dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm».

Həyatının böyük bir hissəsini xalqına, torpağına, vətəninə həsr etmiş Heydər Əliyev hər zaman azərbaycanlı olması ilə fəxr edib, öyünmüşdtir. Heydər Əliyevin söylədiyi bu fikir kiçikdən tutmuş böyüyə kimi hamının yaddaşındadır: «Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən

azərbaycanlıyam». Bu gün mən də fəxr edirəm ki, mən Azərbaycan xalqının vətəndaşıyam və vətənimin Heydər Əliyev kimi prezidenti olub. Biz gənclər də Heydər Əliyevin həyat və fəaliyyətini dərindən öyrənir və yaşatmağa çalışırıq. Bu gün Azərbaycan xalqı qürur duyur ki, Azərbaycanın bu qədər sevimli, hörmət bəslənilən və dünya ölkələrində tanınan bir prezidenti olub.

Artıq hamıya məlum oldu ki, Azərbaycan xalqını müstəqilliyindən geri döndərmək mümkün olmayacaqdı, çünki xalqımız öz prezidentinə inanır, güvənir və dəstəkləyirdi.

Heydər Əliyevin Azərbaycan xalqına rəhbərlik etdiyi dövrlər müstəqillik, iqtisadi yüksəliş, azadlıq... və bir sözlə, çiçəklənən dövrü idi.

Bu gün ulu öndərimiz Heydər Əliyevin davamçısı olan cənab prezidentimiz İlham Əliyev Azərbaycan xalqı tərəfindən alternativsiz lider kimi qəbul olunub.

Bu gün biz qürur duyuruq ki, xalqımızın İlham Əliyev kimi qətiyyətli, əhalinin qayğısına qalan, tez-tez insanlarla təmasda olan, gənc nəsli düşünən, ölkəmizi modern ölkəyə çevirən... və bir çox işlərimizdə bizi dəstəkləyən prezidentimiz var.

Ulu öndərimiz Heydər Əliyev belə bir fikir söyləmişdi: «Ömrümün qalan hissəsini də xalqıma həsr edirəm».

Bu gün hələ adicə bir şagirdəm. Lakin mən də cənab prezidentimiz İlham Əliyevin siyasətini dəstəkləyirəm. Mən də xalqım üçün köməyə hər zaman hazıram. Onu daima ucaltmağa öz canım bahasına and içirəm! And içirəm!

Bugünkü inşamın sonunu bir bənd şeir ilə bitirmək istəyirəm. Şair hər bir azərbaycanlı vətəndaş üçün çox yaxşı demişdir:

*Ürəyimdə coşur əbədi nağmələr,*
*Vətən sevgisində dəliqanlıyam.*
*Qəlbimdə əbədi qalan kəlmələr,*
*«Mən fəxr edirəm ki, azərbaycanlıyam!»*





## *Nəbizadə Lalə Nizami qızı*

***Naftalan şəhəri, İ.Nəsimi adına***
***1 nömrəli tam orta məktəbin***
***IX sinif şagirdi***

*İdrakı sonsuzdur, kamalı dərin,*
*Məqsədi, məramı, amalı dərin,*
*Fikri, düşüncəsi, xəyalı dərin,*
*Sirli xəzinədir, Heydər Əliyev,*
*Öyrən, dəfinədir Heydər Əliyev.*

İnşa yazımı yazmağa başlamazdan əvvəl ulu öndərimiz, biz uşaqların əziz babası Heydər Əliyev haqqında yazılmış bir çox mənbələrə müraciət etdim: kitabları vərəqlədim, qəzet və jurnal səhifələrinə nəzər yetirdim. Şəhərimizdə onun adı ilə bağlı olan yerlərdə oldum, möhtəşəm abidəsini ziyarət etdim, haqqında çəkilmiş sənədli filmlərə tamaşa etdim, tədbirlərdən lent yazılarını dinlədim. Əslində, indiyə qədər bu böyük şəxsiyyət haqqında evdə valideynlərimdən, məktəbdə müəllimlərimdən o qədər gözəl fikirlər, ürək sözləri dinləmişəm ki.

Bu gün mən fəxr edirəm ki, tarixin 20-ci yüzillikdə yetişdirdiyi böyük şəxsiyyət, dahi siyasətçi, dövlət xadimi, ən böyük azərbaycanlı, Heydər babamız Ulu Tanrı tərəfindən məhz bizə ərmağan edilmişdir. Bu dahi insanın qüdrəti, yenilməzliyi sayəsində bizim müstəqil Azərbaycan dövləti var olmuş, yaşayır və əbədi olaraq yaşayacaqdır.

Mən özümü çox xoşbəxt hesab edirəm ki, bu dahi insan haqqında yazı yazmaq şərəfinə nail olmuşam. Amma kövrək uşaq qəlbimlə bu böyük şəxsiyyəti, uca zirvələr fəth etmiş dahini layiq olduğu yüksəklikdə tərənnüm edə biləcəyəmmi? Bilmirəm.

10 may 1923-cü il tarixində qədim Naxçıvan torpağında Əlirza kişinin ailəsində bir körpə dünyaya göz açdı. O, elə bir ailədə dünyaya gəldi ki, burada vətən də, torpaq da ürəkdən sevilirdi.

Heydər Əliyev uşaqlıq illərini Naxçıvanda keçirmiş, ilk təhsilini orada almışdır. Orta təhsilini başa vurduqdan sonra Bakı şəhərinə gələrək Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdur. Lakin müharibə onun təhsilini yarımçıq qoymuşdur. Bu illərdə o, Daxili İşlər Nazirliyində, Dövlət Təhlükəsizlik Komitəsində işləmişdir. O öz istedadı, çalışqanlıq əzmi sayəsində zabit rütbəsindən general rütbəsinədək yüksəlmişdir.

Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

1969-cu ildən 1982-ci ilədək Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində birinci katib vəzifəsində çalışdığı dövrdə də Azərbaycan üçün çox böyük işlər görmüşdür: zavodlar, fabriklər, elektrik stansiyaları, məktəblər, universitetlər tikdirmişdir.

1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilmiş və bu imkandan da ölkənin inkişafı üçün məharətlə istifadə etmişdir.

Heydər Əliyev və Azərbaycan! Bu iki kəlməni bir-birinə bağlayan sirli qüvvə nədir?

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən.*
*Anam, doğma Vətənimsən!*
*Ayrılarmı, könül candan?*
*Azərbaycan, Azərbaycan!*

Ulu öndərimiz Heydər Əliyevin tribunadan xalq şairi S.Vurğunun «Azərbaycan» şeirinin bir bəndini necə kövrək səslə ifa etməsi, onun köksündə Vətən eşqi ilə çırpınan o məğrur ürəyin xalqına, vətəninə, doğma torpağına necə bağlı olduğunu göstərir. Bu titrəyişli səsin təsirindən insan sanki qanadlanır, gözləri önündə günəşli Azərbaycanın başı qarlı uca dağları, sıx meşələri, tarixin yaddaşı olan Qız qalası, Qobustanın qaya rəsmləri, Şirvanşahlar sarayı canlanır.

Heydər Əliyev böyük siyasətçi idi. Dünyanın məşhur dövlət başçıları da onun haqqında yüksək fikirlər söyləmişlər:

«Heydər Əliyev Azərbaycanı bütün dünyaya tanıtdı» (Süleyman Dəmirəl).

«Mübağiləsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi». (Vladimir Putin).

«Biz bəşəriyyəti Günəşsiz təsəvvür edə bilmədiyimiz kimi, dünya siyasətini Heydər Əliyevsiz təsəvvür edə bilmərik» (Leonid Kuçma).

Əziz babam, hər bir vətən övladının qəlbində qürur hissini, vətənə, torpağa bağlılıq hislərini oyatdığınız üçün Sizə minnətdarıq.

Böyük Azərbaycan sevgisinin azərbaycanlı olmağın qüruru kimi «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam» – demisiniz.



Mən isə deyirəm: Əziz babamız, nə yaxşı ki, Ulu Tanrı sizin kimi dahi şəxsiyyəti bizə – Azərbaycan xalqına ərmağan etmişdir. Siz bizim ən böyük xilaskarımız olmusunuz!

1990-cı ilin 20 Yanvar günü azərbaycanlıların başına gətirilən müsibətlər zamanı Moskvada olmağınıza baxmayaraq, öz haqq səsinizi qaldırdınız, faciəyə siyasi qiymət verilməsini tələb etdiniz.

1993-cü ildə Azərbaycanda vətəndaş qarşıdurması yaranmışdı. 15 iyun 1993-cü il tarixini Qurtuluş günü kimi tarixə yazdınız.

1994-cü ildə erməni quldurları tərəfindən torpaqlarımızın işğalına son qoymaq üçün atəşkəsə nail olundu.

1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» adlandırılan neft müqaviləsinin imzalanması o vaxt reallaşacağına çoxlarının inanmadığı nəhəng bir layihə idi. Nəticə – güclənən, gözəlləşən Azərbaycan oldu.

İndi Azərbaycanın çox güclü milli ordusu var, onlar hər an torpaqlarımızı azad etməyə qadirdir.

Həyatda heç nə əbədi deyil. İnsan Tanrının ona verdiyi qədər ömür yaşayır.

2003-cü il 12 dekabr – Azərbaycan xalqının Ulu Öndərini itirdiyi hüzn günü...

Bütün türk dünyasının yasa boğulduğu gün...

Xalqımız həmin gün Ulu Öndərimizi canından əziz sevdiyi ana torpağa tapşırdı.

Bu gün o, cismən aramızda olmasa da, ruhu, əməlləri ilə əbədiyyətə qədər yaşayacaq. Xalq şairi S.Vurğunun gözəl misraları təsəllimizdir:

*Ölüm sevinməsin qoy, ömrünü vermir, bada.*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin xatirətək qalacaqdır dünyada.*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

Bu gün bir təsəllimiz də odur ki, Ulu Öndərin özü qədər inandığı layiqli varisi, sevimli Prezidentimiz cənab İlham Əliyev onun siyasətini uğurla davam etdirir. Bu şərəfli işdə ona kömək edən Azərbaycanın birinci xanımı, millət vəkili, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva var.

Ulu öndər! Bu gün mən və mənim kimi gənclər çox xoşbəxtdir ki, İlham Əliyev çırağı altında Sizin bizim üçün yaratdığınız uğurlu yolla inamla addımlayırıq.



## *Nəsirova Məhluqə Hidayət qızı*

*Cəbrayıl rayonu, 1 nömrəli tam orta məktəbin X sinif şagirdi*

Anam mənə xatirələrini belə danışır: «O vaxt mən hələ beşinci sinfi bitirmişdim. Yay tətili bitəndən sonra altıncı sinfə gedəcəkdim. Müharibənin qızğın vaxtları idi: ölkədə gərgin vəziyyət hökm sürürdü. Rayonlar işğal olunmuş, dinc sakinlərdən qırılan qırılmış, canını götürüb qaçanlar hərəsi bir yana üz tutmuş, əsir və itkin düşənlərdən heç bir xəbər yox idi. Camaat küçələrdə, vaqonlarda daldalanırdılar. Meşə və bağ kənarlarında, hətta örüş yerlərində də çadır quranlar var idi. Hələ bunlar az imiş kimi, ölkə rəhbərliyinin siyasi durumu da qaydasında deyildi. Bir sözlə, ölkə iğtişaşların içində məhv olub gedir, camaatın sabaha ümidi qalmırdı.

Biz də yaxın rayonların birində qohumumuzgildə müvəqqəti qalırdıq. Bir gün bütün əzab-əziyyətlərə, çətinliklərə, yas və hüznə baxmayaraq, hər kəsin üzündə bir gülüş, bir sevinc peyda oldu. Bu Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə bağlı idi. Hər kəs bir-birinə deyirdi ki, əgər Heydər Əliyev hakimiyyətə gəlibsə, deməli, vəziyyət düzələcək. Bu, hər kəsin artıq sönməkdə olan ümidinə bir qığılcım verir, sanki ayaqlar altında tapdalanmış əkin sahəsinə yenidən toxum səpilirdi...

Çünki Heydər Əliyev daha öncə də – ölkəmizə rəhbərlik etdiyi tarixi bir dövrdə Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmişdi. O, bir çox vəzifələrin öhdəsindən əzmlə gəldiyi üçün xalq onu yenidən öz xilaskarı kimi görürdü. Bu böyük şəxsiyyət ölkəmizin gələcək inkişaf strategiyasını müəyyən etmiş və bunun üçün mühüm addımlar atmışdı.

Heydər Əliyev ölkəmizə rəhbər seçildikdən qısa müddət sonra respublikamızın ayrı-ayrı sahələri sürətli inkişaf yoluna qədəm qoydu.

Aqrar sektor inkişaf etdirildi, energetika sistemi yenidən quruldu. İnfrastruktur və sosial obyektlər yarandı.



Böyük istehsal sahələrinə malik elektrotexniki və elektroqaynaq avadanlıqları zavodu, elektrik lampaları zavodu, Sumqayıt kompressorlar zavodu yaradılıb, yenidən istifadəyə verildi. Xüsusilə, Bakı Məişət Kondisionerləri zavodunun çox qısa müddət ərzində – cəmi iki ilə ərsəyə gətirilməsi o vaxt keçmiş ittifaq respublikaları arasında nadir hadisə kimi qarşılanmış, Azərbaycanın şöhrətini daha da artırmışdı.

Bu böyük şəxsiyyət Azərbaycan xalqının gələcəyini düşünərək inkişafın strateji əsasları kimi neftdən istifadə məsələsini önə çəkərək, neft-qaz çıxarma sənayesinin tamamilə yenidən qurulması və modernləşdirilməsi ideyasını irəli sürmüş və onun reallaşmasını təmin etmişdir.

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində SSRİ məkanında baş verən dağıdıcı proseslər Azərbaycan da öz təsirini göstərmişdi. Ermənipərəst ittifaq rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz edərək rəhbərlikdən istefa verən Heydər Əliyev 1990-cı il Qanlı Yanvar hadisəsi zamanı öz xalqına dayaq durdu. Həyatının təhlükəli olmasına baxmayaraq, Moskvadan bütün dünyaya öz etiraz səsini ucaltdı. Xalqımızın qanlı faciəsinin səbəkarlarını göstərdi.

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda yaşayan siyasi hakimiyyət dəyişkənliyi, çəkişmələr, cılız iddialar, ölkədə xaosa, iqtisadi-siyasi böhrana, hərc-mərcliyə gətirib çıxartdı. Parakəndə ticarətdə hər dəqiqə qiymətlər artırdı. İşsizlik, cinayətkarlıq kəskin surətdə artmışdı. Regionları separatçılıq meyilləri bürümüşdü. Ərazimizin bir hissəsi erməni təcavüzkarları tərəfindən işğal olunmuşdu. Bir sözlə, Azərbaycan bir dövlət kimi yox olmaq təhlükəsi ilə üzləşmişdi.

Belə ağır bir vaxtda – 1993-cü ilin iyununda xalq təkidli çağrışı ilə Heydər Əliyevi yenidən hakimiyyətə gətirdi. Bu, ən uğurlu, ən inamlı addım idi. Hər şeyi yenidən başlamaq nə xalq, nə də rəhbər üçün asan deyildi. Lakin xalq Heydər Əliyevə güvənirdi.

Heydər Əliyev Azərbaycan dövlətini yaratmaq missiyasına «Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram» deyərək başlamışdı.

Heydər Əliyevin təhsil sahəsindəki addımlarını da unutmaq olmaz. O, gənclərdə nikbinlik hissi oyatmış, gələcəyə inamla addımlamağa zəmin yaratmışdı.

Heydər Əliyev «Mən müəllimlikdən yüksək ad tanımıram» deyərək müəllimliyi ən şərəfli, ən məsuliyyətli peşə hesab edirdi. «Təhsil millətin gələcəyidir» deyən Ulu Öndərin Azərbaycanın elminə, təhsilinə, xalqımızın milli irsinə, milli dəyərlərimizin qorunmasına göstərdiyi qayğı nəticəsində təhsil sisteminin inkişafı, tədris proqramlarının təkmilləşdirilməsi və gənclərə olan qayğı artırıldı.

Ulu Öndərimizin göstərişi ilə şəhid ailələrinin övladları, məcburi köçkün və qaçqın olan gənclər tam ödənişsiz təhsil aldılar. O, əqli və fiziki qüsurlu, ata-ana nəvazişindən məhrum olan gənclərə xüsusi qayğı ilə yanaşırdı.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan ədəbiyyatının çiçəklənməsinə xüsusi diqqət yetirirdi. Görkəmli söz sənətkarlarının yubileyləri təntənəli şəkildə qeyd olunmuş, onların əsərlərini yenidən çap etdirərək cəmiyyətin kütləvi istifadəsinə vermişdir.

Əldə olunan nailiyyətlər heç şübhəsiz ki, Heydər Əliyevin irimiqyaslı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır.

Bəşəriyyət mövcud olduğu gündən heç bir dövlət 10 ildə əsrə bərabər inkişaf yolu keçməyib. Lakin Azərbaycan bu şərəfə nail olub, Ulu Öndərimizin misilsiz xidmətləri sayəsində Azərbaycan bu tarixi nailiyyətə imza atıb. Əlbəttə, heç də asan başa gəlmir. Hər biri Heydər Əliyevin yuxusuz gecələrinin, istirahətsiz gündüzlərinin məhsuludur. Hər bir dövlət mədəniyyəti ilə tanınır. Heydər Əliyev qürurla mədəniyyətimizi təbliğ etdi. Xalqımızın qüruruna, iftixarına çevrildi.

O dahi şəxsiyyətdən xalqımıza bu günümüzün strateji xətti, olduqca radikal islahatlar qaldı. Bir də öz ürəyinin hərarətini, yanğısını, bütün varlığını həsr etdiyi şah əsəri – Müstəqil Azərbaycan Respublikası qaldı.

Artıq müasir Azərbaycan nəinki MDB ölkələri arasında, hətta regionda qabaqcıl yerlərdədir. 2003-cü ildən ölkəmizə inamla rəhbərlik edən Heydər Əliyev idarəçilik məktəbinin layiqli yetirməsi, özü qədər inandığı və etimad göstərdiyi cənab İlham Əliyev Azərbaycanın hərtərəfli inkişafını təmin etmiş, müasir Azərbaycanın modernləşdirilməsinə diqqət yetirmişdi.

Heydər Əliyev hüquqi dövlət quruculuğunun əsaslarını yaratmışdı. Biz də bu təməlin üzərində qurulan Azərbaycanın ucalmasını təmin etməliyik. Zaman keçdikcə Heydər Əliyev siyasətinin çalarları pərdə-pərdə açılır. Fəxr edirik ki, onun öz məğrur səsi ilə dünyanın bütün dövlətlərinin ali kürsülərindən cəsarət və mərdliklə «Azərbaycan müstəqiliyi dönməzdir, əbədidir» – deyərək bəyan etdiyi fikir çoxdan öz təsdiqini tapmışdır.





***Nuriyev Talıb Natiq oğlu***

***Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin IV kurs tələbəsi***

*«Heydər Əliyev təkcə Azərbaycanı yox, bütün dünyanı idarə etməyi bacaran parlaq sityasətçidir».*

**Bill Klinton**

Bahar fəsli təbiət üçün xoş bir müjdədir. Bahar fəsli gələndə təbiət canlanır, çaylar coşub daşır, hər tərəf yaşıllığa bürünür, ağaclar çiçək açır. Siyasət dünyası da belədir. Onun da böyük dağları, coşub-daşan çayları, nurlu günəşi, parlayan ulduzları var. On may 1923-cü il. Məhz həmin gün Azərbaycan səmasında bir ulduz parladı. Bu ulduz başqa ulduzlara nisbətən daha parlaq, daha möhtəşəm görünürdü. Sonralar siyasət dünyasının parlaq ulduzuna çevrilən bu insan Azərbaycan xalqının taleyini dəyişəcək bir insan idi. Bu parlaq ulduz, dahi şəxsiyyət Heydər Əliyev idi. Böyük mülahizələr və keşməkeşli yollar keçmiş dahi şəxsiyyət haqqında hər şeyi bu inşada yazmaq mümkün deyildir. Heydər Əliyev haqqında hər şeyi demək mənim üçün çox çətin, çox mürəkkəb, lakin çox şərəfli bir işdir.

Qorudu xətadan milləti. Qorudu xətadan əzizdən-əziz hesab etdiyi xalqını. Əbədiləşdirdi xalqın müştəqilliyini. Döndərdi cənnətə Azərbaycanı.

Sevdi tarixini xalqının. Sevdi şeirini, musiqisini xalqının. Yaşatdı XX yüzillikdə Nəsib bəy Yuvsifbəyli, Fətəli xan Xoyski və digər vətənpərvərlərin arzu etdiyi,uğrunda vuruşduğu, mübarizə apardığı azadlığı, demokratiyanı.

Yaşatdı XX yüzillikdə mövcud olmuş, 23 ay yaşamış Şərqdə ilk türk-islam dünyasının hüquqi sələfi-varisi kimi yaşamış Azərbaycan Respublikasını.

Yenidən xalqın tələbi ilə gəldi Azərbaycana. «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir» deyərək qurdu, yaratdı Azərbaycanı. Dövlətin prinsipi aydın hiss olunurdu.

Qalın-qalın kitabların vərəqlərində, minlərlə ədibin, siyasətçinin qələmə aldığı yazılarda, şairlərin şeirlərində, yazıçıların əsərlərində Heydər Əliyev və yürütdüyü siyasətdən danışılırdı. Çünki o, nur tək parlayan, günəş kimi işıq saçan bir insan idi. O, xalqın ümid çırağını yandıran bir şəxsiyyət idi.

Heydər Əliyev ilk növbədə milli birlik yaratdı, milli əxlaqi dəyərləri formalaşdırdı. Milli birliyə arxalanaraq aradan qaldırdı vətəndaş müharibəsini.

Zəngin siyasi biliyə, dərin zəkaya malik şəxsiyyət idi. 34 il çıxış etdi xalqının qarşısında kamil bir insan, mərd, diplomat, müdrik dövlət başçısı. Ali baş komandan kimi. Kövrəlmədi, səsi titrəmədi heç bir məqamda.

Amma... amma insanlar duydu, gördü onu «Tut ağacı» mahnısını dinləyərkən. Bəlkə də müğənni Aygün Hümbətovanın məlahətli səsi aparmışdı onu xatirələr dünyasına:

*Tut ağacım, tut ağacım,*
*Aman yerim, güman yerim.*
*Xatirələr qanadında*
*Yaşatdığın pənah yerim.*

Xatırladı... xatırladı xanımlar xanımı Zərifə xanımı. Xatirələr həssas qəlbini sıxdı və axdı yanağından süzülən iki damla göz yaşı. Müğənni isə bunları hiss etmədən oxuyurdu. Oxuyurdu həssas qəlbləri sızladaraq:

*Bir gün şirin xatirələr sorağında*
*Səni gözləyəcəyimi bilməmişəm.*

Vurğunu idi Azərbaycan musiqisinin. İlk dəfə onu televiziya ekranlarında görəndə təəccüb etdik. Oxuyurdu Azərbaycan musiqisini. Tofiq Quliyevin «Sənə də qalmaz» nəğməsini.

*Söylə nədir bu ədalar!*
*Bu işvə, bu naz?*
*Gedər bir gün bu gözəllik*
*Sənə də qalmaz...*

Neçə-neçə insanın gözünə şəfa verən, xoş təbiətli qadın, gözəl ana, akademik Zərifə Əliyeva müşayiət edirdi pianinoda onu.

Bir də... bir də insanlar gördü onu Səməd Vurğunun «Azərbaycan» şeirini mavi Xəzərin sahilində söyləyərkən. Şeiri deyə-deyə kövrəlirdi. Hətta insanlar da dayana bilmədi bu kövrəkliyin qarşısında.

Dünyanın yazılmayan, ancaq əbədi hikməti belədir əzəldən.

«Azərbaycan» şeirini ifa etmiş və ya demiş bütün professional sənətkarlardan daha çox Heydər Əliyevin söyləməyi yaddaşlarda qaldı. Çünki o, parlaq bir ulduz və nəsillərə nümunə olan bir insanın, əsl vətəndaşın dilindən eşidilirdi.





***Paşayeva Fatma Hikmət qızı***

***Bakı şəhəri, T.Həsənov adına***
***23 nömrəli tam orta məktəbin***
***IX sinif şagirdi***

Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin yaradıcısı və idarəedicisi ulu öndər Heydər Əliyev Azərbaycan xalqınm dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri onun titanik fəaliyyətini tam əhatə etmir. Amma Heydər Əliyevin fəaliyyətinə sırf milli kontekstdə yanaşmaq olmaz. Çünki onun fəaliyyəti və şəxsiyyəti təkcə Azərbaycanın coğrafiyası ilə məhdudlaşmır. O, istər Sovet xalqları müstəvisində, istərsə də Şərqi Avropadan tutmuş, hətta Afrika ölkələrinə qədər olan xalqların tarixində mühüm rol oynamış və onların yaxından tanıdığı dahi şəxsiyyət olmuşdur.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində dəmiryolçu ailəsində dünyaya gəlib.

Gələcəkdə dünyanın ən nüfuzlu şəxsiyyətlərindən, tanınmış siyasətçilərindən olan Heydər Əliyev fenomeni hələ uşaqlıqdan özünü büruzə verirdi. Xasiyyəti, düşüncə tərzi, məntiqi, davranışı, səmimiyyəti, eyni zamanda prinsipiallığı və ciddiliyi, düzgünlüyü, parlaq istedadı ilə, habelə çəkdiyi gözəl rəsmlərlə özfəaliyyət dərnəklərində oynadığı rollarla o, həmyaşıdlarından fərqlənirdi.

Heydər Əliyev həmişə müəllimə, müəllimlik peşəsinə hörmətlə yanaşmış, «Müəllimlik çox şöhrətli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün, doğrudan da, çox qiymətlidir», – demişdir. Bu fikirlərini o, pedaqoji texnikuma daxil olmaqla təsdiq etmişdir.

1938–1939-cu illərdə Heydər Əliyev Naxçıvan Pedaqoji Texnikumunda təhsil almış, oranı əla qiymətlərlə bitirərək Azərbaycan Sənaye İnstitutunun

memarlıq fakültəsinə daxil olmuşdur. Lakin başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1942-ci ildə Naxçıvana çağrıldı və burada bir müddət Nazirlər Sovetində şöbə müdiri vəzifəsində çalışdı.

1944-cü ildən Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində leytenant rütbəsində çalışmağa başladı.

1949–1950-ci illərdə o, Leninqradda DTK-nın xüsusi ali məktəbində oxumuş, oranı əla qiymətlərlə bitirib, Azərbaycana qayıtdıqdan sonra isə Bakıda Dövlət Təhlükəsizlik Komitəsində baş leytenant rütbəsində fəaliyyətini davam etdirmişdir.

Heydər Əliyev elə hesab edirdi ki, təhlükəsizlik işçisi yüksək mədəniyyətli olmalıdır ki, şairlə də, bəstəkarla da, yazıçı ilə də, adi vətəndaşla da danışa bilsin. Əgər belə olmasa, o, ağı qaradan, pisi yaxşıdan, səhvi cinayətdən ayıra bilməz.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı, eləcə də sonrakı fəaliyyəti bu prinsiplər üzərində qurulmuşdur. Onun sənət adamları ilə söhbətləri, Azərbaycanın tanınmış elm və mədəniyyət xadimlərinin yubileylərindəki çıxışları bu dahi şəxsiyyətin insanların taleyinə qayğıkeşliklə yanaşmasının, xalqının tarixi və mədəni irsinə necə yaxından bələd olmasının – bu dahi şəxsiyyətin həyata baxışlarının bariz nümunəsidir.

Valideyni, ailəni, ailə münasibətlərini yüksək qiymətləndirən Heydər Əliyev hesab edirdi ki, insanın mənəvi aləmi təkcə əməkdə, ictimai fəaliyyətdə deyil, həmçinin ailədə formalaşır. 1954-cü ildə gənc zabitin həyatında çox əlamətdar hadisə baş verdi, görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin qızı – Zərifə xanımla ailə qurdu.

1957-ci ildə Heydər Əlivev Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. BDU-nun məzunu olmağı ilə fəxr edən, universitetin 50, 65, 75 illik yubileylərinin iştirakçısı kimi özünü xoşbəxt sayan Heydər Əliyev bu təhsil ocağını «Azərbaycan xalqının milli sərvəti» adlandırmışdı. «Qısa ömürlü Azərbaycan Demokratik Respublikasının qiymətli yadigarı» adlandırdığı BDU-nu çox sevdiyini o, daim qeyd edirdi.

1969-cu il iyulun 14-də Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi seçilmiş Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin infrastrukturunun əsasını qoymuşdur.

O dövrdə – Azərbaycanın dünya miqyasında çox az tanınan dövründə bu azərbaycanlı şəxsiyyət 1982-ci ildə hətta Moskvada yüksək dövlət vəzifəsinə layiq görüldü. Lakin o, həmişə Vətəninə, xalqına xidmət göstərməkdə əlindən gələni əsirgəməyib.



1987-ci ildə Heydər Əliyev istefaya çıxaraq, siyasi fəaliyyətindən uzaqlaşmağa məcbur oldu. Onun istefasından bir neçə gün sonra baş qaldırmış erməni separatçıları növbəti dəfə Dağlıq Qarabağ kartını ortaya atdılar. Belə çətin, ağır günlərdə Ulu Öndərimiz Vətəninin, xalqının yanında olmaq istəyirdi. O, bütün çətinlikləri dəf etdi və Vətənə qayıtmağa müvəffəq oldu.

1993-cü ilin iyun ayında Azərbaycanda siyasi böhran son həddə çatmışdı. Xalqımız belə ağır günlərdə öz xilaskarını-görkəmli siyasətçi Heydər Əliyevi gözləyirdi. 1993-cü il oktyabrın 3-də xalqın istəyi ilə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

Prezident seçildiyi gündən etibarən Heydər Əliyev xalqı üçün yaşadı, Vətəni ağır, çətin günlərdən xilas etdi. Azərbaycanın elmi, iqtisadi, siyasi cəhətdən inkişaf yollarını tapdı və mənim bu gün belə gözəl, firavan bir ölkədə yaşamağımın, Vətənimin bütün dünyada tanınmasının, torpağımın öz şöhrəti ilə dünyaya səs salmasının səbəbkarı oldu.

Dahi azərbaycanlı şəxsiyyət xalqımızın bir sıra əlamətdar günlərini təsis etdi: «Ana dili», «Gənclər günü», «Dünya azərbaycanlılarının həmrəyliyi günü» və s.

Heydər Əliyev tarixi «İpək yolu»nun bərpasına, hal-hazırda da neft sektorunda bəhrəsini gördüyümüz «Əsrin müqaviləsi»ni imzalamağa da nail oldu.

Ulu Öndərimiz 2003-cü il dekabırın 12-də müalicə olunduğu Amerikanın Klivlend xəstəxanasında əbədiyyətə qovuşdu. Sağlığında dediyi kimi ömrünü xalqına bağışladı.

Ondan sonra Azərbaycana Heydər Əliyev siyasətinin layiqli davamçısı olacaq İlham Əliyev kimi şəxs başçılıq edə bilərdi!

Xalqımız İlham Əliyevə ona görə böyük ümid bəsləyirdi ki, o, dünyanın dahi siyasətçisi Heydər Əliyevin ailəsində dünyaya gəlmişdi. O ailə ki, Azərbaycanın sağlam gələcəyinin inkişafı, xalqın firavan ömür sürməsi, Azərbaycanın bütün dünyada tanınması üçün canlarını fəda verən Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi şəxsiyyətlər bu ailədə yaşamışdılar, bu ailəni qurmuşdular.

Atalar demişkən: «Ot kökü üstə bitər». Bu sözlər bir daha İlham Əliyevin atasının layiqli davamçısı olduğunu təsdiq edir.

İlham Əliyev atasının gənclərlə bağlı siyasətinin həyata keçirilməsində də misilsiz fədakarlıq göstərir. Bu gün idman Azərbaycanda ümumxalq hərəkatına çevirilməkdədir. Atalar demişkən: «Sağam bədəndə sağlam ruh olar», «Sağlam gənclik sağlam gələcək deməkdir» – bu müdrik siyasəti İlham Əliyev həyata keçirir. Təsadüfi deyil ki, idmançılarımız bu gün bütün dünyada bayrağımızı yüksəklərdə dalğalandırırlar. Bu il Azərbaycanda ke-

çiriləcək ilk Avropa oyunları bizləri və vətənimizi bütün dünyaya bir daha tanıdacaq.

Azərbaycan mədəniyyətinin dünyada tanınmasında misilsiz xidməti olan Azərbaycan Respublikasının birinci xanımı – Mehriban xanım Əliyevanın fəaliyyətini qeyd etməmək mümkün deyil.

İlham Əliyevin təhsilə, elmə, mədəniyyətə göstərdiyi qayğının nəticəsidir ki, biz şagirdlər bu gün müasir standartlara cavab verən məktəblərdə təhsil alır, dərin elm və biliyə yiyələnirik.

Hazırda təhsil aldığım tam orta məktəb Ulu Öndərin gələcək nəsillərə arzuladığı təhsil ocaqlarına bariz nümunədir.

Mən bir müasir Azərbaycan gənci kimi Vətənimi sevirəm. Gələcəkdə Vətənimə layiqli övlad olmaq üçün əlimdən gələni əsirgəmirəm və əsirgəməyəcəm də. Mənim qəlbimdə dərin iz salmış Vətən sevgisi Heydər Əliyevin doğma Azərbaycanına olan dərin məhəbbət və istəyini ifadə edən «Fəxr edirəm ki, mən azərbaycanlıyam» kəlamlarının qüdrətli təsirindən qaynaqlanıb.

Biz gənclər Ulu Öndərimizin xatirəsini daim əziz tutacağıq və onun tutduğu şərəfli yolu layiqincə davam etdirəcəyik!





**_Rzayeva Günay Xəqani qızı_**
**_Bakı şəhəri, 47 nömrəli_**
**_tam orta məktəbin X sinif şagirdi_**

*Ədalətin carçısı,*
*Həqiqətin aynası,*
*Həyatımın mənası,*
*Heydər babamdır mənim!*

Bəli, adı şanlı tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyevi yalnız yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran günəşlə, bir də qartal məskəni, uca göylərə yüksələn bir zirvə ilə müqayisə etmək olar. O, bütün əməllərinə görə zirvədə dayanacaq şəxsiyyətdir. Xalqımızın yaddaşında əbədi yaşayan və heç vaxt unudulmayan bir insandır. Hamımız üçün insanlıq örnəyidir. Xalqımız fəxr edə bilər ki, onun oğlu olan Heydər Əliyev hələ sağlığında ikən öz adını dünyanın sayılıb-seçilən simalarının sırasına yazdırmış və bunula da xalqımıza başucalığı gətirmişdir. Böyük öndərin təkcə bir məqsədi var idi. Taleyin ona bəxş etdiyi qabiliyyətini, bacarığını yalnız ona yurdu olan Azərbaycana həsr etmək. Bunu onun Azərbaycana rəhbərlik etdiyi 30 illik bir dövrə nəzər salsaq, aydın görə bilərik. Lakin mən əvvəlcə bu böyük tarixi şəxsiyyətin həyat yolundan danışmaq istəyirəm.

Heydər Əliyev mayın 10-da Naxçıvan şəhərində fəhlə ailəsində dünyaya göz açmışdır. Elə həmin şəhərdə orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (yəni indiki Neft Akademiyasının) əvvəl memarlıq, sonra tarix fakültəsində təhsil almışdır. Bir sözlə, Heydər Əliyev ixtisasca həm gözəl memar, həm də gözəl tarixçi olmuşdur. O, uşaqlıqda adını əlaçı şagirdlər sırasına daxil etmişdir. Artıq 1944-cü ildə orqana işə qəbul olunmuşdur. O, ilk öncə, Azərbaycan Respublikası Təhlükəsizlik Komitəsinin rəhbəri, Azərbaycan Respublikası Kommunist Partiyasının

I katibi, daha sonra SSRİ Nazirlər Kabinetinin sədr müavini vəzifəsinə kimi yüksəlmişdir. Heydər Əliyev 1993-cü ildə Azərbaycan Respublikasının sayca 3-cü prezidenti seçilir.

Bildiyimiz kimi, Heydər Əliyev Azərbaycana müxtəlif formasiyalarda rəhbərlik etmişdir. Bu baxımdan onun hakimiyyət illərini 2 mərhələyə bölmək olar: 1-ci mərhələ 1969–1982-ci illərdə olub. Həmin illərdə Azərbaycan Sovet İttifaqının tərkibində olsa da, Heydər Əliyev ittifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılması üçün sözün əsl mənasında qətiyyət göstərmişdir. Heydər Əliyev xalqını düşünmüş və Azərbaycanın müstəqilliyə qarışacağına inanmışdır.

Hakimiyyət illərinin 2-ci mərhələsi 1993–2003-cü illəri əhatə edir. Ulu öndər hakimiyyətə qayıdanda xalqımız ağır vəziyyətdə idi. Heydər Əliyev xalqımıza dəstək oldu. Onun zəkası və ağıllı fikirləri Azərbaycan xalqının başı üzərində günəş kimi parladı. Onun uzaqgörənliyi bu gün hər birimizdə sevinc qarışıq bir heyrət doğurur.

Heydər Əliyev hələ 1990-cı ilin 20 yanvarında Bakıda soydaşlarımıza qarşı törədilmiş qanlı qırğınla bağlı Azərbaycanın Moskvadakı Nümayəndəliyində bəyanatla çıxış edərək bu qırğının təşkilatçı və icraçılarının ağır cəzalandırılmasını tələb etmişdir.

Heydər Əliyev xalqına bağlı və vətənini sevən bir insan olmuşdur. O, 1993-cü ildə Azərbaycan Respublikası Prezidenti vəzifəsini icra etməyə başlamışdı. 1993-cü ilin oktyabr ayında keçirilən seçkilərdə 76,1% səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Onun hakimiyyətə gəlməsini xalq böyük bir sevinclə qarşıladı.

Heydər Əliyev xalqımıza arxa, dayaq oldu. Hakimiyyətə gələndən sonra iqtisadiyyatımızı inkişaf etdirdi. 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzaladı. Bununla da dünya ölkələri ilə həm dostluq, həm də ticarət əlaqələri qurdu.

Neftimiz dünya bazarlarına çıxarılır, xarici ölkələrə ixrac edilir. Ölkə daxilində abadlaşdırma və quruculuq işləri gedirdi. Həmin dövrdə ölkəmiz çiçəklənmə dövrünü yaşayırdı. Yeni parklar, qəsəbələr salınırdı. Ölkəmizdə sənaye və təsərrüfat sahələrinə də böyük diqqət göstərilirdi. Hər şeydən əvvəl, Heydər Əliyev uşaq və gənclərimizin təhsilinə çox önəm verirdi. Çünki o, savadlı və dünyagörüşlü uşaqları çox sevərdi. Onun bir kəlamını xatırlatmaq istərdim:

«Azərbaycanın gələcəyi elmli və bilikli gənclərin çiyinləri üzərindədir!» Hamımız onun kimi olmaq üçün qarşımıza məqsəd qoymalı və bu məqsədə nail olmalıyıq. O, xalqımızı və Azərbaycanı necə fikirləşmişdirsə, biz də fikirləşməliyik. Kim bilir ki, sabah nə olacaq? Hamımız təhsilimizə



və milli dəyərlərimizə fikir verməliyik. Bu gün Ulu Öndərimizin yeritdiyi uğurlu siyasəti prezidentimiz İlham Əliyev davam etdirir. Bu 2 ölkə başçısının siyasəti Azərbaycanı daha da inkişaf etdirdi. Nə xoşdur ki, onun bizə miras qoyub getiyi azad, müstəqil və firavan bir ölkədə yaşayıram. Bu gün hər bir savadlı gənc sabahın bir Heydəridir.

Ümummilli Liderin şərəfli ömür yolu Azərbaycan gəncləri üçün parlaq həyat nümunəsidir. Yaşasın Azərbaycan! Siz həmişə bizim qəlbimizdə yaşayacaqsınız! Sizin davamçılarınız olaraq Sizin kimi olacağıq! Buna söz veririk!



## Rüstəmova Rahidə Rafiq qızı

*Qubadlı rayonu, B.Mehdiyev adına*
*2 nömrəli tam orta məktəbin*
*VIII sinif şagirdi*

Mən orta məktəb şagirdiyəm. Xalqımla, Vətənimlə fəxr edirəm. Lazımi qədər başa düşürəm ki, bu Vətənin belə formalaşmasında kimin rolu əvəzsiz və silinməzdir. Doğrusu, tərifəlayiq olanı tərifləmək çox çətindir. Bu isə, ümumiyyətlə, mənim bacaracağım iş deyil. Çünki illər, əsrlər bu dahi haqqında danışmağa, onun gördüyü işləri əks etdirməyə belə acizdirsə, onda mən... Onda mən susmağa üstünlük verərdim.

Uşaqlıqdan «Ulu», «Öndər», «Dahi», «Əvəzedilməz» və s. kimi sözləri evdə, televiziya kanallarında, həyətdə, bir sözlə, addım basdığım hər yerdə eşidirdim. Lakin onların mənasını başa düşmür, adi sözlər kimi qəbul edirdim. Vaxt çatdı və artıq bu sözləri dərk etmək, mənimsəmək mərhələsinə yetişdim. Məktəbdə olanda isə bu sözlər mənə yad gəlmirdi. Artıq bilirdim ki, bu sözləri mən yalnız və yalnız bir şəxsə ünvanlaya bilərəm. Çünki o, bu adları qazanmışdı. Xalq onu bu sözlərə layiq görmüşdü.

O da bizlərdən biri, bizim kimi bir insan idi. O da bizim kimi adi bir ailədə dünyaya göz açmışdı. Lakin onu bizdən bir şey ayırırdı: onun mənsub olduğu özünəməxsus iradə. Məhz elə bu iradə onun xalqın sevimlisinə çevirib bütün dünyada tanıtdı.

1923-cü ilin 10 mayı. Gözəl yaz ayı idi. Təbiət sanki canlanmışdı. Kim bilərdi ki, Naxçıvan şəhərində kasıb bir fəhlə ailəsində dünyaya göz açan bir uşaq gələcəkdə hamını xilas edəcək. Çətinliklər az olmadı.

Heydər Əliyevin hər yaş mərhələsi, hər dövrü mənim üçün çox maraqlı və cəlbedicidir. Çünki mən hər an ondan bir şey öyrənə və ona layiq biri ola bilərəm.

Bilmirəm niyə, ancaq məni daha çox maraqlandıran onun məktəb illəridir. Bəlkə də mən də şagirdəm deyə. Mən də onun kimi dərs əlaçısıyam deyə. Bunu başa düşə bilmirəm. Ancaq hər dəfə məktəbimizin foyesində onun şəklini və attestatını görəndə mən dərin hislər keçirir və təhsilə daha da ruhlanıram.



Heydər Əliyev 1929-cu ildə Naxçıvanın orta məktəbinə daxil olmuş və buranı öz adına layiq qızıl medalla bitirmişdir. Sonra isə Heydər Əliyev Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olaraq buranı uğurla bitirmişdir. Xalqının ağır günləri, müharibənin başlanması onun təhsilini yarımçıq qoydu.

Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. Lakin o, bununla da kifayətləməyərək, 1964–1967-ci illərdə Leninqradda xüsusi təhsil almışdır. Ulu Öndər daim bilik almağa çalışıb. Məhz elə bu biliklər onu ağır sınaqlardan məğrur çıxarıb. Onu yenilməz edib.

Kiçik olsam da, bir dövlət başçısı kimi Heydər Əliyevin fəaliyyəti barədə böyük təsəvvürlərim var. Bu təsəvvürlər isə mənim beynimə tarixi əks etdirir.

1969-cu ilin iyul ayından ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldi. Onun gəlişi ürəklərə nur ələdi, xalqımın həyatında yeni bir səhifə açdı.O, ilk səhifəyə «Mən fəxr edirəm ki, azərbaycanlıyam» sözünü səmimi qəlbdən yazdı. Heydər Əliyevin sayəsində Azərbaycan sözü dildən-dilə düşərək uzaq-uzaq ölkələrə yayıldı. Xalq bütün ümidlərini ona bəslədi. O da yalnız xalqına arxalanır, hər hansı bir addım atdıqda xalqın gələcəyini fikirləşirdi.

Bu gün mənim, sadə bir məktəblinin keçirdiyim hissləri öz torpağını, millətini sevən hər bir Azərbaycan vətəndaşı keçirir.

Onun gəlişi ilə əsaslı dəyişikliklər baş verdi. Təhsilə diqqət artdı, kənd təsərrüfatı inkişaf etdi, şəhərlərdə, hətta kiçik kəndlərdə də dəyişiklik baş verdi. Yeni ali və orta məktəblər açıldı, zavodlar, fabriklər tikildi. Bir sözlə, Azərbaycan çiçəkləndi.

Nəhayət, 1993-cü il iyun ayının 15-də Heydər Əliyevin ölkəmizə qayıdışı ilə dövlətimizin idarəçilik sükanı təcrübəli, müdrik, uzaqgörən bir dövlət adamının əlinə keçdi. Beləliklə, xalqımızın həyatında yeni bir dövr başlandı. Bu dövrün başlanğıcı – 1993-cü il 15 iyun günü tariximizə «Qurtuluş Günü» kimi daxil oldu.

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dövləti məhv olmaqdan xilas edildi. Azərbaycanımızın parçalanıb, yox olmaq qorxusu aradan qalxdı. Dövlətimizin isə qorunub saxlanılması azadlığımızın, müstəqilliyimizin qorunub saxlanılması deməkdir. Qurtuluş deməkdir!

Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıdan kimi ermənilərin və onların bütün dünyadakı havadarlarının gücünü, ölkəmizin azad yaşamasını istəməyən böyük dövlətlərin planlarını, Azərbaycanımızın düşdüyü ağır vəziyyəti düzgün qiymətləndirə bildi. Dərindən ölçüb-biçdi. Götür-qoy etdi. Cəbhədə atəşin kəsilməsinə nail oldu. Ermənistanın Azərbaycana qarşı ədalətsiz mübarizəsində «Atəşkəs dövrü» başlandı.

*Heydər ata bir əlində xəritə,*
*Dolandın dünyanı sən qitə-qitə.*
*Yol vermədin nə nifrətə, qəzəbə,*
*Düşmənimlə dostcasına danışdın,*
*Atəşkəsi lazım bilib barışdın.*

1994-cü il sentyabr ayının 20-də xarici dövlətlərin iri neft şirkətləri ilə «Əsrin müqaviləsi» adlı iri neft müqaviləsi imzalandı. bunun ardınca digər müqavilələr də bağlandı.

Ümummilli liderimiz Heydər Əliyev yaxşı başa düşürdü ki, neftin sayəsində açılmayan qapıları açmaq, ətrafımıza çoxlu dost toplamaq, hətta düşməni də dosta çevirmək olar. Odur ki, o, ölkəmizin əsas sərvətindən – neftdən istifadə edərək, əsas düşmənlərimiz olan Ermənistanın dünyada əvvəlki nüfuzunun itirilməsinə nail oldu.

Onun uzun və gərgin əməyi sayəsində müstəqil dövlətimizin birinci Konstitusiyasının layihəsi hazırlandı. Konstitusiya layihəsi bütün xalqın müzakirəsinə verildi. Konstitusiyanın layihəsinə xeyli düzəliş və əlavələr edildi. Nəhayət, 1995-ci il noyabrın 12-də Ümumxalq səsverməsi yolu ilə qəbul olundu. O gündən başlayaraq xalqımız hər il bu günü «Konstitusiya Günü» kimi bayram edir.

Tarixə nəzər salsaq görərik ki, hələ XVI yüzillikdə böyük Səfəvilər dövlətinin dövlət dili – Azərbaycan dili idi. Heydər Əliyevin sayəsində Azərbaycan dili – bizim hamımızın ana dili, ölkəmizin dövlət dili oldu. Beləliklə, Vətənimizin, xalqımızın, dilimizin, dövlətimizin adındakı müqəddəs Azərbaycan sözü Konstitusiyamız vasitəsilə əbədiləşdirildi. Bunula, «qara donlu kafirlər»in Azərbaycanda islam türk birliyini pozmaq, ölkəmizdə yaşayan xalqları bir-biri ilə vuruşdurmaq arzuları gözlərində qaldı.

Heydər Əliyev türk-islam dövlətləri ilə əlaqələri daha da möhkəmlətdi. Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan dövlətlərinin başçıları ilə çoxsaylı görüşlər keçirdi. Digər islam dövlətləri ilə də əlaqəmiz genişləndi və möhkəmləndi.



Dövlət başçımızın Amerika Birləşmiş Ştatları, İtaliya, İspaniya, Almaniya, İngiltərə, Polşa, Ukrayna, Çin, Yaponiya və başqa ölkələrə səfərləri Azərbaycanımızın uğurlarını da artırdı. Heydər Əliyev bütün dünyaya sübut etdi ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, yurdumuzun ayrılmaz parçasıdır.

Hərdən fikirləşirəm ki, məni bu şəxsə bağlayan onun qətiyyəti, məqsədə doğru inamla getməsidir. Bir dəfə televiziya kanalında Heydər Əliyevin Çinə səfəri haqqında bir verilişə baxırdım. Onun dediyi sözlər dəqiq yadımdadır: «Biz Çin səddinə çıxırdıq. Yoldaşların çoxu dözmədilər, yolun yarısından qayıtdılar. Mən isə qarşıma məqsəd qoydum və çıxdım». Bu sözlər elə bil məni ovsunladı. Məqsədə doğru getməyin nə olduğunu tam dəqiqliyi ilə anladım.

Heydər Əliyevin göstərdiyi səylərin nəticəsidir ki, bu gün çox dövlətlərin paytaxtlarında – Ankarada, Vaşinqtonda, Bonnda, Tbilisidə, Tehranda, Kiyevdə, Moskvada, İslamabadda və başqa şəhərlərdə Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının binaları qarşısında üçrəngli dövlət bayrağımız əzəmətlə, vüqarla dalğalanır.

60 milyonluq Azərbaycan xalqı indi bu bayraq altında birləşir!

Heydər Əliyevin gördüyü bütün bu işlər onu «İlin adamı», «Ulu Öndər», «Ümummilli Lider» adlarına layiq gördü.

Bu gün biz hamımız Heydər Əliyevə minnətdar və borcluyuq. Çünki bizim belə azad, müstəqil yaşamağımız Heydər Əliyev əməyinin bariz nümunəsidir.

Heydər Əliyev daim bizim yaddaşımızda «Əlaçı şagird», «Dərin bilik yiyəsi», «Layiqli dövlət başçısı», «Gözəl ailə sahibi», «Müdrik baba» kimi qalacaq və yaşayacaqdır.

Hələ uşaqlıqdan səmaya pərvazlanan uca dağ zirvələrini çox sevirəm. Enişli-yoxuşlu, qarlı-dumanlı, yarğanlı-dərəli uca dağ zirvələri təbiətin bütün sınaqlarına sinə gərib həmişə məğrur görünür. Heydər Əliyev şəxsiyyəti də əlçatmaz dağ zirvəsi qədər ucadan ucadır.



**_Fərhadov Əli İlham oğlu_**

_1 nömrəli Gəncə Peşə Liseyinin_
_II kurs şagirdi_

_«Mən xalqıma arxalanıram. Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram»._

**Heydər Əliyev**

Azərbaycan torpağı – zəngin sərvəti ilə, bol-bol nemətləri ilə, yüksək mədəniyyəti və ədəbiyyatı ilə məşhur olan bir torpaq!

Sənin bir sərvətin, tükənməz nemətin daim ox olub düşmənlərin gözünə sancılmış, onları narahat etməyə başlamışdır.

1988-ci ildən 1993-cü ilin oktyabrına kimi Azərbaycanın başına gəlmiş müsibətlər, faciəli hadisələr, axan günahsız şəhid qanları, anaların, bacıların göz yaşları artıq geridə qalmışdı.

1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikası Prezidentliyinə seçkilər keçirildi. Seçkilərdə Heydər Əlirza oğlu Əliyevin lehinə 98,8 faiz seçici səs verdi.

Bu böyük rəhbərə ümumxalq etimadının kütləvi etirafı idi. 10 oktyabrda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin andiçmə mərasimi keçirildi. O, üçrəngli bayrağı inamla öpüb dedi: «Bu gün mənim üçün tarixi və əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə, Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına bir daha dərin minnətdarlığımı, hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək, bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm».

Azərbaycanda, qədim Qarabağ torpağında müharibə gedir, erməni quldurları Rusiya imperiyasının himayəsi altında torpaqlarımızı işğal edir, insanları qətlə yetirirdilər. Ölkənin gələcəyi qaranlıq idi, dumanlı görsənirdi. Prezident Heydər Əliyevin liderliyi sayəsində neçə illərdi ki, atəşkəs əldə olunmuşdur. Bütün bunlara görə ona – rəhbərimizə minnətdarıq.



Heydər Əliyev Məktəbi XXI yüzilliyin diplomatiya məktəbidir.

1994-cü il Heydər Əliyevin Türkiyəyə, Böyük Britaniyaya, Çinə, Səudiyyə Ərəbistanına, Moskvaya, Mərakeşə işgüzar səfərləri.

1995-ci il Heydər Əliyevin MDB dövlət başçıları ilə Alma-Atada keçirilən yüksək səviyyəli görüşdə iştirak etməsi, Bolqarıstana, Britaniyaya, ABŞ-a, Türkmənistana rəsmi səfərləri.

1996-cı il Heydər Əliyevin Lissabon şəhərində keçirilən ATƏT-in üzvü olan ölkələrin sammitində çıxış etməsi, Ermənistanın dünyanın 53 dövləti tərəfindən təcavüzkar dövlət kimi tanınmasının mühüm qələbəsi.

1997–1998-ci illərdə davam edən yüzlərlə rəsmi səfərlər. Bütün bunlar Heydər Əliyevin qələbəsidir.

İnşama Aydın Murovdağlının «Türkün alın yazısı» poemasından bir neçə misra əlavə etmək istəyirəm:

_Danış Allah dilində, hökm et Quran dilində!_
_Bizi ayağa qaldır Qazı Osman dilində!_
_Ulu Turan dilində!_
_Əmr et! Üz-üzə gəlim düşmənlə qan dilində._
_Geyim qanlı köynəyi, oda düşüm odlanım!_
_Alı Baş Komandanım!_

Öz müstəqilliyini, azadlığını qorumaq yolu, demokratiyaya azadlıq yolu ilə irəlilədikcə Azərbaycan çox çətinliklərlə qarşılaşıb və bundan sonra da qarşılaşacaqdır. Lakin biz qəti surətdə əminik ki, Azərbaycan Heydər Əliyevin strateji planları sayəsində qətiyyətini bundan sonra da göstərəcək, öz dövlət müstəqilliyini əldən verməyəcəkdir.

Müstəqillik yoluna qədəm qoymuş respublika üçün müharibənin nə demək olduğu aydındır. Belə şəraitdə güclü orduya arxalanmaq zəruridir.

Heydər Əliyevin siyasi mübarizə metodlarını təhlil etmək mənim söhbətimin mövzusu deyil. Ancaq onun Azərbaycanı xaos bəlasından qurtarmağı heç şübhəsiz xalqın tarixində əbədi həkk olunmuş qəhrəmanlıq nümunəsidir.

Bütün dünyaya məlumdur ki, bügünkü Azərbaycanımızda həyat normasına çevrilmiş ictimai sabitliyin yaradıcısı Heydər Əliyevdir.

Heydər Əliyev xalqın tale yazısına adı iri hərflərlə həkk olunmuş tarixi şəxsiyyətdir.

Bu gün də xalqın onun tarixi mübarizə yollarına inamı və etibarı sonsuz, sarsılmazdır. Çünki xalq onu təkcə prezident kimi deyil, böyük bir lider kimi, millət atası kimi sevirdi.

*Qanında saflıq adlı daşqın ilə silahlar!*
*Dünyaya məhəbbətin, eşqin ilə silahlar!*
*Yer də, göy də sənindir.*
*Sən qalib gələcəksən!*
*Sən qalib gələcəksən!*





## *Talıbova Şəbnəm Sərdar qızı*

***Zəngilan rayonu, 33 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Hər bir xalqın tarixində şəxsiyyətin rolu danılmazdır. Xalqı zülmətdən çıxaran, onu qələbəyə aparan yolu kütlə yox, ona rəhbərlik edən şəxsiyyətlər göstərir. Xalq isə o zaman müdriklik nümunəsi göstərir ki, özünə ağıllı, ləyaqətli rəhbər seçir.

Belə şəxsiyyətlərdən biri də ömrünün yarım əsrdən çoxunu öz doğma xalqına, millətinə övlad məhəbbəti ilə həsr etmiş ulu öndər, cənab Heydər Əliyevdir. Zaman şəxsiyyətləri yetişdirdiyi kimi, dahi insanlar da tarixin baş qəhrəmanları missiyasını yerinə yetirməli olurlar. Allahın Azərbaycan xalqına bəxş etdiyi belə oğullardan biri ümummilli lider Heydər Əliyevdir. Allah onu bu xalqa nicat göndərmişdi. Heydər Əliyev məhz Azərbaycan xalqı üçün doğuldu, yaşadı, özünü bu millətə, bu xalqa, Azərbaycan adlı bir məmləkətin bütün dünyada tanıdılmasına həsr etdi. Eləcə də, bütün dünyanı Azərbaycana tanıtdı. Azərbaycan adlı bir dövlət qurdu, yaratdı, onu əbədi, əlçatmaz və dönməz etdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində göstərdiyi xidmətlər, onun ölkəyə rəhbərlik etdiyi illər ərzində həyata keçirdiyi genişmiqyaslı layihələrlə bitmir. Onun xalq qarşısında 30 ildən yuxarı müddətdə göstərdiyi xidmətlər gələcəkdəki müstəqil dövlətin inkişaf perspektivlərini və yolunu müəyyənləşdirən zəngin irsi kimi başa düşülür. Hələ 70–80-ci illərdə sanki Ulu Öndər Azərbaycanın müstəqil dövlət olacağını görmüş, bunun üçün iqtisadi, siyasi və hüquqi zəmin yaratmışdır.

Ulu öndər Heydər Əliyevin gərgin əməyi sayəsində qısa müddətdə Azərbaycan aqrar ölkədən iri sənaye respublikasına çevrildi. Heydər Əliyevin respublika rəhbərliyinə gəldiyi ilk illər əsl yüksəliş, inkişaf illəri idi.

Azərbaycanda tez bir zamanda bütün sahələri – kənd təsərrüfatı, ağır və yüngül sənaye, tikinti-abadlıq, mədəniyyət, elm sahələr də inkişaf etdi. Azərbaycan iqtisadi cəhətdən inkişaf etdi. Bakı iri sənaye şəhərinə çevrildi, yeni mikrorayonlar, yaşayış massivləri salındı. Azərbaycan öz iqtisadi, siyasi gücünə görə bütün dünyada tanındı.

1990-cı illərin əvvəllərində ölkədə hakimiyyət böhranı dərinləşmiş, ictimai-siyasi sabitlik pozulmuş vətəndaş qarşıdurması güclənmiş, azadlıq və hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Bu təsdiqlədi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə malik lider Azərbaycanı möhkəmləndirmək və müstəqilliyini qorumaq kimi ağır missiyanın öhdəsindən gələ bilərdi. Azərbaycanın qüdrətli oğlu, siyasi və dövlət xadimi, dahi rəhbərimiz xalqının səsinə səs verərək Naxçıvandan Bakıya gəldi.

Qeyrətli Vətən oğlu öz müdrikliyi, uzaqgörən siyasəti nəticəsində qardaş qanının axıdılmasının, ölkəmizin parçalanmasının qarşısını aldı. Bununla hərc-mərcliyə son qoyuldu, sabitliyə nail olundu. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyuldu. 1995-ci ilin 12 sentyabrında ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk Konstitusiyası insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq həyata keçirilməsi Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. 1994-cü il 20 noyabrında «Əsrin müqaviləsi»nin imzalanmasının milli inkişafımızdakı misilsiz əhəmiyyəti bugünkü sosial-inkişaf fonunda daha qabarıq görünür. Bu strategiya nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bilmişdir.

Heydər Əliyev həm ən böyük azərbaycanlı, həm Azərbaycan Respublikasının Prezidenti, həm də dünyanın güclü dövlət xadimi idi. Harada yaşamasından, hansı vəzifədə çalışmasından asılı olmayaraq onun üçün Azərbaycanın mənafeyindən kənarda heç nə durmurdu. O deyirdi: «Heç vaxt fikirləşməyin ki, Vətən sizə nə verib. Həmişə öz-özünüzdən soruşun ki, siz Vətən üçün nə edibsiniz?». Heydər Əliyev bütün həyatı boyu belə bu məfkurə ilə yaşadı, Vətəni, xalqı üçün nə mümkündürsə etdi, Azərbaycan dövlətini qurdu.

Ulu öndərin mənalı və şərəfli həyat yolunun hər bir parlaq səhifəsi xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir.

Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək istiqamətində görülən əsas işlərdən biri də ölkənin dünya birliyinə inteqrasiyanın təmin olunmasıdır. Heydər Əliyevin uğurlu xarici siyasəti nəticəsində bərabərhüquqlu səviyyədə beynəlxalq təşkilatlarda əməkdaşlıq müstəqilliyin əsas dayaqlarından birinə çevrilmişdir.



Təsadüfi deyil ki, çağdaş tariximizin bütöv bir dövrü Heydər Əliyev dövrü adlanır. Böyük Öndər bu gün cismən aramızda olmasa da, 1969-cu ildən etibarən başlanmış Heydər Əliyev dövrü davam etməkdədir. Heydər Əliyevin qurduğu, yaratdığı Azərbaycan prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə daha işıqlı sabaha, daha firavan gələcəyə doğru inamla addımlayır.

Müasir, müstəqil Azərbaycan Heydər Əliyev tərəfindən yaradılmış, ölkə başçımız İlham Əliyev tərəfindən zənginləşdirilmiş və konkretləşdirilmişdir.

Ulu Öndərin şah əsəri olan müasir, müstəqil Azərbaycanın inkişaf dinamikası dünya birliyi tərəfindən artıq etiraf edilir. Həqiqətən, qısa tarixi dövrdə-cəmi iyirmi il ərzində gənc, müstəqil respublikamız elə bir yol keçmişdir ki, bir sıra ölkələrin bu yolu keçməsi üçün yüzilliklər lazım gələrdi.

Heydər Əliyev qaçqın və məcburi köçkünlərin qayğısını özünün bir nömrəli problemi elan etmişdi. Qaçqınlar üçün yeni yaşayış qəsəbələri salınmış, şəhid və əlil ailələrinə, aztəminatlı ailələrə çoxsaylı maddi və mənəvi köməkliklər göstərilmişdir.

Tarix Heydər Əliyev kimi şəxsiyyətləri çox az-az yetirir. Özünün xoşbəxtliyini xalqın xoşbəxtliyinə xidmətdə görən Heydər Əliyev yolu – haqq yoludur. Bu yolla yalnız hər an Vətən, xalq naminə fədakarlıq etməyi bacaranlar, şəhidliyə hazır olanlar gedə bilərlər. İradəsiz, qəlbində torpaq, el təəssübü olmayanlar bu yolu keçə bilməzlər.

Biz fəxr edirik ki, ulu öndər Heydər Əliyev kimi dahi rəhbərimiz olub. Biz gənclər olaraq, Heydər Əliyevin xalqına, millətinə qoyub getdiyi bu vətənə şərəflə xidmət etməli və layiqli əməllərimizlə dahi şəxsiyyətimiz Heydər Əliyevin ruhunu şad etməliyik.



## *Zeynalzadə Nigar Habil qızı*

***Tərtər rayonu, Umudlu kənd tam orta məktəbin XI sinif şagirdi***

Ömrümüzdən ötüb keçən hər bir gün tarixə məxsusdur. Ulu öndərimiz Heydər Əliyevin ömür yolu da şanlı bir tarixdir. Kim idi bizim üçün bu dahi şəxsiyyət?

«Kitabi-Dədə Qorqud» dastanında Dədə Qorqud belə təqdim olunur: «Ol kişi Oğuz qövmünün bilicisi idi. Gələcəkdən türlü xəbərlər söylərdi. Nə dersə, olardı. Oğuzlar onunla məsləhətləşməmiş iş görməzlərdi. Məsləhətləşər, sonra edərdilər».

Elimizin ağsaqqalı, bilicisi Dədə Qorqud misallı Heydər Əlirza oğlu Əliyev idi.

Düzdür, bir şagird olaraq, ölkəmin memarının, qurucusunun həyat və fəaliyyətini işıqlandırmaqda qələmim acizdir. Əgər bu şərəfə nail olsam, özümü dünyanın ən xoşbəxt bəndəsi hesab edərəm.

Bu parlaq dühа tarixi yaradan idi, ən əsası tarixin özü idi. Tarix isə yalnız belə şəxslərin cahanşümül uğurları nəticəsində yaddaşlardan-yaddaşlara ötürülür.

Tarixi keçmişimizə nəzər salsaq görərik ki, tarixdə müxtəlif adlar altında tarixi Azərbaycan dövlətləri mövcud olmuşdur. Onlardan Şirvanşahlar, Səlcuqlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi kimi dövlətlərimiz Azərbaycanımızı vahid şəkildə birləşdirməyə çalışmışlar. XVI əsrdə Şah İsmayıl ana dilimizi dövlət dili elan elədi.

Ötən əsrin 70-ci illərinə nəzər salsaq görərik ki, ölkəmizə qarşı necə ögey münasibət bəslənilirdi. Milli-mənəvi dəyərlərimizə təcavüzlər edilir, bütün haqlarımız və hüquqlarımız tapdalanılırdı. Mənasız qadağalar, qanunsuz özbaşınalıqlar baş alıb gedirdi.



Təbii ki, Heydər Əliyevin ölkəmizə prezident təyin olunması ilə bütün bu təqib və təzyiqlər aradan qaldırıldı. Hər şey öz qaydasına qoyuldu.

Mən qürurla deyə bilərəm ki, Heydər Əliyev Azərbaycanın memarı və qurucusudur. Çünki bu dövlət yalnız onun ömrünün ən mənalı anları hesabına qurulmuş və şöhrətlənmişdir.

Mürəkkəb anları ilə seçilən xalqımız XX əsrdə tarixin daha bir sərt imtahanı ilə üzləşdi. Ölkəmizdə qarşıdurma gündən-günə güclənirdi. Qardaş-qardaşa düşmən kəsilmişdi. Nizaminin əbədi uyuduğu Gəncə dağılmaq üzrə idi və daha nələr...

Belə bir vaxtda Azərbaycana igid, qorxmaz biri lazım idi. Bu zamanın şir ürəkli oğlu Heydər Əliyev ola bilərdi.

*Ölməz! Ölüm nədir ki,*
*Təslim ola ona can.*
*Yaşayacaq daima*
*Səninlə Azərbaycan!*

Ulu Öndərimiz gəncləri də hər zaman düşünmüş, onların gələcəyi həmişə diqqət mərkəzində olmuşdur. O, gənclər qarşısında çıxış edərkən demişdir: «Gənclər xalqımızın milli-mənəvi dəyərləri əsasında formalaşmalıdır. Onların təhsillənməsində ümumbəşəri dəyərlərdən geniş istifadə olunmalıdır. Gənclər arasında iş bu istiqamətdə aparılmalıdır».

Beləliklə, bu dahi şəxsiyyətin ömür yolu biz gənclərin dünyagörüşünün fotmalaşmasında mühüm rol oynayır. Bu nümunələr bizdə vətənə məhəbbət, millətə sevgi kimi güclü mənəvi keyfiyyətlər aşılayır.

Heydər Əliyev ünyetməz, əlçatmaz bir zirvədir. Məğribdən-məşriqə, günbatandan-gündoğana dünyanın hansı bir nöqtəsindən baxan o zirvə parlaq bir günəştək apaydın görünəcək.

Bu gün bu uğurlu yolun davamçısı İlham Əliyevdir. Prezidentimizin qəbul etdiyi qərarlar, imzaladığı sərəncamlar sübut edir ki, Azərbaycanın işıqlı gələcəyi var. Necə ki, ulu öndərimiz Heydər Əliyev demişdir: «Azərbaycan bütün dünyaya günəş kimi doğacaq».

Əziz babam, bu günəş heç zaman sönməyəcək, öz hərarəti ilə daima bizi isidəcək.



## *Zeynəb Səfa qızı*

***18 nömrəli Bakı Peşə Liseyinin II kurs şagirdi***

Hər bir xalqı dünyaya tanıdan həmin xalqın savadlı, zəkalı alimləri, mütəfəkkirləri və tarixi şəxsiyyətləridir. Milli təhsil quruculuğunun böyük öndəri, uşaqların, gənclərin, ümumiyyətlə, xalqımızın sevimli dostu, müdrik babası, misilsiz təəssübkeşi və böyük maarifpərvəri. Ümummilli Liderimiz Azərbaycanı XXI əsrə müasir dövlət kimi tanıtmış və ölkəmizin dünya ölkələri arasında hörmət, nüfuz, qüdrət qazanmasında böyük əmək sərf etmişdir. O, sözün həqiqi mənasında, Azərbaycana əsl müdrik rəhbər olduğunu, qəlbinin Vətən, millət eşqi ilə döyünən vətənpərvər olduğunu sübut etdi. Xalqımıza qarşı münasibətdə həmişə ürək yandıran, səmimi və mehriban olmuşdur. Azərbaycana rəhbərlik etdiyi ilk gündən etibarən rayonlarımızı, kəndlərimizi gəzərək insanların problemləri ilə yaxından maraqlanmış, maneələrlə mübarizə aparıb, çətinlikləri necə böyük cəsarətlə dəf etdiyini hamımız açıq aydın gördük. Ulu Öndər qarşısına qoyduğu böyük məqsədlərinə onların uğrunda var gücüylə mübarizə aparmaqla nail oldu. O, uzaqgörənliyi, qayğısı və çox böyük təcrübəsi sayəsində çatışmazlıqları aradan qaldırdı. Xalqın fəxr və güvənc yeri oldu. Gördüyü xeyir işləri ilə biz gənclərin qəlbində dahi bir insana məhəbbət abidəsi quruldu, insanların qəlbində özünə layiqli bir yuva tikdi və əbədiləşdi.

Ulu Öndər öz iti zəkası, dərin intellekti, yenilməz məntiqi, fenomenal yaddaşı və siyasi dünyagörüşü ilə elm, təhsil, bilik öyrədən ilk Xalq müəllimi olmuşdur. 4 dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış və bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Əhalimizin təhsil səviyyəsinin yüksəlməsi, zənginləşməsi, güclü və zəngin təhsil şəbəkəsini, ana dilli Azərbaycan məktəbini yaratmışdır. Ümumiyyətlə, 1970–80-ci illər Azərbaycanın elm, təhsil və mədəniyyətinin yeni, çağdaş mərhələsi sayılır. Ulu Öndər gənclərə hər zaman çox böyük ümid bəsləmiş və buna əsasən dəfələrlə qeyd etmişdir: «Azərbaycanın gələcəyi gənclərin əlindədir», «Təhsil millətin gələcəyidir».



Prezidentimizin qayğısı, düşüncəsi və xeyirxahlığından irəli gələrək 2003–2005-ci illərdə yoxsulları nəzərə alıb, Azərbaycan postsovet məkanında orta məktəb şagirdləri üçün bütün dərslikləri pulsuz etmişdir. Çünki istedadlı insanlar həmişə ölkənin əvəzolunmaz sərvəti, təhsil səviyyəsinin real göstəricisi sayılmışdır. Bütün varlığını xalqının yolunda əridən millət atası, türk-müsəlman dünyasının qüdrətli lideri Heydər Əliyevin sözləri ilə desək «gələcək bilikli, elmli, savadlı insanların çiyinlərin üzərində qurulur».

Ulu öndərimiz olan Heydər Əliyev 2003-cü il oktyabrın 3-də xalqa belə müraciət etmiş və öz siyasi varisini səciyyələndirmişdi:

– «İnanıram ki, mənim həyata keçirə bilmədiyim taleyüklü məsələləri, sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev yerinə yetirəcəkdir. Mən ona özüm qədər inanıram və gələcəyinə ümid bəsləyirəm».

Heydər Əliyevin xəstələnməsi, ölüm xəbəri böyükdən-kiçiyə qədər hamını sarsıtdı. Amma bütün nailiyyətlər bununla sonlanmadı. Heydər Əliyev dövlətçilik məktəbinin ən bacarıqlı, ən layiqli şagirdi olan İlham Heydər oğlu Əliyev xalqın gözündəki inam işığını yenidən yandıra bildi.

Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin əziz və işıqlı xatirəsi qədirbilən xalqımızın yaddaşında əbədi olaraq qalacaqdır.

Bu gün biz fəxrlə deyə bilərik ki, Azərbaycan xalqı dünyaya Heydər Əliyev kimi rəhbər və müdrik bir şəxsiyyət bəxş etmişdir.

## MÜNDƏRİCAT

Heydər Əliyevin milli təhsil quruculuğu siyasəti uğurla davam edir *(Mikayıl Cabbarov)* .......... 5
Respublika müsabiqəsi qaliblərinin inşa yazıları .......... 15

Buraxılışa məsul: ***Faiq Şahbazlı***

Kitabı nəşrə hazırlayanlar: ***Sədaqət Məmmədova***
***Rafik Süleymanlı***
***Vətanə Zeynalova***
***Ziyafət Əliyeva***
***Çiçək Əliyeva***
***Gülnarə Qurbanova***
***Xanım Səmədova***
***Aida Arabskaya***
***Dilarə Rəcəbova***
Bədii və texniki redaktoru: ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçıları: ***Səbinə Məmmədova,***
***Təhmasib Mehdiyev***

HEYDƏR ƏLİYEV
MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121^A

Ar 2015/471

101804